MÜASİR AZƏRBAYCAN ƏDƏBİYYATI

Rəsul RZA

SEÇİLMİŞ ƏSƏRLƏRİ

Ш6
R99

RƏSUL RZA

SEÇİLMİŞ ƏSƏRLƏRİ

BEŞ CİLDDƏ

V CİLD

239801.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

"ÖNDƏR NƏŞRİYYAT"
BAKI-2005

Tərtib edəni: **Anar**

Redaktoru: **Arif Əmrahoğlu**

894.3611 - dc 21
AZE
Rəsul Rza. Seçilmiş əsərləri. Beş cilddə. V cild. Bakı, "Öndər nəşriyyat", 2005, 264 səh.

Xalq şairi Rəsul Rzanın beşcildliyinin bu cildində müəllifin zəngin bədii irsini tamamlayan ədəbi-publisistik yaradıcılığından nümunələr toplanmışdır. Milli mədəniyyətimizin, klassik və müasir dünya mədəniyyətinin inkişaf qanunauyğunluqlarını sənətkarcasına duyan şair bu məqalələri ilə incəsənət aləminə də daim öz fəal münasibətini bildirmişdir.

Poeziya sənətinə dair baxışlarının öz əksini tapdığı müxtəlif ədəbi-tənqidi yazılarında, çıxışlarında, etüd və fraqmentlərində Rəsul Rza həm klassik ədəbiyyatımızın bir çox nümayəndələri haqqında, həm bütün dövrdaşları, həm də sonrakı nəsil haqqında öz şair sözünü demiş, bir çox dünya sənətkarları ilə bağlı maraqlı ədəbi fikirlər söyləmiş, klassik memarlığımız, bayatılarımız, musiqimiz... haqqında danışmışdır. Şair müasiri olduğu milli incəsənət hadisələrindən, onun ayrı-ayrı yaradıcılarından da bəhs etmiş, haqlarında ədəbi etüdlər yazmışdır.

Təqdim olunan cild şair Rəsul Rzanın ədəbi-publisistik irsinin dolğun mənzərəsini yaradır.

ISBN 9952-416-70-8

© "ÖNDƏR NƏŞRİYYAT", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

Məqalələr

AVTOBİOQRAFİYA

Mən 1910-cu ildə may ayının 19-da (təzə təqvim hesabilə) anadan olmuşam. Təvəllüd ilim ana babam tərəfindən köhnə bir Quranın son sarı vərəqinə yazılmış, o Quranı babamın xeyrat günü kim isə aparmışdır. Sonra qaytarmamışdır. Belə söyləyirlər ki, Quran gözəl əl xətti ilə yazılıbmış və səhifələrin kənarında bir çox şeirlər varmış. Bu şeirlər əksəriyyətlə Həzrət Əlinin mədhinə yazılmış şeirlərmiş. Mənim ana babam çox mömin bir kişi imiş və İmam Əliyə fanatik bir məhəbbət bəsləyirmiş.

Təvəllüd ilim Göyçay dəftərxanalarından birində də qeyd olunubmuş. Bunu atam qeyd elətdirmişdi, o, ziyalı idi, rusca təhsil görübmüş. O, mənim xatirəmdə üzərini bir tül örtmüş surət kimi gah görünən, gah da xəfif dumanlara qarışıb itən bir xəyal kimi qalmışdır. Yəqin ki, onun fotoşəkilləri olmasaydı, mən atamın surətini xəyalımda yarada bilməzdim. Mənim kimi onun da göy gözləri varmış, boyu ortadan bir az hündür imiş. Savadlı olduğundan və uzun illər kənddə mirzəlik elədiyindən onun adına bir "mirzə" əlavə edərək Mirzə İbrahim çağırarmışlar. Beş qardaş içərisində öz işgüzarlığı, biliyi, səyi və bacarığı ilə ayrılan İbrahim, atasının (Məmməd ağa) zamanına görə varlı bir adam olduğuna baxmayaraq, çətin bir həyat keçirmişdi. O zamankı azərbaycanlı ailələri üçün xarakterik olan bir şəraitə düşmüş, anasının ölümü və atasının yeni arvad alması ilə rahatlıq və səadətini itirmiş, iki qardaşı ilə bərabər öz əlinin zəhməti ilə özünə ruzi qazanmalı olmuşdur. Təhsil və elmə olan böyük həvəslə ağır bir şəraitdə oxumağını davam etdirərək, o zaman geridə qalmış bir qəsəbə şəraitində böyük müvəffəqiyyət sayılan yeddiillik təhsilini bitirmiş, kargüzarlıq və dilmanclıq vəzifəsində çalışmağa başlamışdır.

Atam açıqfikirli bir adam olmuşdur. O zamankı Göyçay qəzasında ilk dəfə o, mənim böyük bacımı məktəbə qoymuş və hətta onu təhsilini davam etdirmək üçün 1913-cü ildə Tiflisə göndərmişdir. İkinci bacımı da yeni tipli məktəbdə oxutdurmağa başlamışdır. Bu hərəkətləri və zamana görə proqressiv fikirləri üçün Göyçayın cəhalətpərəstləri və ruhaniləri bizim ailəmizi o zamanın ən dəhşətli sözləri ilə "babı", "bəhayi" adı ilə damğalamışlar.

Göyçay XX əsrin əvvəllərindən ta birinci cahan müharibəsinə qədər son dərəcədə geri qalmış bir yer idi. Qəsəbədə az-çox əhəmiyyəti olan heç bir sənaye müəssisəsi yoxdu. Çustçu və başmaqçı kustarları, misgərlər, dəri aşılayanlar, kərpic kəsənlər, çox zaman mövsümə işləyən xarratlar, dülgərlər və bu kimi peşə sahibləri Göyçayda müasir mənada sənaye ocaqları yarada bilməzdilər. Şəhər ticarət və dərzi, başmaqçı, misgər, zərgər və bu kimi kustarların təşkil etdiyi xırda burjua təbəqəsinin yaratdığı bir mühit içərisində yaşayırdı. Onuncu ildən sonra şəhərdə bir od dəyirmanı (motorla işləyən dəyirman), bir pambıq zavodu tikilmişdi. Ağabəyovlara məxsus olan bu pambıq zavodunda ən çoxu 30-40 fəhlə işləyirdi. Dəyirmanda isə 10-12 nəfərdən artıq çalışmırdı. Bir-iki kustar dəri aşılayan emalatxanada 10-15 nəfər çalışırdı. Bundan başqa, şəhərdə bir, ya iki kərpic və kirəmit zavodu vardı ki, burda çalışanların sayı da 20-30 adamdan yuxarı deyildi. Həm də bu müəssisələrin çoxu mövsümdən-mövsümə işləyir, təsadüfi xarakter daşıyırdılar.

Şəhərdə bağçılıq, meyvəçiliklə məşğul olanlar da az deyildi. Lakin şəhərin əsas profilini müəyyənləşdirən ticarət və kustarlıq idi. Mənim atam Mirzə İbrahim Məmməd ağa oğlu Məmmədxanov (bizim köhnə familiyamız ta qədimdən Məmmədxanovdur. Atam 1915-ci ildə öldüyündən mən gözümü açıb ata hesabı böyük kimi dayımı gördüyümdən onun Rzayev familiyasını götürmüş və sonralar yazıçılığa başladıqda Rəsul Rza imzası ilə yazmağa başlamışam) mirzəliklə bərabər ticarətlə məşğul olmuşdur.

Bizim əslimiz Həbibinin vətəni məşhur Bərgüşad kəndinin 3-4 kilometrliyindəki Çiyni kəndindəndir. Bu kənd Bərgüşad çayının üstündə Boyat və indiki Kirov kəndlərinin arasında yerləşmişdir. Kəndin inqilabdan əvvəlki halını, ordakı məişət tərzini, insanların xarakter və fəaliyyətini təsəvvür etmək istəyənlərə Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" pyesini bir də oxumağı tövsiyə edə bilərəm. Eyni hadisələr, eyni əxlaq və anlaq normaları bu kənddə hakimdi. Bu qədər desəm kifayətdir ki, mənim bibim oğlanlarından biri Bakıda təhsil alırmış. Bir yay zamanı tətil vaxtı kəndlərinə gəzməyə gəlir, ikinci gün atasının kənddəki müddəiləri heç bir günahı olmayan bu oğlanı vurub öldürürlər. Bu iki tayfa, iki əmi nəvələri arasındakı müddəilik hətta 1921-22-ci illərə qədər davam edirdi. Buna baxmayaraq, kənddən ziyalılar da çıxmış və bir çox savadlı

adamlar Göyçay, Ağdaş, Gəncə və Bakıda təhsil alıb müəllimlik və sairə müxtəlif mədəni işlərlə məşğul olmuşlar. Bizim ulu babamız Məmmədxan bu kənddə yaşamış və o zamankı xırda feodallardan biri olmuşdur. Onun təbiətən çox sərt, zalım adam olduğu və yalnız başqalarına qarşı deyil, öz ailəsinə, arvad-uşaqlarına qarşı da çox amansız olduğu haqqında kənd qocaları arasında müxtəlif rəvayətlər vardır. Bəlkə də bunlar, əsasən, həqiqət olan faktların ağızdan-ağıza bəzənib inkişaf etmiş şəklidir. (Mən ilk yazıçılıq təcrübəsinə başladığım illərdə yazdığım "Dilarə" hekayəsində bu zalım babamın obrazını vermişəm.) Anam Qarabağın Qaradolaq obasındandır. Onun ana tərəfi qarabağlı, ata tərəfi Cənubi azərbaycanlıdır. Ana babam təxminən 80-ci illərdən Göyçaya gəlib orda yaşamışdır.

İlk uşaqlıq dövrümü qayda-qanun sevən və uşaqlarını yeni üsulda tərbiyə etmək istəyən atamın nəzarəti altında keçirmişəm. Lakin mən altı yaşına girəndə atam öldüyündən anamın və sonralar əmimin və nəhayət, gənc dayımın nəzarəti altında qalmışam.

6 yaşında məktəbə getmişəm. 6-7 yaşlarında evdə böyük bacımın və ərəb əlifbası ilə oxumaq bilən, lakin yazmaq bilməyən anamın oxuduğu bir çox şeir və hekayələri əzbər bilirdim.

Evimizdə ta atam sağlığından azərbaycanca "Molla Nəsrəddin" jurnalı və rusca "Niva", "Probujdenie" jurnalları, o zaman çıxan bir sıra qəzet və jurnallar alınırdı. (Bizim evə "Molla Nəsrəddin" jurnalının gəlməsi də atamı babilikdə təqsirləndirmək üçün ruhani və qaragüruha bir əsas vermişdi.)

İndi fikirləşdikdə, xatirələrimi aradıqda könlümə düşən ilk şeir şəfəqlərinin anamdan gəldiyini aydın görürəm.

Anamın şeir təbi varmış. Bunu o zamandan qalma üç şerinin əlyazması təsdiq edir. Anama ancaq oxumaq öyrədib yazmaq öyrətmədiklərindən, o şeirlərini əzbərdən deyər, atam yazarmış. Bu şeirlərin sayı ona qədər varmış. İndi qalan yalnız üç şeirdir. Bu şeirlər maarifçilik, elm, mədəniyyətə çağırış xarakteri daşıyır. O zaman Tiflisə oxumağa gedən böyük bacım Kubra üçün anamın yazdığı şeir çox xarakterikdir:

"...Qızım, elm oxu, elmsizlik yamandır
Ki, olma elmsiz, ay balam, sən amandır.
Əgər, salsalar boynuna cəhl ipini,
Qırıb tulla, qalsa, sənə çox ziyandır".

Onun hərdən qərib axşam qaranlıqlarında (xüsusilə, mənim yadımda qalan atamın ölümündən sonra) evimizin qabağından axan çayın sularına həmahəng olaraq mızıldadığı şeir parçalarının böyük Füzulinin kədər və möhnət dolu sətirləri olduğunu, Natəvanın şeirləri olduğunu mən sonradan başa düşdüm.

O zaman mən bu şeirləri dinlədikcə gah anamın balağına qısılıb ağlayar, gah da anama yalvarardım ki, onları təkrar etsin, mən əzbərləyim.

Görünür ki, bu zamanlar qəlbimdə şerə oyanan hiss get-gedə qüvvətlənmiş və çox tez məndə şeir yazmaq həvəsi oyatmışdır.

Atam sağlığında güzəranımız pis keçməmişdir, lakin atamın ölümündən sonra bir gəlir mənbəyi olmadığından "ehtiyat" get-gedə azalmış və nəhayət, ehtiyac bütün amansızlığı ilə qapılarımızı döyməyə başlamışdır.

Qapımızdakı yeganə inək ailənin dayağı olan günlər də vardı. Mən o inəyə nifrət edirdim. Mənə elə gəlirdi ki, o inək olmasa, biz, hər halda mən, çox xoşbəxt yaşayardıq. Səbəbi nə idi? Səbəbi bu idi ki, hər gün olmasa da, çox zaman səhər tezdən durub inəyi naxıra qoşmaq vəzifəsi mənim boynuma düşürdü.

Hər dəfə səhər gün yenicə çırtlamış məni səsləyib oyadanda dünya gözümə bir zindan görünərdi. Günlər, aylar ötürdü. Mən tezdən durmağa öyrənə bilmirdim. Ancaq ən maraqlısı budur ki, səhər güc-bəla durub qızıl inəyi qabağıma qatıb şəhərin şimal tərəfindəki "düzə" çıxanda təmiz hava, yaz vaxtı çiçəklərin qoxusu, quşların civiltisi o qədər mənə təsir edirdi ki, "sabah mütləq özüm duracam" – deyə özümə söz verirdim. Lakin ertəsi gün bütün əhvalat yenidən təkrar olunurdu. Yenə məni çağırırdılar, yenə dünya gözümə dar görünürdü.

Məktəbdə mən yaxşı oxuyurdum, demək olar ki, bütün dərslərdən əla qiymət alırdım. Sonralar ikinci dərəcəli məktəbdə 6-cı sinifdən riyaziyyat məni yaman sıxışdırdı. Bütün hesab, fizika, həndəsə sahəsindəki elmlərlə barışmaz düşmən oldum. Mənə elə gəlirdi ki, bu elmlər, xüsusilə, cəbr yalnız və yalnız adamın ömrünü zəhərləmək, gen dünyanı mənim başıma dar eləmək üçün düzəldilibdir. Təbiidir ki, sonralar bu elmlərə diqqət vermədiyimə, onları yaxşı öyrənməməyimə çox peşman oldum. Bəlkə də o zaman bu elmlərə məndə həvəs oyadan yaxşı bir müəllim olsaydı, mən indi çox sevdiyim astronomiya sahəsində bir mütəxəssis olardım. 7-8-ci sinifdə bizə riyaziyyat dərsi

deyən cavan bir müəllim idi. Mənim riyaziyyata həvəsim olmadığı kimi, onun da tələbəyə təsir edə bilmək qabiliyyəti yox imiş.

Bu qeydlər sistemsiz və xronoloji cəhətdən nöqsanlı olacaqdır. Yadıma düşən şeyləri qeyd edirəm. Əlli yaşlı bir adamın yaddaşı isə o qədər də etibarlı bir əsas deyil.

İbtidai təhsilimi Göyçayda birinci dərəcəli məktəbdə almışam. Bu məktəbin binası ortadan birmərtəbəli, hər iki tərəfdən isə ikimərtəbəlidir. Bu məktəb o zamankı şəhər bulvarının yanında idi.

Mənim təhsilim sistematik olmamışdır. Mən ağıllı-başlı ali məktəb də qurtarmamışam. 1931-ci ildə eksternlə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutuna imtahan verib, aspirantlığa qəbul olunmuşam. Bundan qabaq, 1927-29-cu illərdə Tiflisdə Zaqafqaziya Kommunist darülfünunun kooperasiya kursunda oxumuşam.

Bir dəfə, ili yaxşı yadımda deyil, ya 24, ya 25-ci ilin yanvarında Gəncə Sənaye və Ziraət Texnikumunda oxuyan anamın bibisi nəvəsi və mənim uşaqlıq yoldaşım qış tətilinə Göyçaya gəlmişdi. O, oxuduğu məktəb haqqında maraqlı şeylər danışırdı. Məndə böyük bir həvəs oyandı. Sözarası deyim ki, məndə uşaqlıqdan tez həvəsə düşən və beynimə düşən bir şeyi necə olur olsun tez həyata keçirmədən dincəlməyən narahat bir xarakter vardı. Deyəsən, indi də onun müəyyən əlamətləri hələ qalmışdır. Bibioğlunun (mən Əli Mərdan adlı bu yaşıdımı elə çağırardım) söhbətləri məni elə alışdırmışdı ki, gecələr yata bilmir, gündüzlər rahat ola bilmirdim. Nəhayət, anamı, dayımı razı saldım. Tətildən geri qayıdan bibioğluma qoşulub Gəncəyə getdim. Məktəb tələbələri qışın ortasında məktəbə girmək üçün gəldiyimi bilib təəccübləndilər, bəziləri də istehza ilə "sənin üçün xüsusi yer saxlayıblar" deyib məni pərt eləmək istədilər. Mən isə "yeni maraqlı bir dünya" olan bu məktəbin tələbəsi olmaqdan başqa heç bir şey düşünmürdüm, ayrı-ayrı tələbələrin şübhə və zarafatları daha da qərarımı möhkəmləndirdi.

Məni təhsil müdirinin yanına apardılar. O məni dinlədi. Ancaq bir cümlə ilə cavab verdi: "Qəbul vaxtından beş ay keçib". Bu sərt cavabdan sonra danışmağın yeri yox idi. Otaqdan çıxdım. O zaman Gəncə Sənaye və Ziraət Texnikumunun müdiri Nemanzadə Ömər Faiq idi. Mən bu adam haqqında çox eşitmişdim. Onun məşhur "Molla Nəsrəddin" jurnalının görkəmli xadimlərindən olduğunu bilirdim.

Aldığım birinci rədd cavab zərbəsindən sonra özümü itirmədim. Oturub məktəb müdiri Ömər Faiqin adına bir ərizə yazdım. Yadım-

dadır, bu ərizə çox sentimental və pafoslu bir dildə yazılmışdı. Burda, "böyük arzu", "yeganə ümid", "millətin səadəti", "xalq yolunda fədakarlıq" kimi sözlər mümkün qədər bəzəkli və təntənəli bir şəkildə işlənmişdi. Əgər mən məktəbə qəbul olunmazsam, "bütün ümidini yeganə oğlunun gələcəyinə bağlamış zavallı bir ananın gözlərində sönəcək sevinc qığılcımları üzümə gülən səadət günəşinin üstünü örtəcək", "ümidsizlik buludları" və bu kimi bu gün də bəzi yazıçıların "yüksək stil" hesab etdikləri cümlələr vardı.

Ərizəni verdim. Həyətə çıxdım, uşaqlardan bir çoxu böyük fasilə zamanı ətrafıma toplaşıb mənə təsəlli verirdilər. Birdən kim isə mənim adımı çağırdı, oturduğum kötüyün üstündən cəld qalxdım. Müdir məni yanına çağırırdı. Ömər Faiq alçaqboylu, üzü çopur və sərt, göygözlü bir adam idi. Onu çox nadir hallarda gülən görərmişlər. Mən dərin bir həyəcan keçirirdim. Müdirin birinci sözü bu oldu: "Bunu özün yazmısan?" Bu sualda nə hədə, nə məhəbbət, nə də ürəkverici bir şey vardı. "Bəli! Çox xahiş edirəm, Faiq əfəndi", – dedim. Qarşımdakı sərt, zəhmli üz, elə bil ki, yavaş-yavaş əridi və onun yerində yeni mehriban bir sifət əmələ gəldi.

– Faiq yox, Ömər Faiq, – dedi, gülümsündü. Sonra əlavə etdi: – İlin bu vaxtında adam oxumağa gələrmi?

Mən indicə bütün ümidlərimin yıxılıb bərbad olacağını düşündüm. "Faiq əfəndi, mənim geri yolum yoxdur", – dedim. İlk təəssürat məni aldatmamışdı. Daxili bir hissin təsiri ilə yumşalıb, mehribanlaşan üzdə mən verilmiş qərarı oxudum. Müdir "Bu yazıya görə səni məktəbə götürəcəyəm", – dedi. Sonra onun qaşları çatıldı, üzünün ifadəsi bir az sərtləşdi, cingiltili bir səslə əlavə etdi: "Ərizəndəki bəzək-düzəyi, ahzarı bir yana atsaq, görünür ki, səndə ədəbi istedad var".

Məktəbə qəbul olundum. İlk məktubu anama yazdım. Bir həftə əzablı intizardan sonra cavab aldım ki, mənim məktəbə qəbul olunduğumu böyük bir məmnuniyyətlə qarşılamışdır. Məktubda təkrar-təkrar deyilirdi: "Bax, axıracan oxu! Bizdən nigaran olma. Birtəhər dolanarıq. Nəbadə, məktəbi buraxıb, icazəsiz gələsən". Yazıq anam. Axı hamıdan artıq o məni tanıyırdı.

Bir-iki həftə keçməmiş darıxmağa başladım. Ədəbiyyat və coğrafiya dərslərindən başqa, qalanlar hamısı məni incidir, sıxırdı. Evimiz könlümə düşmüşdü. Gecələr yataqxanada yorğanı başıma çəkib xısın-xısın ağlayırdım. Ən çox ürəyimi göynədən anam idi. Mən çox anacanlı idim.

Üç, ya dörd ay idi oxuyurdum. Bir hadisə mənim məktəblə vidalaşmama səbəb oldu. Məktəbin dram dərnəyi, yadımda deyil, hansı pyesi isə tamaşaya qoymuşdu. Mən "nökər" rolu oynayırdım. Mənim "ağam" məktəb yoldaşlarımdan hündürboylu, zorba qollu və son dərəcədə qaba zarafat edən bir nəfər idi. Səhnədə cərəyan edən hadisəyə görə o məni vurub qovmalı idi. Səhnədə "ağam"la üz-üzə gəldik. Qoçaq gücü gəldikcə mənə bir şillə ilişdirdi. Bu, onun aləmində zarafat imiş. Mən o axşamdan sonra özümü pis hiss etməyə başladım. Bir neçə gündən sonra qulaqlarım batdı, heç bir şey eşitmirdim. O "karlıq", bir az da bəhanə ilə məktəbdən "qurtarmaq", evə getmək arzusundan doğurdu. Nə isə, bir neçə gündən sonra mən Ucar stansiyasında parovozdan düşüb (Gəncədən Ucara parovozun yan tərəfindəki meydançada gəlmişdim. Dəmir yolunda bu "yerə" bilet satmırlar. Daha yaxşı.) faytona mindim. Mənimlə bərabər bir nəfər də göyçaylı tələbə vardı. O məni müşayiət edirdi. Şübhəsiz, bu bəhanə onun da ürəyinə yatırdı.

Həyət qapısını açıb içəri girəndə anamı həyətdə təndir başında paltar yuyan gördüm. O məni görəndə ağladı. Hələ qulaqlarımın "kar" olduğundan xəbəri yox idi. Bəs nə üçün elə yanıqlı-yanıqlı ağlayırdı? Göz yaşları aramsız onun yanaqlarına süzülüb, ocağın közünə tökülür, bir cızıltı ilə buxar olurdu. Mən də ağlamağa başladım. Bir an içində özümə, anama, kimsəsiz kimi görünən evimizə elə yazığım gəldi ki, hönkürməyə başladım. Anam niyə ağlayırdı? Öz hönkürtüm, anamın hıçqırıqları arasından bir səs eşitdim. "Başıma küllər, sən yenə qayıtdın". Bunu deyən anam idi. Bəs niyə belə deyirdi? Axı bu mənim məktəbdən birinci dəfə qayıtdığım deyildi.

Bir dəfə də belə mən Bakı darülmüəllimeynindən 10-12 gün oxuduqdan sonra "Anam yadıma düşüb" deyə qaçmışdım. Sonralar Tibb İnstitutunda bir ay oxuyub vidalaşdığım, görünür, mənim məktəb macəralarımın redsidiflərindən idi. Bütün bu dağınıq xatirələrdən oxucu nəticə çıxara bilər ki, mənim sistematik təhsilim olmamışdır. Müxtəlif illərdə oxuduğum məktəb, kurs və institutları sadalasam, bu barədə bəlkə ümumi bir təsəvvür yarana bildi. Xronoloji gözləmədən sayım: Göyçayda ibtidai məktəb, ikinci dərəcəli məktəb, Bakıda darülmüəllimeyn, Bakıda Kooperativ kursları, Gəncədə Sənaye və Ziraət Texnikumu, Tbilisidə Zaqafqaziya Kommunist Darülfununu, Bakıda Tibb İnstitutunun hazırlıq kursu, Tibb İnstitutu, Azərbaycan

Dövlət Elmi-Tədqiqat İnstitutu, Moskvada Millətlər İnstitutu, Moskvada Kino Akademiyası.

Heç tanrı bəndəsinə belə təhsil üsulunu məsləhət görmürəm. Ancaq mən yenidən cavan olub təhsilə başlasam, yəqin təxminən belə bir yol keçərdim. Bircə kooperativ kurslarından başqa.

1924-cü ildə komsomola girmişəm. Həmən il maaşla işləməyə başlamışam. Maaşla deyirəm, çünki ictimai işlərdə keçirdiyim günlərin sayı-hesabı yoxdur. Xor dərnəklərində, dram dərnəyindən tutmuş imə-cilik – metal toplamağa qədər hər işdə yoldaşlarımdan geri qalmazdım.

Bizim düzəltdiyimiz dram dərnəyində Şekspirdən başlamış Cəfər Cabbarlı, Hüseyn Cavidə qədər onlarla dramaturqun əsərləri oynanırdı.

NEP illərində Göyçayda çoxlu xırda dükançılar vardı. Onlar hökumət naloqundan çox teatr biletindən qorxurdular. "Komsomollar bilet satır" – deyəndə onlar yüz bəhanə ilə dükandan qaçmağa tələsirdilər.

Biz şəhərə çıxıb bilet satırdıq. Çox zaman bu bilet almaq istəməyənlər haqqında meyxanalar düzəldib səhnədən onları rüsvay edirdik. Odur ki, açıq-açığına biletdən imtina edənlər az olurdu, çox adam gözə görünməməyi daha münasib görürdü.

Ancaq bizim azarkeş tamaşaçılarımız da vardı. Onlar hansı tamaşa olur olsun qabaq sıralara bilet götürür və öz əl çalmaları, replikaları ilə tamaşaların müvəffəqiyyətinə kömək edirdilər.

Dram dərnəyimiz ancaq uşaqlardan ibarət deyildi. Ağsaqqallarımız da vardı. Bunlardan biri həqiqi sənət adamı idi. Bəlkə də, qəza şəhərinin məhdud imkanlı şəraitində qalmasaydı, bu adam respublikamızın ən görkəmli komik aktyorlarından biri olardı. Mən indi onun oynadığı rolların, bu rolları necə incə və təravətli bir yumor, həqiqi bir icadçı kimi oynadığını xatırlayanda bu qərara gəlirəm ki, tanınmadan, talantını nümayiş etdirə bilmədən rayon şəhərinin bir küncündə məhv olub gedən bu adamın simasında səhnə sənətimizin ən böyük istedadlarından birini görürük. Bu adam sonralar "Azərkitab"ın Göyçaydakı kitab mağazasının müdiri, faciəli bir ölümlə məhv olan Ağa Əli Kərimzadə idi.

1930-cu ildə köçüb Bakıya gəldim. Köçüb deyəndə elə zənn etməyin ki, mən özümlə bərabər mal-dövlət, ev şeyləri gətirmişdim, yox. Mən Bakıya gələndən bir neçə il qabaq böyükdən kiçik bacım Sara Bakıda olurdu. Burda həm oxuyur, həm də dərs deyirdi. Ondan da əvvəl böyük bacım Kübra əri ilə bərabər Bakıda olurdular.

Mən Bakıya gələndə əynimdə bir parusin şalvar, bir sadə köynək, ayağımda dabansız bir cüt çust vardı.

Bakıya gələndə ümid və arzularımdan başqa heç nəyim yox idi. Bacımın Birinci Paralel küçəsində qırx nömrəli evdə 12 metrlik otağı vardı. Mən də orada yaşamağa başladım. Bakıda tanışım yox idi. Bircə şair Abdulla Faruqdan başqa ədəbi aləmdə heç kimi şəxsən tanımırdım. Tiflisdə oxuduğum illərdə mətbuatla az-çox yaxınlaşmışdım. Bir neçə şeir, hekayə və məqaləm "Yeni fikir", "Dan ulduzu" məcmuəsində nəşr olunmuşdu. Birinci mətbu şerim 1927-ci ildə Gürcüstan Proletar Yazıçıları Assosiasiyasının türk seksiyası tərəfindən nəşr edilmiş "Qığılcım" adlı almanaxda çıxmışdı. Bu mənim birinci çap üzü görən şerim idi. Hələ o zaman mən qafiyə, vəzn nə olduğunu, şerin texniki prinsiplərini bilmirdim. Buna görə də təbii olaraq bu şeirləri vəznlə, qafiyə ilə yazmışdım. (Dırnaqarası onu da deyim ki, hələ Göyçayda məktəbdə ədəbiyyat müəllimimizin bizə oxuduğu bir çox şeirləri əzbər bilirdim. Görünür, bu şeirlərin təsiri altında 13-14 yaşında bu sətirləri yazmışdım).

Qərib, həzin damın əksimiş divarlarının
Çevirdiyi o kiçik mənbəi küdurətdə,
Dəmi şəbabimin ən odlu, canlı anlarının
Xəyali ilə dilim məst olan o halətdə.
Bütün gözəlliyi ilə yalançı gözlərinin
Nəzərrüba baxışı gözlərimdə əks eylər.
Həzin duruş, qara qaşlar, tikanlı sözlərinin
Könüldə açdığı yarə, məni fənayə verər.

Aydındır ki, bu sətirlər daxili bir ehtiyac, həqiqi iztirabdan doğan sətirlər deyil, ancaq bir təqliddir.

13 yaşlı bir uşağın ötən gənclikdən həm də "dəmi şəbab" deyə dəm vurması gülməli deyilmi? Lakin belə şeirlərlə bərabər və daha uşaq yaşında yazdığım, bilavasitə həyat materialından doğan şeirlərim də vardı. Bunlardan biri ibtidai məktəbdə oxuduğum zaman yazdığım dördsətirlikdir:

Gülövşə nar, şirin nar,
Məktəb bağımızda var –

Tez-tez basıb çəpəri
Bağa girir uşaqlar.

Tiflisdə oxuduğum zaman "Dan ulduzu"nda "Oğul qatili", "Uxajor", "Dilarə" adlı hekayələrim nəşr olunmuşdu. "Uşaq məcmuəsi", "Tumurcuq"da nə isə bir neçə yazım çıxmışdı. İndi nə o yazıların janrını, nə adını, nə nəşr olunduğu ili yadıma sala bilmirəm. Həmən illərdə, 1927-29-da, gərək ki, "Dan ulduzu"nda, bəlkə də "Yeni fikir"də bir məqaləm çıxmışdı, yadımdadır ki, bu məqalədə Süleyman Rüstəmi bərk tənqid etmişdim.

Bakıya gələndən sonra bir müddət gəzib-dolandım. Bu müddətdə köhnə məktəb yoldaşım şair Abdulla Faruqun vasitəsilə Müşfiqlə, Sabit Rəhmanla, Məmməd Rahimlə, Mehdi Hüseynlə, S.Rüstəmlə, Fevzi və başqaları ilə tanış oldum.

Daha sonra Cəfər Cabbarlı, Arif, Mikayıl Rəfili, Hüseyn Cavid, Seyid Hüseyn, Əli Nazimlə tanış oldum.

O zamanlar mən həyata çox aktiv bir münasibət bəsləyirdim. Hər şey məni maraqlandırırdı. Öz aramızda deyim ki, elə bilirdim ki, hər şeyi bilirəm, bircə riyaziyyatdan başqa. Doğrusu, riyaziyyatı bilmədiyimi çox yaxşı bilirdim.

Otuzuncu ilin ortalarında Faruqun köməyi və zəmanəti ilə "Gənc işçi" qəzetinə mütərcim vəzifəsinə qəbul edildim. Yenə də öz aramızda qalsın, otuzuncu ildə mən ruscanı çox pis bilirdim. Adi sözləri dəqiqələrlə lüğətdə axtarırdım. Rus dilinin alfavit düzülüşünü bilmədiyimdən lazım olan sözləri tapmaqda çox çətinlik çəkirdim.

Mən rusca təhsil görməmişəm. İbtidai məktəbdə rus dili dərsi həftədə bir dəfə olurdu. Bunun da demək olar ki, adı vardı. Doğrudur, evimizdə böyük bacılarım, atam ruscanı yaxşı bilirlərmiş, lakin bundan mən o qədər də istifadə etməmiş, yaxud edə bilməmişdim. Tiflisdə dərslərimiz rus dilində keçirdi. Demək olar ki, müəllim dediklərinin 50-60 faizini mən başa düşmür, bir çox şeyləri təxmini bir şəkildə anlayırdım. Mən rus dilini Bakıda, həm də mütaliə yolu ilə öyrəndim.

Sistematik təhsilin olmaması indi də öz təsirini göstərir. Mən rusca demək olar ki, babat danışır, oxuyur, hətta yazıram da. Ancaq hərdənhərdən rus dilinin sintaksis və qrammatika qanunları məndən rəncidə qalırlar.

Burda, yeri gəlmişkən, bir şeyi qeyd edim. Bəzən iclaslarda rus dilində çıxış edərdim. Bir gün belə bir çıxışdan sonra tribunadan düşüb

yerimdə oturdum. Mərhum Hüseyn Cavid də zalda idi. Yığıncaqdan sonra mənə yanaşdı. "Çox gözəl rusca danışırsan", – dedi. Mən bu sözü Caviddən sonralar da ayrı-ayrı təsadüflərdə eşitməsəydim, onu bir zarafat sayardım. Lakin sonralar söhbətlər zamanında o mənə bu fikri təkrar-təkrar söylədi. Mən inandım ki, mənim rusca biliyim ona, doğrudan, yüksək bir mərhələ kimi görünür. Bunu da əlavə edim ki, bu hadisə təxminən 1932-33-cü illərə aiddir.

"Gənc işçi" mənim üçün bir növ ədəbi universitet oldu. Bu komsomol qəzeti bir növ ədəbi gənclik klubu idi. Burda biz görüşər, əsərlərimizi bir-birimizə oxuyar, münaqişə, mübahisələr edərdik. Mən tez bir zamanda ədəbi mühitlə qaynayıb-qarışdım. Hətta bir neçə müddət sonra Azfanda mərhum Ruhullanın sədrliyi ilə, yanılmıramsa, Leninin əsərlərindən olunmuş tərcümələr müzakirə edilərkən mən cəsarətə gəlib bəzi "iradlar" da tutdum. Ruhulla – bir neçə dili gözəl bilən, xüsusilə, ruscanı doğma azərbaycanca kimi bilən adam – bu iradlara çox ciddi yanaşdı və öz iddialarının düzgünlüyünü Cəlil Məmmədquluzadədən gətirdiyi misalla isbat etməyə çalışdı. Biz... tərcümədəki "o ki qaldı" sözləri ilə başlayan cümlələrə etiraz edirdik. "Bu ruscadakı "çto kasaetsa" sözlərinin demək olar ki, mexaniki tərcüməsidir", – deyirdik. Ruhulla "Ölülər" əsərindən "O ki qaldı mənkuhatın müəzzəm faydalarına" cümləsini misal gətirib dedi ki, komsomollar, icazə verin, mən bu məsələdə Mirzə Cəlilə daha artıq inanım. Hamı gülüşdü. Mən yenə əvvəlki fikrimdə qaldım.

Otuz birinci ilin əvvəllərində şairə Nigar Rəfibəyli ilə tanış olduq. O zaman özgə bir adamın şerini Nigarın adına çıxaraq onu bərk tənqid etmişdilər. Bu tənqid bir kompaniya halını almışdı. Həm də bu tənqidin əsas atəşi ədəbi aləmdən deyil, ayrı-ayrı o zamankı vəzifəli şəxslərdən gəlirdi. Sonra məlum oldu ki, şeir başqa bir adam tərəfindən yazılıb və Nigara heç bir təəllüqü yoxdur. Faktı ona görə yazıram ki, axına uyub bir neçə yazıçı yoldaşlarımla bərabər şairəyə qarşı yazılan məqalələrdən birinə mən də qol çəkmişdim.

Deyirlər ki, çəkişməsən, bərkişməzsən. Bu hadisələr bizi yaxınlaşdırdı. Sənət və həyata baxışlarımızda ümumi cəhətlər aşkara çıxdı. Nigarın bir şairə olaraq sağlamruhlu, Vətəni, xalqını ürəkdən sevən bir adam olduğunu görəndə mən, doğrusu, qəlbən sevindim. Çünki ilk tanışlığımızdan o mənim xoşuma gəlmişdi. Mən ona necə təsir bağışladığımı bilmirəm. Yəqin ki, bu təsir mənfi olmamışdır, yoxsa bizim yollarımız ayrılar və başqa səmtlərə gedə bilərdi.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Nə qədər qəribə görünsə də, xatirimdə qalan budur ki, ilk vaxtlarda biz onunla iki gənc arasında təbii olan eşqdən deyil, məhəbbətdən söhbət edər və qızğın mübahisələrdə çox zaman vaxtı, yeməyi, istirahəti də unudardıq.

Bəli, biz məhəbbətdən danışardıq. Lakin bu məhəbbət sözünü mən şərh etməliyəm. Bu məhəbbət şerə, ayrı-ayrı əsərlərə, yazıçılara, musiqi, rəssamlıq, heykəltəraşlıq ustalarına olan məhəbbət və... nifrət idi. Dəfələrlə mübahisəmiz "amansız" bir şəkil alır, küsüşür və əlbəttə, barışırdıq. Deyirlər, insan ünsiyyəti bir sapa bənzəyir ki, qırılıb düyünləndikcə aradakı məsafə azalır. Bizim bir-birimizə olan hörmət və məhəbbətimiz, aramızdakı ünsiyyət get-gedə daha yaxın, daha qüvvətli olurdu, lakin bu küsüşmələrdən sonra barışmalar bizim əlaqə və münasibətlərimizdə heç bir düyün əmələ gətirmədi.

İndi ilk tanışlığımızdan 30 ildən artıq və evləndiyimizdən 25 il keçdiyi halda (5 il nişanlı qaldıqdan, sonra, 1937-ci il fevralın 11-də evlənmişik) yenə də ədəbi münaqişə və mübahisələrimiz kəsilməmişdir. Adətən, yazdığımız şeirləri indi də biri-birimizə oxuyuruq. Oxuduğumuz yeni əsərlər, ayrı-ayrı şeirlər, hekayələr, romanlar və başqa sənət əsərləri haqqında söhbət açır, fikir söyləyir, gah ümumi bir rəyə gəlirik, gah da hərə öz fikrində qalır.

Mən bir şair, həm də həssas, mərd, yaxşı yazıçı olan, ətraflı təhsil görmüş bir şairə ilə ailə qurduğum üçün xoşbəxtəm. Mənim ən səmimi, sadiq və amansız tənqidçim evdə, ocağımın başındadır.

Elə vaxtlar olur ki, yazdığım bir şeir – ev redaksiya kollegiyası tərəfindən (oğlum Anar da universitetin filoloji fakültəsinin tələbəsi, həm də gənc bir hekayəçi və tənqidçi kimi bu rəsmi elan olunmamış ev redkollegiyasının üzvüdür) kəskin tənqid olunur və uzun mübahisə və münaqişədən sonra, bütün müdafiə vasitələri qurtarmış müəllif şeri yenidən işləməli olur. Bu o demək deyildir ki, mənim müvəffəqiyyətsiz bu və ya başqa bir şerim bu redkollegiyanın məsuliyyətsizliyi, liberallığı və ya güzəşti nəticəsində meydana çıxır. Yox. Axı mənim razılaşdığım hallar olduğu kimi, bu ev redkollegiyasından xəbərsiz çap elədiyim əsərlər də olur. Bir də, gənclər eşitməsin, bütün yazılan əsərlər ancaq gözəl əsər olsaydı nə vardı ki, nəinki bizim kimi adi ədəbiyyat həvəskarı, dahi yazıçıların da qələmindən zəif əsərlər çıxan vaxt olur. Nə isə, bu nəzəriyyəçilərə aid bir sahədir. Yaxşısı budur ki, çox dərinlərə getməyək.

Mənim dörd bacım vardı. Böyüyü Kübra Əfəndiyeva – həkim, indi Bakı şəhər 1-ci uşaq xəstəxanasının müdiridir. Ondan kiçiyi Sara Məmmədxanlı – həkim, sonra Surə Məmmədxanlı – nəşriyyatda redaktor, kiçik bacım Turə – arxitektor – 10 il bundan qabaq bir nadan həkimin qurbanı oldu. Uşaq üstə vəfat etdi. Biz hamımız onu bir sonbeşik kimi çox istəyirdik. Sağ qalmış oğlan uşağı indi musiqi məktəbində oxuyur. Onu hər görəndə gözlərim gülür, ürəyim ağlayır. Hər görəndə anasını xatırladığım üçün bağrıma basır, sonra onun olumu bir ölümə səbəb olduğu üçün kədərlənirəm.

Atamın ölümündən sonra bir neçə il əmim bizim ailəmizi saxlamışdır. Yazıçı Ənvər Məmmədxanlı həmin bu əmimin oğludur. Biz Ənvərlə həm də xalaoğluyuq. Ən çox bizim ailəmizin və şəxsən mənim qayğımı çəkən dayım olmuşdur. Dayım Məhəmmədhüseyn Rzayev ancaq ibtidai təhsil almışdı.

Uşaqlıqdan özü yetim qalmış, təxminən 20 yaşlarından da bizim ailəmizin qayğısını çəkməli olduğundan təhsilini davam etdirə bilməmişdi. O, əsgərlik çəkmiş, komissar, partiya işçisi, rayon partiya komitəsi katibi, kukla teatrı müdiri, sovxoz direktoru və bu kimi vəzifələrdə işləmişdi.

Sistematik təhsili və ali savadı olmadığına baxmayaraq, Azərbaycan və rus dillərini yaxşı bilirdi, öz-özünə təhsil almaq yolu ilə fransızcanı da babat öyrənmişdi. Yadımdadır, böyük bacımla fransızca danışar, kiçik hekayə və şeirləri azərbaycancaya, ya ruscaya tərcümə edərdilər. Böyük bacım Tiflisdə Zavedeniye Svyatoy Ninı məktəbində fransızca öyrənmişdi.

Dayımın indi məndə olan bir qovluğunda müxtəlif illərdə yazdığı şeirlər, hekayələr, kiçik formalı pyeslər vardır. Onun yarımçıq qalmış bir romanı da vardı. Bu romanın müəyyən hissələrini mənə oxumuşdu. Məndə olan materiallar içində bu roman yoxdur.

Anamın da şeir təbi olduğunu yazmışdım. Təəssüf ki, onun şeirlərinin hamısını tapıb toplaya bilməmişəm.

Mən 1924-cü ildən, yəni 14 yaşından işləməyə başlamışam. Birinci maaşlı işim Göyçay şəhər kitabxanasının müdirliyi olmuşdur. Sonra həmkarlar ittifaqında, şəhər klubunun gənclər bölməsində işləmişəm. İlini qəti deyə bilmərəm, təxminən 25-26-cı illərdə Bakıdan gəlmiş institut tələbəsi şəhər klubunda ədəbi temada bir məruzə elədi. O

zamanlar məktəblərdə Azərbaycan ədəbiyyatı, demək olar ki, keçilmirdi. Füzuli, Sabir, Məmmədquluzadə xalq arasında məşhur idilər. Lakin ədəbiyyat dərslərində Azərbaycan söz sənətinin fəxri olan bu adamlara ya çox az yer verir, ya da heç vermirdilər. Demək olar ki, bütün ədəbiyyat proqramı Türkiyə şair və ədiblərinə həsr edilirdi. Bu yazıçılar arasında Hamid, Tofiq Fikrət kimi görkəmli sənətkarlar olduğu kimi, ikinci, üçüncü dərəcəliləri də vardı.

Bəli, həmin Bakıdan gəlmiş tələbə, görünür, belə bir ədəbi tədris praktikasının təsiri altında Sabirin şairliyini inkar edib, onun şeirlərinin estetik bir qiymətə malik olmadığını sübut etməyə çalışırdı. Bu sözləri eşidəndə mənə elə gəldi ki, şəxsən məni təhqir etdilər. Söz alıb ədəbi dəlil və sübutdan daha artıq ürəyimi doldurmuş qəzəb hissinin gücü ilə bu nankor vətəndaşı, necə deyərlər, alıb yatdım.

Sabir bizim evdə və məktəbdəki yoldaşlarım arasında ən çox sevdiyimiz bir şair idi. Mən indi də Sabirin onlarla şerini, bütün bəhritəvillərini əzbər bilirəm. Ali məktəb tələbəsi, görünür, belə bir əks hücum gözləmirdi. Mənə elə gəlir ki, onun kağızdan oxuduğu müharirə də öz fikir və mülahizələrinin məhsulu deyildi. Mən Sabirin bir neçə şerindən misal gətirib öz bildiyim kimi, lakin gənclərə məxsus bir hərarətlə onları təhlil edəndən sonra zala toplaşmış adamların da Sabirə olan məhəbbətini görüb (adamlar gah əl çalır, gah "doğrudur" – deyirdilər. Bunu da desəm pis olmaz ki, zaldakıların əksəriyyəti bizim məktəbin uşaqları idi), tələbə nə isə mızıldadı və nəhayət, "Niyə Sabir də şairdir", – dedi. Yoldaşlarımız yerlərindən "yaxşı", "gözəl" sözlərini əlavə etdilər, hətta bir nəfər "qiyamət şairdir" deyə bağırdı. Yəqin ki, bu o zaman kənd yerlərində işləmək üçün gəlmiş Bakı fəhlələrindən birinin oğlu idi. İnqilabın ilk illərindən müxtəlif partiya və sovet işlərində işləmək üçün Bakıdan səfərbərliyə alınıb rayonlara gələn adamlar az deyildi.

Bakıda 30-cu illərdə ədəbi mühitdə böyük bir aktivlik vardı. Yalnız xüsusi ədəbi jurnallar, almanaxlar, qəzet deyil, mübaliğəsiz demək olar ki, respublikada nəşr olunan bütün qəzet və jurnallar ədəbi əsərlər, ədəbi tənqid və mübahisələrə geniş yer verirdi. "Kommunist" qəzeti nəzdindəki "Stalin adına klub" öz işinin mahiyyəti etibarı ilə Bakının ən aktiv bir ədəbi mərkəzi idi.

Burada ayrı-ayrı əsərlər müzakirə olunduğu kimi, müxtəlif ədəbi problemlərə həsr olunmuş gecələr də keçirilirdi.

Elə bu illərdə indiki respublika Elmlər Akademiyasında bizim təşkilatın – Proletar Yazıçıları İttifaqının bir otağı vardı. Biz tez-tez ora yığışar, əsər oxuyar, müzakirə edərdik. Biz, bir qrup gənc yazıçı özümüzü fəxr ilə belə adlandırardıq. Bizə elə gəlirdi ki, bütün ideoloji məsələləri ancaq və ancaq biz həll edə bilərik və bizim fikrimiz pozulmaz bir ehkamdır. Bunun həm yaxşı, həm də pis cəhəti vardı. Yaxşı cəhəti bu idi ki, biz dərin bir səmimiyyətlə fikrimizin doğruluğuna inanır, öz ədəbi görüşlərimizi sarsılmaz bir inamla müdafiə edir və sovet ədəbiyyatının bədxahlarına, yeni quruluşun açıq, gizli düşmənlərinə qarşı amansız mübarizə aparırdıq. Özümüzü səfərbər bir əsgər hiss edir, bütün ömrümüzün mənasını xalq səadəti uğrunda mübarizə aparmaqda görürdük. Mənim bir ədəbi manifest xarakteri daşıyan "Bolşevik yazı" şerim də bu əhval-ruhiyyənin məhsuludur. Onun son sətirləri belə qurtarır:

"Mübarizə bu gün də var, yarın da,
Mən də onun
ən ön sıralarında".

Bəli, bu yaxşı cəhət. Pis cəhət o idi ki, məqsədi nəcib, təmiz olan bu mübarizəçilikdə biz ifrata varır, millətin yaratmış olduğu mədəni zənginlikləri layiqincə qiymətləndirə bilmirdik. Bəzən bu gənc yazıçıların ayrı-ayrı nümayəndələri, bu gün milli iftixarımız olan M.F.Axundova, Cəlil Məmmədquluzadəyə, Cəfər Cabbarlıya qarşı ədalətsiz ittihamlarla çıxış edirdilər.

Xüsusilə, Cəfər Cabbarlının qüdrətli, işıqlı talantını qiymətləndirməyib öz məqalə və çıxışları ilə onun iztirablı günlər keçirməsinə səbəb olanlar, yəqin ki, bu gün dərin bir vicdan əzabı çəkirlər.

Mən Cəfər Cabbarlı ilə teatrda tanış olmuşam, yaxşı yadımda deyil, onu deyə bilərəm ki, "Dönüş" pyesinin ikinci, ya üçüncü tamaşası idi. Əzizbəyov adına Azərbaycan Akademik Dövlət Dram Teatrının indiki səhnəqabağı meydançasının zaldan baxanda sağ tərəfdə görünən geniş qapısının yerində loja vardı. Biz Cəfərlə bu lojada oturub tamaşaya baxırdıq. Bu vaxt biz onunla dəfələrlə görüşmüş, dramaturqun ayrı-ayrı əsərləri haqqında danışmış, mübahisə etmişdik. Demək istəyirəm ki, bu bizim birinci, ya ikinci görüşümüz deyildi. Oxucu soruşa bilər ki, o zaman Cəfər Cabbarlı tanınmış bir dramaturq, on-on beş illik ədəbi təcrübəyə malik bir yazıçı idi, Rəsul Rza isə yenicə ədəbi mühitə ayaq

basmış, cəmi-cumxuru 5-10 şerin və üç-dörd hekayənin və bir neçə məqalənin müəllifi idi. Necə olurdu ki, Cəfər onunla ədəbi mübahisələrə girir və öz əsəri haqqında ondan rəy eşitmək istəyirdi. Cəfər "Dönüş"ə baxmağa məni özü dəvət etmişdi. Əvvəla ona görə ki, C.Cabbarlı son dərəcədə təvazökar bir adam idi. O, əsərləri haqqında ən adi adamların rəyini dinləməyə hazır idi.

İkincisi, o zaman AZAP-ın böyük nüfuzu vardı. Dəfələrlə tamaşaların ictimai baxışı zamanı AZAP nümayəndəsini gözləyir, pərdəni açmırdılar. Bəli, belə vaxtlar da vardı.

Tamaşa zamanı mən ayrı-ayrı obrazlar və əsərin bəzi cəhətləri haqqında öz fikrimi müəllifə deyirdim. Cəfər gah gülümsəyir, gah da irigözlü çeşməyini götürüb dəsmalla silir, silir sonra yenə də gözünə qoyurdu. Cəfəri yaxşı tanıyanlar bilirlər ki, bu hərəkətlərin öz dili vardı. Cəfər sənə gülümsəyə-gülümsəyə baxanda bu o demək idi ki, sən çox sadəlövh fikir deyirsən, sənin gətirdiyin dəlillər ciddi etiraza dəyməz, sən görünür ki, ya məsələnin nə yerdə olduğunu yaxşı dərk eləməmisən, ya da ağıllı görünmək üçün əllaməlik eləyirsən.

Cəfər çeşməyini çıxarıb tez-tez silində, bu o demək idi ki, hirslənib, həyəcanlanıb, deməli, sən ya elə ölçüyəsığmaz, insafsız söz demisən ki, bu onu qəzəbləndirib, ya da dediklərin, doğrudan da, əsərin qüsurunu düzgün ifadə edir, zərbə müəllifin söyər yerindən dəyib, odur ki, onu həyəcanlandırmışdır. "C.Cabbarlının hiss və həyəcanları ancaq bu iki şəkildə təzahür edirdi" – demək, o böyük sənətkarı çox məhdud boyalarla təsvir etmək olardı. Cəfərin hiss və həyəcanlarının təzahür forması sonsuz idi. Mən ancaq konkret söhbətimizə aid iki əsas hərəkətdən danışdım.

Tamaşa qurtaranda mən: "Dönüş" o biri əsərlərindən zəifdir" – deyə fikrimə yekun vurdum. Cəfər həyəcanla: "Yox, yox, – dedi, – "Dönüş" mənim bu vaxtacan yazdığım və bundan sonra yazacağım əsərlərin hamısından yaxşıdır". Birdən onun səsi dəyişdi, gözləri, elə bil ki, yaşardı. Çeşməyini çıxardığından bu gözlərdə qəribə, aciz, köməksiz bir ifadə vardı. Elə bil ki, onun bayaqkı qaynar, nüfuzedici və həmişə bulaqlarında xəfif bir təbəssüm gizlənmiş olan gözlərini dəyişib, yerinə bir ana nəvazişinə, bir dost yardımına möhtac olan gözlər qoydular. Qolumdan tutdu və alçaq bir səslə: "Ata, ana öz şikəst balasını bütün övladlarından çox istəyər", – dedi. Biz bir kəlmə söz deməyib ayrıldıq.

Bu kədərli xatirələrin mənim avtobioqrafiyama dəxli varmı, bilmirəm, lakin onları necə yazmayım?

Birinci kitabım "Çapey" 1931-ci ildə çıxmışdır. O zaman "Azərnəşr"in mətbəəsi indi Azərbaycan Geoloji İdarəsi olan yerdə, Nizami və Kirov küçələrinin tinindəki evin birinci mərtəbəsində olurdu.

Bu kiçik kitabçanın mənə gətirdiyi böyük sevinci təsəvvür etmək çətindir. Mən belə bir sevinci yenidən ilk övladım olanda – Anar anadan olanda duydum. Dünən mən ancaq bir insan, bir vətəndaş idim. Bu gün bir ata oldum. Küçə ilə gedəndə mənə elə gəlirdi ki, bu gün – 1938-ci il martın 15-də artıq bir gündür ki, mənim ata olduğumu hamı bilir.

Belə bir hiss – "Çapey" kitabının ilk nüsxəsini mətbəədən götürüb küçəyə çıxdığım zaman mənə hakim idi.

"Çapey" adlı ilk şeirlər kitabım Çin xalqının azadlıq uğrunda apardığı qəhrəman mübarizəsinə həsr edilmişdi. Kitaba daxil edilmiş "Bolşevik yazı" şeri mənim şairlik kredom idi. Bu şeir estetçilik əleyhinə çevrilmişdi. Şerin forması yeni idi. O, sxolastik şeir formasından azad, yeni səpkidə yazılmışdı.

Mən inanırdım ki, klassik və xalq poeziyası irsindən istifadə edərək irəli getmək, indiyə qədər olanları təkrar etməmək lazımdır. Axı klassik olmuş formalar konkret tarixi şəraitdə işlənib yaranmışdır. Poeziyanın dilini isə xalq yaradır, inkişaf etdirir və zənginləşdirir. Xalqın yaradıcılıq dühası yaşayır, yeni forma, yeni söz ehtiyacı həyatın öz tələbidir. Yeri gəlmişkən onu da deyim ki, bəzi tənqidçilərin təkidlə dediklərinin əleyhinə olaraq, Azərbaycan poeziyasının yeni formaları hardansa kənardan gəlməyib, yazılı və şifahi xalq poeziyasının zəngin, tükənməz mənbələrindən qaynayıb qalxmışdır.

Bəli, ilk şeir kitabımın verdiyi sevinci ifadə etmək çətindir.

Bir də belə sevinci mən 1927-ci ildə Tiflisdə nəşr olunan "Qığılcım" adlı ədəbi almanaxda birinci şerimi görəndə duymuşdum.

Sonralar yalnız azərbaycanca deyil, başqa dillərdə onlarla kitabım çıxdı, təəssüf ki, qəlbim ilk kitabın sevincinə bərabər bir həyəcan keçirmədi. Mənim rus dilində ilk dəfə şerim Tiflisdə 1928-ci, ya da 29-cu ildə "Zarya Vostoka"da çıxmışdır. Şerin adı "Komsomolçular" idi.

Təəssüf ki, bu şerin azərbaycancası itmişdir. Bilmirəm, bəlkə də o zaman "Yeni fikir", ya "Dan ulduzu"nda çap olunmuşdur.

1927-30-cu illərdə mən Yesenini çox oxuyurdum.

Bəzi tənqidçilər mənim yaradıcılığımı demək olar ki, ilk günlərdən Mayakovski ilə bağlamaq istəyir və şeirlərimdə mütləq onun təsirini tapmağa çalışırlar. Əlbəttə, Mayakovski elə böyük bir sənətkardır ki, onun müasir bir sovet şairinə yaradıcı təsiri təbiidir. Ancaq mən deməliyəm ki, 31-ci ilə qədər mən Mayakovskinin yaradıcılığına mənfi bir münasibət bəsləyirdim. Hətta mən Tiflisdə təhsil aldığım zaman Mayakovski Tiflisə gəlmişdi, bizim məktəbdə onun gecəsi oldu, mən o gecəyə getmədim.

İndi səmimiyyətlə etiraf edə bilərəm ki, mənim o zamanlar Mayakovskiyə qarşı olan mənfi əlaqəm, onun yaradıcılığı ilə yaxşı tanış olduğumdan deyil, əksinə, ona görə idi ki, şair haqqında onun bədxahlarının danışıqlarını eşidir və bu "əsasla" ona münasibət bəsləyirdim. Otuz-otuz birinci illərə qədər mənim Mayakovski yaradıcılığına olan mənfi münasibətimin bir səbəbi də rus dilini yaxşı bilmədiyim idi. Mayakovskini orijinalda oxuyub anlamaq üçün rus dilini, onun incəliklərini yaxşı bilmək lazımdır.

Görünür, Mayakovski yaradıcılığına mənim münasibətim və onun Rəsul Rza yaradıcılığına təsiri haqqındakı mülahizələrə müəyyən qədər də mənim "Mayakovskiyə" adlı şerim səbəb olmuşdur. Hətta orda mən poetik bir fantaziya olaraq onu kürsüdə təsvir edirəm. Halbuki mən Mayakovskini görməmişəm. Bəs sonralar? Sonralar mən bu gözəl, əzəmətli şairə, yeni poeziyanın alovlu yaradıcısına dərin bir hörmət və məhəbbət bəsləməyə başladım. Mən onun poeziyasında qəlbimi nigaran qoyan bir çox məsələlərə cavab tapdım. Onun şeirlərini, poemalarını doğma dilimizə tərcümə etdim. Bu tərcümələr Mayakovski poeziyasını anlamaqda mənə çox kömək etdi.

Bütün bunlarla bərabər, mənim yaradıcılığıma Mayakovski poeziyasının ruhu müəyyən yaradıcılıq təsiri göstərdiyini qeydsiz-şərtsiz iddia edənlər yalnız məsələni birtərəfli qoymuş olurlar. Çünki mənim yaradıcılığımda daha əvvəl və daha dərin yaradıcılıq təsiri milli ədəbiyyatımızla, birinci növbədə, Sabirlə əlaqədar olduğu bir həqiqətdir. Məncə, əgər bir yazıçının əsas xüsusiyyəti kiminsə, lap ən dahi bir sənətkarın təsiri altında olmaqdırsa, o, həqiqi sənətkar deyildir. Həm də təsirdən danışanda xalqın özünəməxsus ədəbi ənənələrinə laqeyd qalmaq olmaz.

Sabiri çox sevirəm. Bəlkə də "sevirəm" sözü, hər dəfə bu əziz adı çəkdiyim zaman duyduğum həyəcanı ifadə edə bilmir. Sabir bütün

ömrüm boyu mənim müəllimim və dostum olmuşdur. Bu ad qəlbimdə xalqım üçün bir iftixar hissi oyadır. Onun şeirlərində elə cəsarət, elə mətanət, elə kədər, elə ağrı, elə təsir gücü var ki, bəzən heyrət edirsən, belə şair ucqar bir şəhərdə, böyük bir ailə qayğısı altında, gecə-gündüz işləməyə, sabun bişirməyə məcbur olmuş, dərs deməklə məşğul olmuş, bir parça çörək qazanmaq üçün çarpışmış bir adam, yalnız əsarətdə inləyən xalqının tarixi taleyini dahiyanə surətdə anlamaq deyil, eyni zamanda Yaxın Şərq ölkələrində, İranda, Türkiyədə yaşayan milyonlarla insanların arzu və əməllərini necə gözəl anlamışdır. Onun Azərbaycan qadınının taleyi haqqındakı şeirləri – "Daş qəlbli insanları neylərdin, ilahi", yaxud "Ey ehtişami-milləti talan olan çocuq" şeirləri necə sarsıdıcı bir qəlbağrısı ilə yazılmışdır! Sabirin şeirlərinin çoxunu əzbər bilirəm, bir halda ki, hafizəm o qədər də yaxşı deyil.

Sabir mənə doğma torpağımın canlı bir parçası kimi əzizdir. Sabir mənə çar mütləqiyyətinin zülm və istibdad dövründə xalqımızın mərdanə, qəzəb və məhəbbətlə səslənən çağırışı kimi əzizdir. O, mənə əsil həyatın amansız həqiqəti kimi əzizdir.

Bəlkə də mənim Mayakovski yaradıcılığına olan meylim, həm də onunla izah edilə bilər ki, mən bu şairlər arasında bir çox ümumi cəhət görürəm. Formal cəhətdən onlar bir-birinə bənzəmirlər, lakin əsil mahiyyət etibarilə çox yaxındırlar. Şerin ifşa qüvvəti, xalqın taleyi ilə əlaqədar olan heç bir şeydə güzəştə getməmək, internasionalizm, öz yaradıcılığını şüurlu surətdə geniş xalq kütlələrinin malı etmək arzuları, mövzu və ifadə vasitələri seçməkdə həqiqi novatorluq – bunlar mənə əziz olan iki şairi bir-birinə yaxın edən xarakter cizgilərin hələ hamısı deyildir. Onlardan biri – Mayakovski öz yaradıcılıq fəaliyyətinə başladığı zaman, ikinci – Sabir yaxın dostlarının kədər dolu gözləri qarşısında can verirdi.

Yazıçı müəyyən ictimai və tarixi şərait daxilində inkişaf edir. Doğma xalqının proqressiv bədii ənənələrinə arxalanmayan, milli zəmindən ayrılmış adam əsil həqiqi sənətkar ola bilməz. Bizdə çox zaman təsir məsələsi bayağılaşdırılır. Hər yazıçının, mütləq başqa yazıçının təsiri altında olduğu iddia edilir. Yazıçının əsərlərinin orijinal cəhətləri silinib atılır. Bu, ədəbi təcrübədən istifadə etməyin rol və əhəmiyyətini inkar etmək təşəbbüsü deyildir. Yox, qətiyyən.

Ancaq öyrənmək də var, öyrənmək də!..

Bir yaradıcı öyrənmək var ki, bu şəxsi yaradıcılıq mənliyinin mahiyyətini aşkara çıxarmağa kömək edir, bir də kor-koranə təqlid

yolu var ki, burada yazıçı yalnız oxuyub yadında saxladığı özgə fikri ilə "zəngin" ola bilər.

Yaşıdlarım olan yazıçılar arasında mən Mikayıl Müşfiq ilə çox yaxından bağlı idim. Müşfiq yaradıcılığının çiçəklənmiyi bir dövrdə, 1937-ci ildə faciənə məhv oldu.

Biz Müşfiqlə yalnız dost deyildik, eyni zamanda yaradıcılıq işi ilə bağlı idik. Biz Lermontovun "Demon" əsərini, "Yevgeni Onegin"dən Tatyananın məktubunu bir yerdə tərcümə etmişdik.

Müşfiqi mən namuslu, çox prinsipial, yaradıcılıq məsələlərində ciddi və tələbkar bir insan kimi tanıyırdım. Bir neçə il bundan qabaq mən Müşfiq haqqında "Qızılgül olmayaydı" adlı poemanı (poemanı bitirəndən beş il sonra) çap etdirə bildim. Poemada bəzi ədəbiyyat xadimlərindən danışmışam. Bu adamların adı çəkilmədiyinə baxmayaraq, poema çap olunduqdan sonra hərə özünü tanıdı. Haqqında məhəbbətlə danışılanlar da bu poemada özünü tanıdı, o ağır imtahan günlərində bədxahlıq edənlər də.

1941-ci ilin iyun ayı. Azərbaycanın qədim şəhəri Şamaxı. Nəsil-nəsil gözəl şairlər, alimlər, memarlar, musiqiçilər, sərkərdələr yetişdirmiş torpaq. Biz bir qrup şair buraya Lermontovun ölümünün 100 illiyinə həsr edilmiş təntənəli ədəbi gecə keçirməyə gəlmişdik. Yay kinoteatrının böyük salonu ağzına qədər dolu idi. Şeirlər, nəğmələr oxunur, yerli və mərkəzdən gəlmiş aktyorlar tamaşa göstərir, rəqs edirdilər. Məşhur Şamaxı şərabı "Mədrəsə" içilir, axşam yeməyi yeyilirdi.

Müsamirə gec qurtardı. Ürəyimiz fərəhli idi. Yatmaq istəmirdik. Şəhərin boş küçələrini dolaşır, Ayın solğun işığına qərq olmuş yollardan keçirdik. Həyatda çox iztirab çəkmiş, şamaxılı ölməz şair Sabiri xatırlayırdıq. Onun şeirlərindən danışırdıq, qüssənin, qəmin hikmətə, ağrının güclü bir qüdrətə, iztirabın mərdlik və cəsarət ölçüsünə çevrildiyi Sabir şerindən söhbət gedirdi. Burda hər qarış torpaq onun əziz xatirəsini yaşadır, hər addımbaşı Şirvanın gözəl insanlarının hekayətini söyləyir, hər daş xalqımızın zəngin tarixindən nişan verir. Kimsə hisslə bu misraları oxuyur:

Məndə sığar iki cahan,
Mən bu cahana sığmazam.

Gözümüz önündə Şamaxıda doğulmuş İmadəddin Nəsiminin faciəli taleyi canlanır. Bu misralar onundur. Rəvayətə görə, Nəsimini

edam edən zaman onun diri-diri dərisini soymuşlar. Onun cəlladlarından yüksək ruhani rütbəli birisi demişdir: "Bu mürtədin murdar qanının bir damlası kimin üstünə sıçrasa, qan düşən yeri kəsib atmaq lazımdır". İşə bax ki, Nəsiminin qanından bir damlası həmin adamın çeçələ barmağına düşür. Mömin adam özünü itirməyib qanı barmağından silir və: "Məni hərfi mənada başa düşmək lazım deyil" – deyir. Nəsimi bu hərəkətə şeirlə cavab vermişdi:

"Zahidin bir barmağın kəssən, dönüb həqdən qaçar,
Gör bu miskin aşiqi sərpa soyarlar, ağlamaz".

Bu aydınlıq gecədə insan düşünmək, düşünmək istəyir. Kimin ağlına gələ bilərdi ki, bu sakit, işıqlı, bu füsunkar gecə 1941-ci ilin axırıncı dinc gecəsidir. Kimin ağlına gələrdi ki, böyük xalq dərdi, sonsuz insan iztirabları ilə dolu olan günlər başlanır.

Yuxumuz gəlmirdi. Saat dörd radələrində, səhərə yaxın gəlib mehmanxanaya çıxdıq. Həyat haqqında, gələcək haqqında, şeir haqqındakı söhbətimiz hələ çox uzandı.

Həyəcanlı səs-küyə oyandıq. Müharibə... Bombardman... Heç nə başa düşə bilmirdim. Tez geyindim. İlk ağlıma gələn bu oldu: raykoma getmək lazımdır.

Rayon partiya komitəsində adam çox idi. Telefon tez-tez zəng çalır, hər dəqiqə qapı açılır, təzə-təzə adamlar gəlirdi. Rayonun rəhbərləri, hərbi qulluqçular, müəllimlər, yaxın kolxozların sədrləri. Briqadanın rəhbəri kimi katibə müraciət etdim:

– Bəlkə biz burada lazımıq! Beş nəfər yazıçıyıq. Dördümüz kommunistik.

Katib yorğun bir təbəssümlə gülümsədi:

– Yox, yoldaş Rəsul Rza, – dedi, – Bakıya qayıdın. İndi şairlərimizin sözü xalqa çox lazımdır. Yəqin indi redaksiyalar sizi axtarır.

Bakıya yola düşdük. Biz şəhərə çatanda bütün yol arabalar, tanklar, zirehli maşınlarla dolu idi. Əsgərlər kiçik qruplarla keçib gedirdilər. Müharibə hələ buralardan çox uzaqlarda olduğuna baxmayaraq, müharibə qoxusu havanı doldurmuşdu. Bakı sərt bir görkəm almışdı. Elə bil ki, şəhər bir neçə saat içində tamam başqa olmuşdu. Əgər şəhər haqqında belə demək olarsa, bir neçə saat içərisində Bakı, elə bil, yaşa dolmuş, kişiləşmişdi. Nə gülüş, nə nəğmə, nə bərkdən danışan vardı.

Əsgərlər sıx birləşmiş sıralarla səssiz, musiqisiz, marşsız dəstə-dəstə keçib gedirdilər.

1941-ci ilin axırında bir qrup siyasi işçilərlə mən də hərbi müxbir sifəti ilə Krımdakı Azərbaycan diviziyasına getdim. Cəbhə qəzeti "Boevoy natisk" (daha sonra "Boevaya Krımskaya") mənim üçün böyük bir məktəb oldu. Tez-tez ön xəttə getməli olurdum.

Burada, Kerç cəbhəsində mən şair İlya Selvinski, gürcü ədəbiyyatşünası V.Maçavariani və şair R.Margiani ilə yaxından tanış oldum. Burada Cəfər Cəfərovla və Abbas Zamanovla dostluğum daha da möhkəmləndi.

İlya Selvinskini qabaqlar da tanıyırdım, lakin burda, ölümün hər addımbaşı bizi pusduğu bu yerlərdə mən onu çox insani, çox mərd xasiyyətli bir adam kimi tanıdım.

Krımda yazdığım ilk şeir azərbaycanlı qəhrəman Bəxtiyar haqqında "Bəxtiyar" şeri oldu. İ.Selvinski bu şeri ruscaya tərcümə etdi və şeir "Boevoy natisk" qəzetində çap olundu. Oçerk və şeirlərim həm cəbhə, həm də respublika mətbuatında çap olunurdu. "Leytenant Bayramın gündəliyi"ni o zaman yazmağa başladım. Krımda rus yazıçısı Pavlenko ilə tanış oldum. Pavlenko gözəl nəql etmək istedadına malik bir adam idi. Onda olmuş bir əhvalatı qəribə bir maraqla təsvir edib danışmaq, bəzəyib nəql etmək bacarığı var idi. Bəzən elə olurdu ki, mənim də görüb şahidi olduğum bir hadisəni o nəql edərdi. Onun şifahi hekayələrindən bir neçəsini mən dəfələrlə eşitmişəm, hər dəfə nəql edəndə təzə təfərrüat meydana çıxır, daha müfəssəl yada düşür, nəql etdiyi əhvalatlar daha rəngarəng, daha bədii olurdu. Bu nağıllar boş fantaziya hesabına dolğunlaşmazdı. Pavlenkonun nəql etdiyi əhvalatların təsiri altında, dostların arasında insan sözünün, insan baxışının hərarətini yeni bir qüvvətlə hiss etdim.

Həyatımda bir çox gözəl insanlarla görüşmüşəm, lakin belə səmimi, sadə, aydın bir insan ürəyinin açıq-saçıqlığını çox az görmüşəm. Görünür, bu təsirin yaranmasında gərgin cəbhə şəraitinin də rolu az deyil.

Müharibə yalnız mərdlik məktəbi deyil, eyni zamanda həm bütün xalq, həm də bizim hər birimiz üçün əxlaqi keyfiyyətlərin imtahanı idi. O bizə, biz yazıçılara insan qəlbinin ən dərin guşələrinə nəzər salmağa, adi günlərdə görmək mümkün olmayan şeylərə diqqət yetirməyə imkan verdi.

Müharibə zamanı çox şey itirdik; insanları, şəhərləri, kəndləri – uzun illərin zəhməti nəticəsində yaradılan sərvəti itirdik. Lakin çox şey qazandıq, laqeydlik, qayğısızlıq azarından xilas olduq. Dostluğumuz möhkəmləndi. Bir-birimizi daha yaxından tanıdıq. Ayrı-ayrı adamları da, xalqları da. Nəhayət, biz bütün qüvvəti, bütün ağrı-əzabları ilə anladıq ki, doğma torpaq nə deməkdir, sovet adamlarının zəhməti ilə yaranmış nemətlərin mənası nədir.

Müharibə bizim həyatımıza xalq dərdinin ağrısı ilə, milyon-milyon insanların qəzəbi ilə, çətin günlərin məyusluğu ilə, ümid və qalibiyyətə olan böyük inamla girdi.

Krımda Azərbaycan diviziyası döyüşçülərinin həyat və döyüş işlərindən bir pyes yazmaq fikri başıma düşdü. Bu fikri yalnız bir ildən sonra, Bakıda yazdığım "Vəfa" pyesində həyata keçirə bildim. "Vəfa" pyesi Bakı, Tiflis və Kirovabad teatrlarında tamaşaya qoyuldu.

Böyük mövzular böyük yetkinlik tələb edir. Elə mövzular var ki, bir ağrı kimi səndən əl çəkmir, rahatlıq vermir, öz təzahür və ifadəsini tapmayınca, insanı rahat buraxmır. Bu, xüsusi bir ağrıdır. Bu ağrı insanın bütün varlığına yayılır. Bu, fikir ağrısı, hiss ağrısı, yaradıcı analıq ağrısıdır. Bu ağrı böyük məhəbbət kimidir, verdiyi bütün iztirablarla şirin və qiymətlidir.

Mən belə bir ağrını Lenin haqqında yazmağın daxili tələbini inadla hiss etdiyim zaman duyurdum.

Lenin mövzusu fikirlərimi tamam əhatə edib, yuxularıma girməyə, həyatımın ayrılmaz bir hissəsi olmağa başlamazdan hələ çox əvvəl, Lenin haqqında ayrı-ayrı şeirlər yazmışdım. Yadımdadır, 1924-cü ilin yanvar ayında Bakıda idim. Bu mənim böyük şəhərə ilk gəlişim idi. Şəhər qulaqbatırıcı uğultusu, gurultusu, ağlımı çaşdıran böyük və hündür evləri, bir-birinə bənzəyən hədsiz-hesabsız küçələri ilə məni heyrətə salmışdı.

Lenin dəfn edilən günü böyük xalq kədərinin kölgəsi yalnız insanların üzünə deyil, bütün şəhərin simasına çökmüşdü. Reyddə duran gəmi fitlərinin naləsi ilə zavod qudoklarının həyəcanlı səsi bir-birinə qarışdığı o təntənəli dəqiqələr mənə silinməz təsir bağışladı. Sonra uzun bir müddət hər şey dayandı, hər şey donub qaldı. Bu təntənəli sükut bir neçə dəqiqə sürdüyünə baxmayaraq, mənim üçün vaxt öz real mövcudiyyətini itirdi, mən donub qalmışdım, susub, nəfəsini çəkməyən bu aləmə tamaşa edirdim.

Bu unudulmaz dəqiqələrin xatirəsi mənim çox illər sonra yazdığım bir şerin əsası oldu:

Hər şey susdu,
Dünya kəsdi nəfəsini,
Dərdlə dolu qəlblərimiz
Susdurmadı öz səsini...

İllər keçdi, V.İ.Lenin haqqında yazmaq fikri məni rahat qoymurdu. Hələ özüm də bilmirdim bu nə olacaq; poema, silsilə şeirlər, yoxsa mənsur şeir... Leninin həyatından ayrı-ayrı hadisələri, epizodları qeyd edir, onun haqqında yazılanları çox oxuyurdum. Bütün günləri Bakıda və Moskvada kitabxanalarda oturur, o illərin qəzet və jurnallarını vərəqləyirdim. Xalq zehnində yaşayan Leninin nəhəng obrazı ilə müqayisə edərkən onun haqqında olan materialların kasıblığı məni heyrətə salırdı. O zamanlar istifadə edilməsi mümkün olan vəsiqələrin çox azında Leninin canlı, hərarətli, insani keyfiyyətlərini görmək olurdu.

"Lenin" poeması üzərində on il işlədim. Dünən mənə qiymətli bir kəşf kimi görünən şeyi yenidən pozmalı, fəsli təzədən başlamalı, neçə il əvvəl yazdığıma yenidən qayıtmalı, yenidən işləməli, ixtisar etməli olurdum. Bütün o illəri mən yeni material axtarışlarının arasını kəsmirdim. Bu "ən insani insanın" həyat və fəaliyyətinə aid hər şeyi damcı-damcı yığmağa çalışırdım. Poema üzərindəki işin əsas çətinliyi ondan ibarət idi ki, Lenin haqqında, böyük və kiçik şairlərin böyük tarixi şəxsiyyətlər haqqında yazdıqları kimi yazmaq olmazdı. Onun haqqında həqiqəti yazmaq, təmtəraqsız yazmaq, inqilabın öz işi kimi sadə və doğru yazmaq lazım idi.

Mənim ənənə və novatorluq haqqındakı anlayışlarım bu poemada hər şeydən daha aydın və daha parlaq ifadə olunmuşdur. Tənqidçilərin dediyinə görə, mənim yaradıcılığımda polemik ünsürlər daha güclüdür. Mən özüm də bunu bilir və şüurlu olaraq bu yol ilə gedirəm. Mən burada ədəbi həyatımız mövzularındakı məqalələrimi deyil, müəllifin görüşlərini ifadə edən şeir və misralarımı nəzərdə tuturam.

Ənənələri hərarətlə müdafiə edən adamlar, nədənsə, çox zaman onları yalnız keçmişdə axtarırlar. Keçmişin məişət və ədəbi ənənələrinin hamısını bizim müasir həyatımız və sənətimizin silahı eləmək meyillərinin düzgün olmadığını hələ demirəm. Belə bir sual ortaya

çıxır: ənənə yaratmaq məgər yalnız keçmişin əldəyməz hüququdur? Nə üçün bizim keçmişdən qat-qat maraqlı və zəngin olan həyatımız yeni ənənələr yarada bilməz və yaratmamalıdır? Milli kolorit, şerin üslubu və cümlələri haqqında da həmin sözü demək olar. Belə düşünmək ki, "millətlər nə yarada bilərlərsə, artıq yaratmışlar, sənətdə milli xüsusiyyət isə çoxdan tapılmışdır, burada axtarmalı bir şey yoxdur" – məncə, tamamilə səhvdir. Bizim həyatımızda, müxtəlif xalqların həyatının bu qədər bir-birinə yaxından bağlı olduğu bir dövrdə, bu xalqların böyük tarixi əməlləri birgə mübarizədə həyata keçirdikləri bir zamanda, onlar elə xasiyyətlər kəsb edirlər ki, milli olduqları halda, əvvəlkindən daha çox beynəlmiləl ünsürlər daşıyırlar. Milli xarakterin elə cəhətləri meydana çıxır ki, keçmişdə, başqa ictimai-iqtisadi şəraitdə bu cəhətlər meydana çıxa bilməzdi. Bütün bunları nəzərə almadan, ənənələri, koloriti və dili inkişafdan məhrum olan, dəyişməyən cansız bir şey kimi qəbul etmək doğru deyil.

Bəzi yazıçılarımız, tənqidçilərimiz, oxucularımız bəzən söz yaradıcılığına ona görə etiraz edirlər ki, bu və ya digər söz "xalqda yoxdur". Bu adamlar unudurlar ki, xalqın dili bir gündə yaranmayıb, arası kəsilmədən inkişaf edir. Sözlər ayrı-ayrı adamlar tərəfindən "uydurulur". Məhz ayrı-ayrı adamlar tərəfindən. Çünki bir insan kollektivinin, yaxud bütün bir xalqın yığışıb bir yerdə söz icad eləməklə məşğul olduğunu təsəvvür etmək çox çətindir. Sözləri ayrı-ayrı adamlar icad edir, bu sözlər həyata girir, hamı tərəfindən qəbul olunur, ya unudulur.

Nə üçün indi, dillərin formalaşıb inkişaf tapdığı bir zamanda, lazım gəldikdə, həyatın yeni hadisələrini ifadə etmək üçün yeni söz yaradılmasın, axı dillərin yetkinləşməsi prosesi indi də gedir. Məlumdur ki, söhbət söz oyunbazlığından getmir, dilə fikir və hisslərinin ifadə etməsi vasitəsi kimi yaradıcı münasibət bəsləmək haqqında gedir.

Mən öz yaradıcılığımda burada söylənən prinsiplərə sadiq olmağa çalışıram. Əlbəttə, müvəffəqiyyətsizliklər də olur, lakin onlar isbat edir ki, bu sahədə hələ çox inadla və diqqətlə iş görmək lazımdır. Otuzillik yaradıcılığımda mən orijinal əsərlərimlə yanaşı, bir çox tərcümələr etmişəm: Nizaminin "Xosrov və Şirin" poeması, Mayakovskinin bütün poemaları və çoxlu şeirləri, Puşkinin "Poltava", "Qraf Nulin" əsərləri, Şevçenkonun "Muzdur qadın", "Qaydamaqlar", Lermontovun "İsmailbəy", "İspanlar", "Maskarad", "Demon"

əsərləri, Haynenin, Petefinin, Nazim Hikmətin bir sıra əsərləri, dünya ədəbiyyatının başqa əsərləri, rus klassik və müasir şairləri. "Demon"u vaxtilə biz Müşfiqlə bərabər tərcümə edirdik. Sonralar məlum hadisələr nəticəsində mən həmin poemanın tərcüməsini əsaslı surətdə dəyişməli oldum ki, nəşri mümkün olsun. Ədəbi fəaliyyətim müddətində qırxdan artıq kitabım çap edilmişdir. Şeirlərimin tərcüməsi SSRİ xalqlarının dillərində olduğu kimi, həm də ingilis, fransız, alman, ispan, çex, polyak, macar, ərəb, fars, İndoneziya, monqol dillərində də vardır.

O zaman yazıram ki, yazmaya bilmirəm. Əgər ilhamsız, əsil sənət yaratmağın mümkün olmadığı fikri doğrudursa, bu da bir həqiqətdir ki, sistematik, inadkar zəhmət çəkmədən sənət əsəri yaratmaq mümkün deyil. Boş bir işdən ötrü yaradıcılıq əməyindən ayrılanda bunu daha kəskin hiss edirsən. Sonra günlərlə, həftələrlə öz yoluna düşə bilmirsən.

Yaradıcılıq işi həyatımı narahatlıq, əzab və sevinc ilə doldurub. Nə olar, əgər əzab çəkir, sevinir, həyəcan keçirirəmsə, demək yaşayıram.

16 xarici ölkədə olmuşam. Cənubi Azərbaycanın Təbriz, Xoy, Mərənd, Sarab, Ərdəbil şəhərlərində və Rəzaiyədə olmuşam.

Türkmənistan, Özbəkistan, Tacikistan, Ukrayna, Moldaviya, Latviya, Ermənistan, Gürcüstan respublikalarının paytaxtlarında və bir çox şəhərlərində olmuşam.

Leninqradda 6 dəfə, Moskvada isə yüz dəfədən artıq olmuşam.

Bir dəfə bütün ailəmlə bərabər Moskvadan gəmi ilə Volqada səyahətə çıxıb Astraxana qədər gəlmişəm. Bir dəfə yenə də bütün ailəm və Ənvər Məmmədxanlı ilə bərabər "Rossiya" gəmisində Batumidən Odessaya və oradan da Batumiyə səyahət etmişəm.

Azərbaycanın elə bir rayon mərkəzi yoxdur ki, oranı görməmiş olam. Doğma respublikamızın bir çox yerlərini qarış-qarış gəzmişəm.

Hazırda "Füzuli" poeması, Cəfər Cabbarlı haqqında kiçik bir poema, bir sıra lirik şeirlər üzərində işləyirəm. İki orijinal pyesim Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrında oynanmışdır. Birinci pyesim "Vəfa" Gəncədə və Tiflisdə də oynanmışdır.

Azərbaycan Dövlət Akademik Teatrında mənim tərcüməmdə "Rəqs müəllimi" pyesi də oynanmışdır. Hələ sağ-sökəl və canıma girmiş bir sıra azarlarla (diabet, hipertoniya, ekzema və s.) mübarizə edərək yaşayıb-yaratdığım üçün yazdığım bu avtobioqrafiyaya nöqtə qoymuram. Kim bilir, bəlkə ömür vəfa etsə, yaxşı əsərlər yazdım.

POEZİYA ZƏHMƏT VƏ İLHAMDIR*

Mənim gənclik, qocalıq, xəyanət və sədaqət haqqındakı şerimdə belə misralar var (mən bu şeri üç il əvvəl yazmışam):

Gənclik özü gedir,
Qocalıq özü gəlir.
Nə onu saxlaya bildim,
Nə bundan qoruna bilirəm.

İndi gəncliyi, keçən illəri, ondakı vaxtı, sevincləri və kədərləri yada salmaq istəyirəm. Ömür təqvimi haqqında yazmaq – keçənləri xatırlamaq, yada salmaq deməkdir. Yenidən bir daha geri dönməyəcək günlərə qayıdıram, düşüncələrimi, hisslərimi, ümid və arzularımı xatırlayıram, bilavasitə həyatım, işim və taleyimlə bağlı olan hadisələri xatırlayıram.

Həyat qəribə şeydir. Onun elə səhifələri var ki, anlamaq, izah etmək çətin, unutmaq daha çətindir. Elə səhifələr var ki, aradan on illər keçdiyinə baxmayaraq, qeyri-real görünür, şəffaf bir dumana bürünür.

Olub-keçən hadisələri, ictimai və şəxsi həyat faktlarını zehnimizin aynasında diriltdikcə, biz onları əsas etibarilə, qeyri-ixtiyari olaraq, bu günün idrak tərzi və dünyagörüşü pozisiyasından qiymətləndiririk. Belə hallarda bu və digər faktların öz vaxtında qeydə alınması çox kömək edə bilərdi. Bu faktlar yalnız təfərrüatı nəzərdən qaçırmadıqlarına görə qiymətli deyil, əsasən ona görə mühüm əhəmiyyət kəsb edir ki, o zamankı mənliyimizi daha düzgün əks etdirmək qüdrətinə malikdir. Burada hər şey, elə bil ki, qəflət yuxusuna qərq olub, istədiyi zaman oyana bilər, bütün bəkarəti ilə qarşıya çıxa bilər, ötən illərin yükündən azad ola bilər. Təəssüflə deməliyəm ki, mənim belə qeydlərim yoxdur, varsa da, çox azdır. Həyat təqvimini yazmaq fikrinə düşdüyün zaman bu kəsiri daha kəskin hiss edirsən.

Deyilənə görə, mən 1910-cu ildə mayın 19-da anadan olmuşam. Deyilənə görə deyirəm, çünki bu tarix düzgün olmaya bilər. Anadan olduğum ili və günü babam əlyazmasıyla Quranın səhifələrindən birində qeyd edibmiş. Quran rəngli naxışla bəzədilmiş nadir bir nüsxə

* Vaxtilə R.Rzanın kitablarında çap edilmiş bu yazının "Avtobioqrafiya"ya daxil olan hissələri ixtisar edilmişdir.

imiş. Babamı dəfn edən zaman (mənim onda üç-dörd yaşım olardı) Quran yoxa çıxıb.

Ana babam qatı bir dindar idi. O, savadlı imiş, nəzmi, xüsusilə dini mövzularda yazılmış nəzmi çox sevərmiş. Firdovsini, Sədini, Camini sevərmiş, Ömər Xəyyamı allahsız hesab edərmiş.

Atam Mirzə İbrahim kənd mirzəsi idi. "Mirzə" ləqəbi də elə buradan gəlir. Atam vaxtı ilə məşhur olmuş Məmmədxanovlar nəslindən idi. Onun uşaqlıq illəri çox ağır şəraitdə keçib. Hələ çox gənc yaşlarında ikən anasız qalmış, ögey ananın bəd xasiyyəti ucundan atam iki qardaşı ilə birlikdə öz doğma evlərindən çıxıb getməyə məcbur olmuş, müstəqil zəhmət həyatına başlamışdır. Gənc İbrahim gündüzlər oxuyarmış, axşamlar su daşıyar, yük daşıyar, daha sonralar, savad kəsb etdikdə, özü və kiçik qardaşı üçün gündəlik çörək pulunu həmyerliləri üçün məktub, ərizə yazmaqla qazanarmış.

Atam, beş illik təhsil aldıqdan sonra Göyçay şəhərində qəza naçalnikinin dəftərxanasında tərcüməçi və dilmanc sifəti ilə işləmişdir. O öz zəmanəsinin mütərəqqi görüşlü bir adamı olub. Azərbaycanda öz qızını dünyəvi məktəbə qoymuş ilk adamlardan biri olmuşdur. Mənim bacılarım çadrasız gəzirdilər. Bu "qəbahət" üçün Göyçayın mürtəce adamları bizim ailəmizə dinindən dönmüş, "bəhayi" ləqəbi vermişdilər.

Mənim anadan olduğum Göyçay şəhəri Azərbaycanın ən cavan şəhərlərindən birisidir, onun cəmisi 100-120 yaşı olar.

Birinci cahan müharibəsinə qədər bura ucqar bir yer imiş, bir dənə də olsa, sənaye müəssisəsi yox imiş.

Göyçay sakit bir qəza həyatı keçirirdi. Şəhərdə iki məscid var idi; biri şiə məscidi, biri sünni məscidi. Şiə məscidində müqəddəs imamlara faciəli və dəhşətli matəm mərasimi keçirilirdi. Matəmin onuncu günü – Aşura günü adamlar özlərinə əzab-işgəncə verirdilər. Qətl günü baş yaranların içərisində ölənlər də olurdu. Fanatik dindar adamlar xəncər çıxarıb öz başlarına vurur, müqəddəs adamların şərəfinə qanlarını axıdırdılar. Mən və yaşıdlarım belə tamaşaların birini də buraxmırdıq. Biz bütün bu mərasimin müqəddəsliyini başa düşməkdən çox uzaq idik. Biz uşaqlar üçün bu əhvalatlar bir az qorxulu və eyni zamanda son dərəcə maraqlı, bəzən də gülməli bir tamaşa idi: kim isə qorxub xəncəri başına vura bilmir, kimin isə ayağı büdrəyib yıxılır. Bir də görürsən çadraya bürünmüş qadınlar arasında dava qopurdu. Bunlar hamısı kiçik qəza şəhərində uzanıb gedən ölgün və cansıxıcı həyatdan çox-çox maraqlı idi.

Anam Füzulini, Natəvanı və Sabiri oxuyardı. Yadımdadır, axşam çağları anam bizə – mənə və dörd bacıma qəmli şeirlər oxuyardı.

– Bunlar kimin şeridir, – deyə soruşardım.

– Nənənizin uzaq qohumu və həmyerlisi Xan qızı Natəvanın.

Anam gözəl şairə və ictimai xadim olan Natəvandan danışar, qürbətdə ölən Füzulinin qəmli taleyindən söz açardı. Anamın oxuduğu şeirlərin çoxusu həmişəlik yadımda qaldı. Anamdan və nənəmdən eşitdiyim nağıllar və əfsanələr də yaddaşımın aynasından silinmədi. İndi yaddaşımın səhifələri varaqlandıqca mən bir daha inanıram ki, mənim könlümə şerə olan məhəbbətimin ilk qığılcımlarını anam atmışdır. Anam məndə həm klassik poeziya xəzinəsinə, həm də xalq yaradıcılığına dərin hörmət hissi tərbiyə etmişdir.

Altı yaşında məktəbə getdim, oxumağı tez öyrəndim. Ən çox sevdiyim məşğələ böyük şkafın rəflərində səyahətə çıxmaq idi. Bu rəflərdə Azərbaycan, rus və fars dillərində kitablar var idi. Mən əzbərdən bir xeyli şeir bilirdim, lakin onların mənasını sonralar başa düşdüm. Şerin ahəngini sevirdim, aşıq deyişmələrinə qulaq asmağı sevirdim, dini mərasim tamaşalarına baxmağı sevirdim. Bu mərasimlərdə qəmli mərsiyələr oxunar, bəzən də qədim xalqların uzaq ölkələrdə apardığı qanlı vuruşmalar təsvir olunardı.

Sonra ağır təhsil və iş illəri başladı. Atamın ölümündən sonra vəziyyəti getdikcə çətinləşən böyük ailəmizə kömək etməli idim. On dörd yaşından oxumağa davam edərək, həm də şəhər kitabxanasında işləməyə başladım. Bu iş mənə böyük zövq verirdi, mən kitablar arasında – naməlum qəribə bir aləm içərisində idim.

AZƏRBAYCAN DİLİNİN BUGÜNKÜ VƏZİYYƏTİ VƏ GƏLƏCƏK VƏZİFƏLƏRİ HAQQINDA

(1939-cu ildə Rəsul Rzanın Azərbaycan Sovet Yazıçıları İttifaqının sədri olduğu zaman İttifaq tərəfindən çağırılmış dil müşavirəsində məruzəsi)

Yoldaşlar! İnsanlığın böyük dahiləri Marks, Engels, Lenin, Stalin hər zaman dil məsələsinə revolyusiyanın taleyi ilə sıx əlaqədar bir məsələ kimi baxmışlar. Öz əsrlərinin ən kultur adamları olan Marks və Engels hərəsi ondan çox dil öyrənmişdi. Bu dilləri öyrənməkdə onla-

rın birinci məqsədi revolyusiya işinə daha yaxşı rəhbərlik edə bilməkdi. Marks, Engels, Lenin, Stalin hər zaman kommunizm ideallarını yaymaqda dilin mühüm bir vasitə olduğunu qeyd etmişlər. Onlar dilin sadəliyi, konkretliyi uğrunda çalışmışlar.

Aydındır ki, şüurun əsas elementi olan dil ictimai dəyişikliklər, tarixi inkişaf nəticəsində şüurun özü kimi dəyişir və irəliləyir. Böyük Fransa revolyusiyası zamanında fransız dili o qədər dəyişmişdi ki, Napoleon Bonapart və ondan sonra gələn Fransa padşahları dilin köhnə aristokrat qayda və çərçivələrinə qayıtması üçün xüsusi qanunlar verməyə məcbur olmuşlardı. Lakin canlı həyatı əks etdirən dil geri qayıtmadı. Pol Lafarq yazırdı ki, "XVIII əsrin yazıçıları ölən dilin yatağı qarşısında bir şəfqət bacısı kimi oturub akademik qərarların köməyilə bu xəstənin ömrünü uzatmaq istəyirdilər". Revolyusiya dövründə fransız dilində əmələ gəlmiş yeni sözlər, yeni ifadələr o qədər çox idi ki, XIV Lüdoviqin saray adamlarına bu dili anlatmaq üçün o dövrün qəzet və kitablarını tərcümə etmək lazım gəlirdi.

XVIII əsrin axırlarında Rusiyada bir qrup adam vardı ki, vitse-admiral Şişkovun başçılığı ilə onlar necə olursa olsun rus dilini fransız sözlərindən təmizləmək istəyirlərdi. Karamzin və onun tərəfdarları da rus dilini saf bir hala salmağa çağırırdılar. Onlar rus dilinin kəlisa-slavyan dili olduğunu iddia edirdilər. "Qaloş" sözünü atıb "mokrostup", "bulvar" sözünün əvəzinə "qulyat" sözündən "qulvar" işlətmək və bu kimi axmaq iddialar irəli sürürdülər.

Bilirsiniz ki, belə bir cərəyan bizdə də vardı, revolyusiyanın ilk illərində bütün azərbaycanca olmayan sözlərin hamısını Azərbaycan sözləriylə əvəz etmək istəyənlər vardı. Onlar aeroplana *uçquç*, samovara *qur-qur*, parovoza *buğla gedən* deyir və bu kimi yöndəmsiz sözlərlə dili düzəltmək istəyirdilər. Sovet xalqı belə dil alimlərini rədd etdi. Ancaq bu gün də yuxarıda göstərdiyim cərəyanları diriltmək istəyənlər var. Bu adamlar dili təmizləmək bayrağı altında dilə girmiş bütün ərəb, fars sözlərini atmağı təklif edirlər. Yaxud dilimizi saflaşdırmaq pərdəsi altında dili dəmir hasar içinə almaq, ona heç bir yeni sözün gəlməsinə imkan verməmək istəyirlər. Bu təşəbbüslərin hər ikisiylə bir burjua fikri kimi mübarizə aparmaq lazımdır. Biz ərəb, fars, osmanlı dillərinin təsiri ilə mübarizə deyəndə, o dillərin vaxtilə dilimizə soxulmuş ruhu ilə mübarizə məsələsindən danışırıq. "Şayani diqqət", "hissi-qəblülvüqu" və bu kimi xalqımıza yad olan, xalq

tərəfindən mənimsənməmiş, xalqın dilinə girməmiş, dilimizin ruhuna uymamış sözlərin və ifadələrin dildən qovulmasından danışırıq. Bu işdə solçuluq edənlər və məsələnin mahiyyətini anlamayıb Azərbaycan dilini ancaq Azərbaycan sözlərindən ibarət bir dil eləmək istəyənlər zərərli iş görürlər. Dilimizin lazım olmayan gəlmələrlə zibilləndiyindən danışmaq heç də dili qara qıfıl altında saxlayaraq ona heç bir yeni kəlmə və terminin girməsinə yol verməmək demək deyil.

Yoldaşlar! Gətirdiyim tarixi faktlar bir tərəfdən dilin ictimai hadisələrdən asılı olaraq dəyişdiyini göstərdiyi kimi, o biri tərəfdən də dilin dərin sinfi mahiyyətini göstərir. Sinifli cəmiyyətdə dil hər zaman sinfi mübarizə aləti olmuşdur. Bugünkü dilimizin vəziyyətindən, onun yaxşı, pis tərəflərindən danışdıqda bunları yaddan çıxarmaq olmaz.

Böyük Oktyabr sosialist revolyusiyası nəticəsində bütün siyasi-ictimai quruluş kökündən dəyişdi. Bu dəyişiklik dildə də özünü aydın göstərdi. Azərbaycan dilinin xalqımıza aydın və xalqın istək-arzularını ifadə eləyən bir şəkildə inkişaf etməsi uğrunda mübarizə apararkən heç bir zaman bugünkü dil quruluşunun böyük müvəffəqiyyətlərini yaddan çıxartmaq olmaz. Bugünkü dilimizlə 25-26, hətta 30-32-ci illərin belə dilini müqayisə eləsək, nə qədər böyük irəliləmə, inkişaf olduğunu görəcəyik. Mən təsadüfən əlimə aldığım 25-ci il "Maarif və mədəniyyət" jurnalının bir nömrəsinə baxdım. Ordakı dilə baxın: "Hər şeydən əvvəl şunu qeyd etməliyik ki, məktəb dərslərində olan qramer kəndisinə əfv edilən böyük diqqət və əhəmiyyətə rəğmən, məktəbli çocuqlar tərəfindən hala da hüsn-təvəccöh qazanmamışdır" (Zalda şən hərəkət). Yaxud "Dilə fikrin mükəmməl və məntiqi şəkillərini ifadəedici bir vasitə nəzəri ilə baxmağa, müqabil normativ qramer qruni vusta təkamülünün ənənəsini tərtib edərək faydəvi qayələr arxasınca qoşu vermiş və bu qayədə müəyyən şəkillər emal və ehzar etmişdir".

Bu dil heç bir zaman Azərbaycan xalqının dili olmamışdır. Azərbaycan dili Vaqifin "Ay qabaqlı, bulud zülflü gözəlin, duruban başına dolanmaq gərək, Bir evdə ki belə gözəl olmadı, o ev bərbad olub talanmaq gərək" misralarında əks olunmuş gözəl dilin ruhunu, ənənələrini saxlayaraq inkişaf etmişdir.

Bu günün Azərbaycan dili də belədir. Safdır, axıcıdır, gözəldir, sadədir.

Yoldaşlar! Müvəffəqiyyətlər bizimdir. Onlardan uzun-uzadı danışmaq lazım deyil. Mən istəyirəm ki, bizim bugünkü müşavirəmiz dili-

mizdəki nöqsanları, təhrifləri, özbaşınalığı, hətta bəzən baş verən cinayətləri açıb ortaya töksün, bunların aradan qaldırılmasına kömək eləsin. Əsas yolu, əsas inkişaf xətti sağlam olan bugünkü Azərbaycan dilinə bir sıra zərərli cərəyanlar gəlir ki, bunlarla mübarizə eləmək Azərbaycan sovet intelligensiyasının şərəfli vəzifəsidir. Mən dilimizdəki nöqsanları şərti olaraq iki əsas hissəyə bölürəm. Bunlardan biri dilimizə yerli-yersiz yeni sözlər gətirmək, onların mənasının başa düşülüb-düşülmədiyi ilə maraqlanmadan dili zibilləmək hadisəsidir. İkinci isə cümlə savadsızlığı, sözləri yerində işlədə bilməmək, Azərbaycan dilinin ən sadə qanun-qaydalarına tabe olmamaqdır. Soruşsanız ki, bu nöqsanların hansı daha çox qorxuludur, mən deyərdim ki, hər ikisi. Çünki hər iki hal dilimizi geniş xalq kütlələrinin dilindən ayırır, sosializm ideyalarının fəhlə-kəndli ziyalılar arasında yayılmasını çətinləşdirir. Bəzi adamlar bu pərdə altında gündə təzə bir söz çıxarırlarsa, elə bilirlər ki, dilin zənginliyi sözün çoxluğundan asılıdır.

Səməd Vurğun: – Gündə biri olsa, dərd yarıdır.

Rəsul Rza: – Bir dilin zənginliyi o dilin ayrı-ayrı anlayışları, fikri daha sadə verə bilməsi və şüurun inkişafını doğru əks etdirə bilməsindədir.

Bəzi adamlar ərəb və fars dillərinin təsiri ilə mübarizə pərdəsi altında dilimizi anlaşılmaz sözlərlə doldururlar. Mən soruşuram: Kasıb, ağıllı, sovqat, fəhlə, fabrik, vaqon, xoruz, dilxor, məktəb, adam, dünya, kolxoz, dəsmal, sovet və yüzlərlə belə sözləri işlədəndə kim bu sözlərin Azərbaycan sözü olmadığı barədə düşünür? Kim bu sözləri anlamır? Dilin qüdrəti də orasındadır ki, onillər sürən ərəb istilası, fars təzyiqi, osmanlı təsirləri altında öz ruhunu saxlamışdır. Xalqımız ərəblərdən, farslardan, osmanlılardan və başqa millətlərdən aldığı sözləri özünün dil süzgəcindən keçirərək, onları Azərbaycan dilinin ahənginə, qanunlarına uyğunlaşdıraraq elə bir hala salmışdır ki, indi çox çətinliklə o sözlərin ibtidai halını axtarıb tapmaq olar. Bizim kəndlərdə sovetlik deyirlər, məsələn, "Şıxlı sovetliyi", "Qaraməryəm sovetliyi". Demək, *sovet* sözünü xalq öz doğma malı kimi istifadə edir. Yaxud *kolxoz* sözünü götürün. Yadınızdadırmı, bizim qəzetlərimiz, jurnallarımız "*müştərək təsərrüfat*" yazırlardı. Ancaq xalq bu quru rəsmiyyətə və puristlərin dediyinə baxmadı, *kolxoz* dedi, sonra mətbuat da *kolxoz* yazmağa məcbur oldu. Eləcə də yüzlərlə ərəb-fars sözü göstərmək olar ki, onlar xalqımızın malı olmuşdur, geniş kütlələr

tərəfindən anlaşılır və onları dəyişməyə heç bir ehtiyac yoxdur. "Maliyyə" sözünün yerinə "finans" yazan yoldaşlar istəsələr də, istəməsələr də partiyanın dil siyasətini qaba bir surətdə pozurlar.

Yoldaşlar! Mən Azərbaycan Baş Sovetinin II sessiyasındakı çıxışımda qəzet işçilərimizlə bir sıra yazıçılarımızın da dili korladıqlarını demişdim. Bu yaxınlarda Yazıçılar İttifaqında keçirdiyimiz haqq-hesab və seçki konfransımızda yazıçılarımızın dilindəki nöqsanları, Yazıçılar İttifaqının orqanı olan jurnal və qəzetələrdə Azərbaycan dilinin zibilləndiyini, korlandığını bütün kəskinliyi ilə göstərmişdik. Bugünkü gündə belə "Ədəbiyyat qəzeti" və "Revolyutsiya və kultura" jurnalında bir sıra ciddi dil nöqsanları vardır. Məsələn, "Ədəbiyyat qəzeti" – *təbiri caizsə, məruz qalmaq, şayani-diqqət* və bu kimi sözlərlə birlikdə *simpatiya, razyezd, vertikal* və sairə sözləri də işlədir. Deməli, bir tərəfdən ərəb-fars dillərinin təsirini saxladığı kimi, ikinci tərəfdən dilimizin pozulmasında iştirak edir. Belə nöqsanları "Revolyusiya və kultura" jurnalında da görmək olur. Bu jurnal bizim ədəbi Azərbaycan dili nümunəsini verməklə ən mühüm bir rol oynamalı olduğu halda, özü canlı dilin inkişafından çox geri qalır və pis nümunələr göstərir.

"Kommunist" qəzetinin bəzi əməkdaşları da dilə lüzumsuz yeni sözlər gətirməkdə, həqiqətən, birinci yer tuta bilər. *Natura, uçastok, mexanizator, mobilizasiya, sort, pozisiya, transport, spekulyasiya, ekipaj, reys, produksiya, korpus, uçot, xormeyster, avariya, prosent, prostoy, komissariat, masştab, realizə etmək, maşinist, laryok, struktura, instruksiya, populyarlaşdırmaq, buksir* və bundan başqa yüzlərlə belə sözləri yazan qəzetə işçiləri bir balaca özlərinə zəhmət versələr, bu sözlərin əvəzini Azərbaycan dilində tapa bilərlər.

Bunu da yaddan çıxarmaq olmaz ki, "Kommunist" qəzeti nüfuzlu qəzetdir, rəhbər qəzetdir. Onlarla mərkəz və rayon qəzetləri, aşağı partiya və sovet işçiləri, fəhlə və kolxozçu ziyalılar ondan öyrənirlər. Bunun üçün də "Kommunist" qəzetində buraxılan səhvlərin üstündən keçmək olmaz.

Mən burada bir haşiyə çıxım: bəzi adamlar tərcümə etdikləri cümlələri mütləq sözü-sözünə, əslində olduğu formada vermək istəyərkən çox yanılırlar. Bunun üçün də elə eybəcər sözlər, cümlələr ortalığa çıxır ki, fikri düzgün anlamaq, deyiləni heç yerindən başa düşmək olmur. "Kommunist" qəzeti əməkdaşlarının dalınca "Gənc işçi" gedir, "Ədəbiyyat qəzeti" gedir. "Gənc işçi" tez "finans" sözünü alaraq

işlədir, hələ çox yeni söz də əlavə edir. Məsələn, "filan yoldaşın rezümesi", "onun arqumenti yoxdur", "o predmetin detalı", "o pozisiyadan analiz edir" və s. "Gənc işçi"nin dilidir.

Yazıçılarımızın dili üzərində ayrıca dayanmayacağam. Məndən sonra çıxan yoldaşlar bu cəhəti aydınlaşdırarlar. Ancaq bunu göstərim ki, ən görkəmli yazıçılarımızın dilində böyük hərc-mərclik vardır. Onların dilində *sobor, kupol, dvornik, eqoizm, kaşa, svita, interes, qeroik, traktovka* sözləri ilə bərabər *təhti-himayə, hissi qəbləlvüqü* və belə-belə şeylər də var. Məsələn, "Ədəbiyyat qəzeti" yazır ki, "Məcnun rolunun traktovkası düzgün deyil". Məcnun hara, traktovka hara?

Yoldaşlar! Burda bir məsələni də qəti şəkildə qoymaq lazımdır. Ayrı-ayrı qəzetlərimiz, tərcüməçilərimiz bu və ya başqa sözü dilimizə gətirəndə, iş ancaq o sözün gəlməsi ilə qurtarmır. O söz özü ilə bərabər yeni şəkilçilər də gətirir. İndi bu saat çox yerdə traktorçu yerinə traktorist yazırlar. Uçot sözünü yazanda uçotçik sözünü də yazırıq. Nə üçün gözəl *yedək* sözümüz varkən *buksir* yazmaq lazımdır. Bizim qoca analarımız deyərlər ki, "başına yüz min qəza gəldi". Yaxud "Görəsən, yazığa bir qəza üz verdimi?". Bunun yerinə bizim qəzetlər "qəza" deyil, "avariya" yazırlar. Bizim qəzetlərimizin, jurnallarımızın yolu ilə getsək, gərək kolxozçu təxminən belə danışsın: "Bu gün uçastoka getməyə məndə böyük stimul var. Amma hiss-qüblülvüqum deyir ki, mənə bir avariya üz verəcək. Doğrudur, buna arqumentim yoxdur və fikrimi detalnı analiz eləyə bilmərəm. Mənim naturam belədir, bilirəm. Fikrimi rezüme eləyəcək. Prostoy olmamaqçün bütün diqqətimi mobilizasiya edib pozisiyamda möhkəm duracam" (Gülüşlər).

Heç bir zaman bizim kolxozçu, fəhlə bu dillə danışmamışdır və danışmayacaqdır. Dilimizi belə şəklə salan yoldaşlar ancaq yazı dilimizi xalqdan uzaqlaşdırmaqdan başqa bir iş görə bilməzlər. Dili xalqdan ayırmağa heç bir kəs müvəffəq ola bilməz.

Çox zaman tərcüməçilər savadsızlıqdan dilimizdə olan sözləri bilmirlər və ona görə də söz qondarmağa başlayırlar. Bir bədii kitabın tərcüməsində ruscada yazılan "Jeltıe listya pokrılı sad" cümləsi belə tərcümə olunmuşdu: "Sarı yarpaqlar bağı örtmüşdü". Azərbaycancada *xəzəl* sözü var, *sarı yarpaq* deməyə ehtiyac yoxdur. "Kommunist" qəzetində "dərz qalağı" yazırlar. Bizim kəndlərdə dərzləri bir yerə yığıb ona *pencə* deyərlər. Bunu da yəqin ki, tərcüməçilər bilmir. Çünki yazıçılar, tərcüməçilər geniş xalq kütlələri ilə çox az görüşürlər. Onlar

kabinet adamları olublar, canlı xalq dili ilə əlaqəni itirdiklərindən o dilin zəngin xəzinəsindən istifadə edə bilmirlər.

Xalq dilinin zəngin xəzinəsinə müraciət etsəydilər, tərcüməçi yoldaşlar ayrı-ayrı sözləri, ifadələri azərbaycanca demək üçün yaxşı əvəz taparlardı. Məsələn, rusca "pri jizni" sözlərini "öz həyatında" tərcümə edirlər. Əvvəla, bu düz deyil, ikinci, bizdə "öz həyatında" deməzlər, bu quru kitab dili, süni dildir. "Filan adamın sağlığında bu iş oldu" deyərlər. Hətta belə bir ifadə də var ki, "Sağlığında kor Fatı, öləndə badam gözlü".

Yazıçılarımızdan biri yazır: "İnqilabi həyəcanla çırpınan çöhrələrə bir ürkəklik çökdü". Yazıçıdan soruşan gərək, insan çöhrəsindəki inqilabi həyəcanın xüsusiyyətləri nədən ibarətdir və çöhrə necə çırpına bilər. Aydındır ki, öz qəhrəmanına insana məxsus xasiyyətləri verə bilməyən yazıçı *inqilabi* sözlə başını qurtarmaq istəmişdir və nəticədə gülməli bir cümlə çıxmışdır.

Azərbaycanda *səhəng* sözünün bir çox şəkilləri vardır. Balaca böyüklüyündən asılı olaraq *cürdək, sovça, bardaq, səhəng* və sairə kimi adları var. Bizdə *at* təxminən 14-ə qədər sözlə ifadə olunur: *at, madyan, ürgə, qurquru, dayça, köhlən, alaşa, ayqır* və sairə. Heç bir zaman azərbaycanca yazılmış bir əsər rus dilinə tərcümə olunduqda bu sözlərin hamısını mexaniki surətdə rus dilinə keçirmək olmaz. Birinci növbədə rus dilinin öz ehtiyatlarından istifadə etmək lazımdır. Çünki rus dilinin öz qaydası, öz ifadə formaları var. Bir şeyi, bir hadisəni ifadə eləmək üçün ana dilində söz və ya söz birləşməsi olmadığı halda dilə yeni söz gətirilə bilər. Rus dilində bir sıra başqa xalqların sözləri olduğu kimi, Azərbaycan sözləri də vardır: *saz, çinar, salam* və sairə. Eləcə də, Azərbaycan dilində tamamilə adi bir şey olaraq bir çox əcnəbi sözlər vardır ki, bunlar bizim dilə lazımdır və onları mütləq dilimizdə saxlamalıyıq. Ancaq bir qardaş xalqdan və ya başqa millətdən aldığımız sözlər mütləq Azərbaycan dilinin öz qanununa, Azərbaycan dilinin qrammatikasına, Azərbaycan dilinin bütün incə xüsusiyyətlərinə tabe edilərək işlənməlidir. Birdəfəlik anlamaq lazımdır ki, dilin qanunu, dilin ruhu sözlər üzərində hakim olmalıdır. Əgər hər yeni aldığımız sözə görə bir qanun, bir qayda düzəltsək, o zaman on il sonra Azərbaycan dilindən nə qalar?

Mən *büdcet* sözünün *byüdcet* yazılmasına, *Şedrinin Şçedrin* yazılmasına və bunlar kimi sözlərin bəkarətini saxlamaq uğrunda canfəşanlıq göstərənlərə qarşı qəti etiraz edirəm. Mən yüzillərlə xalqımızın

işlətdiyi və alışdığı *Ərəbistan, Hindistan, Almaniya* və bu kimi sözlərin *Araviya, İndiya, Germaniya* kimi yazılmasına etiraz edirəm. Belə olsa, gərək *Gürcüstan, Ermənistan* yerinə də *Qruziya, Armeniya, gürcü, erməni* yerinə *qruzin, armyanin* yazaq.

Yoldaşlar! Dilimizdə nöqsanların ikinci qrupu cümlə nöqsanları, sözləri yerində işlədə bilməmək bəlasıdır. Hələ cümlə quruluşundakı nöqsanlardan danışmazdan mən bir neçə misal gətirmək istəyirəm ki, lüzumsuz sözlərin dilimizə girərək onu necə yöndəmsiz bir şəklə saldığını aydın görəsiniz. "Ədəbiyyat qəzeti" 18 yanvar nömrəsində belə yazır: "Stanislavskini aktyor tərbiyəsi üçün yaratdığı sistemində aktyora həmən bacarığı öyrədir. Bunun üçün uprajneniyalar və etüdlər vasitəsilə psixo-texnika priyomlara alışmaq lazımdır".

Bu nə dildir? Yaxud, "incəsənətin mahiyyətini aydınlaşdırmaq iddiasında olan estetika nəzəriyyələri, normativ doqmatik ehkamlar doğurur". Belə bir cümləni muzeyə qoymaq lazımdır ki, camaat bu eybəcər məxluqa baxıb müəllifinə afərin desin.

Hələ bu cümləyə baxın: "Əmək prosesləri vertikal heyvanı adama çevirmişdir".

Çox təəssüf ki, həmin bu əmək prosesi bəzi tərcüməçiləri hələ də adam eləyə bilməmişdir.

Dilə qarşı mülkədar ağayanalığı göstərmək, öz avamlıq və kulturasızlığını qəzetə səhifələrində utanmadan nümayiş etdirmək dözülən bir hal deyil. "Azərbaycan fizkulturniki" qəzeti bu işdə, doğrudan da, klassik bir nümunə göstərmişdir. Mən oxuyum, siz qulaq asın: "Lokomotiv"in sağ kənar hücumçusu kornerdən topu düşmən qapısı üzərinə qaldırdı. Alimkin qüvvətli hücumla hesabı açır. Dyaçkov özünə gəlməmiş Udkov üçüncü dəfə topu qapıdan buraxır. Taymın axırına qədər dəmiryolçular böyük üstünlüklə düşmən qapısını gülləbaran edirlər. Onlar gözəl kombinatsiyalar düzəldir və lazım gələn momentdə topu seqtaya göndərirlər. Oyunu yüksək taktika ilə aparırlar. Zədələnmiş Alimkini Mityuşkin əvəz edir. Yalnız 43-44-cü dəqiqələrdə dənizçilərin sağ insaydı Şemyaçov hesabı yaşlayır".

Mən bilmirəm, bəlkə də, "Fizkulturnik" hesabı "yaşlamışdır". Ancaq xəbərdarlıq eləməliyəm ki, "Fizkulturnik"in dilindəki bu yaşlıq, rütubət məntiqi qanuna görə artıq kiflənmişdir.

Yoldaşlar, mən məruzəyə hazırlaşarkən mümkün qədər çox sahəni əhatə eləmək istəyirdim. Ancaq bilirsiniz ki, bütün sahələri əhatə

eləmək mümkün deyil. Mən bir neçə misalla kifayətlənirəm. Çıxan yoldaşlar ayrı-ayrı sahələrdən ətraflı danışarlar. Bu yaxınlarda Kirov adına parkda gözəl bir gənclik karnavalı keçdi. Karnavalın özü ilə işim yoxdur. Ancaq onun elanlarında belə bir şeir tərcüməsi var idi:

Svinqlər, patriotlar, aşıqlar, falçılar,
Feyerverk, qaraçılar, silahlı tapmacalar.
Qoyunlar, oyunlar, ayılar, tansorlar
Rəng və rəng lələlərdən rəngli hörüklər
Ən yaxşı karnaval kostyumu konkursu.

Həm də tək deyil, yeyinti və içki üçün 30 kioskda karnaval gecəsi açılacaqdır".

Burda bircə şey əskikdir. Gərək şerin altından "hər kəs bundan bir şey başa düşsə, muştuluğu var" sözlərini yazaydılar.

Bizim nəşriyyat idarələrində, jurnal və qəzetələrdə işləyən yoldaşlar bilirlər ki, Qlavlit işçiləri bir kəlmə, bir vergül üstündə uzun-uzadı danışığa başlayıb adamı on dəfə gedib-gəlməyə məcbur edirlər. Qlavlit işçiləri keçən əsrdə Kiplinq tərəfindən yazılmış əsərdə "qızıl itlər" sözü üçün uşaq ədəbiyyatı işçilərini bir ay get-gələ saldı. Ancaq, nədənsə, belə-belə elanların üstündə Qlavlit işçiləri tərəddüdsüz qollarını çəkib, möhürlərini basırlar. Çünki Qlavlit işçiləri səhvləri rəsmi bir cədvəl ilə axtarırlar. "Qızıl itlər" demək olmaz, guya Kiplinq bu sözlə bizə sataşır. Belə məsuliyyətsizliyin məntiqi nəticəsi olaraq, doğrudan da, səhv olan şeylər, yuxarıda gətirdiyim kimi, biabırçılıqlar Qlavlit işçilərinin gözündən qaçır. Qəzetə, jurnallarımızda olan dil hərcmərcliyi yeni yazmağa başlayan yoldaşlara olduqca ziyanlı təsir edir.

Məsələn, mən belə məktublar alıram: "Bununla yazıb sərəncamınıza məlum edirəm ki, mənim şeir yazmaq həvəsim artmışdır". Bu sözlərdən sonra şeir başlayır:

Yoldaşlar, diqqət yetirin bir böyük dastan yazıram,
Partiyanın birinci qurultayının Minskdə çağrılmasından yazıram.
Bu qurultayın 9 deleqatında Lenin olmasından yazıram.
Lenin sürgündən məktub yazır, mən onun kimi mərddən yazıram.

İkinci şeir ondan da qiymətlidir. Şairlik iddiasında olan yoldaş yazır:

Yaxşı olur kolxoz əkinləri
Hazır gəlir ayaqqabı tikənləri
Kolxozda çalışan ürəklə
Zəmidə alır qəhrəman ordenləri.

Mən bu yoldaşları qınamıram, çünki "Ədəbiyyat qəzeti"nin, "Revolyusiya və kultura"nın, "Kommunist"in, "Gənc işçi"nin, xüsusilə, "Azərbaycan fizkulturniki" qəzetinin dildə yaratdığı hərc-mərclik məntiqi olaraq belə nəticə verəcəkdir. Belə yazan yoldaşlardan çox vaxt "Bu bilik, bu savadla nə üçün şeir yazırsan?" – deyə soruşduqda, onlar qəzetlərimizdə gedən bəzi materialların, hətta şeirlərin dilini misal gətirərək, "onlardan pis yazmırıq ki" deyirlər. Bu, doğrudan da, belədir. Dildə hərc-mərclik yaradanlar yalnız qəzetlərdə, jurnallarda deyil, bu xəstəlik elmi müəssisələrə, məhkəmə və sovet orqanlarımıza da yayılmışdır. Ali Məhkəmə qərarlarında çox zaman belə cümlələrə rast gəlmək olur: "Təmyiz şikayət verən zərərdidənin təmyiz şikayəti biəncam buraxılmış". Belə cümlələri oxuyanda yadına mollaxana düşür.

Mən əlimə keçən bir triqonometriya kitabında bu cümlələri oxudum: "Qorizontal və vertikal müstəvilər üzərində proyeksi yazı cızılan uzucu panton qranının sxeması 27-ci çertyojda verilmişdir".

Bu təsadüfi bir parça deyil. Fizika, kimya, coğrafiya kitablarını alsanız, başdan-başa belə cümlələrlə doludur. Vaxtilə qoca Hegel yazırdı ki: "Ad mürəkkəbliyi sadələşdirən bir şeydir". Bu gətirdiyimiz misallarda olan adlar və sözlər haqqında Hegelin sözünü tərsinə çevirib "ad sadəliyi mürəkkəbləşdirən bir şeydir" demək lazım gəlir. Qəzetə və jurnallarımızda, nəşriyyat idarələrimizdə tərcümə ilə məşğul olan yoldaşlar ana dilini yaxşı bilmədiklərindən tərcümə etdikləri material dilinin təsirinə düşürlər. Onlar Azərbaycan cümlələri əvəzinə, tüstüsü düz çıxsın deyə, qəribə cümlələr yazırlar. Məsələn:

"Şəkər çöküntülərinin yüksək məhsulunu götürmək üçün kolxoz və sovxozlarda bütün aqrotexniki tədbirlərin keçirilməsini təmin edərək çuğundurun boy atdığı bütün dövr ərzində taxılbitinə, tarla kəpənəyinə, payızlıq sovkaya və başqa zərərvericilərə qarşı mübarizə edilməsini, cərgələr arasının, azı, iki-üç dəfə yumşaldılmasını, bir-iki dəfə əlavə yerli gübrə və mineral gübrəsi verilməsini təşkil etsinlər". Yoldaşlar, bundan nə başa düşdünüz? Belə cümlə yazan yoldaşların

məqsədi nədir? Bəzən elə cümlələr olur ki, onların yanlışlığı birdənbirə duyulmur. Lakin diqqətlə oxuduqda görürsən ki, sözlər mexaniki surətdə tərcümə edilib yan-yana düzülmüşlər. Yazırlar ki, "Puxlyakov məsafəni yaxşı keçərək üç dəqiqə 19 saniyə nəticə ilə finiş lentini kəsmişdir". Bu cümlənin sonuna fikir verin, bu, Azərbaycan dili deyil. Yaxud "Pioner təşkilatına Vladimir İliç Leninin adının verilməsinin 15 illik yubileyi... ("Gənc işçi"). Yenə də "Gənc işçi"də belə qəribə cümlələr yaradırlar: "Qonşu otaqda mahnı səsləri havanın fəzasını dağıdırdı". Bu cümlə tam savadsızlığın nümunəsidir.

"Ədəbiyyat qəzeti"ndə belə bir cümlə vardı:

"Şəxsi hissləri ifadə edərkən hüdudu aşmaq, daha da xırdalamaq, cürbəcür lazım olmayan keçici inamlara sistematik uymaq və subyektivizmə qapılmaq qorxusu var. Belə yaradıcılıq halına düşən yazıçı həyata aydın, doğru və tutarlı baxışı itirərək bu və ya başqa yüngül təsirlə tez-tez dəyişən və səthi, guya sentimental münasibət bəsləyir".

Mən sual eləyirəm ki, belə biabırçılığa düşən yazıçının halı görəsən, necə olur?

"Kommunist" yazır ki, "Qlavneftsbıtın Kaspi dənizində neftdaşınması üzrə müvəkkilliyi böyük tonnajlı tankerlərin prostoy etməsinə səbəb olur".

Bu gətirdiyim misallar savadsızlıqdır, yoxsa cinayətdir? Mənə elə gəlir ki, bunların içində hər ikisi vardır. Görün qəzetdə gedən səhvlər haqqında təshihi necə verirlər:

"Qəzetəmizin 10 iyul tarixli "Pravda"nın "Sosyalist heyvandarlığının yeni yüksəlişinə doğru" sərlövhəli baş məqaləsinin birinci sütununun başdan ikinci abzasının yuxarıdan ikinci sətrindəki "XVIII Qurultayda XVII Qurultayda oxunmalıdır".

Aydın bir şeydir ki, belə təshih oxucunu təzədən elə dolaşdıracaq ki, yazıq bayaqkı bir səhvin əvəzində indi bütün cümləni bir daha oxuyub heç nə anlamayacaqdır.

Yoldaşlar! Mən danışdıqlarımı rezümə yox, xülasə eləmək istəyirəm. Bu müşavirəni çağırmaqda, bu qədər misal gətirməkdə, bu tənqidi danışıqlarda məqsədimiz nədir? Biz nə istəyirik?

Partiyanın dil siyasəti, qurduğumuz milli formalı, sosialist mündəricəli kulturanın inkişafı bizdən nə tələb edir? Dilimiz hansı yollarda inkişaf etməlidir? Bilirsiniz ki, dil xalqın ümumi kulturasının mühüm və ayrılmaz bir hissəsidir. Bugünkü qardaş rus xalqının kulturasını

alın, başqa qardaş sovet xalqlarının kulturasını alın. Bunların mündərəcəsi sosialist mündərəcəsidir. Bu kulturalar sosializmin qələbələrini əks etdirərək inkişaf edir. Ancaq onlar milli formada inkişaf edir. Öz milli şəklini artırır, zənginləşdirir. Dil də bu əsaslar üzərində irəliləyir. Bizim tələbimiz bugünkü Azərbaycan dilinin ruhuna, ahənginə uyuşan sözlərin hansı xalqdan alındığına baxmayaraq, burunlayıb dildən çıxarmaq deyil. Bizim başqa sovet xalqları ilə, bütün dünya ilə ictimai əlaqələrimiz var. Odur ki, təbii olaraq dilimizə bir sıra yeni terminlər, yeni sözlər gəlir. Bu yolla dilimiz zənginləşir. Bu hadisənin qarşısına çıxmaq tarixi qanunları, partiya siyasətini anlamamaq deməkdir. Eyni zamanda, bu təbii hadisədən ehtikarlıq edənlərlə, yerli-yersiz dilə yeni, əcnəbi kəlmələri gətirənlərlə kəskin mübarizə etməliyik. Deməli, mübarizə iki cəbhədə aparılmalıdır. Deməli, hər iki halda xalturaçıların başı əzilməlidir.

Biz istəyirik ki, gələcəkdə də dilimiz ərəbçilik, farsçılıq, osmançılıq təsirinin qalıqlarından təmizlənsin, ancaq bu iş "mobilizasiya", "prujina", "kapitalist okrujenyesi" yazmaqla yox, birinci növbədə xalq dilinin zəngin xəzinəsi hesabına, dilimizin öz imkanları hesabına olsun. Mənə elə gəlir ki, məsələ və bizim tələblərimiz aydındır. (*Alqışlar*)

MÜLAHİZƏLƏR

Dilin ifadə bacarığının yeni çalarla yetkinləşməsi, lüğət sayının yeni və yeniləşmiş sözlərlə zənginləşməsi, bir sözlə, dilin harmonik, intensiv inkişafı üçün onun gərəkliliyi mühüm şərtdir. Metal alət işlədilməsə, paslanar. Dil işlədilməsə, get-gedə kəsərini, məna dəqiqliyini, ifadə incəlik və gözəlliyini itirər, inkişafdan qalar.

Son on ildə Azərbaycan dili xeyli inkişaf etmiş, zənginləşmiş, gəlmə, gətirmə kəlmələr tərkiblərdən xeyli təmizlənmişdir.

Hələ də yazı qaydalarımızda, sözlərin deyimi və yazılışında düzəlməli cəhətlər var.

Hələ də heç bir məntiqi və semantik gərək olmadan təsdiqedici əlavə sözlər bol-bol işlədilir. Özü, özünün, özünə və bu kimi. "Müşavirə işini qurtardı" yerinə, "Müşavirə öz işini qurtardı" yazırıq, deyirik. "Əhməd oğluna nəsihət elədi" yerinə, "Əhməd öz oğluna nəsihət elədi".

Bəzən bu "öz" sözü gərək olur. Məsələn, belə bir cümlədə: "Əhməd uşaqların mübahisəsinə qulaq asdı, öz oğlunu danladı", ya "Əhməd kitablar arasından öz kitabını götürdü".

İndiki danışıq və yazı dilimizdə "artıqlaması ilə", "plana dair" və bu kimi sözlər geniş işlənir. Məlumdur ki, "artıq" sözünün çox ifadə edən mənasından başqa bir də qalıq ifadə edən mənası vardır. "Artıqlama" isə uydurma sözdür, hələ "sı" da əlavə ediləndə eybəcər bir söz yaranır. Bir halda ki, "daha çox", "daha artıq" deyilərsə, həm aydın, həm də yaxşı olar.

Mətbuatda və danışıqda tez-tez işlədilən "kol" sözü də mexaniki tərcümə bəlasıdır. Əslində "kust" *kol* deyil, dəstə, *topa* mənasındadır.

Ata-babadan "nar topası", "gül topası", "pambıq topası" eşitmişik. İndi "gül kolu", "pambıq kolu" yazırıq. "Kol" sözü azərbaycanca, mənə məlum olan, iki halda işlənir – "Böyürtkən kolu, qaratikan kolu". Hər iki halda *kol* sözündə bir mənfilik duyulur.

Dilin inkişafı üçün yaradıcı əlavələrin əhəmiyyəti çoxdur. Rus dilinin zəngin ifadə çalarlarında belə ön artım və son artımların nə qədər böyük imkanlar yaratdığı məlumdur.

Biz *qeyri, anti, əks, na, bi* və bu kimi sözün mənasını tamam dəyişən əlavələrdən yaradıcı şəkildə istifadə etməli, onların tətbiq dairəsini zənginləşdirməliyik.

Bizdə ayrı-ayrı sözlərə "baz" əlavə etməklə yaranan sözlər var ki, onlar, adətən, mənfi məna daşıyırlar. *Quşbaz, qumarbaz* və bu kimi. Bu qəbildən yaranmış söz birləşməsi "inqilabbaz" sözü məna dolğunluğu etibarilə böyük cümləni əvəz edir.

Fiziki aləmin diffuziya (hopma) qanunu mənəvi aləmdə də vardır. Bu ən çox dil sahəsində görünür. Dünyada az-çox inkişaf etmiş elə bir dil yoxdur ki, o, başqa xalqların dilindən faydalanmamış olsun.

Yalnız ayrı-ayrı kəlmələr deyil, bəzi ifadə formaları da bir dildən başqa dilə keçə bilir.

Bu götürmələr, gətirmələr ana dilinin ruhuna, deyiminə, ahənginə, qrammatik qaydalarına, bir sözlə, qanına-canına yatırsa, xaric səslənmirsə, bu, dili zənginləşdirir. Vay o haldan ki, o, başqa xalqın dilindən alınmış kəlmə, qanun və ahəng xüsusiyyətlərimizi nəzərə almadan dilə pərçim edilsin.

Hər dilin əsrlər boyunca yaranmış biçimi, dadı-duzu var. Onun sözlərinin, ifadələrinin, deyiminin özünəməxsusluğu var. Bu çalarlar

bəzən qabarıq, bəzən haman-haman duyulan olur. Dilin bu incəliklərinə toxunanda o sızlayır, göynəyir.

Bəzən bir söz başqası ilə necə qoşalaşdığından asılı olaraq yeni məna çaları verir.

"Qırmızı", "düz", "yaş" sözlərinə "qıp", "düm", "yam" əlavələr etməklə onların mənasında yeni şiddət, daha artıq məna çalarları yaranır: "Qıpqırmızı", "dümdüz", "yamyaşıl". Burada tədqiqi və izahı gərək olan bir hal da var. Bütün belə qoşalaşdırmalarda əlavə hissə əvvəl, sözün əsli sonra gəlir – "yumyumşaq". Yalnız ağ sözündə əlavə ikinci sıraya keçir: "Ağappaq". Niyə?

Dil mədəniyyətindən danışmaq o dilin hələ çözülməmiş problemlərini açmağa çalışmaqla bağlıdır. Bu vaxta qədər Azərbaycan dilində olan idiomların izahı, onların tarixi bioqrafiyası, ifadə zənginliyi haqqında tutarlı bir əsər yoxdur.

Başqa dillərdən alınmış sözlərin dilimizdə necə, nə şəkildə işlənməsi haqqında çox az danışır, az yazırıq.

Xalq arasında *silis, silistçi, yaranal, koburnat* və bu kimi sözlər var. Bunların əsli məlumdur, lakin bu şəkildə işlənməsinin mənfi, ya müsbət olduğu haqqında fikir yoxdur. Məncə, belə həyat təcrübəsi haqqında düşünmək, danışmaq, yazmağa dəyər.

Əlbəttə, bu kimi faktları ehkam halına salmaq lazım deyil. Bəlkə də bir etalon kimi yox, bir nümunə kimi bu yoldan istifadə etmək gərəkdir. Alınma, gətirmə sözləri bəkarətini saxlamaq "prinsipi" əsasında deyil, dilimizə yatımı, deyimi, hamarı əsasında işlətmək yaxşı olar.

Məşhur rus alimi Vladimir Dal demişdir ki, tatarların "yaxşı" sözü ruscada həm yazımı, həm mənasına görə dəyişmiş, rus dilinə uyğunlaşmışdır. Bu sözdən yaranmış "yakşatsa" sözü rus dilində müəyyən mənfi məna almışdır. Həm də bu sözdən rus dili qanunqaydasına uyğun feil forması yaranmışdır. Bu doğru yoldur. Yüzlərlə ərəb, fars, türk, fransız, ingilis, alman sözünü rus dili qaynadıb əritmiş, öz ahəng və qaydalarına uyğunlaşdırmış, özümləşdirmişdir.

Elə sözlər, tərkiblər də var ki, onlar dildə çox geniş işləndiyinə baxmayaraq, gətirildikləri dilin dadına-duzuna uymamış, dil üçün özümləşməmişdir.

Əhvali-ruhiyyə, rifahi-hal, sərf-nəzər, nöqteyi-nəzər, tərcümeyi-hal və bu kimi. Belə sözlərin bəzisini anlaşımlı Azərbaycan sözü ilə əvəz etmək olar və lazımdır. Məsələn, *rifahi-hal* yerinə "dolanacaq" demək yaxşı deyilmi? "Güzəran" sözü də daha aydın və dilə yatımlıdır.

Azərbaycanca *qırım* ifadəsi var. Doğrudur, *əhvali-ruhiyyəni* bu söz hələlik əvəz etmir. Vərdiş gücü buna yol vermir. "Təhər – tövr" məna çaları da var. Lakin işlənsə, dilin axarına girsə, qulağımıza yatıb adiləşər.

Problemlərin öyrənilmək gərəkliyini unutmamaq lazımdır. Dilimizin inkişafı üçün yeni söz yaratmaq mühüm şərtdir. Bu, yaradıcılıq ehtiyacından doğan elmi, məntiqi bir hadisə olmalıdır. Yaradılan yeni sözlər, ya yeniləşdirilən sözlər dilin tarixi gəlişi – axarından doğmalıdır. Belə sözlərin kiçik, böyük, aydın və dumanlı qaynaqları dilin semantik əhatə dairəsində, lüğət imkanlarında olmalıdır.

H.B.Zərdabi haqlı deyir: "Dil bir şeydir ki, öz halında saxlamaq mümkün deyil. Elə ki, artıq şeylər elə gəldi və alətlər dəyişdi, təzə sözlərin qədəri gündən-günə artacaqdır. Belə sözlərin artmağının dilə zərəri yoxdur, xeyri var".

Yeni kəlmə, tərkiblərin işlənməsində yaradıcı prinsip olmalıdır. Dilə gərək olan, uyar olan, dilin qəhətliyini doldura bilən sözlər qalacaq, olmayanlar lazımsız bir şey kimi sıradan çıxacaq. Belinskinin sözləri ilə desək, "...dilin dühası yazıçılardan daha ağıllıdır. Nəyi saxlamaq, nəyi tullamaq lazım olduğunu bilir".

Ancaq elə olur ki, dil haqqında fikir söyləyən bəzi mütəxəssislərin yazılarındakı ayrı-ayrı cümlə, söz birləşmələri məndə təəccüblə qarışıq təəssüf hissi doğurur.

"Bu eksperiment, təcrübə dildə hərc-mərcliyə, özbaşınalığa aparıb çıxarmazmı?" kimi.

Hansı məntiqlə "səciyyə daşıyır" demək olar, "vurğun kəsildim" demək olmaz? Nə üçün "anmaq" demək olar, "anımlı" demək olmaz. "Duymaq"dan "duyum" sözü yaratmaq niyə qəbahət olsun? "Olmaq" sözü var, "ölmək" sözü var. Hansı məntiqlə "olum" sözünü rədd edib, "ölüm" sözünü işlətməliyik. Deyirlər: çünki belə demirlər. Nə olsun demirlər, deyərlər.

Məncə, bu və bu qəbildən olan etirazlar, mübahisələr, fikir ayrılıqları hökm şəklində deyil, müzakirə, götür-qoy eləmək üçün bir baxım nöqtəsi şəklində olmalıdır. Fikirlər toqquşanda həqiqət aydınlığı doğar deyiblər.

Mexaniki tərcümə bəlası da əleyhinə ciddi mübarizə aparılmalı bəladır.

"Nəqliyyatı idarə edən (adı çəkilir) – nəqliyyat vasitəsini yol örtüyündən kənara çıxarıb səhvə yol vermişdir". Belə cümlələr nadir

deyil. Bu cümləni adi Azərbaycan dilində deməli olsaq, belə deməliyik: "Maşını sürən... səhv eləyib yoldan kənar çıxmışdır". "Vəziyyət özünü göstərir", "Saylardan sonra isimlər heç vaxt cəm şəkilçisi qəbul etmir", "İpəkçiliyə dair plan" və bu kimi cümlələrin süniliyi, tərcümə qoxusu ilk baxışda aydın görünür, duyulur.

Hər yerdə, həmişə qrammatik qaydalar dili müəyyən çərçivədə saxlaya bilərmi?

Lambertə yazdığı məktubda Turgenev deyir: "...broju əvəzinə, bredu kimi kiçik qrammatik səhvlər Sizin dilinizə ancaq gözəllik verir".

A.S.Puşkinin məşhur sətirlərini xatırlayaq: "Qrammatik səhvi olmayan rus dilinə mən dözə bilmirəm".

Bunlar sözgəlişi deyilmişdirmi? Yox! Bu, qrammatik qaydalara etinasızlıq çağırışdırmı? Yox. Bu, olsa-olsa, dilin canlı bir orqanizm olduğuna, daim zənginləşmə, təkmilləşmə prosesində olduğuna işarədir. Qrammatik qaydalar mövcud dil əsasında yaranır. Dilin qanunauyğunluqlarını sistemləşdirir, bir sözlə, dil materialından doğur. Bu gün səhv sayılan bir ifadə, söz, tərkib sabah varlığını doğrulda bilər.

Formal yanaşsaq, "qəzet yazır" sözləri bizdə təəccüb doğura bilər. "Qəzetdə yazılmışdır", daha dürüst desək, "dərc olunmuşdur" deməliyik.

Lakin sözlərin belə düzümü bir şübhə, etiraz, qeyri-təbiilik hissi oyatmır.

Sabir yazır: "Adətimiz daş idi, dava günü". Necə? Adət necə daş olur? Bu suallar formal məntiq yolu ilə təbiidir. Burada "atmaq" sözü çatmır. Gərək "Adətimiz daş atmaq idi dava günü" deyilsin. Aydındır ki, Sabirin yazdığı daha lakonik olmaqla məna anlamında heç bir "necə?" doğurmur. Sabir "Gəl-gəl, a yaz günləri" deyir. "Gəlin" demir. Bu, qrammatik baxımdan "səhv", əslində isə düzdür. Demək, dilin müəyyən qaydalarını gözləmək şərtdir, lakin dili məhdud qaydalar çərçivəsində saxlamaq lazım və mümkün deyil.

Elə qeyri-Azərbaycan sözləri var ki, onlar vətəndaşlıq qazanıblar. Bunlardan yan durub köhnəlmiş sözləri saxlamaq, köhnəyə qayıtmaq nəyə gərəkdir? Dünyanın bütün mədəni xalqları "internasional", "universitet", "partiya" deyir. Bu da qanunauyğun tarixi bir prosesdir. Bu prosesdən kənarda qalmaq olmaz. Bəzi hallarda isə dilimizə gətirmə olan ərəb-fars tərkibli sözləri aydın, səlis Azərbaycan sözləri

ilə əvəz etmək xeyirlidir. "Beynəlxalq" deməkdənsə, "xalqlararası" desək, daha yaxşı olmazmı?

Dilçilik sahəsində çalışan alimlərimiz dilimizin uzaq tarixi ilə az məşğul olurlar.

Dilimizdə olan ayrı-ayrı qalıqları dərindən təhlil edib, dilin inkişaf yolunu aydınlaşdırmaqda görüləsi işimiz çoxdur. İndoneziyalılar bir şeyin çoxluğunu bildirmək üçün sözü təkrar edirlər. Onlar "yoldaş" sözü yerinə "kavan" sözünü işlədir, "yoldaşlar" demək lazım gələndə bu sözü təkrar edir, "kavan-kavan" deyirlər. Eləcə də "institut-institut" və bu kimi.

Mənə elə gəlir ki, azərbaycanca da belə cəm şəklinin qalıqları var. *Qoşun-qoşun, qat-qat, dönə-dönə, dəstə-dəstə* və bu kimi. Doğrudur, bu söz təkrarında müəyyən şəkil çaları var. Lakin "qat-qat artıq" dedikdə çoxluq nəzərdə tutulur. *Dəstə-dəstə, qoşun-qoşun* dedikdə yenə də çoxluq əsas mənadır.

Bəlkə də ilk baxışda bunlar dil mədəniyyətinə doğrudan-doğruya bağlı mülahizələr deyil.

Ancaq dil mədəniyyətini anlamaq, onu gözləyə bilmək, onu inkişaf etdirmək üçün dilimizin tarixi durumu, inkişaf yolunun müxtəlif problemlərini öyrənməyin gərəkliyini unutmaq olmaz.

Dilə gətirilən sözlərdə eləsi olur ki, yaşayıb az-çox ömür sürə bilmir. Dilə yatmır, mənanı dəqiq ifadə edə bilmir, sıradan çıxır. Elə yeni sözlər də var ki, dilin təbii bir elementi kimi kök salıb qalır, yəni məna çalarları yaratmağa imkan verir.

Nədənsə bəzən belə sözləri qapıdan qaytarmaq təşəbbüsləri olur. Çox zaman dil qeyrətini çəkmək vəzifəsini ancaq özünəməxsus bir imtiyaz bilənlər "Bizdə belə demirlər", "Bu, uydurmadır", "Eybəcər" və bu kimi "qorxulu" sözlərlə müddəalarını qeydsiz-şərtsiz qəbul etdirməyə çalışırlar.

Azərbaycan dilində *ötəri, keçəri, köçəri, gedəri, səfəri* və bu kimi sözlər var. Bu əsasda öləri sözünü işlədəndə (Esxilin "Zəncirlənmiş Prometey" əsərinin tərcüməsində) etiraz səsi eşidirik. Niyə?

Azərbaycan dilində *görüm, baxım, içim, gəlim, verim, atım* (bir atımlıq barıtı var), *yeyim, geyim* və bu kimi sözlər var. Bu vaxta qədər böyük bir nazirliyin adı "Yeyinti sənayesi" şəklində işlənir. Məlumdur ki, yeyinti mənfi mənada olan sözdür (filan yerdə bu qədər yeyinti olmuşdur). Bu nazirliyi "Yeyim nazirliyi" adlandırmaq təklifi nədənsə

etiraz doğurur. "Nəyə isə, kimə isə oxşayır!" deyirlər. Belə qeyri-elmi, sığortaçı mülahizələrin, təəssüf ki, tərəfçiləri var.

Dilimizin ayrı-ayrı problemləri haqqında açıq, sərbəst, geniş müzakirələr lazımdır. Həm də bu fikir dəyişmələrində həqiqəti ortaya çıxarmaq əvəzinə müxtəlif izmlərlə damğalamaq həvəskarlarını dəlil, məntiq, inamla yerinə oturtmaq lazımdır.

SESSİYADA ÇIXIŞ

Deputat yoldaşlar! Bizim quruluşumuzun mahiyyəti elədir ki, partiya, hökumət tərəfindən qəbul edilən tarixi qərarlar, mühüm dövləti tədbirlər əməkçi insanların səadəti naminə, ölkəmizin sürətlə inkişafını təmin etmək, onun varını, qüdrətini gündən-günə artırmaq üçün qəbul edilir.

Hər il sənaye, kənd təsərrüfatı, səhiyyə, elm və mədəniyyət işlərinə sərf olunan milyardlarla pul bu qərar və tədbirlərin həyata keçirilməsini təmin edən lazımi maddi əsasdır.

Sovet hakimiyyəti illərində Azərbaycan xalqı səhiyyə-sağlamlıq sahəsində böyük nailiyyətlər qazanmışdır.

Xəstəxana, doğum evləri, məsləhətxanalar, tibb-feldşer məntəqələri, həkim, mama və başqa tibb işçilərinin sayı ildən-ilə artır. Onların keyfiyyəti keçmişlə müqayisə edilə bilməyəcək dərəcədə yüksəlmişdir. Bir sıra ağır azarlar aradan qaldırılmış və qaldırılmaqdadır.

Lakin bütün bunlardan az mühüm olmayan bir cəhət də vardır. O da əhalinin şüurunda əmələ gəlmiş ciddi dönüşdür. Aparılan müalicə və xəstəlikləri qarşılamaq tədbirlərinə, həkimlərimizə, tibb elminə əhalinin inamı qat-qat artmış, möhkəmlənmişdir. Yüzlərlə, minlərlə adam indi cansağlığının qədrini daha yaxşı bilir.

Bir zaman əhalinin bir qismi arasında, xüsusilə kənd əhalisi arasında kök salmış, "təvəkkül", "Allah özü bilən yaxşıdır" kimi köhnə zehniyyət, ötüb-keçən günlərin qaranlığında qalır, təbabətin gücünə inanmamaq, həkimə müraciət etməyi özünə ar bilmək kimi avamlıq halları sürətlə azalır, məhv olur.

Geniş əhali kütləsi vaxtlı-vaxtında həkimə müraciət etmək, azarlar və onları doğuran səbəblərlə kəskin mübarizə aparmaq zərurətini hər gün daha artıq dərk edir.

Bir sözlə, təbabət, həkim yardımı, vaxtlı-vaxtında müalicə tədbirləri geniş kütlələrin məişətinə girmiş, onların zehnində möhkəm yer tutmuşdur.

Lakin təəssüflə demək lazım gəlir ki, hələ də türkəçarəyə, pirə inanmaq, öz sağlamlığına laqeydlik, azarlara etinasızlıq, çirk, pintilik, natəmizlik kimi halların kökü kəsilməmişdir.

Köhnə dünyanın doğurmuş olduğu bu avamlıq, nadanlıq bəzən adamların şüuruna hakimdir.

Biz nə qədər gözəl xəstəxana, müalicəxana binaları tiksək, sanatoriyalar bina etsək, tibb məntəqələri, doğum və uşaq evləri yaratsaq da, ayrı-ayrı insanların şüurundakı o qalıqların, öz canına, öz ailə üzvlərinin canına yüngül, qayğısız, məsuliyyətsiz əlaqə bəsləmək hallarının kökünü kəsmədikcə istədiyimiz nəticəni əldə edə bilməyəcəyik.

Doğrudur, hər bir xəstəxana, doğum evi, kəndlərimizə işləməyə gedən hər bir həkim o yerdə yaşayan əhalinin şüurunda müəyyən təsir buraxır, lakin bu təsiri qat-qat qüvvətləndirmək, onun effektini artırmaq üçün bir sıra başqa, yanaşı tədbirlər də lazımdır.

Bizim namuslu, fədakar, öz işini ürəkdən sevən minlərlə tibb işçilərimiz vardır. Bu qayğıkeş, humanist, genişqəlbli insanlar əhalinin sağlamlığı uğrunda, azarların kökünü kəsmək, ağır ictimai xəstəlikləri doğuran şəraitin özü ilə amansız mübarizə aparmaqda, doğrudan da, təqdirəlayiq böyük işlər görürlər.

Lakin hələ də orda-burda, ictimai nəzarətin zəif olduğu yerlərdə, qıt dərmanlarla ehtikarlıq edən, xalqın səhhət və sağlamlığına ürəksiz, vicdansız əlaqə bəsləyən adamlar vardır.

Belə tüfeylilərlə mübarizəni ancaq "Kirpi" jurnalının vəzifəsi hesab etmək doğru deyil. Köhnə zehniyyətin qalıqları ilə, çirk, pintilik, xurafatla mübarizədə, öz müqəddəs vəzifəsindən cinayətkarcasına suiistifadə edənlərlə mübarizədə bədii ədəbiyyat öz qəzəbli səsini yüksəltməli, özünün mühüm ictimai vəzifəsini layiqli yerinə yetirməlidir.

Bizim Azərbaycan sovet ədəbiyyatının nailiyyəti az deyil. Lakin təəssüflə demək lazımdır ki, hələ də yazıçılarımız arasında xırda, intim mövzular torunda ilişib qalanlar vardır.

Biz Sabir, Molla Nəsrəddin, Mayakovski ənənələrindən tez-tez danışırıq. Lakin bu böyük sənətkarların ictimai eybəcərliklərə qarşı, xalqın səadəti yolunda bitən kol-koslara qarşı alovlu qəzəb və nifrətlərinin sarsıdıcı gücündən istifadə etməməklə kahıllıq göstəririk.

Biz dağlardan, bağlardan, bulaqlardan çox yazmışıq. Söz yox, Vətənimizin təbii gözəlliklərini tərənnüm etmək lazımdır. Lakin dünyanın ən qiymətli bəzəyi olan insanı unutmaq olmaz. İnsandan, insan zəhmətindən təcrid edilmiş gözəllik ən qısa bir müddətdə rənglərini, təravət və cazibəsini itirər. Sovet adamı, onun taleyi, onun sevinc və kədəri ədəbiyyatımızın canı, ruhu olmalıdır.

Deputat yoldaşlar! Bizim bir sıra qabaqcıl kəndlərimiz vardır ki, orada mədəniyyət işləri də təsərrüfat işləri ilə yanaşı, yaxşı təşkil edilmişdir. Lakin elə kolxozlarımız da vardır ki, onlar təsərrüfat planlarını yerinə yetirirlər, onların adı hətta qabaqcıllar sırasında çəkilir. Ancaq görürsən, mədəni-məişət sahəsində xeyli kəsir və nöqsanlar var. Belə hallarda çox zaman deyirlər ki, eybi yoxdur. Bu sahədə nöqsan varsa da, kişinin təsərrüfat göstəriciləri gör necə yaxşıdır, mədəniyyət məsələsi sonra da düzələr. Məncə, belə mülahizə, belə münasibət kökündən yanlışdır.

Biz təsərrüfat məsələlərimizi mədəniyyət məsələlərindən ayıra bilmərik. Təsərrüfat nailiyyətləri daha yüksək mədəni yaşayış üçün zəmin hazırlayır. Mədəni-məişət sahəsində qazanılan müvəffəqiyyətlər də mütləq təsərrüfat nailiyyətlərinə müsbət təsir edir.

Bizim bütün təsərrüfat planlarımız, bütün işimiz insanların səadəti üçündür. Partiya və hökumətimizin təsərrüfat sahəsindəki bütün tədbirləri nəticə etibarilə, sovet insanlarının gözəl, firavan, mədəni yaşaması, gün-gündən daha da yaxşı dolanması naminə qəbul edilir və həyata keçirilir.

İşdən sonra mədəni istirahət edə bilən, dünyanın, necə deyərlər, gələcəyindən, keçəcəyindən xəbərdar olan adam, kəndində, evində müasir mədəniyyətin nailiyyətlərindən istifadə edə bilən adam, yəqindir ki, yaxşı işləyəcək, səmərəli işləyəcək, onun zəhmətinin məhsulu da daha artıq olacaqdır.

Mən deyərdim ki, bir kolxozun, bir rayonun təsərrüfat sahəsindəki müvəffəqiyyətləri gərək orada yaşayan əhalinin mədəni-məişət məsələlərindən təcrid edilmiş halda götürülməsin. Biz kolxozların, rayonların işinə qiymət verəndə onların təsərrüfatı ilə yanaşı, mədəni quruculuq sahəsindəki göstəricilərini, müvəffəqiyyət və nöqsanlarını da mütləq nəzərə almalıyıq. Elə bir qayda qoymaq lazımdır ki, kolxoz rəhbərləri, rayon işçiləri, qabaqcıllar sırasına daxil olmaq istəyəndə biz onlara deyək:

– Təsərrüfat işlərin yaxşıdır. Kolxozun gəliri artıb. Planlar dolub. Çox gözəl. İndi göstər görüm mədəniyyət sahəsində, kəndin abadlığı sahəsində nə iş görmüsən! Camaatın dolanacağı necədir? Klubun, kitabxanan necə, işləyir? Bu hesabat ilində öhdənizə götürdüyünüz mədəni-məişət tədbirləri necə həyata keçirilib? Kənddə hansı təzə ev, uşaq bağçası tikilib, yol çəkilib, körpü salınıb, bulaq açılıb? Neçə qəzet-jurnal abunəçisi artıb? Əgər bütün bu sahələrdə bir yenilik, bir irəliləmə yoxdursa, sənin təsərrüfat sahəsindəki müvəffəqiyyətlərin bizi təmin etmir. Sən qabaqcıl adlana bilməzsən.

Biz deməliyik: – Əgər sən klubu bağlayıb orda qurd saxlamısan və beləliklə də, barama planını doldurmusansa, bunun üçün sənə sağ ol deyə bilməyəcəyik. Əgər sən məhsuldarlıq planını doldurmaq üçün plandan artıq əkdiyin yerin pambığını becərməyə, yığmağa məktəbli balalarımızı həftələrlə, aylarla dərsindən, elmindən ayırmısansa, bunun üçün sənə sağ ol deyə bilməyəcəyik. Yox, qardaş, belə işləyib şərəfli qabaqcıl adını qazanmaq olmaz.

Qoy onlar işlərinə qiymət verilində, kənddə mədəniyyət, mədəni-məişət sahəsindəki göstəricilərin də həlledici amillərdən biri kimi mütləq hesaba alınacağını bilsinlər və bunu möhkəm yadda saxlasınlar. Sizi inandırıram ki, onda kəndlərimizdə çox şey yaxşılığa doğru dəyişər.

Deputat yoldaşlar! Mən bu yaxın günlərdə Kəlbəcər rayonuna İstisuya getmişdim. Məlumdur ki, son illərə qədər İstisu ancaq yaxınlığında yaşayanların istifadə etdiyi, yolu, sığınacağı olmayan, elmi cəhətdən tədqiq edilməmiş adicə bir isti bulaq idi.

İstisuyun müalicə xüsusiyyətlərini öyrənmək, onu xalqın istifadəsinə vermək sahəsində alimlərimiz, geoloqlarımız az iş görməmişlər. Hökumət bu suya xüsusi əhəmiyyət verir. İndi İstisuya geniş yol çəkilmiş, körpülər salınmışdır. İstisuyun üstündə sanatoriya tikilmiş, zavod işə salınmışdır. Hər il dövlət tərəfindən bura milyonlarla pul buraxılır. Ancaq bütün bu dövlət qayğısına baxmayaraq, İstisuyun bugünkü vəziyyəti çox acınacaqlıdır.

Mən orada illərdən bəri inşaatı yarımçıq qalan müalicə korpusu, mehmanxana haqqında danışmaq istəmirəm. Qoy əlaqədar nazirliklər bu barədə sessiya qarşısında cavab versinlər. Mən İstisu kurortunun ümumi vəziyyətindən danışmaq istəyirəm.

Bugünkü gündə İstisu kurortunun ümumi mənzərəsi səhiyyə maarifi, sağlamlıq uğrunda mübarizə deyil, bəlkə də bunların əleyhinə canlı bir təbliğatdır.

Təsəvvür edin: iki dağın arasında Tərtər çayının üstündə yüzlərlə alaçıq-daxma, qazma, budka və sairə vardır. Bunların hər birində 3-8 nəfər yaşayır. Ümumi sayı mindən artıq olan və hər gün axın-axın gələn bu adamların adi normal yaşayışı üçün heç bir şərait yoxdur. Nə ayaqyolu, nə bir hamam, nə də hər gün qalaq-qalaq yığılan zibili tullamağa bir yer vardır. Hər yan üfunət, çirk, zibillikdir. Alaçıqlar arasından burnunu tutub keçirsən.

Yan-yana düzülmüş bir neçə dəllək dükanına üfunətdən baş soxmaq mümkün deyil. Mən bilmirəm bu bərbərxanalar hansı sənət artelinin dəftər-kitabında, nə adda, necə qeyd olunub, ümumiyyətlə, qeyd olunubmu, lakin bu bərbərxanada işləyən ustaların qara çirk xalatları, ətrafın zir-zibili, oradan qalxan üfunət heç bir dəftər-kitaba yazılası deyildir.

Təxminən bir ay bundan qabaq, İstisuyun taxtasına qalxan yoldan üç at uçub ölmüşdür. Bu atların ətrafı üfunətlə dolduran leşləri bu günə qədər çaylarda qalır. Bu leşlərin yanında isə alaçıq qurub qayğısız yaşayan, hərdən-hərdən çalıb-oynayan adamlara bu natəmizliyin insan üçün nə qədər qorxulu olduğunu başa salan yoxdur.

Deputat yoldaşlar!

Bəlkə də sizlərdən çoxunuz görmüşsünüz, İstisu çıxan yerdən bir az yuxarı, Şeytan körpüsü deyilən yerin yaxınlığında Tərtər çayının içində yekə bir daş vardır. Bu daşın ortasından iki qol isti su fəvvarə vurur. Bu mənzərənin təbii gözəlliyi baxanları heyran qoyur.

Biz təbiətin bu nadir möcüzəsini necə qoruyuruq? Çox pis.

Hər gün bu daşın ətrafında adamlar suyun fəvvarə vurduğu deşiklərə ağac soxur, bu fəvvarələrin üstünə ağır daşlar qoyub onların çıxış yolunu qapayır və bu kimi işlərdə vaxt keçirirlər. Belə-belə dəcəlliklər nəticəsində bulağın gözü tutulub su yolunun aza biləcəyi isə heç kəsi narahat etmir.

Bu təbiətin yaratdığı gözəlliyə olan mədəniyyətsiz, nadan əlaqənin bir nümunəsidir. İndi mən sizə insan əlinin, insan zəkasının yaratdığı gözəlliyə, sənət abidəsinə olan nadan əlaqəyə aid bir misal göstərmək istəyirəm. Nuxa şəhərində "Xan sarayı" deyilən həm memarlıq, həm də rəssamlıq sənəti nöqteyi-nəzərindən son dərəcə qiymətli tarixi bir bina vardır. O binanın xüsusiyyətləri, oradakı şəbəkələr, divarlarda işlənmiş şəkillər, oradakı rənglər haqqında böyük elmi əsərlər yazıla bilər. Bu bina bir xalqın mədəniyyət abidələri,

tarixi üçün iftixar ola bilər. Lakin bu gün o gözəl bina, o sənət əsəri nə gündədir.

İki göz gərəkdir ki, o binanın halına ağlasın. Yəqin ki, Nuxa rayon rəhbər işçilərindən burada olanlar var, qoy onlar eşitsinlər, qoy respublikamızda tarixi abidələri qorumaq, saxlamaq üçün məsul olan idarə rəhbərləri eşitsinlər.

Deputat yoldaşlar! Bu binanın bir çox otaqlarında tavan, döşəmə dağılmış, suvaqlar tökülmüş, şəbəkələr sınmış, qapı-pəncərələr qırılmışdır. Divarlarda sənətkar əli ilə çəkilmiş rəngarəng şəkillərin üzərinə məsuliyyətsiz, mədəniyyətsiz adamların əli ilə saysız-hesabsız bayağı yazılar yazılmışdır. Bu qanacaqsız vətəndaşların bəziləri öz nadanlıq və avamlıqlarını qələmlə yazdıqları yazıda təzahür etdirmişlərsə, bəziləri bununla kifayətlənməyib paslı mismarlarla divarı cızıb şəkillərin üstündə öz adlarını, bura nə vaxt gəldiklərini yazıb öz ədəbsizliklərinə bir növ abidə qoymuşlar.

Məgər dövlət tərəfindən hər il külli miqdarda buraxılan vəsaitin bir hissəsi Nuxa "Xan sarayı"na sərf edilə bilməzmi? Bu həqiqət nə qədər acı olsa da, demək lazımdır ki, belə sahibsizlik bircə Nuxa "Xan sarayı"nın taleyi deyil.

Vaqifin Şuşadakı illərdən bəri xarabazarlıq məzarı, ürəkləri yandıran qəbri və bir sıra başqa qiymətli xalq mədəniyyətinin tarixi abidələri də belə haldadır.

Deputat yoldaşlar! Mən mədəniyyət abidələrimizdən danışarkən bir məsələ, xalqımızın tarixi inkişafında, onun mədəni yüksəliş və tərəqqisində ən mühüm amillərdən olan dil haqqında, Azərbaycan dili haqqında bir neçə kəlmə demək istəyirəm. Azərbaycan dili qədim babalarımızın danışdığı, əsrlərdən bəri yaşayıb inkişaf edən zəngin, geniş imkanlara malik gözəl bir dildir. Ölməz Füzuli öz şeirlərini bu dildə yazmış, böyük Mirzə Fətəli bu dildə yaratmışdır. Sovet hakimiyyəti illərində Azərbaycan dili sürətlə inkişaf etmiş, zənginləşmiş, saflaşmışdır. Bu dildə milyon-milyon siyasi, elmi, bədii əsərlər nəşr edilmişdir. Lakin biz Azərbaycan dilinə olan qayğı və diqqətimizi qat-qat artırmalıyıq. Hələ bəzi idarə və müəssisələrdə bu dilə lazımi hörmət və etina yoxdur. Elə bir vəziyyət yaratmaq lazımdır ki, Azərbaycan dilinin gərəkliyini, onun dövlət əhəmiyyətini hamı dərindən dərk etsin.

Burada səhiyyə naziri Axundov yoldaş Azərbaycan dilində məruzə etdi. Əgər mənim dediklərim həqiqətə uyğun deyilsə, mən Axundov

yoldaşdan üzr istəməyə hazıram, ancaq mənə elə gəlir ki, Axundovun Azərbaycan dilində elədiyi məruzə də azərbaycanca yazılmamış, tərcümə edilmişdir, bunu zalda oturan deputatlar hamısı hiss etdilər. Məruzə mətnindəki bir çox cümlə və sözlər bunu aydın göstərdi.

Axundov yoldaş hər yerdə ruscadan mexaniki tərcümə olan *100 çarpayılıq xəstəxana, çarpayıların sayı* və s. deyirdi. Biz heç bir zaman xəstəxanada çarpayınız varmı demirik, biz deyirik: *yer varmı. Xəstəxanada 100 yer var, 10 yer var.* Biz heç vaxt *klubda 500 stul var* demirik. Biz *filan qədər yer var* deyirik. Axundov yoldaş Azərbaycan dilini yaxşı bilir, bəs necə olub ki, o, azərbaycanca edəcəyi məruzəni əvvəlcə rusca yazmışdır. Mən Axundov yoldaşı qınamıram. Görünür o, öz şöbə və müəssisələrindən məruzə üçün lazımi arayışlar tələb edəndə ona bu materialları Azərbaycan dilində vermirlər. O da məcbur olur ki, tərcümə elətdirsin.

Deputat yoldaşlar! Bizim mədəni inkişafımızda qardaş rus xalqının, onun gözəl dilinin böyük rolu olmuş və vardır. Rus dili vasitəsilə bizim bədii, elmi əsərlərimiz geniş beynəlxalq sahəyə çıxır. Biz bunu böyük bir minnətdarlıq ilə deməliyik.

Lakin elə adamlar vardır ki, respublikamızda əsas dil olan Azərbaycan dilinin böyük rolunu lazımınca dərk etmirlər.

Bu gün Azərbaycan dilini öyrənmək, bu dildə iş aparmaq, bu dildə təhsil almaq sahəsində bir sıra ciddi nöqsanlar vardır. Respublikamızın maarif naziri M.Məmmədov yoldaş burada oturmuşdur. Şübhəsiz, o bilir ki, ildən-ilə məktəblərdə Azərbaycan dilində təhsil alan uşaqların sayı azalır. Bu ilk nəzərdə bir cümlədir. Lakin bu cümlənin dalında elm, ədəbiyyat və sənətimizin taleyi, xalqın taleyi durur. Bu bizi ciddi bir surətdə düşündürməyə bilməz. Doğma Azərbaycan dilinin formal yox, əsl həqiqətdə bütün həyat və işimizdə, kommunizm qurmaq uğrundakı mübarizəmizdə ona layiq olan yeri tutmasını təmin etmək lazımdır.

Dilimizi hər cür təcavüzdən qorumaq lazımdır. Ona gündəlik praktiki işimizdə daha artıq yer vermək, onun daha geniş dairədə işlənməsi üçün lazım olan bütün şəraiti yaratmaq lazımdır. Doğma partiyamızın göstərişlərinə, Sovet dövlətinin tədbirlərinə, Lenin milli siyasətinin ruhuna uyğun olaraq dilimizin tərəqqi və inkişafı uğrunda cəsarətlə və inadla mübarizə aparmaq lazımdır.

20 avqust 1956

AZƏRBAYCAN ALİ SOVETİNİN SESSİYALARINDA ÇIXIŞLARINDAN

Öz ana dilini yaxşı bilməyən insan başqa dilləri də lazımi dərəcədə mənimsəməyə qadir deyil... Dil qüdrətli təbliğat vasitəsidir. Təəssüf ki, bizim qəzet və jurnallarımız, bəzi yazıçılarımız bunu başa düşmür. Mən bilmirəm hansı əsasla və nə haqla "Kommunist" qəzeti özbaşınalıqla dilimizə *finans, promısel, sopka, produkt, stimul, çaşka* və bu kimi sözləri gətirir, halbuki bizim dilimizdə bunların öz adları var: *maliyyə, vətəgə, təpə, məhsul, həvəs, fincan* və s. Niyə *traktorçu* əvəzinə *traktorist* yazılmalıdır. İş o yerə çatır ki, bizim qəzet işçiləri dilimizə bütöv ifadələri olduğu kimi daxil edirlər, məsələn, "kapitalist okrujeniyası". Belə misalların sayını artırmaq da olar, məsələn, Yevropa, İndiya və i.a.

Bir neçə adam dilin taleyini həll edə bilməz... Dilin ən böyük qoruyucusu xalqdır, xalqın danışığı, xalqın tarixidir. Qoy bizim bəzi nəşriyyat və mətbuat işçiləri gələcəyin böyük və vahid kommunizm dilini yaratmağa tələsməsinlər. Necə deyərlər, "çay keçmədən çırmanmasınlar, yay gəlmədən qızmasınlar". Cahillik nəticəsində dilimizi zibilləməsinlər. Bələləri haqqında xalqımızın söylədiyi bir ifadəni xatırlamaq istəyirəm: "Ağır otur, batman gəl".

11 iyul 1939

Kənd əhalisinə mədəni xidmətdə kinonun böyük əhəmiyyəti vardır. Bizim kino şəbəkəmiz il-ildən artır. İndi bir neçə il əvvəllərə nisbətən qat-qat çox təzə filmlər buraxılır.

Təəssüf ki, bu filmlərin kənd əhalisinə çatdırılmasında çox nöqsanlar vardır. Filmlərin Azərbaycan dilinə tərcüməsi işi yaxşı qurulmamışdır. Dublyaj olunmuş filmlərin bir çoxuna dəfələrlə qulaq asırsan, baş-ayaq qurulmuş, mexaniki tərcümə edilmiş cümlələrdən heç bir şey başa düşmürsən.

Belə filmlər təsadüfi adamlar tərəfindən məsuliyyətsizcəsinə, alaçıq, savadsız tərcümə edilib əhaliyə təqdim olunur. Belə dublyajlarda əhaliyə və Azərbaycan dilinə hörmət yoxdur.

18 iyun 1958

TELEQRAM

1942-ci il. Soyuq yanvar günü. Qamışburunda gəmidən endik. Dalğalı dənizdə gəmi bizi yamanca tutmuşdu, ürəyimiz bulanırdı. Sahildə özümüzə gəlməmiş başımızın üstünü alman təyyarələri aldı. Bombalar sağımıza-solumuza yağırdı. Bu ilk döyüş imtahanımızdı. Limanın polad direklərinin parçaları, dərin kalafalar, qan. İnsanların sifətlərinə, qulaqlarına sıçramış palçıq, torpaq. Adam vahimələnirdi. Bu sətirlər də elə o anlarda cib dəftərimə etdiyim qeydlərdəndir.

Cəbhənin yaxşısı-pisi olmur. Kerç də bu mənada istisna deyildi. Faşistlərin ölkəmizə xain basqınından cəmi bir neçə ay keçmişdi. Düşmənin havada üstünlüyü açıq-aşkardı. Kerç cəbhəsində bu, daha aydın duyulurdu. Arxamızda dənizdi, bu isə qoşunlarımızın manevr imkanlarını, hərbi sursatın, ərzağın vaxtlı-vaxtında çatdırılmasını xeyli məhdudlaşdırırdı. Çox vaxt adicə odun tapılmırdı ki, döyüşçülər və əhali üçün çörək bişirilsin. Bütün bu ştrixlər bizim milli hissələrin rus hərbi birlikləriylə bərabər Kerç yarımadasında qoruduqları cəbhəyə aiddir.

Elə vaxt olurdu ki, düşmən gündə bir neçə dəfə Kerç şəhərinə hava hücumları edirdi. Amma düşmənin hiddəti ən çətin şəraitdə yağıya qarşı duran döyüşçülərimizin inadını üstələyə bilmirdi. Krım cəbhəsinin "Döyüşən Krım" qəzetində döyüşçülərimizin şücaəti haqqında yazılar çıxırdı. Qəzet dörd dildə çap olunurdu: rus, Azərbaycan, gürcü və erməni dillərində. Bizim bir-birinə möhkəm bağlı kollektivimiz qəzetdən başqa vərəqələr, müraciətlər və s. də çap edirdi.

Qəzetin əməkdaşları tez-tez ön cəbhəyə gedirdilər. Biz milli hərbi hissələrin döyüşçüləri qarşısında tez-tez çıxış edir, şeir, hekayə oxuyurduq.

Ana dilimizdə çıxan qəzetin böyük tərbiyəvi və səfərbəredici əhəmiyyəti vardı. Qəzet səhifələrində döyüşçülər doğma yurdlarından da xəbər tuturdular. Ön cəbhədə, səngərlərdə, blindajlarda döyüşçülərimizlə görüşlər unudulmazdır.

Hücumqabağı bir gecə xüsusi yadımda qalıb. Martın ortaları idi. Qəzetimizin bütün əməkdaşları redaksiya otağında toplaşmışdı, hücum gününə həsr edilmiş xüsusi buraxılışı hazırlayırdıq. Deyirlər ki, dost çətin gündə tanınar. Bu müdrik kəlamın həqiqiliyi müharibənin ağır günlərində Krımda bir daha təsdiq olundu. Burada mən böyük rus şairi

İlya Selvinskini daha yaxından tanıdım və onunla möhkəm dostlaşdıq. Burada mən geniş savada malik V.Maçavarianiylə, gənc gürcü şairi Revaz Margianiylə, Q.Boryanla dostlaşdım. Məşhur nasir Əli Vəliyevlə, Abbas Zamanovla, Cəfər Cəfərovla və başqa həmyerlilərimlə dostluğumuz müharibənin ağır sınaqlarında daha da bərkidi.

O gecə düşmən, sanki təhlükəni duyubmuş kimi bir neçə dəfə şəhəri bombaladı. Redaksiya binasını tərk etməyi bizə qəti şəkildə qadağan etmişdilər. Bombalar gah uzaqda, gah da lap yaxınlığımızda partlayırdılar. Bombaların dəhşətli səslərinin müşayiətiylə kimimiz şeir, kimimiz müraciət yazır, kimimiz Krım cəbhəsinin döyüşçülərinin həyatından epizodları qələmə alırdı. Mən demək olar ki, bir ay idi Bakıdan xəbər tuta bilməmişdim, ailəm üçün, üç yaşında Bakıda qoyub gəldiyim oğlum Anar üçün bərk darıxırdım. Dostlarım mənim nigarançılığımı hiss edir və söhbətlərlə, zarafatlarla narahat fikirlərimi dağıtmağa çalışırdılar.

Gecənin yarısından keçmişdi. Səhərki qəzetimiz hazır idi, çap edilmişdi. Birdən mənə bir teleqram gətirdilər, həyat yoldaşım Nigar-dandı. Anamın, bacılarımın, oğlumuzun sağ-salamat olduğunu bildirirdi. Qəlbim sevinclə doldu. Elə bil nə bu nigaran gecə, nə ətrafımıza yağan bombaların müdhiş səsi vardı. Bütün tələşlarım, narahatlığım, elə bil ki, harasa çəkilib getdi, yox oldu. Məni çuğlayan sevincin təsiri altında dostlarımı bağrıma basdım.

* * *

Yalnız iki həftə sonra, evdən birdən-birə üç məktub və kiçik sovqat alanda dostlarım etiraf etdilər ki, teleqramı özləri yazıbmışlar. (Böyük torpaqdan bizə gələn teleqramlar əllə yazılırdı). Dostlarım bu yalan teleqramı tərtib etmişdilər ki, mənim nigarançılığıma son qoysunlar. Bu "yalana" görə ömrüm boyu dostlarıma minnətdar olacam.

O GÜN – BU GÜN

Filmin son kadrları biri-birinin ardınca keçdi. Ekran süd-aydınlıq oldu. Salondakılar filmin gənc yaradıcı kollektivini sürəkli alqışlarla təbrik etdilər.

Bu ictimai baxış uzun koridorları hər iki yandan sıra-sıra otaqlı kinofabrikin – C.Cabbarlı adına Bakı kinostudiyasının dördmərtəbəli

binasında idi. Baxışa gəlmiş adamlar bir-bir, ikibir film müəlliflərinin əlini sıxıb keçirdilər. Mən fikirlər pırtlaşığında dolaşıb qalmışdım.

Bu yeni studiya binasının mənzərələri gözlərimdə canlanırdı. İrilixırdalı dörd baxış salonu, bugünkü müxtəlif aparat, cihazlarla zəngin, geniş film çəkiliş pavilyonları, düzüm-montaj otaqları, rəngli aşkarlama laboratoriyası, müxtəlif çap, çəki, səs, işıq aparatları, arabacıqlar, iç və dış telefon calaşıqları, sıra-sıra minik, yük maşınları, lixtvagen, kamervagen, fonvagen, yüzlərlə gərgin yaradıcı işlə məşğul adam.

Xəyalımda canlanan bu dəyişikli mənzərə, sanki məni xatirələr yolu ilə vaxtın geri yönünə doğru çağırır. Ayları, illəri keçib o günlərə – dözüm günlərinə, sınaq günlərinə qayıdıram.

Müharibə bütün həyat ritmini dəyişmişdi, dünyanın üstündə çaxnaşan qara buludların kölgəsi ölkə-ölkə, şəhər-şəhər, kənd-kənd yayılırdı. Faşist ordularına qarşı sovet xalqının ölüm-dirim mübarizəsi örnəksiz rəşadət, dözüm və qəhrəmanlıq səhifələri yazır, bütün dünyada nigaran ürəklərdə qələbə ümidini gündən-günə artırırdı. Ölkəmizdə milyonlarla insanın beyni, qəlbi, qollarının gücü, fikri, iradəsi böyük məqsədə – qələbəyə səfərbər idi.

Krım cəbhəsindən yenicə qayıtmışdım. Məni Mərkəzi Komitəyə çağırdılar. Bakı kinostudiyasına direktorluq vəzifəsinə məsləhət gördülər. Mən əvvəllər də Bakı kinostudiyasında çalışmışdım. Ssenari şöbəsinin müdiri vəzifəsində. O vaxt talantlı rejissor Səməd Mərdanov "Kəndlilər" filmini çəkirdi. Filmin nəğmələrini mən yazdım. Üzeyir bəy bu nəğmələrə musiqi bəstələdi. Filmin bütün musiqisi onun idi.

Studiya çox ağır halda idi. Milli kadrlar az idi, texnika və başqa avadanlıq çox az və köhnə idi.

Mən indi studiyanın daha çətin vəziyyətdə olduğunu bilirdim. Təklifi qəbul etməkdə tərəddüd göstərirdim. Lakin bir qədər götürqoydan sonra razılaşdım. Ölkənin ağır müharibə günlərində işdən boyun qaçırmaq olmazdı.

Studiyanın işləri ilə ilk tanışlıq açıq-aydın göstərdi ki, vəziyyət mən bildiyim və eşitdiyimdən daha ağırdır.

Xatirələr yolu məni çəkib o günlərə aparır.

Kinostudiya köhnə, son dərəcə yararsız bir binada idi.

İndiki on mərtəbəli, geniş pəncərəli, liftli, isti-soyuq sulu, qoşa binanın yerində ən primitiv üsullarla işləyən kinofabrikin təkcə bir film çəkiliş pavilyonu, əllə işləyən, həftədə beş gün təmirə dayanan

aşkarlama laboratoriyası, bir yük maşını, iki-üç filmçəkmə aparatı, "nuhdanqalma" dörd-beş projektoru var idi.

Kinokadrlardan neçəsi – rejissor, operator, səs operatoru, texniki işçilər Vətən müharibəsi cəbhələrində, sovet döyüşçüləri sırasında idi. Milli ssenarist kadrları az, təcrübəsiz, gənc idilər. Çəkilməsi planlaşdırılmış filmlərin ssenarisini respublikadan kənara sifariş verməli olurduq. Studiyada xronika, qısametrajlı filmlər, kinojurnallar çəkmək üçün lent yox idi. Lenti, kimya materiallarını Uzaq Şərqdən, Novosibirskdən, başqa uzaq şəhərlərdən gətirmək üçün tez-tez adam göndərməli olurduq. Bir kub taxta, beş-on kilo əlif, mismar, sement, rollara lazım olan parça, geyim, zinət şeyləri və başqa gərəkli materiallar üçün Nazirlər Sovetinə, Dövlət Plan Komissiyasına müraciət etməli olurduq. Çəkilmiş lentləri çox vaxt Tbilisi kinolaboratoriyasına aşkarlamağa göndərirdik.

Belə ağır şəraitdə studiya kollektivi fədakarlıqla çalışır, gecə-gündüz bilmirdi.

Moskvadan, ölkəmizin başqa şəhərlərindən neçə-neçə kino mütəxəssisi müharibə günlərinin amansız hökmü ilə yurdunuyuvasını buraxıb Bakıya gəlmişdilər. Onların yerli kadrlarla yaradıcılıq uyuşması, "kasıb" studiyanın son dərəcə məhdud imkanlarına qane olmaları üçün təmkin, hərtərəfli düşünülmüş prinsipiallıq gərəkdi.

Bu "gəlmə" kadrların Bakı kinostudiyasında işləmələri həm yerli kadrların yaradıcılıq təcrübəsi, iş üsulu, peşəkarlıq vərdişi üçün xeyirli, həm də problemli idi. Bütün çətinliklərə baxmayaraq, üzlər görmüş, sınıq-salxaq köhnə studiyanın qeyrətli kollektivi müharibə illərində və daha sonrakı bir neçə ildə diqqətəlayiq bir neçə bədii və xronikal film yaratdı.

Onlardan "Fətəli xan", "Sualtı qayıq №9", "Bir ailə kimi" bədii filmləri, əsrin faciəli sənədi – "Arazın o tayında" və başqaları, xüsusilə "Arşın mal alan" qeyd olunmalıdır.

Bakı kino sənətinin yarandığı gündən ilk dəfə Dövlət mükafatı qazanmış film – "Arşın mal alan" ölkə-ölkə, diyar-diyar gəzib yüz milyonlarla tamaşaçıya bədii zövq, sevinc verdi. Bu filmin müxtəlif ölkələrdə hay-haraylı yürüşü Azərbaycan bədii kino sənətinin bayramına çevrildi.

40-cı illərin birinci yarısında ölkəmizdə ilk dəfə olaraq Azərbaycanda nazirlik hüququnda Kinematoqrafiya Komitəsi yarandı, çox

çəkmədən bu komitə Kino Nazirliyi oldu. Komitənin sədri, sonra isə nazir işləyərkən mən kino işçilərimizin böyük rəşadətinə şahid oldum. Qızğın döyüş günlərində, Şimali Qafqaz cəbhələrində Bakı kinostudiyasının xronika sənətkarları fədakarlıqla iş aparırdılar.

Böyük yazıçı A.Tolstoyun studiyamıza göndərdiyi məktubda ölkəmizə faşist işğalçılarının vurduğu ziyanları lentə çəkmə işində Bakı kino işçilərinin fəaliyyətinə yüksək qiymət verilirdi. A.Tolstoy bu tədqiqat işini aparan dövlət komissiyasının sədri kimi kollektivimizə təşəkkür edirdi.

Mən "köhnə" studiyada çalışan o zamankı Azərbaycan kino veteranlarının və bu gün artıq veteranlaşmış o zamankı gənclərin iş, mətanət, həvəs, cəsarət, axtarış və qürurlarının zəngin panoramasını gözlərimdə canlandırır, kino sənətimizin bu günü, geniş imkanları, talantlı milli yaradıcılıq kadrları, günümüzün tələbləri baxımından nələrə qadir və hazır olduğunu tutuşdururam. İllərlə bir yerdə günlərin acısını, sevincini bölüşdürdüyümüz, ən ağır vaxtlarda da gələcəyə, daha uğurlu günlərə inandığımız böyüklü-kiçikli işdaşlara yeni-yeni uğurlar, qələbələr, yeni-yeni yüksək bədii lentlər yaratmaq üçün yorulmadan çalışmaq arzu edib, bu arzuların mütləq doğrulacağına inanıram.

1977

ƏZİZ XATİRƏLƏR

Dağınıq xatirələr dəftərini vərəqləyirsən. Neçə-neçə insan surəti gözlərimdə canlanır. İnsanlar, hadisələr, olmuşlar seyrək dumandan çıxıb get-gedə aydınlaşan lövhələr kimi aşkarlanır, könüldə acı, şirin duyğular oyadırlar. Bu xatirələrdən yaxını var, uzağı var. Sevinclisi, inciklisi var. Bəzən sanki daxilimizdən bir səs eşidirik: – Qayıt bu xatirələr yolundan. Onun sevincli anları da artıq geriqayıtmazlığı, keçmişə çevrilmiş olduğundan həzin bir təəssüf, yumşaq göynək oyadır.

Bu yolda gənclik illəri, neçə-neçə dost ayrılığı, soyumuş həvəs, artıq gərək olmayan istəklər qalıb. Bütün bunlar xatirələrin titrək, sığallı, kövrək təsəllisini bir qat daha artırır.

Böyük Vətən müharibəsinin səksəkəli, nigaran illəri... Hər yanda gecəli-gündüzlü gərgin iş. İnsan fəaliyyətinin dəyəri çətin sınaqdan keçir.

Bakı kinostudiyasının kollektivi xeyli seyrəlmişdir. Neçə-neçə kino işçisi döyüşçülər sırasında, cəbhədədir. Arxa cəbhədə qalanlar xalqın dözümünü, fədakarlığını, ümidini, inamını kino dili ilə ifadə etməyə çalışırlar. Bu dövrdə ən aktiv janr olan kinoxronika, sənədli qısametrajlı filmlərlə yanaşı, texniki cəhətdən çox zəif olan Bakı kinostudiyası müharibənin törətdiyi çətinliklər içərisində bədii filmlər də çəkməyə çalışırdı.

"Qocalar" bədii filmi də bu sıradandı. Filmin çəkilməsi yerli rejissorlara tapşırılmışdı.

Bir neçə aydan sonra çəkilmiş materiallara baxdıqca məlum oldu ki, bu rejissorlar işin öhdəsindən gələ bilmirlər. Yaradıcılıqdan çox gərəksiz deyişmələr, çəkişmələrlə məşğul olurlar.

Kömək üçün məşhur kinorejissor Mark Donskoy Bakı kinostudiyasına dəvət olundu. O zaman Donskoy kinorejissorlar arasında gənc, lakin təcrübəli bir sənətkar sayılırdı. Onun çəkdiyi bədii filmlər kino tamaşaçılarına tanışdı.

Donskoy alçaqboylu bir adam idi. Xırda gözləri, qıvrım saçları vardı. Gözlərinin bulağında tez-tez görünən gülüş ona bir uşaq sadəliyi verirdi. O, çox tez studiya işçiləri ilə ünsiyyət bağlaya bildi. Mülayim xasiyyətli görünən bu adam nə qədər sərt, inadlı, prinsipial idi. Qısa müddət içində kollektivlə birlikdə filmin yeni variantda çəkilməsini doğru yola qoya bildi. Donskoy təcrübəsi, biliyi ilə iş yoldaşlarını tanış edir, bir sözlə, studiya işçiləri arasında gəlmə deyil, doğma olmaq istəyir, bu işdə uğurlar qazanırdı. Bu ciddi sənətkarla dostluğumuz uzun müddət davam etdi. Son illərdə gec-gec görüşdüyümüzə baxmayaraq, yenə də davam edir. Moskvada görüşlərimiz zamanı Mark yeni filmlərini, hələ bitməmiş kino əsərlərini həvəslə göstərir, nigaranlıqla rəy soruşurdu. Bu nigaranlıq onun yaradıcılıq işinə nə qədər ciddi yanaşdığını, həmişə daha uğurlu əsər yaratmaq istəyi ilə çırpındığını, daxili bir qənaətsizlik duyduğunu göstərirdi.

Mark Maksim Qorki əsərləri əsasında yaratmış olduğu trilogiyasını o biri əsərlərindən artıq sevirdi.

Doğrudan da bu trilogiya Maksim Qorkinin mürəkkəb yaradıcılığını bütün incəliyi ilə duymaq, dərk etmək və onu kino dilində uğurla deyə bilməyin yaxşı nümunəsidir.

Hər dəfə Mark Donskoyla görüşəndə, o, Bakı kinostudiyasının işi, onun yaradıcı kollektivi, ayrı-ayrı Azərbaycan kino xadimləri ilə

maraqlanır. Bakımız haqqında ən xoş, ən riqqətli xatirələrini həyəcanla söyləyir.

Mark Donskoy yaxın sənət dostlarımdan biri oldu, belə də qalır.

Müharibə illərində Cənubi Azərbaycanda baş verən hadisələr haqqında sənədli film yaratmaq üçün Bakı kinostudiyasında gərgin iş gedirdi.

Azərbaycan kinoxronikaçılarının bir neçə ekspedisiya zamanı çəkdikləri zəngin kinolentlərdən film yaratmaq, Arazın o tayında yaşayan azərbaycanlıların keçirtdikləri iztirablı, faciəli günləri sovet xalqlarına göstərmək, Azərbaycan oğul-qızlarının fədakarlığını, dözüm, cəsarət və qəhrəmanlıqlarını, irtica qüvvələrin törətdikləri fitnə və amansızlıqları kinoxronikanın həqiqət dili ilə xalqlara söyləmək gərəkdi. Filmin rejissorluğu məşhur xronikal-sənədli filmlər ustası, moskvalı Esfir Şuba tapşırıldı. Şub ahıl bir qadın idi. Zəngin təcrübəsi vardı. Bir neçə ay müddətində yerli kadrların köməyi ilə "Arazın o tayında" adlı sənədli filmi yarandı. Müəyyən edilmiş həcm tələbinə görə ayrı-ayrı kadrlar ixtisar edilməli olanda Esfir dərin bir həyəcan keçirirdi. Həqiqətən, həm hadisələrin gərginliyi, həm rejissor, operator, bəstəkar işinin keyfiyyəti elə yüksək idi ki, filmi müəyyən çərçivəyə salmaq üçün lazım gələn ixtisarları eləməyə heç kəsin əli gəlmirdi.

Şub filmdəki titrləri – yazıları, birinci növbədə, öz adını ixtisar etməyi təklif etdi. "Bu əsər xalqın səsidir, – dedi. – Qoy müəllif də, filmdə görünən adamlar da – xalq olsun".

Bu təklifi qəbul etmək olmazdı, çünki filmin yaranmasında yaradıcı kollektivin – operatorlar, bəstəkarlar, rəssam, diktor, xüsusilə, rejissorun işi diqqətə və hər cürə təqdirə layiq idi. Bir çox götür-qoydan sonra filmin təsdiq edilmiş metrajını bir qədər artırmaq qərarına gəldik.

"Arazın o tayında" filmi ağır müharibə illərinin real aynası, cənubda yaşayan Azərbaycan xalqının iztirab, dözüm, ümid və sevincini inandırıcı epizodlarla əks edən bir sənəd oldu.

Yadımdadır, filmin ictimai baxışlarından birində yazıçı Aleksandr Fadeyev də iştirak edirdi. Kino Nazirliyinin kiçik baxış salonundakı ekranda kadrlar bir-birini əvəz edirdi. Ekran işıqlandı, tamaşaya gəlmiş adamlar ağır-ağır yerlərindən qalxdılar. Aleksandr Fadeyev hərəkətsiz oturmuşdu. O ağlayırdı, səssiz, sakit ağlayırdı. Yanaqlarından süzülən göz yaşlarını silmək, heç kəsdən gizlətmək istəmirdi. Esfir

Şub ona yanaşdı. "Əzizim Saşa" sözlərini bitirə bilmədi, qəhərdən boğulurdu.

Mən filmə dəfələrlə baxmış, filmdəki hadisələrin bir çoxunun şahidi olmuşdum. Toplu halda, diktorun təsirli səsi, musiqinin emosional qüvvəsi məni də həyəcanlandırmışdı.

* * *

"Arşın mal alan" filmini Moskvaya Kino Nazirliyində göstərmək üçün aparmışdıq.

Filmə baxandan sonra xüsusi müzakirə otağına yığışdıq. Filmin müəlliflərindən başqa, nazir, nazirin müavini, məsul işçilərdən bir qrup, bədii şura üzvləri, Moskva rejissorları vardı. Film haqqında müxtəlif fikirlər oldu. "Xan, bəy məişətinin idealizəsi", "reklam şəkillərinə bənzər çəkiliş" və bu kimi fikirlər deyildi. Amma müsbət fikir söyləyənlər də az olmadı. Azərbaycan kino işçiləri əsassız tənqidləri, bəzi yekəxana ağızbüzmələri cavabsız qoymadılar. Film İttifaq ekranlarına qəbul olundu. Yığıncaqda mən Eyzenşteynlə şəxsən tanış oldum. Bu dünya şöhrəti qazanmış rejissor-alim fasilə zamanı özü bizə yanaşdı, sadəcə əl uzatdı, "Azərbaycan nümayəndələri ilə tanış olaq, – dedi, – mən Eyzenşteynəm".

Biz gülüşdük. "Tanıyırıq" dedik. Böyük sənətkar ayrı-ayrı xoşa gəlməyən çıxışların bizə təsir etdiyini, kefimizin pozulduğunu hiss etmişdi. "Narahat olmayın, – dedi, – film yaxşı filmdir. Xalq onu bəyənəcək, sevəcəkdir". Müzakirələr qurtaranda görüşüb ayrıldıq. Mənimlə xudahafizləşəndə "Mən sizi tanıyırdım, – dedi, – şeirlərinizdən bəzilərini oxumuşam. Bu gün sizin cavablarınız xoşuma gəldi. Sakit, ironik". Bir qədər sükutdan sonra əlavə etdi: "Nigaran olmayın, film yaxşıdır. Sadəlik onun nöqsanı yox, dəyərli cəhətidir. – Və təkrar etdi: – Xalq bu filmi bəyənəcək, sevəcəkdir".

* * *

Bir gün Moskvada Nazim Hikmət soruşdu:

– Rəssam Falkın əsərlərini görmüsənmi?

– Yox, – dedim, – belə bir rəssam olduğunu bilirəm. Ancaq özünü və əsərlərini görməmişəm.

– Maraqlı rəssamdır. Mütləq onu gör. Əsərlərinə bax!

Bu söhbətdən xeyli keçmiş yolum yenidən Moskvaya düşdü. Nazimin sözlərini xatırladım. Tərcüməçim A.Tarkovski ilə bərabər Falkın evinə getdim. O, Moskvada Metrostroy küçəsi ilə Moskva çayının sahil küçəsi arasındakı bir evdə yaşayırdı. Evin ünvanı yadımda deyil. Yuxarı mərtəbələrdən birində olurdu.

Qapını orta yaşlı bir qadın açdı. Tarkovskini tanıyırmış. Bizi içəri dəvət etdi. Falk yan otaqdan gəldi. O, uzun qara xalatda idi, əlindəki fırçanı masanın üstünə – molbertin yanına qoydu. Salamlaşdıq.

Tarkovski məni təqdim etdi. "Sizin işlərlə tanış olmaq istəyir" – dedi.

Falkın üzündə yorğun bir təbəssüm göründü.

– Mənim işlərim sizi maraqlandıracaqmı? – dedi, – axı mən...

– Sizin haqqınızda Nazim Hikmət mənə çox danışıb. O, sizi yüksək qiymətləndirir, – dedim.

Bu qüdrətli rəssamın gözlərində bir sevinc parladı. Şəkillərə baxmazdan əvvəl, Nazim haqqında, onun novator poeziyası haqqında, rəsm sənətinə çox gözəl bələd olduğu barədə xeyli söhbət etdik. Mən Nazimin mənzilində bir çox məşhur türk və başqa rəssamların, o sıradan Pikassonun əsərlərini gördüyümü söylədim.

Falk:

– Nazimdə mənim də əsərlərimdən olmalıdır, – dedi.

Sonra əlavə etdi:

– Böyük şair, böyük insandır.

Falkın qadını qəhvə gətirdi. Sonra rəssam bir-bir şəkillərini göstərməyə başladı. Bu əsərlər içərisində onun ilk yaradıcılıq təcrübələri – kubizm, konstruktivizm, abstraktsionizm üslublu rəsmlərlə yanaşı, kamil realist əsərlər, naturadan çəkilmiş mənzərələr də vardı.

Şəkillərdən biri mənim diqqətimi daha artıq cəlb etmişdi. Bu sadəcə bir pəncərə, pəncərədən görünən şəhər mənzərəsi, pəncərə qarşısında kölgə və işıq ləkələrində qabarıq – üç ölçüdə görülən kubiklər idi. Şəkildə sanki işıqla kölgələrin gərgin mübarizəsindən doğan heyrətli bir sual vardı.

– Bu şəkli almaq istərdim, – dedim.

Falkın üzündə incikli, məyus bir ifadə göründü. O yavaşdan dedi:

– Hələ ümidimi itirməmişəm, bir gün əsərlərimin ictimai sərgisini görəcəyəm. İstərdim bu əsərim o sərgidə qoyulmuş olsun.

Bir dəqiqəlik sükut oldu. Rəssam üzü divara söykənmiş şəkillərdən bir neçəsini də göstərdi. Baxdığımız şəkillərdən üçünü ayırdım:

bunlardan biri Orta Asiyada çinar altında çayxana, biri şimal mənzərəsi – sərvliklər, biri də əlvan güllər topası idi.

Əvvəlcə şəkillərə pul almaq istəmədi. Mən təkid etdim. Falkın ağır maddi vəziyyətdə olduğunu bilirdim. Müəllifi razı saldıq.

İndi belə, o günlərdən neçə-neçə il keçdiyinə baxmayaraq, Falkın müxtəlif biçimli lövhələrlə dolu otaqları gözlərimin qarşısındadır. Sanki onun nigaran və kövrək ümidinin səsini eşidirəm. "Bəlkə bir gün əsərlərimin ictimai sərgisi oldu".

Sənətkarın bu arzusu artıq doğrulmuşdur. İndi Falkın əsərləri bir neçə dəfə ölkəmizdə və demokratik ölkələrdə geniş sərgi salonlarında nümayiş etdirilmiş, sənətkar yüksək qiymətini almışdır.

* * *

Bəstəkar Dmitri Şostakoviçlə Moskvada Lenin mükafatları komitəsinin plenumunda tanış oldum. Müzakirəyə qoyulmuş əsərlər arasında Arif Məlikovun "Məhəbbət əfsanəsi" baleti də vardı. Əsər və tamaşa haqqında bir-birinə zidd fikirlər söyləndi. Mən əsəri müdafiə etdim, sözlərimi Dmitri Şostakoviçin "Məhəbbət əfsanəsi", onun müəllifi haqqında mətbuatda dərc olunmuş mülahizələrindən gətirdiyim qeydlərlə əsaslandırdım.

Fasilə zamanı söhbətdə Şostakoviç əsər haqqında müsbət fikrini bir daha təsdiq etdi. Böyük bəstəkar Azərbaycanda çox istedadlı gənc bəstəkarlar yetişdiyini məmnunluqla söylədi, bəstəkarlarımızdan bir neçəsinin adını çəkdi, onlarla şəxsən tanış olduğunu və bütün əsərlərini dinləmiş olduğunu söylədi. O, Qara Qarayevin adını xüsusi bir məhəbbət və iftixar hissi ilə çəkdi. Qaranın kamil, böyük bir sənətkar kimi bütün ölkəmizdə və ölkəmizin hüdudlarından kənarda məşhur olduğunu fəxrlə qeyd elədi.

Sonralar Şostakoviçdən aldığım bir məktubda bəstəkar mənim "Rənglər" silsilə şerimlə maraqlandığını bildirdi. "Davamlı əks-səda" kitabımı bir neçə sətir ithafla ona göndərdim. Bir neçə gündən sonra Dmitri Dmitriyeviç Şostakoviçdən bir məktub aldım. Hədiyyə (kitab) üçün təşəkkürünü bildirir və yazırdı: "Sizin yaradıcılığınızı mən çox sevirəm. "Davamlı əks-səda" kitabını da heyranlıq hissi ilə oxuyuram".

Müxtəlif şəxslərdən aldığım məktublar içərisində ən qiymətli bir yadigar kimi Şostakoviçin sənədini saxlayıram.

1977

FOTO – XATİRƏLƏR

Krım cəbhəsi. Kerç. Odsuz, susuz, ağacsız düzənlər; bura Azov dənizi ilə Qara dəniz arasında nəhəng bir tuneli andırır. Cəbhə qəzeti redaksiyasında rus, Azərbaycan, gürcü, erməni bölmələri vardır. Qəzet dörd dildə çıxırdı. Azərbaycan redaksiyasının redaktor müavini Cəfər Cəfərov idi. Yazıçılardan Əli Vəliyev, jurnalistlərdən Nəsir İmanquliyev, Abbas Zamanov, Hüseynəli Abdullayev, İbrahim Novruzov, mürəttib Məmməd Məmmədov və başqaları Azərbaycan dilində qəzet və cəbhə vərəqələri buraxırdıq.

Redaksiyamız bir neçə ay Kerç şəhərində işlədi. Aprel ayında cəbhə qərargahının olduğu Leninsk kəndindən beş-altı kilometr aralı Tayquç kəndinə keçdik. Bura sakitlik idi. Hər gün Tayquç kəndinin üstündən uçub keçən alman təyyarələri beş-on evdən çox olmayan bu kəndə əhəmiyyət vermirdilər. Kerçdə vəziyyət bambaşqa idi. Elə olurdu ki, bir gündə faşistlər Kerçi, xüsusilə, gəmi dayanacağını bir neçə dəfə bombalayırdılar: əvvəlcə, bir təyyarə gəlir, göydə ağ bir dairə şəklində nişan yeri qoyur, bir az sonra bombardmançı təyyarələr gəlib o dairə çərçivəsinə tuş olan yerə bomba atırdılar.

Tayquç. Sakitlik. Düşməni duyuq salmamaq üçün gündüzlər daxmalardan nadir hallarda çıxırdıq. Yük maşınları bacarıqla maskalanmışdı. Doğrusu, cəbhə yaxınlığında bu sakitlik bizi daha artıq nigaran qoyurdu. Mənə elə gəlirdi ki, qarşıda çəmbər qurub yayılmış əfi ilan hər an oyana bilər, aldadıcı sükutu poza bilər. Gecələr paltarımızı soyunmadan yatırdıq. Nəhayət, bir may günün səhər ala-toranlığında dəhşətli gurultu yatdığımız daxmanı titrətdi. Mən yerimdən sıçramaq istədim. "Lojis!" – deyən İlya Selvinskinin səsini eşitdim. Bu zaman ikinci gurultu daha dəhşətli oldu. Partlayışın dalğası daxmamızın qapı-pəncərəsini sorub çıxarmışdı.

Selvinski Sevastopol döyüşlərində olmuşdu, təcrübəsi vardı. O bilirmiş ki, təyyarə bir bombanı atandan sonra müvazinət yaratmaq üçün ikinci qanadı altındakı bombanı da atmalıdır.

Bu hadisə zamanı erməni redaksiyasında bir nəfər qarnından qəlpə ilə yaralanıb öldü. Selvinski və Cəfər Cəfərovla bir yerdə yaşadığımız daxmadan bir az aralı beş-altı qoyun, bir neçə qaz cəmdəyi parça-parça ətrafa yayılmışdı. Hər tərəfə qan çilənmişdi.

Bu Tayquç faciəsindən beş-altı gün qabaq qəzetimizin növbəti nömrəsini hazırlamaq üçün redaktor D.Berezinin balaca kabinetinə yığışmışdıq. Mən ön cəbhəyə getmiş Cəfəri əvəz edirdim.

* * *

1941-ci ilin dekabr ayı Azərbaycanın nümayəndə heyəti Novorossiyskə gəlmişdi. Şəhərdə və şəhər həndəvərində xeyli azərbaycanlı döyüşçü vardı. Nümayəndə heyətində Heydər Hüseynov, Səməd Vurğun, Mirzə Məmmədov, Sara Qədimova, K.L.Babiçeva, Qəzənfər Məmmədov, Q.Pisman, bu sətirlərin müəllifi və çalğıçılar dəstəsi vardı. Döyüşçülərə Azərbaycandan hədiyyələr gətirmişdik.

Şəhər ciddi təmkin içində idi. Qışın sazaqlı günləri, səksəkəli gecələr, təhlükə sınaqları, tez-tez göylərin sükutunu pozan düşmən təyyarələrinin boğuq, gəhkəsər uğultuları, zenit toplarımızın ürəkdirəkli gurultuları, bir sözlə, amansız qanlı müharibənin nəfəsi hər an, hər yerdə ağır zərbəli bir həqiqət kimi duyulurdu.

Bir neçə gün içində neçə-neçə hərbi hissədə olduq. Ölkəmizin yaxın-uzaq yerlərindən gəlib burda döyüş əmrinə hazır dayanan Vətən oğullarına Bakıda, bütün şəhərlərdə, kəndlərdə bir an dayanmayan, get-gedə sürət və gərginliyi artan əmək coşqunluğundan söhbət edir, şeir oxuyur, konsert verirdik. Döyüşçülərin ruh yüksəkliyi, onların bir an əvvəl düşmənlə döyüşə girməyə can atmaqları, son qələbəyə inamları bu ağır və incikli sınaq günlərinə baxmayaraq, bizdə fərəh və qürur hissi oyadırdı.

Vuruş zamanı döyüşçülər şəhərlərdə, kəndlərdə qalmış ailə üzvlərinə, zavod, fabrik, ali məktəb, kolxoz və sovxozlardakı iş yoldaşlarına salam göndərir, bir ağızdan deyirdilər: "Əmin olun ki, biz çətin döyüşlərdə xalqımızın, böyük Vətənimizin şərəfini qeyrətlə qoruyacaq, faşizm üzərində qələbə çalacaq, körpələrimizin sakit yuxusunu qoruyacaq, ana-bacılarımızın dincliyini müdafiə edəcəyik..."

Bu sözlərin inamı doğruldu. Bu gün faşist Almaniyası üzərində qələbənin 30 illik təntənəli bayramında – bu məqsədə and içmiş döyüşçülərin də, Vətən uğrunda qurban gedənlərin də, qələbə gününü alqışlayıb dinc əmək meydanına qayıdanların da səsi var.

1975

ÖTƏN GÜNLƏR

Mən, ailəmlə Göyçay adlı bir qəza şəhərində yaşayırdım. Atam vəfat edəndə mənim beş yaşım vardı. Anam tez-tez məni və dörd bacımı başına yığıb maraqlı nağıllar deyərdi. Anamın şairlik təbi vardı. Savadı yox idi, əslində oxumağı bilirdi, ancaq ona yazmaq öyrətməmişdilər. Anamın bədahətən dediyi şeirləri atam kağıza yazarmış.

Bizim ailəmiz ziyalı ailə idi. Otuzuncu illərdə vəfat etmiş dayım Məmməd Hüseynin də üç dəftər şeir və hekayələri qalmışdır.

Bacılarım məktəbdə oxuyur, çadrasız gəzirdilər. Azərbaycanda 1930-cu il inqilabından qabaq Göyçayda ancaq bir məktəb və iki-üç mollaxana vardı. Oxumuşların sayı çox az idi. Demək olar ki, bütün Şimali Azərbaycanda savadlı adamlar 15-20 faizdən çox deyildi. Kənd yerlərində məktəb tək-tük sayıla bilərdi. Kitab nəşri çox məhdud idi. Böyük simalarımızın: – Füzuli, Vaqif, Natəvan, Seyid Əzim, Sabirin şeirləri dildən-dilə gəzirdi. Ancaq onların çap olunmuş əsərləri çox nadir hallarda olurdu. Azərbaycan dilində dövlət çapxanası yox idi. Doğma ana dilində – türk (Azərbaycan) dilində qəzet və jurnallar müntəzəm çıxmırdı. Milli dilimiz çoxlu fars, ərəb sözləri ilə elə dolmuşdu ki, bəzi şairləri geniş xalq kütləsi oxuyub başa düşə bilmirdi. Gəncədə anadan olmuş, orda ölməz əsərlər yaratmış Nizami, Şamaxının Məlhəm kəndində doğulmuş Xaqani, gəncəli şairə Məhsəti xanım, hətta üç dildə: azərbaycanca, farsca, ərəbcə yazmış Nəsimi və bir çox qədim şairlərimizin əsərləri az tapılırdı. Nadir hallarda ayrı-ayrı təzkirələrdə, cünglərdə əlyazması şəklində tək-tək adamlara məlum idi. 1920-ci ildən sonra bütün bu adlarını çəkdiyim Azərbaycan şair və ədibləri dönə-dönə böyük tirajlarla nəşr olundu, xalq öz doğma övladlarının əsrlərdən keçib gələn səsini eşitdi.

Bayatılar, dastanlar dilin gözəlliyini, saflığını saxlamaqda mühüm rol oynamışdır. Vaqif, Vidadi, Zakir, Natəvan, Seyid Əzim Şirvani, daha sonra şamaxılı Ələkbər Sabir sadə Azərbaycan dilində yazan unudulmaz böyük şairlər oldular. Sabirin İran, Türkiyə və başqa Şərq ölkələri haqqında yazdığı sadə şeirləri məşhur satirik "Molla Nəsrəddin" jurnalında və başqa dövri mətbuatda çap olunurdu. Ancaq bu nəşrlər çox məhdud idi. Sabirin "Hophopnamə" adlı şeirlər külliyyatı ancaq böyük şairin vəfatından sonra A.Səhhət tərəfindən nəşr olundu...

Dil – millətin varlığı, onun həyat səhifəsində imzasıdır. Bir millətin yerini əlindən almaq olar. Onun var-dövlətini talan etmək olar, o, yenə də milli varlığını itirmir, millət olaraq qalır. Bir millətin dilini əlindən alarsan, o millət öz milli simasını itirər. Ana dili millətin mənəvi varlığı, canı, qanı, adı-sanıdır. Odur ki, milli dil uğrunda mübarizə – millətin mənliyi uğrunda mübarizə deməkdir. Həm də bu mübarizə başqa xalqların dilinə qarşı olmaq, xor baxmaq deyil.

Bakıda vaxtaşırı xeyli jurnal, qəzet çıxırdı. Bu qəzet-jurnallar çox az bir tirajla, həm də qeyri-ardıcıl nəşr olunurdu. Onlar tez-tez çar senzoru tərəfindən qadağan edilir, maddi ehtiyac üzündən bağlanırdı.

Qədim və böyük mədəniyyət tarixi olan Azərbaycan xalqının elm, maarif, mədəni inkişafı çox ağır və çətin yolda idi.

Yalnız 1920-ci ilin aprelindən sonra sovet Azərbaycanında milli mədəniyyətin, ilk növbədə, Azərbaycan dilinin inkişafı, tərəqqisi dövlət tərəfindən qorunub sürətlə inkişaf etdi. Yüzlərlə yeni məktəblər açıldı. Onlarla ali məktəblər, tədqiqat institutu yarandı, elmi müəssisələr fəaliyyətə başladı. Azərbaycan Elmlər Akademiyası yarandı, yüz min tirajlarla tədris və elmi kitablar nəşr olundu. Qədim Azərbaycan ədəbiyyatının çiçəklənmə dövrü başlandı. Bu gün Azərbaycan başdan-başa savadlılar ölkəsidir. Azərbaycanda Bakıdan başqa, kənd-rayonlarında onlarla xalq teatrı var. Yeni-yeni sənaye şəhərləri yaranıb, respublikanın şəhərlərinə, kəndlərinə min kilometrlərlə asfalt yollar çəkilib. Sumqayıt, Mingəçevir, Daşkəsən, Əlibayramlı, Stepanakert kimi yeni sənaye şəhərləri yaranıb. Qədim Gəncə respublikanın ikinci sənaye və mədəniyyət şəhəri olub.

Bu gün ibtidai, orta, ixtisas məktəblərində, institutlarda, tədqiqat ocaqlarında yüz minlərlə azərbaycanlı balaları təhsil alır. Hər il Moskva, Leninqrad və başqa böyük şəhərlərdə yüzlərlə azərbaycanlı ali təhsil alır, elmi idarələrdə, sənaye müəssisələrində çalışır.

Azərbaycanda – Bakıda, Gəncədə təhsil alan xarici tələbələrin sayı ildən-ilə artır. Bunların arasında Asiya, Afrika, Avropa və Amerika qitələrindən gəlmiş yüzlərlə gənc oğlan və qızlar vardır. Onlar burda ali təhsil alıb yüksək ixtisaslı mühəndis, təbib, aqronom, texnik olaraq vətənlərinə qayıdırlar.

Bir neçə on il bundan qabaq, ən adi sənaye mallarını ölkənin başqa şəhərlərindən, xarici ölkələrdən alıb gətirən respublika indi Bakıda və respublikanın başqa şəhərlərində istehsal etdiyi malları yüzə yaxın xarici ölkəyə satır.

Bu gün Azərbaycanın bir çox xarici ölkə ilə ticarət və elmi-mədəni əlaqəsi var. 1941-ci ilin tarixi günlərində, Böyük Vətən müharibəsi başlanan gündə on minlərlə Azərbaycan oğulları və qızları faşist işğalçıları ilə amansız döyüş cəbhələrinə getdi. Sovet xalqının hünər və rəşadət illiklərinə (salnaməsinə) unudulmaz qəhrəmanlıq səhifələri yazdılar. 1418 gün sürmüş bu misli görünməmiş müharibədə Bakı fəhlələri, Azərbaycan kəndliləri başqa sovet xalqları ilə çiyin-çiyinə döyüş və əmək xariqələri göstərdilər. Müharibənin ilk günlərində Bakı Baltikadan Qara dəniz sahillərinə qədər uzanan cəbhə boyu sovet döyüşçülərinin təyyarə, tank və maşınlarını yanacaqla təmin edirdi. Bakı zavodlarında tank, pulemyot, mərmilər, güllələr və təmir hissələri istehsal olunurdu. Azərbaycan və başqa millətlərdən olan Sovet qadınları dəzgah başında, fabrik-zavodlarda, neft buruqlarında cəbhəyə, döyüşə getmiş ər, oğul və qardaşlarını, bacılarını əvəz edirdi. Müharibənin ağrı və çətinlikləri sovet xalqlarının birlik əzmini qat-qat artırırdı.

Bu gün də Azərbaycana gəlmiş xarici jurnalistlər 40-cı illərdə ağır müsibətlərlə yaşamış Azərbaycan xalqının necə zəhmət möcüzələri yaratdıqlarını görüb heyran qalırlar.

Sovet Azərbaycanının sənət, ədəbiyyat sahəsində yaratdıqları bir əfsanəyə bənzəyir. Bu gün Azərbaycan şerinin səsi yüzlərlə ölkədən gəlir. Azərbaycan ədəbiyyatının ən gözəl nümunələri dünyanın ən çox yayılmış, ən inkişaf etmiş dillərində nəşr olunur. Hindistanın neçə-neçə dilində, Birma, İndoneziya dillərində, Avropa dillərində, fars, ərəb dillərində, Amerikada, Kanadada Azərbaycan şerinin ən yaxşı nümunələri səslənir. Azərbaycan dili artıq qabaqcıl dünya dilləri sırasındadır.

Qədim tarixi olan Azərbaycan musiqisi son 50-60 ildə böyük bir inkişaf yolu keçmişdir. Böyük Üzeyirin ölməz melodiyaları neçə-neçə dünya xalqının sənət ocaqlarında səslənir. Onun məşhur "Arşın mal alan" musiqili komediyası ekranlaşdırılmış, ölkəmizin xaricində, neçə-neçə ölkədə şöhrət qazanmışdır.

Azərbaycan fırça və tişə sənəti ustalarının əsərləri ölkə-ölkə gəzib sərgilərdə nümayiş etdirilir.

Xüsusi bir fərəhlə demək olar ki, bütün sahələrdə olduğu kimi, sənət sahəsində də Azərbaycan qadınları böyük şöhrət qazanmışlar. Məhsətilərin, Heyran xanımların, Natəvanların, Kəminələrin bugünkü

övladları – Azərbaycan şair və nasirləri də səsini ümumi sovet ədəbiyyatının coşqun, zəfərli səsinə qoşmuşlar. Biz azərbaycanlılar yalnız öz müdrik, böyük elm və sənət simalarımızla fəxr etməkdən başqa, özgə xalqların məşhur xadimlərini, elm, sənət, ədəbiyyat nümayəndələrini də tanıyır, onların insanlara bəxş etdikləri mənəvi sərvətləri, ölümsüz əsərləri layiqli ehtiram hissi ilə yad edir, sevirik.

Başqa dünya xalqlarının sənət bahadırları ilə yanaşı, İran xalqının ölümsüz dahilərini – Firdovsini, Xəyyamı, Sədini tanıyır, sevir, Azərbaycan dilində oxuyuruq. Sabirin sənət qardaşı Möcüzü, Saib Təbrizini, fars və Azərbaycan dilində yazmış Xətaini, Heyran xanımı dili bir, taleyi müxtəlif xalqımızın könül tərcümanları kimi sevirik, onların xatirini həmişə əziz saxlayırıq.

Bu gün məşhur ustad Şəhriyarın yanıqlı misraları, Səhəndin hərarətli sətirləri Azərbaycanda dillər əzbəridir. Cənubi Azərbaycanın ağır şah istibdadı günlərində didərgin düşmüş neçə-neçə övladını doğma övlad kimi bəsləyib yetirdik. Azəroğlu, Mədinə Gülgün, Söhrab Tahir, Həkimə Billuri, Əli Tudə kimi oğul-qızları Azərbaycandilli bugünkü poeziyamızın ayrılmaz bir parçasıdır.

Cənubi Azərbaycan torpağından incikli, yanıqlı xatirələrim də az deyil. Qırx dörd-qırx beşinci illərdə mən dəfələrlə Cənubi Azərbaycanda oldum. Təbrizin sevincli günlərini gördüm. Onun matəmli, müsibətli xəbərlərini ürək yanğısı ilə eşitdim.

Marağada – Azərbaycanın qədim elm ocağında gördüyüm mənzərə bu gün də gözlərimin qabağından çəkilmir. Qədim rəsədxananın xərabələri şah üsul-idarəsinin mənhus günlərindən göynəkli, ağrılı hekayətlər danışırdı. Qədim Ərdəbildə gördüyüm Şeyx Səfi məqbərəsi də acınacaqlı bir mənzərə idi. Günbəzinin beş tərəfinə qılınc çatılmış məqbərə böyük xalqın – Azərbaycan xalqının keçmişindən xatirə, xalqın düşmənləri tərəfindən talan edilmiş gümüş məzarların yanıqlı izi, divarlarında oyulmuş gözlər kimi görünən boş taxçalar şahlar üsul-idarəsinə qarşı qəzəbli bir ittiham idi.

Cənubi Azərbaycan şəhərləri və kəndləri o illərdə coşqun həvəs, sevinc, ümid, arzuyla yaşayarkən – şah qoşunlarının, İran irticasının qanlı əlləri ilə qana boyandı. Lakin xalqın azadlıq uğrunda mübarizəsini söndürmək, tarixin təkərini geri döndərmək mümkün deyil.

Bu gün bütün İranın demokratik qüvvələri ilə bir sırada Cənubi Azərbaycanın mərd oğulları, qızları yeni həyat – milli azadlıq, İran

torpağının yeni baharı uğrunda mübarizə aparırlar. Mən vaxtilə Təbrizdə olduğum zaman orda "Gözəl dost" adlı lirik, mənsur şerimi yazdım. Daha qabaqlar isə azadlıq uğrunda mübarizə aparıb şah üsul-idarəsi tərəfindən anasının gözü qarşısında dar ağacından asılan müəllim Hilal haqqında eyni adlı poemamı yazmışdım. Ərk qalası haqqındakı şerimi, "Təbrizim", "Təbrizli dostuma" adlı şeirlərimi Cənubi Azərbaycana, Təbriz şəhərinə səfərimdən aldığım təsirlə yazmışam.

Təbrizin yolları oyum-oyumdur.
Yanıq dağdan qalxan duman olaydım.
Həsrət könüllərlə ümid olmasam,
Heç olmasa, zəif güman olaydım.

Təbrizdə olarkən onun yaraşıqlı xiyabanlarını gəzdim, məşhur Göy məscidini, böyük Xiyabaninin adı ilə bağlı yerlərini və nəhayət, əfsanəvi Ərk qalasını gördüm. Bu qalanın unudulmaz keçmişi, qəhrəmanlıq tarixi məndə yeni poetik duyumlar oyatdı. Bu təsir, bu duyumlar şeir sətirlərinə döndü ki, mən onları kitablarımda dərc etdirmişəm.

Təbriz, onun göynəkli həsrəti illər boyu məni rahat qoymur. Bu qədim yurdun işıqlı günlərinin nigaranlığı bir ürək ağrısı olub həmişə içimdə yaşayır. Bu gün ümidlər, arzularla dolu vaxt artıq gəlib çatmışdır. Təbriz, bütün Cənubi Azərbaycan xalqı şah zülmündən göz-göz yaraları sağaltmaq əzmindədir. Mən qədim Təbrizin fərəhli günlərinə inanır, onun hər bir uğurlu gününü ürəkdən alqışlayıram.

On il qabaq yazdığım bu kiçik şeir də keçmiş üzüntülü günlərin ümid və inam dolu poetik bir yadigarıdır.

TƏBRİZİM

Son zamanlar
Səni yuxuda görürəm,
Təbrizim,
Hər gecə.
Suyun, çörəyin, varmı?
Nəğmən necə?
Yenə "Qaragilə",

Yoxsa daha qəmlidir?
Göy məscid necədir?
Ərk qalası necə?
Yanıq dağ qupqurudur,
Ya nəmlidir?
Yuxuma girirsən, Təbrizim.
Yoxsa incimisən.
Uzun həsrət yorub səni,
Yoxsa dözüb-dözüb
İndi yaman qəribsəmisən.
Təbrizim, mənsizim!
Hardan gəldi,
Hardan düşdü yadıma,
anamın həzin bayatısı:
"Mən bütöv bir yuvaydım:
Yel vurdu paralandım.
Mən səndən ayrılmazdım
Zülmünən aralandım".

Yeni xoş günlər, yeni bayramlar, yeni görüşlərə qədər!

MİLLİ ŞÜUR VƏ MİLLİ İFTİXAR

Hər millət tarix səhifələrinə yazdığı insanpərvər işləri, bəşəriyyətə bəxş etdiyi dühaları, yaratdığı maddi və mənəvi nemətləri ilə fəxr edir. Bu gün yer üzündə yaşayan saysız müxtəlif millətlər, həmin tarixi şərait içərisində müxtəlif zamanda meydana çıxmış, inkişaf və tərəqqi etmiş, yaşayıb yaratmışlar. İnsan uşaqlıq, gənclik və kamillik dövrü keçirdiyi kimi, millətlər də həmin dərəcədə bu yolu keçir. Bir millət tarixin uzun illəri boyunca yaşayıb-yaradaraq, öz adət və ənənəsini meydana çıxarır, elm, texnika sahəsində öz istedadlı nümayəndələrini yetirərək bişkin bir mərhələyə çatır.

Özünü bir millət kimi dərk edən xalq bu inkişafın yüksək mərhələsinə qalxır. Milli şüur – bir xalqın öz istedad və bacarığını dərk etmək, millətin ümumi mənafeyi və ziyanını görmək, ümummillətin rifah və səadəti üçün çalışmaq yolunda hər cür fədakarlığın zəruri olduğunu dərk etməkdir.

Öz tarixi mövqeyini, öz milli ehtiyac və vəzifələrini dərk etmiş xalq gələcək inkişafının yollarını aydın görür və bu yoldakı mübarizəsini daha kəskin, daha irəli apara bilir.

Milli şüuru oyanmamış və ya hələ də lazımınca oyanmamış millətlər daima başqalarının ağalıq və zülmünə məruz qalır. Yalnız kənardan deyil, öz daxilində dəxi mürtəce qüvvələrin nüfuz və təsirinə boyun əyməli olur.

Şübhəsizdir ki, milli intibah, milli şüurun oyanması bir günün, bir ilin işi olmayıb, əsrlərin kəskin və amansız fırtınaları içərisindən doğulur. Bir millət içərisindən çıxan ayrı-ayrı proqressiv nümayəndələr, alim və yazıçılar hələ o xalqın bir küll olaraq intibah yoluna düşdüyünü isbat etmir.

Azadlıq dərk edilmiş zərurətdirsə, bu azadlığı duymaq, onun zəruri olduğunu hiss etmək üçün xalqın bütün nemətlərini yaradan geniş kütlələrin milli şüurunun artması, xalqın özünəməxsus ənənə, sənət və məişət gözəlliklərinin həqiqətən sevilib intişar etməsi şərtdir. Lakin millət içərisində yetişən ayrı-ayrı ağıllı adamların – ictimai xadimlər, inqilabçılar, yazıçılar, rəssamlar, alim və maarifpərvərlərin o xalqın milli şüurunu yüksəltmək, o xalqın azadlıq və istiqlaliyyət yolundakı səylərini daha müntəzəm və mütəşəkkil bir hala salmaq, o xalqın yolunu işıqlandırmaqda böyük xidmətləri vardır.

Babək, Nəsimi, Həsən bəy Zərdabi, Mirzə Fətəli Axundzadə, Bakıxanov, Əzizbəyov, Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) və Sabir kimi sərkərdə, yazıçı və inqilabçıların Azərbaycan xalqının inkişaf və tərəqqisində, bu millətin milli intibah və milli şüurunun möhkəmlənməsində çox böyük xidmətləri olmuşdur.

İran Azərbaycanında yaşayan Azərbaycan xalqının yetirdiyi alim, yazıçı və inqilabçılar bu xalqın milli şüurunun artmasında, onun azadlıq və istiqlaliyyət yolunda apardığı mübarizədə çox böyük xidmətlər göstərmişlər. Şəms Təbrizi kimi dünya miqyasında şöhrət qazanmış alim və yazıçı, Sahib, Səttarxan, Bağır xan, Rüşdiyyə, Möcüz, Şeyx Məhəmməd Xiyabanilərin adı bu xalqın mübarizə və inkişaf tarixinin səhifələrində qızıl hərflər ilə yazılmışdır.

Bu xalqın azadlıq yolundakı mübarizəsində öz canlarını qurban vermiş yüzlər və minlərlə həqiqi vətənpərvər və millətpərvər mücahidləri vardır ki, onların hər damla qanı milli şüur inkişafının yolunda tökülüb, bu yolu təmizləməyə xidmət etmişdir. Odur ki, Azərbaycan xalqı yaratdığı bu tarixi simaların həyatı, işi və əsərləri ilə fəxr edir.

Milli iftixar hissi, milli şüurun doğrudan-doğruya bir nəticəsidir. Milli şüuru oyanmamış, öz yaradıcılıq qüvvəsinin qüdrətinə iman bağlamamış bir xalqda milli iftixar hissi dəxi çox zəif və məzmunsuz olur.

Biz azərbaycanlı olduğumuzla fəxr edirik. Bu iftixar hissini doğuran səbəb Azərbaycan xalqının "seçilmiş bir millət" olduğu, "başqalarından yaxşı" olduğu deyil, bəlkə də övraqi-həyatda bizim də millətin imzası şərəfli bir yer tutduğu üçündür.

Vaxtilə Azərbaycanın böyük şairi Məhəmməd Hadi yana-yana:

Qoymuş miləl imzasını övraqi-həyata
Yox millətimin xətti bu imzalar içində.

– derkən onun sözündə tarixi həqiqətdən daha çox öz millətinin səadətini, intibahını hər şeydən çox sevən, xalqını tarix səhifələrində yeni-yeni şərəfli dastanlar yazmağa çağıran həsrətli bir ruhun çırpıntıları vardı. Məhəmməd Hadi bu sətirləri yazarkən Azərbaycan xalqının dünya mədəniyyətinə ölməz simalar vermiş olduğunu bilməz deyildi, lakin Hadinin bu fəryadı o zaman əsarət zənciri altında inləyən öz qəhrəman xalqının acınacaqlı halı üçün ürəkdən gələn bir fəryad idi. Hadi övraqi-həyat dedikdə xalqının azadlıq və istiqlaliyyətini nəzərdə tutur və hələ mürtəce üsul-idarəsinin təzyiqi altında yaşamağa məcbur olan xalqının həsrətini ifadə edirdi.

Oktyabr inqilabı Azərbaycan xalqını əsrlik əzab və işgəncədən qurtarıb xalqın müqəddəratını öz əlinə tapşırdı.

Sovet Azərbaycanında inqilabdan sonra açılmış yüzlərlə ali və orta məktəblər, neçə-neçə tədqiqat müəssisələri, muzeylər, kitabxana, teatr və sinemalar, təzə tikilmiş zavodlar, maşınlaşdırılmış kənd təsərrüfatı – xalqın milli şüurunun artmasına, onun ən vacib duyğularının təzahürünə böyük imkanlar yaratdı. Biz azərbaycanlı olduğumuz üçün fəxr edirik, çünki Azərbaycan xalqı dünyanın ən hürriyyətsevən, ən ünsiyyətli, ən qəhrəman və alicənab xalqlarındandır.

Bizim qəlbimizi dolduran iftixar hissi Azərbaycan xalqının böyük yaradıcılıq qüdrətinə, onun azadlıq üçün hər şeyi fəda etməyə hazır olan iradə və mətanətinə əsaslanır.

"Azərbaycan" jurnalı (1945-1946-cı illərdə Cənubi Azərbaycan üçün ərəb əlifbasıyla nəşr olunan jurnal)
№ 3-4, oktyabr-noyabr, 1945

GÖZƏL DOST

Biz səndən ayrılanda Yanıq dağın üstündə ildırımlar çaxırdı. Badam ağacları ağ paltarlarını yaşıl atlaz ilə əvəz etməmişdi. Çəhrayı şaftalı çiçəkləri bağları bəzəmişdi. Gözəl dost, mən səni Təbrizin baharına tapşırdım. Mən səni dəstə-dəstə keçən fədailərin nəğməsini dinləyən gördüm. Sən dalğın idin. Bəlkə də bu, ayrılıq axşamının qəribliyindən doğan bir hiss idi.

Gözəl dost! Mən səni yalqız qoyub gəlmədim. Mən səni ilıq bir may səhərinin şəfəqlərinə tapşırdım. Biz bütün günü sənlə bərabər gəzdik. Təbrizin başı üzərində tarixin qarovulu kimi duran qalaya baxdıq. Ərk qalasına baxdıq. Bütün Təbrizi bir də təzədən seyr etdik. Sən gözlərini gözümə dikərək, nədənsə, bir az ciddi, bir az şux əda ilə: "Siz ağlayana oxşamırsınız, siz daim gülürsünüz", – dedin və gözlərinin yaşını sildin. Gözəl dost, mənim qəhqəhələrim arxasında gizlənən hıçqırıqlarımı, təbəssümlərimin örtdüyü göz yaşlarımı görmədinmi? Mən, ancaq səndən deyil, küçələrində səhər nəğmələri səslənən yaşı qoca, qəlbi cavan Təbrizdən deyil, munis xatirələrimin yuvasından ayrıldım. Sən mənə bir həsrət yadigar verdin ki, onu qəlbimdə saxlayıram. Mən xatirələrimi zərif büllur bir gülqabı kimi ehtiyatla, bütün varlığım, qəlbim, ruhum titrəyərək Vətənə gətirdim. Mən Bakının işıqlı gecələrində səni – Təbrizi xatırlayıram. Gözəl dost, mən indi bu xatirələrin məlal və qürur doğuran rayihələri ilə yaşayıram. Qəlbimdəki ümid fidanları solmamışdır. Mənim əməlim, arzum, nadinc bir uşaq kimi daim çırpınan qəlbim bu ümidimin körpə yanaqlarına işıq verir. Yadındadırmı, gözlərimə baxaraq məndən soruşdun:

– Bir də görüşəcəyikmi?

Mən cavab verdim:

– Gör, Təbrizin nə gözəl baharı var. Qaranquşlar da yuvasına dönmüşdür. Gözəl dost, biz yenə görüşəcəyik. Aylar, illər bizim mətanətimiz qabağında qocalsın! Eşqimizin qüdrəti tarixlərə misal olsun!

Mən səndən gülə-gülə ayrıldım. Mən bu ayrılığın əbədiyyətinə inansaydım, səndən ayrılmazdım. Qəlbimə axan göz yaşlarını sən görmədin. Mən onları səndən gizlətdim. Sən bu göz yaşlarını görsəydin, bəlkə də ümidini itirər, bizim ayrılığımızın əbədiyyətinə inanardın...

Gözəl dost! Mən ulduz gözlərinin işığı ilə ruhuma çökən qaranlığı boğdum. Mən səni unuda bilərəmmi? Sən mənim gülüşlərimin hərarətindən isindin, sən məni unuda bilərsənmi?

Biz həzin bir bahar axşamı ayrıldıq. Yanıq dağın üstündə ildırımlar çaxırdı. Hər yer yaşıl atlaza bürünmüşdü. Sən dalğın-dalğın fədai dəstələrinin nəğməsini dinləyirdin. Bu nəğmə səsləri Təbrizin hər tərəfindən gəlirdi. Elə bil, dağlar, qayalar da o qüdrətli nəğmənin sözlərini təkrar edirdi.

Fədailər oxuyurdular:

– "Həmişəlik yaşa, Azərbaycan!"

Gözəl dost! Sənin yadigar verdiyin həsrətin dili mənim xatirələrimi dindirir. Qulaq as, onlardan birini sənə danışım.

Savalanın qarlı başında axşam qızartıları sönür. Sərin bahar yeli ağacların körpə yarpaqlarını oxşayır.

Elə bil ki, qoca Ərdəbilin küçələrində sıra-sıra düzülmüş bərq çıraqlarının işığı göylərə əks edir, orda bir-bir ulduzlar alışmağa başlayır.

Kim bilir, bu yerin hər qarış torpağında nə qədər at dırnağının izi var! Kim bilir, uzaqlardan əsatiri bir qəhrəman sinəsi kimi qabaran dağların dərələrində nə qədər igid nərəsi əriyib getmişdir!

Qərinələr keçmiş, səsli, haraylı günlər tarix olmuş, insan nəsli dönə-dönə bir-birini əvəz etmişdir. Bəşər oğlu dırnaqları ilə daş qazıyaraq öz səadətini aramışdır. Həyatın çətin yollarında onun ayaqları qabar bağlamış, zamanın amansızlığı ona mübarizənin rümuzunu öyrətmişdir.

Bu gün sakit bahar axşamının yumşaq qaranlığında yatan Ərdəbilin qəlbində dərin həyəcan əlamətləri duyulur. O öz dostlarından ayrılır.

Qızılgül olmayaydı,
Saralıb solmayaydı
Bir ayrılıq, bir ölüm –
Heç biri olmayaydı!..

Xalqın yaratdığı bu ölməz bayatıda yalnız fərdi məhəbbətin ifadəsini aramaq səhv olardı. Bu, könül iztirabının yanıqlı ifadəsi, böyük bir hissin, dərin bir məhəbbətin, saf bir duyğunun aynasıdır. Mən bu sözləri qoca bir qadının dilindən eşitdim. Bu bayatını bilməyən azərbaycanlı tapılmaz. Biz bu sözləri beşik başında anamızdan eşitmiş, səfərə çıxan atamızdan öyrənmiş, nişanlı yolunu gözləyən gəlinlərin yanıqlı səsində dinləmişik. Lakin bu gün yetmiş yaşlı bir qarının bu sözləri təkrar edə-edə gözlərini uzaqlara dikdiyini, bəlkə də xəyalında

ömrün ağır illərinin kölgə salıb dumanlatdığı şirin bir xatirəni aradığını görəndə, mənim də könlümdə həsrət duyğusu, bir həqiqət, hicran ağrısı baş qaldırdı.

Sovet və İran dövlətləri arasında bağlanmış müqaviləyə əsasən, Ərdəbildəki Sovet qoşunları İranı tərk etdi. Sovet döyüşçüləri dəstə-dəstə gedir, ikibir, üçbir sürətli addımlarla ötüb keçirdilər.

Adını bilmədiyim, bəlkə də bir daha heç zaman görməyəcəyim o ana palçıq divarlı evin qabağında bir söyüd ağacına söykənib dayanmış, həsrət dolu gözlərlə keçən əsgərlərə baxır, bu bayatının sözlərini təkrar edirdi.

Mənim Ərdəbil ilə tanışlığım belə bir axşamda oldu. Dünənki aydın göylərdən, geniş üfüqlərdən, saf və təmiz havadan bir nişan qalmamışdı. Duman ağacların arasından, evlərin üstündən, küçələrdən sürünüb keçirdi.

Səhər yenicə açılmışdır. Ancaq Ərdəbilin baş küçəsi saysız insan kütləsi ilə dolmuşdur. Saat doqquz tamamda Sovet qoşunları şəhəri tərk edəcəkdir. Saat hələ yeddi deyil, bu qədər insan – kişi, qadın, uşaq hardan gəlmişdir? Bu adamlar içində ətraf kəndlərdən 20-25 kilometrlik yol keçib gələnlər də az deyil.

Uzun bir küçənin hər iki tərəfində insandan divar yaranmışdır. Həm də bu divar bir neçə qat sıralanaraq, orta ilə binaların arasındakı səkini tamam tutmuşdur. Evlərin pəncərələri geniş-geniş açılmış, hər pəncərənin açığından qadın, uşaq və böyük dərin maraqla gözlərini ordunun keçəcəyi yola dikmişdir. Damlar üstündə boş yer yoxdur, küçənin hər iki tərəfində ağaclar da elə bil, adam gətirmişdir. Hər tərəf insan, insan, insandır.

Adamların əlində nə isə bir kağız parçası var. Hər kəs bu kiçik vərəqlərdən almağa tələsir. Uşaqlar bunu bir-birinin əlindən qapır, böyüklər oxuyub bir-birinə ötürürlər. Çoxu vərəqəni oxuduqdan sonra diqqətlə uzun-uzadı ona baxır, sonra da ziqiymət bir xatirə kimi onu səliqə ilə büküb qoltuq cibinə qoyur.

Bu vərəqə Sovet ordu komandanlığının yerli əhaliyə müraciətnaməsidir.

Bu izdihamlı küçədən bir az kənarda hər kərpicində cəngavər bir xalqın şərəf dastanı yazılı məğrur bina dayanmışdır. İllər bu binanın astanasında qocalmış, qərinələr onun əzəmətinə həsrətlə baxmış, keçmiş, tarix onun ilə ömür sürüb baş ağartmışdır. Bu, Azərbaycan memarlığının ecazkar gözəllik aynasıdır. Bu, məşhur Şeyx Səfi məqbərəsidir. Onun orta günbəzi üstündə böyük Xətainin – şair və sərkərdə Xətainin rəşadət, zəka və fütuhatını təmsil edən beş qılınc çatılmışdır. Bu qılınclar tarixin uzaq səhifələrindən keçib gələn zəfər dastanlarının işıqlı şöləsi kimi dumanların arasından görünür. Onlar azərbaycanlılara igid babalarını, qəhrəman keçmişlərini, qalibiyyət və əzəmətini xatırladır.

Saat doqquz tamamda Ərdəbildəki Qızıl Ordu hissələri Astaraya tərəf hərəkət edirlər. Onların yolu canlı insan xiyabanından keçir.

Hələ bahar yenicə başlamışdır. Hələ ağaclarda yeni-yeni açılan badam, ərik çiçəkləri soyuqdan qorxaraq, bərk-bərk budaqlara qısılmışdır.

Hardansa topladığı qırmızı yaran gülündən dəstə bağlamış 10-12 yaşlı bir məktəbli küçənin ortasına yüyürüb, öz hədiyyəsini bir süvari əsgərə təqdim edir. O, həyəcandan titrəyən səsiylə:

– Yaxşı yol! – deyir.

Əsgər məhəbbətlə onun əlini sıxır.

Tanımadığı bir əsgəri çiçəklə yola salan bu məktəb uşağının həyəcanla dediyi sözlər bu vidalaşmanın başlığı ola bilərdi.

Bu, dostlara deyilən sözdü. Bu, dostların dediyi sözdü. Bu sözdə, bu sözlərin ifadəsində dərin bir məhəbbət və qəlbləri titrədən bir həsrət var.

Süvarilər, topçular keçir. Hər tərəfdən onların üstünə kiçik yarpaq kimi sarı və çəhrayı rəngli kağızlar yağır. Bu kağızlar Ərdəbil azadigahlarının, Ərdəbil camaatının dost Qızıl Ordu nəfərlərinə, sovet zabitlərinə məhəbbət əlamətidir. Bunlarda "Yaşasın Qızıl Ordu!", "Yaşasın Qızıl Ordunun rəhbərləri!" sözləri yazılmışdır.

Ordu hissələrinin son nəfərləri şəhərin baş küçəsindən keçir. Böyük bir dənizdə gedən gəminin arxasınca yarılmış su hissələri birbirinə qovuşub, gəminin izini örtən kimi küçənin iki tərəfində yığılmış adamlar əsgərlərin arxasınca küçənin ortasına axışaraq, vahid bir insan halında şəhərin kənarına, Astara yoluna tərəf hərəkət edirlər.

Artıq Ərdəbilin evləri qurtarmış, qarşıda dumanlar içində qeyb olan bir yol vardır. Yerli demokrat hərəkatının görkəmli nümayəndələri ordu komandanlığına müraciət edərək, bu şəhərdə olduqları müddətdə onlardan ancaq hörmət, yaxşılıq və xeyirxahlıq gördükləri üçün, bütün Ərdəbil əhalisinin dərin təşəkkürlərini bildirirlər.

Hissə komandiri İran Azərbaycanı xalqının bu dərin məhəbbət və şükran hissi üçün təşəkkür edir. Bir anlıq sükutdan sonra yenidən

atların ayaq səsləri eşidilir. Dəstə-dəstə qızıl əsgərlər keçib gedirlər. Alçaq toz yığını yavaş-yavaş yerə çökür.

İndi artıq Astara yolunda sürünən xəfif dumandan başqa bir şey görünmür. Lakin adamlar yenə nəyə isə müntəzirdilər. Hamının gözü bu dumanlı yollara dikilmişdir. Sanki onlar günəşi itirmiş bir yolçu kimi bu bahar dumanları arasında bir işıq axtarırlar. Bir neçə dəqiqədən sonra yenidən nizamilərə məxsus eyni ahənglə dalğalanan ayaq səsləri sükutu pozur. Mən Astara yoluna baxıram. Bayaqdan bəri uzun sürən bu bir neçə dəqiqə sükut zamanında baxışlarda görünən məyusluq ifadəsi yenidən sevincə çevrilir. Dəstə-dəstə silahlı adamlar şəhərə tərəf gəlirlər. Elə bil ki, bu dəstələrin nəhayəti yoxdur. Onların nəğməsi pərdə-pərdə boşluqlara yayılır. Elə bil ki, səhərdən bəri hər tərəfi bürümüş duman da bir az seyrəkləşir.

"Ey torpağı ləl, mərcan,
Azərbaycan, Azərbaycan!"

Bunu oxuyan – Ərdəbilin qızılbaş qoşunları və fədai dəstələridir. Onlar dostlarını – Qızıl Ordu hissələrini ötürüb qayıdırlar. Onlar məğrur addımlarla qoca Ərdəbilin küçələrində addımlayırlar.

1946

UZAQ ELLƏRİN YAXIN TÖHFƏLƏRİ

İraq sözü, nədənsə, həmişə fəraq sözünü mənim yadıma salır. Fəraq sözü isə Füzulinin naməlum rəssam tərəfindən çəkilmiş məşhur şəklini gözlərimin qarşısında canlandırır.

Onun kədər dolu gözləri, baxışlarındakı izahedilməz həsrət, intizar böyük nəğmənin qürbət odu ilə yanmış qəlbindən nələr söyləyir!

Mən Füzulinin bu şəkli ilə onun yaradıcılığı arasında elə üzvi bir yaxınlıq görürəm, elə bir vəhdət duyuram ki, sonralar, yarısı bu şəkildən, yarısı bayağı fantaziyadan yaranmış "yeni" şəkilləri görəndə, ölməz şairin uzun illərdən bəri yaddaşımızda həkk olub qalmış nurani obrazının korlanıb şitləşdirildiyi məni daxilən sarsıdır.

Füzuli yaradıcılığı, ancaq məhəbbət fəryadı, könül sızıltısı, kədər, intizar və nakam eşqin həzin inildisi deyildir. Füzuli yaradıcılığını,

yalnız məhəbbət lirikasının ən geniş və yüksək mənada belə fəlsəfi cövhəri kimi qiymətləndirmək də tam olmazdı. Füzuli yaradıcılığı mənim təsəvvürümdə elə bir aləmdir ki, onun sonsuz rəngləri, bu rənglərin ən incə çalarları vardır. Burada insan gözünün görə bildiyi, heç bir bəyana, şərhə sığmayan zənginlik, insan qulağının eşidə bildiyi ahəng, səs, ün, pıçıltı, fəryad fırtınası, çağırış axını, hiss və duyğuların ləngər və təlatümü, insanı təsir qüvvəsinin məngənəsinə alıb uzun müddət əsir edən rayihələr, yalnız daxili görüş, daxili eşidiş, daxili qoxlayış, daxili toxunuşla duyula bilən incəliklər vardır.

Bütün bunlarla bərabər, Füzuli dedikdə, onun doyulmaz poeziyasının ürək tellərini titrədən nakam məhəbbət melodiyası yada düşür. Onun həsrəti, fəryadı, intizarı gözlərimizdə, qulaqlarımızda canlanır. Füzuli poeziyası, nədənsə, hər zaman mənə azəri xalqının qüdrətli dühası ilə yaranmış, cilalanmış əsrlərin iztirab və sevinclərini, qəhrəmanlıq, əzm və iradəsini, musiqinin ecazkar dili ilə ifadə edən muğamları xatırladır. Gözəl ifada, arif sənətkarlarımızın avazında bütün əzəmət və mənası ilə, bütün təravəti, illərin, əsrlərin hökmünə baş əyməyən gözəlliyi, qocalmazlığı, köhnəlməzliyi ilə yaşayan muğamlarımızı hər dəfə dinlədikcə sənətin təsir və təravət tükənməzliyinə heyran qaldığımız kimi, Füzuli şerinin də zaman-zaman yeni, daha zəngin, daha təravətli, daha incə rənglərə çalan mənalılığı, dəruni ifadəliliyi, nakam məhəbbət həsb-halının səmimiyyətinə, yapışıq və cəzbinə, ürəyə yatarlığına, həyatiliyinə, bəşəriliyinə, pərvaz qüvvəsinə və adi canlı insan hiss və duyğularına oxşarlığına heyran qalırıq.

Füzuli deyəndə ki, "Öylə sərməstəm ki, idrak etməzəm dünya nədir", biz onun keçirdiyi ruhi iztirabı qəlbimizin çırpıntısında duyuruq. Məcnun:

"Ya rəb, bəlayi eşq ilə qıl aşina məni,
Bir dəm bəlayi eşqdən etmə cüda məni.
Az eyləmə inayətin əhli-dərddən
Yəni ki, çox bəlalərə qıl mübtəla məni".

– deyəndə bu fəryad, bu yalvarış, bu cəsarət və fədakarlıqda biz, Füzuli qəlbinin döyüntülərini duyuruq.

İnsan böyük yaraların ağrısında kiçik yaraların sızıltısını duymaz. Füzuli üçün eşqin, məhəbbətin iztirabı qorxulu deyil. Onun böyük

dərdi, böyük yarası – qürbət dərdi, vətən yarası vardır. Bu yaranı, bu dərdi açıq-aydın onun sətirlərində axtaranlar əbəs zəhmət çəkirlər. Bu qürbət dərdi, bu böyük həsrət, yanıqlı, intizar Füzuli poeziyasının bütün ruhuna hopmuş, bütün varlığına çökmüşdür. O:

"Vəfa, hər kimsədən kim, istədim, ondan cəfa gördüm,
Kimi kim bivəfa dünyada gördüm, bivəfa gördüm"

– deyərkən yalnız vağamlamış fərdi ümidin gileyini deyil, bütün bir aləmin səciyyəsini lövhələndirmiş olur.

Bu aləmin möhnət və iztirabı ancaq Füzuliyə – böyük aşiq-müğənniyə deyil, çoxlarına aiddir. Füzuli hər yana baxsa, özündən daha betər dərdə mübtəla olan insanları görür. Bu insanların ancaq eşq dərdinə mübtəla olduqlarını zənn etmək sadəlövhlük olardı. Bu, daha böyük, daha ictimai və əlacı müşkül olan bir dərddir:

Kimə kim dərdimi izhar qıldım, istəyib dərman,
Özümdən həm betər bir dərdə onu mübtəla gördüm.

Muğamatın bir musiqi poeması kimi inkişafında əsas melodik xəttin enişi, qalxışı, haçalanması, birləşməsi, rəngləri, diringiləri olduğu kimi, Füzuli şerinin də müxtəlif çalarları, həzinliyi, major və minor notları vardır. Lakin əzəmətli muğam kimi onun poeziyasında hər fədakarlığa hazır, saf, ülvi məhəbbət, məhəbbət yolunda həyatın bütün iztirab və işgəncələrinə dözən, bu iztirab və işgəncələri böyük insan məhəbbəti naminə həvəslə qəbul edən, onlarda mənəvi bir zövq duyan, bu iztirablar bahasına həyatın gündəlik incikliklərindən ayrılıb yüksələn, dözüm və səbrinin hüdudu olmayan bir insan ruhunun hekayətləri eşidilir. Burada hicranlı, sitəmli, nakam və fədakar bir məhəbbət başına gələnləri bəzən həzin, bəzən qəzəbli, coşqun bir dillə danışır.

Mən hər zaman Füzulini oxuyarkən, onun illərdən bəri hafizəmizdə qalmış qəzəllərini, "Leyli və Məcnun"un bir çox hissələrini özözümə təkrar edərkən düşünürdüm: – Necə olur ki, vətənindən, elindən uzaq düşmüş, ta çocuqluq illərindən qürbətdə ömür sürməyə məcbur olmuş bir adam ana dilində belə kamil şeirlər yazmışdır. O, azəri xalqına məxsus olan bir sıra ifadə, obraz, təşbih üçün mayanı haradan almışdır? Onun şeirlərinin, dövrünə görə, son dərəcə kamil, sadə və

anlaşıqlı dili – azəri dili hardan qidalanmışdır? Nəhayət, o, azəri dilində şeirlərini kimin üçün, hansı oxucular üçün yazmışdır?

Yazıçı əsərlərini oxuyacaq adamların – o dillə danışan, o dili bilən adamların mövcud olduğunu bilməsə, yaza bilərmi? Axı ana dili – yazıçının əsərlərini yazıb-yaratdığı dil, onun suyu, havası, torpağıdır! Balıq sudan çıxarıldıqda ölən kimi, yazıçı bütün demək istədiklərini ifadə vasitəsi olan doğma dildən məhrum qalarsa, necə yazıb-yarada bilər, yazıb-yarada bilməzsə, onun ömrünün mənası nədir?

Füzuli kimi böyük sənətkar ərəb-fars dillərini gözəl bilə-bilə, bu dillərdə klassik şeir nümunələri, elmi əsərlər yarada-yarada, türkcə-azəricə nə üçün, kimin üçün yazmışdır?

Mən əvvəllər də İraqda, müxtəlif qəbiləli azərilərin yaşadıqlarını bilirdim, lakin bu xüsusdakı məlumatımız çox səthi, qırıq və qeyri-kafi idi.

Bizim İraqda yaşayan türkdilli xalq haqqında çox təxmini təsəvvürümüz var.

Mən bilmirəm, bəlkə də alimlərimizdən bu məsələdə daha artıq məlumata malik olanları vardır. Hər halda, mətbuatda bu xüsusda ətraflı, əsaslı, elmi-tarixi bir məqaləyə rast gəlməmişəm. İşimin xarakterinə görə bu sahədəki elmi-tədqiqat məxəzlərinə bələdliyim azdır.

Füzuli, onun şəxsiyyəti, yaradıcılığı, bu yaradıcılığa qida verən mühit, onun istiqamət və xarakterini müəyyən edən amillər hansılardır? Necə olub ki, vətənindən, doğma mühitindən ayrı düşmüş şair, ölməz "Leyli Məcnun"unu, təkrarolunmaz gözəllik və mənaya malik qəzəllərini azəricə yazmışdır, kimin üçün yazmışdır? Bu suallar bu yaxındakı İraq səfəri zamanı bir qədər aydınlaşıb, müəyyən məntiqi bir silsiləyə bağlandı. Mən inandım ki, Füzulinin yaşayıb yaratdığı yerlərdə onun azəricə əsərlərini oxuyan, onun poeziyasına qiymət və qüvvət verən minlər, yüz minlər varmış! Füzuli, dili dilindən, dərdi dərdindən, sevinci, arzusu, həsrəti onunla bir olan doğma xalq əhatəsində yaşamışdır. O, indi Kərbəlada, zəngin və əzəmətli görkəmi ilə diqqəti cəlb edən İmam Hüseyn məqbərəsinin qarşısında yorğun bir qərib kimi dayanmış bəzəksiz, təntənəsiz, həzin, kədərli:

"Nə yanar kimsə mənə atəşi-dildən özgə,
Nə açar kimsə qapım badi-səbadan qeyri"

– sətirlərini xatırladan, son mənzili – şair türbəsi kimi yox, bütün iztirab və məhrumiyyətlərinə baxmayaraq, hər gün doğma xalqının

səsini eşidən, onun ifadəsini duyan bir övlad kimi, öz həmdilliləri ilə bir torpaqda yaşayıb. Təsadüfi deyil ki, bu gün Şimali İraqda, Kərkük, Ərbil, Mosul dolaylarında xalq arasında məşhur olan bəzi xoyratların – bayatıların Füzuliyə aid olduğunu söyləyirlər:

Gülə naz,
Bülbül eylər gülə naz,
Girdim dost bağçasına,
Ağlayan çox, gülən az.

Bu xoyratın bizdə məlum olan "Əziziyəm, gülə naz" sətri ilə başlayan bayatının azca dəyişmiş əkizi olduğu aydındır. Hansı illər, hansı yellər, hansı tellər xalq yaradıcılığının bu nadir incisini diyar-diyar gəzdirib Füzuli qürbətgahına salmışdır?

İsti bir dekabr günü əfsanələrindən ancaq soyuq bir xatirə qalmış Bağdadın müasir aerodromundan dördmotorlu təyyarə ilə göyə qalxdıq. Yolumuz Şimala – Mosul tərəfədir. Təyyarə uğuldaya-uğuldaya göy yolunun yoxuşuna qalxdıqca, aşağıda Bağdadın üstü yastı-səlyanı evləri kiçilib oyuncaq kublara dönür. Dəclənin ilanyolu boz şüləyi nazilir, əyri-üyrü gümüşü bir lentə çevrilir.

Hava sərinləşir. Orda-burda görünən yaşıl adalar, səhraların sərt bozluğunda yaşıl əbaya bürünmüş qərib bir yolçu kimi görünür. İki saat belə çəkmir ki, məsafələrin gümüş qanadlı yağısı – təyyarə bizi Kərkükə yetirir.

Kərkük Xasa çayının üstündə orta bir şəhərdir. Şəhərin yaşı az deyil. Qədim qalanın divarları, köhnə binalar keçmiş əsrlərin dilsiz şahidi kimi dayanıb. Şərqin təhəmmül və təmkinlə dolu müdrik sükutu ilə susurlar. Bir neçə il əvvəl burada, yerli əhalinin dilində, hörmətli oxucularımın bir neçə səhifədən sonra tanış olacaqları xoyratlar – bayatıların yarandığı dildə qəzet-jurnal çıxır, kitablar nəşr edilir, məktəblərdə dərs keçilirmiş. İndi hər yerdə tədris, mətbuat ərəb dilindədir. Kərkükdə tanış olduğumuz müəllim Həsən İzzət, Məhəmməd Xurşid bu dərdlərini danışdıqca, mən, səfər yoldaşlarım şair Bəxtiyar Vahabzadə və Qasım Qasımzadənin gözlərində bir duman kimi çökən kədəri görür, öz-özümə düşünürdüm: duzdan dadı, sudan nəmi, torpaqdan həyat qüvvətini ayırmaq olarmı? Ərəb şovinistləri nə qədər səy eləsə də, nəğmələrinin səsi min illərin o tayından gələn bir

millətin dilini ona yadırğada bilərmi? Neçə əsrdir ki, Kərkük, Ərbil, Mosul dolaylarında yaşayan, dili, adət və ənənəsi ilə hakim ərəb xalqına heç bir bənzəyişi olmayan, deyilənə görə, sayı yarım milyona yaxın bir xalq tarixini, milli xüsusiyyətini, möhnət və sevincini, arzularını, ümidlərini şerin sehrkar dili ilə ölümsüz xoyrat – bayatı və mahnılarında ifadə etmişdir. Bu xalqın, türkdilli iraqlıların, hardan, nə zaman bura gəldikləri haqqında müxtəlif fikirlər vardır.

Bu böyük insan kütləsi kimdir? Hansı irqə, hansı millətə mənsubdur? Hansı xalqın zülmlə qoparılmış canlı qəlpəsidir? Hansı mədəniyyətin varisi, hansı tarixi-ictimai hadisələr burulğanına düşüb, nəhayət, İraqın şimal nahiyələrində oturaq olmuşdur? Bu, hansı qəbilə, hansı elatdır?

Bu sualların cavabını uzun və ağır zəhmətə qatlaşıb, yığın-yığın tarixi materialları saf-çürük eləyib, tutuşdurub, hadisələrin ən incə çalarlarına təcrübəli, müdrik gözlə baxıb, obyektiv faktların inkaredilməz həqiqəti ilə silahlanıb müəyyən nəticəyə gələn tədqiqatçılar, alimlər söyləyəcəklər. Məni maraqlandıran bu yerlərdə yaşayan əhalinin dil materialı, xüsusilə, onların müxtəlif zaman və şəraitdə yaranmış poetik folklorudur. Kərkük xoyrat və manilərinin tanış olduğum nümunələri göstərir ki, istər düşünüş yolu, istər obrazlar silsiləsi, istər iztirab, həsrət, ümid, sevinc və kədərlərinin ifadə forması etibarilə İraqın türkdilli sakinləri azərilərə, xüsusilə, cənubi azərilərə çox yaxındırlar. Təbriz ləhcəsi Kərkük xoyrat manilərinin demək olar ki, əsas ləhcəsidir:

Oxunmuri,
Dərdim çox oxunmuri.
Məcnun təki gəzirəm
Göz yara toxunmuri.

Burada elə xoyratlar vardır ki, onların əkizini biz cənub bayatıları arasında görmüşük:

Əyil yaylığın götür
Mən götürsəm, söz olur.
(*Kərkük*)

Qız, dəsmalını qovza,
Mən qovzasam söz olu.
(*Cənubi Azərbaycan*)

Bu sətirlərin eyni hiss və ilham mənbəyindən su içdiyi aydındır.

Bu yaxınlıq bir çox hallarda eyniyyət şəkli alır. Xoyrat və manilərdə əks olunmuş bu yaxınlıq, ya eyniyyət yalnız bütün sətirləri, söz ehtiyatı və ifadə forması ilə bizim bayatıların düzümündəki tez-tez rast gəldiyimiz eyniyyət, ya oxşarlıqla bitməyir, həm də əks etdirdiyi obyektiv varlığın həyat və məişət tərzinin, hətta bəzi hadisələrin qüvvətli oxşarlığı ilə təsdiq edir. Kərkük xoyrat və manilərini nəşr etmiş cənab Tərzibaşı birinci cildi təşkil edən maraqlı və qiymətli məqaləsinin bir çox yerində İraqın türkdilli əhalisinin ən çox azəri xalqına yaxın olduğunu söyləyir. O yazır: "Bizim xoyrat və manilərlə ilgisi ən yaxın olanı, mühəqqəq azəri olanlarıdır".

"Kərkük xoyratlarında iyirmiyə qədər üsuldan "Qarabağlı" denilən bir çeşidinin, azəri mənşəli və sırf azəri ağzı ilə sözləndiyini bilməkdəyiz. Ayrıca bu üsulla söylənən:

Təbriz altı Marağa,
Zülfün gəlməz darağa
Yar bizi dəvət edib
Bir stəkan arağa.

Xalq türküsü də yenə azəri havasıdır". O, bir yerdə yazır: "Əskidən azərilərlə məskun Təbriz, Marağa, Qarabağ, daha bir başqa şəhərlərdə musiqi həyatı yüksək mərtəbəyə varmışdı.

O zaman İraq türkləri ilə bu ölkələrdə yaşayan türklər arasında dil, ədəbiyyat, musiqi baxışından bulunan bağlılıq pək qüvvətli idi. Bu bağlılıq azərilərlə İraq türkmənləri arasında bir dərəcəyə təgin bir qaynaşma hüsula gətirmişdi..."

Bunu da qeyd etmək lazımdır ki, Tərzibaşının işlətdiyi dil Kərkük, Ərbil dolaylarında, Mosul kəndlərində, ümumiyyətlə, türkdilli iraqlıların danışdığı dildən, xüsusilə, xoyrat və manilərin dilindən çox fərqlidir. Onun yazı dili yerli əhalinin dilindən uzaqlaşmış, başqa təsirlər altında yalnız lüğət tərkibi deyil, tələffüz formasını da xeyli dəyişmişdir.

Bunu isbat üçün kitabda Tərzibaşının xoyrat və illərlə işlənmiş bir çox sözə (ki, bunları ən uzaq Azərbaycan kəndində başa düşürlər, daha doğrusu, bu sözləri indi də işlədirlər) verdiyi izahlara baxmaq kifayətdir. Türkdilli iraqlıların sayı haqqında da dürüst bir məlumat

yoxdur. Füzuli və onun oğlu Fəzli haqqında tədqiqat aparmış Bağdad Universiteti professoru Hüseyn Məhfuzun lütfən dəvəti ilə Bağdad Akademiyasında olduğum vaxt Akademiyanın prezidenti ilə söhbətimiz zamanı prezident İraqda yaşayan türklərin (onlar bu xalqa gah türk, gah türkmən deyirlər) 70-80 mindən artıq olmadığını və artıq assimilyasiya prosesi nəticəsində ərəbləşdiklərini söylədi və buna misal olaraq məclisimizdə iştirak edən müəllimlərdən birini göstərib dedi: – Bax, görürsünüz, cənab professor özü İraq türklərindəndir, ancaq türkcə bir kəlmə də bilmir. Mən düşündüm ki, hörmətli prezidentin xalq və onun mənəviyyatı haqqında nə qədər məhdud təsəvvürü vardır, onun süni bir laqeydliklə dediyi 70-80 min də həqiqətdən uzaq olmaqla bərabər, bu rəqəmin azaldılmasında müəyyən məqsəd olduğunu aydın göstərirdi. İraqda azlıq təşkil edən millətlərin assimilyasiyası – ərəbləşməsi haqqındakı iddiaların da nə qədər uydurma olduğunu Kərkük, Ərbil, Mosulda olduğumuz zaman yerli əhali ilə söhbətdən, onların şifahi və yazılı ədəbiyyatı ilə tanışlıqdan sonra aydın gördük.

Möhtərəm prezidentin öz dilini unutmuş professoru nümunə göstərməsinə isə mən cavab verdim ki, belə hadisələr hər xalqda ola bilər. Bu, sizə xoş gəlirsə, yəqindir ki, onun bir zaman mənsub olduğu xalqa xoş gəlməz. Yaxşıdır ki, xalqı təmsil edən belə adamlar deyil.

Kərküklü tanışlarımız Həsən İzzət, Məhəmməd Xurşid bizi şəhərlə tanış etdilər. Ayrı-ayrı yerlərin tarixindən, baş vermiş hadisələrdən, öz iş-güclərindən danışdılar. Onlar Sovet İttifaqı, xüsusilə, Sovet Azərbaycanı haqqında bir çox suallar verir, bizim bu günümüzlə çox maraqlanırdılar. Yolumuz şəhərin baş küçəsindən düşdü. Bir kitab mağazasının qabağında dayandıq. Mağaza müdiri sadə geyimli, ağsaçlı bir kişi idi, azəricə danışdığımızı eşidib çox mehribanlıqla bizi içəri dəvət etdi. Mən belə kitab dükanlarını Təbrizdə, Ərdəbildə, İstanbulda da görmüşəm. Qəfəsələrdə bir-birinin üstünə yığılmış kitab qomlarının bağı, kim bilir neçə illərdir ki, açılmamışdır. Bu kitabların bir çoxu, adətən, babadan oğula, ondan nəvəyə, nəticəyə keçən dükanlarda qəmli sükut içində yatır. Bu kitablar, bəlkə də, səhifələrində neçə-neçə ədəbi, elmi, tarixi müəmmaların açarını – uzun illər bir çox fədakar elm adamlarının axtardığı, lakin tapa bilmədiyi cavabları saxlayırlar.

Mən sevimli, böyük Sabirimizin "Hophopnamə"sinə də burada rast gəldim. Qoca dükançının girini itirmiş əli ilə qəfəsədən götürüb

mənə verdiyi kitabları – "Kərkük xoyrat və manilər"ini varaqladıqca daxili bir həyəcandan boğazım qəhərlənir, ürəyim quş kimi çırpınıb sinəmdən çıxmaq istəyirdi.

Mənə elə gəldi ki, mehriban bir səs məni könlümə, ruhuma nəhayətsiz munis olan bir aləmə çağırır. Bu aləm çocuqluq illərinin şirin xəyalı, gəncliyimin ümid-arzuları, ahıllığımın həyat müdrikliyi ilə doludur.

Doğrudanmı, bura İraq torpağı, bu yer Kərkük şəhəri – indi oxuduğum bayatılar, ağılar, oxşamalar, laylalar mənim doğma vətənim Azərbaycandan min-min kilometrlik uzaqda, adı və taleyi həris siyasətçilərin hərrac bazarına qoyulmuş bir millətin ürək çırpıntılarıdır? Bəs:

Bu dağlar ulu dağlar,
Çeşməli, sulu dağlar.
Burda bir oğlan ölüb,
Göy kişnər, bulud ağlar!

Elimin, günümün bu yanıqlı, qüdrətli səsi, bu əzəmətli obrazı: kişnəyən göyün gurultusu, ağlayan buludların kədəri bu yerlərə hardan gəlib çıxmışdır? Burada ki, aylarla göydən bir damcı düşmür, burada ki, göy kişnəməsi nadir möcüzədir!

Elə bil ki, burada – uzaq Kərkükdə əziz bir tanışıma rast gəlmişəm. Ona diqqətlə baxıram, gözlərimə inanmıram. Bəlkə də o deyil, bəlkə gözlərim məni aldadır. Bəxtiyara üzümü tuturam. Bir bunu oxu deyirəm. Oxuyur, heyran-heyran bir-birimizə baxırıq.

Bayatını təkrar-təkrar oxuyuruq. Hiss və həyəcanımız yavaş-yavaş yatağına düşür.

"Çeşməsi sulu dağlar".

Yaddaşımın dolaşıq yolları ilə vətənə qayıdıram. Bakıya gəlir, masamın siyirtməsindən bayatılar kitabını götürüb baxıram.

"Çeşməli, sulu dağlar".

Bəlkə də, Kərkük ətrafında, Ərbil, Mosul həndəvərində çeşməsi çox yerdə qurumuş dərələr, təpələrdə "çeşməsi sulu" daha ifadəli səslənir.

"Burda bir oğlan ölüb".

Yenə də bayatımızı xatırlayıram:

"Burda bir qərib ölüb".

İlk fikrimə gələn sətirləri dəyişik saldığım, birincinin bizdə, ikincinin isə burada, İraq torpağında daha məntiqi, daha təbii olduğu qənaətidir. Yox, yəqin ürəkdə qövr eləyən qürbət yarasını yenidən qanatmamaq üçün kim isə bu sözü dəyişmiş, başqa sözlə əvəz etmişdir. Bu da bir təsəlli ola bilər. Yaxud:

Kətan köynək, bədən yar!
Məni qoyub gedən yar,
Əvvəl belə döyüldün,
Səni bir öğrədən var.

Bu bayatı bizdə:

Sən ki belə deyildin
Səni bir öyrədən var

– şəklində oxunur.

"Sən ki belə deyildin", şübhəsizdir ki, daha qüvvətli ifadədir. Burada fəal bir təəssüf ifadə olunmuşdur. Həm də sonrakı "səni bir öyrədən var" fikrinə bir pillə, bir məntiqi əsas qoyulmuşdur.

Kərkük xoyrat və maniləri ilə tanış olduqca onlarla azəri bayatıları arasındakı oxşarlıq, ruhi yaxınlıq, obraz, ifadə, cümlə quruluşu doğmalığı daha aydın, daha şübhəsiz, daha sarsılmaz bir qənaət yaradır.

Bu xoyrat və manilərin bir çoxu bizim bayatılarımız, şikəstələrimizlə demək olar ki, eynidir. Fərq varsa, ancaq tələffüz fərqi, dialekt fərqidir:

Bu gün ayın üçidi,
Girmə, bostan içidi.
Dodaqlarıv xam şəkər,
Diluv badam içidi.

Və ya:

Pəncərədən daş gəldi,
Xumar gözdən yaş gəldi.

Yaxud:

Bilmirəm neylim sənə,
Düşübdü meylim sənə
Mən dönsəm, könlüm dönməz
Sən dönsən, neylim sənə. və s.

Bəzi xoyratlarda isə bu eynilik bir-iki sözün dəyişməsi ilə oxşarlıq halını alır:

Dağlar dağımdı mənim,
Qəm ortağımdı mənim.
Dindirsən qan ağlaram,
Yaman çağımdı mənim.

Bizdə məşhur olan bu bayatının iki yerində sözlər dəyişilmişdir. *Qəm ovlağımdır* əvəzinə *qəm ortağımdır* və *dindirmə* əvəzinə *dindirsən* şəklini almışdır. Qəm ortağı sözləri qəm ovlağı qədər qüvvətli, obrazlı, təsirlidir. Bu, sənətin ən kiçik, yığcam formalarında belə ifadə qüvvəsinin nə qədər geniş imkana malik olduğunu, bir söz dəyişməklə eyni əhval-ruhiyyəni yeni qüvvətlə vermək bacarığını göstərir. İkinci halda isə sözün özü qala-qala ancaq qrammatik forması bir balaca dəyişməklə onun bədii təsir qüvvəsinin necə başqalaşdığı aydın görünür. *Dindirmə, qan ağlaram* – daha da qüvvətlidir. Burada qüvvətli nidalar duyulur. Bu dərd – qan ağlamaq haqqında fəryad daha fəaldır. Dindirmə! Başımın bəlası, könlümün qubarı məni elə bir hala salmışdır, ağlayıram, özü də qan ağlayıram. Dindirsən zəifdir, sonrakı *qan ağlaram* kimi qüvvətli ifadəyə uymur.

Azərbaycanda məşhur olan "Kəklik" mahnısı bir balaca donunu dəyişmiş olsa da, Kərkük maniləri arasında seçilir:

Dağlara qovla məni,
Kəkliyəm, ovla məni.

Gecələr sinən üstə,
Gündüz buxovla məni.

Bəzi xoyratlarda ayrı-ayrı sözlərin dəyişmiş olması onların bizim bayatılarla yaxınlığına heç bir şübhə oyatmamalıdır. Belə fərqlər bu gün Azərbaycanın ayrı-ayrı rayonlarında oxunan eyni bayatılar arasında da vardır.

Kərküklülər deyirlər:

Qara çadır xaraldan ("xaral" sözünə diqqət edin!).
Boyun seçdim maraldan.
Nə dərdim var, nə balam,
Sənsən məni saraldan.

Qaradı qaşın sona! (bizdə ördək)
Yaşıldı başın sona!
Göllərdə tək qonubsan;
Hanı yoldaşın sona?

Bir haşiyə olaraq deyim ki, burada da bizim variant daha qüvvətli və bitkindir:

Əvvəllər cüt gəzərdin.
Hanı yoldaşın, ördək?

Bu sətirlərdə geniş bir lövhə, uzun bir müşahidə vardır. Şair həmişə bir yerdə gördüyü, ülfətlərinə şahid olduğu sevgililərin indi ancaq birini görür, həyəcan və tələşlə, həm də dərin bir təəssüflə "hanı yoldaşın?" deyə soruşur.

Bir misal da:

Qərənfil əsdi neylim,
Qərarım kəsdi neylim,
Dili dost, qəlbi xain
Mən belə dostu neylim.

Bizdə buna bənzər daha ifadəli bayatı vardır.

Kərkük xoyratlarının böyük bir əksəriyyəti orijinaldır. Lakin onların da ruhi ifadə forması bizə yaxın, doğmadır.

Xoyratlar – bayatılar ən qısa formada ifadə olunmuş insan duyğusu, insan fikridir. Bu forma yığcamlıqda Xəyyam rübailəri ilə rəqabət edə bilən bir dolğunluğa, ifadə qüvvəsinə malikdir. Onları oxuduqca, oxumaq istəyirsən. Düşündükcə düşünürsən. Şirini var, acısı var. Birini oxuyursan, gözlərinin qarşısında əzəmətli bir mənzərə canlanır:

Dağıt üzə,
Zülfünü dağıt üzə,
Qorxmursan bir ah çəkəm,
Döndərəm dağı düzə?!

Başqasını oxuyursan, sözün alovu könlünü qarsır:

Oxuyandı,
Yar kitab oxuyandı,
Ox atdı məni vursun,
Sinəmdə oxu yandı.

Gah təşbehin cəsarəti adamı heyrətə salır:

Oxu tər.
Kamanı tər, oxu tər,
Atma könlüm evinə
Qəm tünlükdür, ox itər.

Gah obrazın yeniliyi, qeyri-adiliyi və eyni zamanda poetik dürüstlüyü insanı dərin düşüncələrə qərq edir, sözün bədii ifadə imkanlarının sonsuzluğu üfüq-üfüq qarşıda açılır:

Mən miskin olduğumçun,
Üstümə qəm qudurdu.

Qəm həmişə bizdə bir həzinlik, bir sükut, daxili ağrı təsəvvürü oyadır. Qəmli adamı gözünüzün qabağına gətirin. Başını aşağı salmış, üzündə sanki bir kölgə donub qalmış, gözlərini iztirab və işgəncə

ifadəsindən daha artıq bir yorğunluq, ümidsizlik pərdəsi örtmüş varlıq! Qəmə nisbətən dərd sözü daha intensiv, daha fəaldır. Təsəvvür edin ki, tez-tez hirslənən, həmişə sərt cavablar verən bir adamın yenə də hirsləndiyini, çığırıb-bağırdığını eşidirsiniz. Bu hadisə sizdə, şübhəsiz, demək olar ki, böyük həyəcan oyadıb, coşqun emosiyaya səbəb olmayacaq. Yaxud, dəymədüşər bir adamın, tez-tez gözünün qorasını sıxan bir adamın yenə də ağladığı dərin təsir oyada bilməz. Ancaq həmişə sakit, mülayim, həlim xasiyyətli birinin birdən-birə üsyan edib öz etiraz, ya hiddətini qəzəblə bildirdiyini görəndə, siz laqeyd qala bilməzsiniz. Fikrinizdə bu təzaddan doğan qeyri-adi bir sarsıntı baş qaldıracaqdır.

Yaxud, həmişə şad gördüyünüz, dözümlü, davamlı bir adamın birdən-birə sərt küləkdən qanrılıb qopan budaq kimi sındığını, göz yaşlarını gizlətmədən hönkür-hönkür ağladığını görəndə, ona üz vermiş fəlakətin ağırlığı sizin də hiss və iradənizi öz təsiri altına alacaqdır. Bədii sözün qüdrəti də müəyyən fikir və hissin ifadəsi üçün belə təzadları tapa bilməkdə, sözün təsir qüvvəsini, onun qızmarlığını dönə-dönə artıra bilməkdədir. Fikrin cövhərini mümkün qədər kiçik qəlibə yerləşdirə bilmək sənətkarlıq tələb edir. Bir söz adi, hərarətsiz sükut və yorğunluqla dolu cümləni alışdırıb şəfəqləndirə bilər.

Qəm qudurdu ifadəsi sözün belə sehrkarlığına gözəl nümunədir. Gör, iş nə yerə çatmışdır ki, adi, sakit, dilsiz-ağızsız qəm qudurmuşdur, insanın üstünə atılmışdır, onu didib-parçalamaq istəyir.

Xoyratlar – bayatılar vardır ki, oxuyursan, elə bil, qərib axşamların yumşaq kədəri qəlbini yavaş-yavaş sıxır, incitməyə qoymur, lakin sənə öz varlığını bildirmək istəyir:

Bağça barıyçün ağlar,
Heyva narıyçün ağlar.
Qarlı dağ günəşiyçün,
Könül yarıyçün ağlar.

Bəzən sadə deyilmiş ikicə misrada dastanlara sığmayan bir həsrət, bir yanğı vardır. "Öləndən yüz il sonra bir göz açıb baxsaydım" deyən nakam insan, doğrulmamış ümidlərinin acısını nə qədər qüvvətli vermişdir!

Ayaqlar necə varsın,
Könül varmayan yerə

– sətirlərini oxuduqda, könül incikliyinin sızıltısı insanın bütün varlığına yayılır.

Bütün bunlar xalqın yaradıcı dühasından xəbər verən, həcmi kiçik, mənası böyük sənət nümunələridir.

Xoyratlar və manilər içində Füzuli qəzəllərinin leytmotivini xatırladanları çoxdur. Bu, Füzuli ilə türkdilli iraqlılar arasındakı yaxınlıq və üzvi bağlılığı bir daha isbat edir:

Oxu cannan,
Aç kitab, oxu cannan,
Təbib, qurbanın olum,
Çıxartma oxu cannan.

Buradakı fədakarlıq, buradakı fəryad Məcnunun fəryadı ilə necə həmahəngdir.

"Təmkinimi bəlayi-məhəbbətdə qılma süst.
Ta dust tən edib deməyə bivəfa məni".

Bəzi oynaq misralar obrazın həyata, torpağa bağlılığı, canı-başı sağlam bir insan duyğularına bağlı mizah adamı güldürür:

Əzrayıl, get işüvə!
Mən yardan doymamışam.

Gedəndə yar yanına
Çox yubanma, yüz il qal!

Yar yanına gedəndə
Bir yuxu basdı məni...

Bir səhər gəl, bir axşam,
Bir də günorta çağı.

Bayatılar da başqa ədəbi yaradıcılıq formaları kimi müəyyən xarici şəklə, daxili ahəngə, vəzn və qafiyə silsiləsinə tabedir. Lakin bu xoyratların – bayatıların, manilərin ən gözəl nümunələrini oxuyanda

formal qayda-qanunlar, əsrlərin zaman selində sığallanmış, ahəng yatımına düşmüş cəhətlər adamı az düşündürür. Qəlbimizdə oyanan hisslər, duyğular, arzu, ümidlər, təəssüf, qürur, sızıltı, sevinc, kövrəlmə, sərtlik, riqqət, nifrət, məhəbbət, ülfət təsiri altında adını bilmədiyimiz qüdrətli müəllifin aləminə düşür, onun hiss və həyəcanlarına əsir oluruq.

Adsız şair "Torpağım, daşım qərib" deyə fəryad edəndə qəlbimizin telləri sızlayır. O, "Öləndən yüz il sonra bir göz açıb baxsaydım" deyəndə, biz onun qırıq ümidlərinin, nakam arzularının ağrısını duyuruq. O, "Qəm yardan vəfalıdır, heç çevirmir üz məndən" deyəndə, biz onun iztirablarına şərik oluruq. O: "Əridər Qaf dağını, dərdimin birin desəm", – deyəndə biz onun çəkdiyi möhnətlərə inanırıq. O:

"Gedən gün geri dönməz
Günü-günə calasan".

"Alam gözün dikibmiş
Mən gözüm dikən gülə..."

Doqquz ay al-yaşıldı,
Üç ayı qara bağlar"

– deyəndə, fikrimiz xatirələr yolu ilə çırpına-çırpına uçur, böyük aşiqlərimizi yada salırıq, Ələsgərin səsini eşidirik.

Xoyratlar və manilər bir çox xüsusiyyətləri ilə maraqlı tədqiqat materialı ola bilər. Bəzən qafiyələrin klassik dediyimiz ənənədən ayrılması, sözlərin səslənişində eşidilmə prinsipinin əsas götürülməsi maraqlı və nəzəri cəhətdən qiymətlidir. Belə qulaq qafiyələrində – sözün ahəngi və musiqisini özünə tabe edən müəyyən aparıcı səslərin uyğunluğu əsasında düzəlmiş qafiyələrdə sözün bütövlüyündə həlledici olmayan, ikinci dərəcəli, tam eşidilməyən səslər nəzərə alınmır. Bu, prinsip məsələsidir. Belə faktlar ta qədim zamandan, azəri şerində olduğu kimi, Kərkük folklorunda da qulaq qafiyələrinin mövcudluğunu göstərir:

"Səhər olsun, bizə gəl!
Qırmızı gey, bəzən gəl".

"Fələgin qəhri mənə
Heç yoxdur rəhmi mənə".

Bizdə məşhur olan bir mahnını xatırlayın:

"Şeşgilan bizim olaydı
Kərpici qızıl olaydı.
Yarım bizə gələndə
Gecələr uzun olaydı".

Buradakı üç söz yazılışında nə qədər fərqli olsa da, qulağa çox oxşar gəlir, rədif isə onları, demək olar ki, həmahəng eləyir.

Kərkük xoyrat və maniləri iki hissəyə bölünür. Bir hissəsi cinaslı, o biri hissəsi adi qafiyəlidir.

Cinaslı xoyratların birinci sətri üç, ya dörd hecalı yarım sətirlidir:

Yara neylim
Sızıldar yara neylim,
Yol uzun, mənzil uzaq
Yetişməm yara, neylim.

İkinci hissə bütün sətirləri bərabər hecalı olanlardır:

Ətrafı üzüm olaydı,
O yar bizə gələndə,
Gecələr uzun olaydı.

Kəmsətirli xoyratlarda birinci üç-dörd hecalı sətir bir növ başlıq kimidir, xoyratın xarakteri haqqında müəyyən xəbərdarlıqdır.

Xoyratların bir qayda olaraq, müəyyən hava üstündə oxunduğunu nəzərə alsaq, birinci yarımsətrin bir kökləmə rolunu oynadığını demək olar. O, xoyratın əsas, məzmun, emosional maya yükünü daşıyan üçüncü, dördüncü sətirləri üçün yolbaşı vəzifəsini görür. Çox zaman da axırıncı iki sətirlə az bağlı olan ikinci sətrin dayağı ümumi xoyratın yol arıdıcısı olur.

Kərkük xoyrat və manilərindən mənə məlum olan təxminən 1500-ə yaxın parça içərisində "əzizim", "əziziyəm", "mən aşiq"

sözləri ilə başlayanları yoxdur. Bu cəhətdən onlar bizim bayatılarımızdan fərqlənir. Lakin bu, Kərkük xoyratlarını bizim bayatılardan və ağılardan ruh, forma, ifadə tərzi cəhətdən heç də uzaqlaşdırmır.

Yalnız obraz silsiləsinin qurulmasında deyil, ayrı-ayrı sözlərin yerində işlənməsi, onların ən çox ifadəli və təsirli ola biləcəyi yeri seçib tapmaq cəhətindən də Kərkük xoyrat və maniləri qiymətli sənəddir.

Bülbül kişidi gəldi,
Dərdə tuşudu gəldi.
Bülbül gül havasına,
Hələ qış idi, gəldi.

Bu dörd sətirlik parçada işlədilən sözlərə, onların yerinə, ifadə qüvvəsinə fikir verin. Kişimək! Toyuğu, cücəni qovlayanda biz "kişkiş" deyirik. Get! Çəkil! Qaç! Burda kişimək sözü nə qədər yerində işlədilmişdir. Əgər "bülbül gəldi" deməydi, ifadə nə qədər sönük, adi olardı. Bülbül kişiyib gəlib. Onu nə isə qovlayıb, gəlməyə məcbur edib, o qaça-qaça gəlmişdir. Nə üçün? Çünki "o, dərdə düşüb". Dərdə rast gəlib. Dərdlə üz-üzə çıxıb. Bəlkə də bu dərd onu kişidib, qovlayıb. Sonrakı sətirlər bu iki sözün nə qədər yerində işlədildiyini yeni bir qüvvətlə təsdiq edir.

Bülbül niyə gəlib? O, "Gül havasına gəlib". "Gül sorağına" deyilməydi, bu qədər qüvvətli çıxmazdı. Hava – sevda mənasında olduğundan hadisəyə əlavə bir incəlik verir, söz ikinci bir məna kəsb edir. Bülbül yarının qoxusunu havadan almışdı. Bülbül "hələ qış idi gəldi". Hələ – bu söz nə yeni, nə də dərin məna ilə dolu sözdür. Lakin burada, belə bir yerdə onun necə işlədildiyinə diqqət verin! Görün dörd səsdən yaranmış bir söz nələr ifadə edə bilər: "Hələ qış idi gəldi". Bir anlığa hələ sözünü buradan götürün. "Qış idi gəldi". Bu cümlə beləliklə də çox ifadəlidir. Qışda bülbül gəlməz. Onun gülə olan məhəbbəti nə qədər böyükdür ki, bülbülü qışda gəlməyə məcbur etmişdir. Bu belədir! Lakin "Hələ qış idi" cümləsinə baxın. Hələ sözü bura nə əlavə etmişdir? Hələ qış idi. Qarşıda yaz var. Bülbüllə gülün məhəbbət dəmi var. Ancaq həsrət, böyük intizar o qədər güclüdür ki, bülbülün gözləməyə tabı yoxdur. O, fəsillərin qanununa tabe olmayıb hələ qış ikən gəlmişdir.

"Üstümə vaxt daraldı" kimi ifadəyə baxın, ya "Dərdim başdan oyandı". "Dərdim məni mələdir". Bu sətirlərdən bizə məlum olan adi

sözlər necə sənətkarlıqla işlənmişdir. Biz "axşamın bu dar vaxtı" deyirik. Burada, üstümə vaxt daraldı deyəndə, atomun daxilində olan qüvvə öz çərçivəsini qırıb çıxanda heyrətli bir qüvvət kəsb etdiyi kimi, söz də öz daxili enerjisini hərəkətə gətirmiş, sarsıdıcı bir təsir qüvvəsi qazanmışdır. Axşamın dar vaxtı müəyyən bir vaxt ifadə edən sözdür, "Üstümə vaxt daraldı" – bədii obrazdır. Sözün qüdrəti də burdadır. Onu obraz, bədii bir fakt eləyən də budur. "Dərdim başdan oyandı" ifadəsi dilin rəngarəng məna çalarları ilə nə qədər zəngin olduğunu göstərir. Burada yenidən, təzədən, bir də sözlərini işlətmək olardı. Lakin bu sözlər başdan sözünün yerini verə bilməzdi. "Başdan" deyəndə bu dərdin uzun bir yolu olduğuna inanırıq. Bu yol iztirablıdır. Onu yenidən getmək qorxusu bizdə həzin bir kədər, bir nigaranlıq doğurur. "Dərdim məni mələdir" – fəryad yox, coşqun bir həyəcan yox, mələmə! Quzu kimi aciz, köməksiz bir varlığın iniltisi.

Xoyratlar, manilər içində yalnız bizim bayatılara deyil, bir-birinə bənzəyənləri də vardır. Bu da təbiidir. Bu poetik miniatürlər həyatdan, mübarizədən, ümidsizlikdən, sevincdən, intizardan, bir sözlə, insana məxsus duyğulardan yaranmış, onların bədii ifadəsidir. İctimai pillələrdə bir-birinə yaxın olan insanların mübarizə, arzu və məqsədlərində bir yaxınlıq vardır. Yaxın milli köklərə, müəyyən zümrələrə mənsub olan insanların kefi və arzuları, möhnət və sevincləri bütün fərqliliyinə baxmayaraq, bir-birinə oxşayır. Kərkük xoyrat və manilərinin çoxu, böyük bir əksəriyyəti kədərlidir. Hicrandan, intizardan, ələm və kədərdən, ömrün, günün ağırlığından gileydir:

Ölməyəydim görəydim,
Bir də gözüm dolusu.

Nə gözəl, nə təravətli, nə qədər mənalı ifadədir. "Ağız dolusu", "qulaq dolusu" ibarələri bizdə işlənilir. Buradakı gözüm dolusu ifadəsi bir tərəfdən doyunca, istədiyim qədər, bəs deyincə mənası verdiyi kimi, bir tərəfdən də hadisənin tarixini bizə hiss etdirir.

Bəzən adi sözün ifadə şəkli onun daxili təsir qüvvəsini qat-qat artırır. Bir söz, iki söz ətraflı bir cümləni əvəz edir:

Dağlar dağladı məni
Görən ağladı məni.

Burada "dağladı məni", "ağladı məni" sözləri dolğun, geniş bir cümləni əvəz edir. Hələ "dağlar dağladı" ibarəsindəki qüvvətə fikir verin. Dağlar elə günləri yada salmışdır ki, insanın ürəyini yandırmışdır.

Elə manilər – bayatılar vardır ki, adam onları oxuyanda hündür bir dağa qalxmış kimi həyəcandan, təsirindən nəfəsini dərmək, köksünü yenidən hava ilə doldurub, duyduğu bədii zövqü canına yaymaq istəyir. Adsız aşığın kədəri qarşısında hörmətlə sükut etmək istəyir:

Mindim Nuh gəmisinə,
Qorxum var gəmi sına.
Fələk biçinçi salıb
Ömrümün zəmisinə.

Uzun illər dilini, adət və ənənələrini zalım ögey atadan yetim qoruyan ana kimi qorumağa məcbur olan, ictimai və milli bərabərsizliyin ağır möhnət yükünü çəkən bir xalq, könül tərcümanı duyğularını, ümid və gileylərini belə ifadə etməsin, neyləsin?

Xoyrat və manilərdə, həm də onlarla müqayisə etmək məqsədilə yenidən təkrar-təkrar oxuduğum ölməz bayatılarımızda elə ifadəli sözlər vardır ki, onlar yerində səliqə ilə, məna xətrinə, üslub gözəlliyi xətrinə, az sözlə çox şey ifadə etmək üçün işlədilsə, ədəbi dilimizi xeyli zənginləşdirə bilərik.

Misal gətirdiyim xoyrat və manilərdə, bayatılarımız, şikəstələrimiz, ağılarımızda, bir sözlə, folklor ədəbiyyatının yaxşı nümunələrində belə sözlərə çox rast gəlmək olar. Bunları saymağa, misal gətirməyə ehtiyac yoxdur. Qrammer qaydalarını bilmək azdır. Sözü duymaq lazımdır. Elə hallar olur ki, "söz"lə "kəlmə"ni qarışdırırlar. Yeni söz demək tələbini yeni kəlmə yaratmaq tələbi kimi başa düşürlər. Bir halda ki, yeni söz daha geniş, daha dərin mənalıdır.

Bu yenilik tələbi yalnız kəlmənin, yəni məhdud mənada sözün yeniliyi deyildir. Bu, fikir, ifadə yeniliyi, idrak və təsvir, tərənnüm yeniliyi deməkdir. "Yeni söz" məfhumu yeni "kəlmə"ni öz içinə ala bilər, lakin heç bir zaman elə dar bir çərçivəyə qısılıb qala bilməz. "Sözün var, söz danış!" dedikdə, heç də kəlmən var demək istəmirlər. "Fikrin var, rəyin var, bu və ya digər məsələyə əlaqən, baxışın nədir?" demək istəyirlər.

"Araya söz düşdü", "Adına söz çıxdı", "Mən də sözümü deyim" və sairə sözü kəlmə ilə qarışdıranların yanıldıqlarını aydın göstərir.

Lakin biz sözün məhdud mənasında kəlməyə də bəzən lazım olan diqqətlə yanaşmırıq. Xalqın söz xəzinəsini zənginləşdirən bəzi kəlmələrlə ata malını dağıdan fərsiz oğullar kimi rəftar edənlər də vardır.

Qədimdən bəri dilimizin ahəng və qanununa uyğun, el arasında işlənən, dilimizin üzvi fərdi olan neçə-neçə kəlməni harda, kim isə belə danışır, bu sözləri işlədir, deyə, nöyütlü qarğaya döndərib, dildən, yazıdan qovmuşuq. Bu işdə canfəşanlıq göstərən mücahidlər rus dilinə yaxşı diqqət etsələr, faydalı olar. Rus dili quruluşuna, onun lüğət tərkibinə nə qədər qayğı, elmi müdriklik ilə yanaşıldığı ibrətli bir örnəkdir. Vaxtilə rus dilinə daxil olmuş, bu dildə vətəndaşlıq hüququ qazanmış bir sıra alman məxəzli, alman köklü sözləri atmaq, ya dəyişmək Böyük Vətən müharibəsinin ən qızğın günlərində alman faşistlərinə qarşı ümumi xalq nifrətinin ən alovlu, qəzəbli vaxtında belə, heç kəsin ağlına, dilinə gəlmirdi. Çünki dilin yiyəsi bir ovuc avantüristlər, canilər deyil, xalqdır! Fitnəkarlar, canilər məhv olub gedir. Xalq qalır. Xalqın dil sərvəti qalır. Bizdə isə, görürsən, xalq qarşısında heç bir məsuliyyət duymayan adamlar, mənşəyi doğma dilimizdən götürülən neçə-neçə sözü, kəlməni "uf" demədən, dildən qoparıb atırlar. Bəzən də biz konkret təfəkkür forması olan dilimizdə mövcud bəzi kəlmələri elələri ilə əvəz edirik ki, onları işlətməyə utanırsan.

Geniş mənada sözü yerində, maksimum ifadəli, düzümünün ən yaxşı cəmində işlədə bilmək sənətkarlığında folklorumuzdan çox şey öyrənmək olar.

Xoyrat və manilərdə bu baxımdan zəngin nümunələr vardır.

Kərkük xoyrat və manilərini tərtib edən cənab Tərzibaşı, demək olar ki, hər xoyratın, hər maninin – bayatının bir sıra sözlərinə izah vermişdir. Bu izahlar türkdilli iraqlıların əsl ata-baba dili ilə bugünkü ədəbi dili arasında böyük fərq olduğunu göstərir. Aşağıdakı misallar buna aydın sübutdur. Burada qeyd etdiyim sözlərin birinciləri folklorda – xalq arasında işlənən sözlər, sonra gələn sözlər isə Tərzibaşının izah etmək məqsədilə gətirdiyi sözlər, onların müasir deyiliş formasıdır.

Təkin – kibi, toy – düyün, nişanlı – yavuqlu, dişlə – isır, yaylıq – məndil, hənək – şaka, xiyar – salatalıq, tapdım – buldum, itirdim – qeyb etdim, qocaldım – ixtiyarladım və sairə. Bəzən bu izahlarda sözlərin anlaşılmazlığı da görünür. Məsələn: "qonaq" sözü "mehman" kimi izah edilmək əvəzinə "qonmaq" kimi izah edilir.

Hörmətli oxuculara təqdim etdiyimiz Kərkük xoyrat və maniləri beş min misraya yaxın parçalar içərisindən seçilmişdir. Bu xoyrat və manilərdə təhlil olunmalı, izah və şərh olunmalı çox cəhət vardır. Bu, gələcəyin işidir. Bununla müvafiq sahədə çalışan alimlərimiz məşğul olmalıdırlar. Məsələn, çox maraqlıdır ki, klassik ədəbiyyatımızda, Füzuli şerində rast gəldiyimiz *neyşə* forması bu xoyrat və bayatılarda da vardır. Bu söz Həbibi vətəni Bərgüşad dolaylarında, Boyat, Türkəçi, Çiyni kəndlərində indi də bu şəkildə işlənir. *Həkət* sözünü oxuduqda mən kəndimizi xatırladım. Orda işlənən "Yaxşı sözə, həkətə düşdük" kimi ibarələr yadıma düşür. Bu, xoyratlarda işlənən tobalı, qulunc, dombalan (yer alması), budamaq və bu kimi sözlər bizim geniş camaata məlum olan və məhz bu şəkildə tələffüz olunan sözlərdir.

Kərkük xoyrat və maniləri elə sənət abidəsidir ki, həssas qulaq onlarda qəlbimizə munis olan çox şey duyar, həssas ürək bu nadir inciləri yaradan xalqın dühasına dərin minnətdarlıq hissi ilə çırpınar.

1961

MÜQƏDDİMƏ

Həyatın müdhiş cəhənnəmində yaşayan nəsil-nəsil insan yer üzünün əzab və işgəncələrindən qurtarmaq üçün əsrlərlə bir ümid işığı, bir təsəlli axtarmışdır.

Əfsanələr, nağıllar nigaran insan xəyalının sığındığı belə bir təsəlli aləmidir.

"Min bir gecə" nağıllarının misilsiz gözəlliyi, "Dədə Qorqud", "Kəlilə və Dimnə", "Leyli və Məcnun", "Əsli və Kərəm", "Gül qəhqəh", "Məlik Məmməd" – yüzlərcə belə dastan və nağılların sirlər dolu xəzinəsi həyatın amansız məngənələrində yaralı bir quş kimi çırpınan insan xəyalının bir təsəlli axtardığını göstərmirmi?! Bəlkə də buna görə, Şərq gözəl əfsanələr, maraqlı nağıllar beşiyi olmuşdur.

Ömür boyu həyatın ağır möhnətlərini çəkməyə, dərdlərini qəlbində daşımağa məcbur olmuş bu günəşli yerlərin işıqlı günə həsrət övladı arzularının xəyal dünyasını yaratmaqla iztirab yükünü bir az yüngülləşdirmək istəmişdir.

İnsan ömrünün həm bir-birinə bənzəyən, həm də bənzəməyən müxtəlif, mürəkkəb səadət və fəlakət naxışlarını mahir bir qələmlə

çəkən xalq dühası, dünyanın özü qədər qədim olan yaxşılıq, yamanlıq, xeyir və şər fəlsəfəsinin düyününü ecazkar əli ilə açmağa çalışmışdır.

Göz yaşları, qara günlər, ölüm və fəlakətlərin dilsiz şahidləri olan qərinələr, əsrlər, fəlakətzadə müstəmləkə xalqlarının ömründən ağır dəvə karvanları kimi gəlib keçmiş, könüllərə məlhəm, ürəklərə ümid, gözlərə işıq gətirə bilməmişdir. Milyon-milyon insan öz bəxtinin itkin düşmüş açarını tapa bilməmişdir.

Bəzən təhqirli, bəzən istehzalı, bəzən kin və qəzəbli bir ifadə ilə müstəmləkəçilər tərəfindən şərqli adı ilə damğalanmış, öz tarixi, öz zəngin milli mədəniyyəti, gözəl milli ənənələri olan neçə-neçə xalq zülm dünyasının amansız məngənələrində sıxılmış, həyatın sərt üzünü görmüş, lakin əfsanələr və nağıllar aləminin əlçatmaz səadətindən ümidini kəsməmişdir.

Bu gün Şərq elləri yaratmış olduğu əfsanələrin bahadırları kimi əsrlərin qəflət yuxusundan ayılmış, öz haqqını, öz insan hüquqlarını tələb etməyə başlamışdır.

Əsrlərlə əlinin qabarı, belinin yağırı, ömrünün möhnət və işgəncələri ilə bir ovuc müstəmləkəçiyə qızıl bulaqları yaradan ərəblər, hindlilər, indoneziyalılar, vyetnamlılar və başqaları artıq müstəmləkəçiliyin mənfur binasını uçurmuş, azadlıq və səadətin geniş aləminə aparan öz yollarını tapmışlar.

Lakin bu yeni yollarda onlar köhnə dünyanın – ağalıq, kölelik dünyasının hələ çox fitnə-fəsadlarına, təfriqəçilik, hiylə və al dillərinə rast gəlir və gələcəklər.

Artıq ömrünün son günlərini yaşayan müstəmləkəçiliyin hiyləgər qocası öz qüdrət və nüfuzunu itirmiş, bütün dünyanın azadlıqsevər insanları qarşısında qanlı bir cani kimi ifşa edilmişdir. Xalqların getgedə artan, qüvvətlənən həmrəyliyi, əməkdaşlığı dünyanın qara qüvvələrini təşvişə salmış, onların yuxusunu qaçırmışdır.

Hələ də öz istiqlaliyyətinə qovuşa bilməmiş bir çox Asiya və Afrika xalqları, yüz illərdən bəri müstəmləkəçilik siyasətinin qanlı səhnələrini dönə-dönə görmüş, minlərlə oğul və qızlarını qurban vermiş xalqlar, yalnız maddi asılılıq, iqtisadi məhkumluq deyil, mənəvi məhkumluqdan, elm, sənət və ədəbiyyatda da müstəmləkəçilik boyunduruğundan xilas olmağa can atırdılar.

Bu ölkələrin müasir, tərəqqipərvər yazıçıları, insanları uzaq, xəyali bir təsəlli dünyasına çağırmaqla xalqın dərdlərinə çarə eləməyin mümkün olmadığını, müasir ölüm-dirim mübarizəsindən kənarda qalmağın tarixi bir cinayət olduğunu yaxşı bilirlər. Xalq ruhunun ifadəçisi olan belə yazıçılar boyunlarına düşən tarixi vəzifəni – xalqın mənəvi rəhbəri, onun istək və arzularının tərcümanı olmaq vəzifəsini dərindən dərk edirlər. Onlar həyatın bütün acılarını, dəhşətlərini açıb göstərmək, cəmiyyətin ictimai yaralarını təşrih etmək, qurtuluş yolunun ancaq azadlıq, milli istiqlaliyyət uğrunda mübarizədə olduğunu geniş kütlələrə bədii sözün böyük təsir qüvvəsi ilə başa salmaqla mühüm rol oynayırlar.

Bütün ömrünü xalqının xoş günlərini, səadətini görmək ümidi ilə yaşayıb-yaratmış, dünyadan nakam getmiş neçə-neçə vətənpərvər Hindistan, ərəb, türk, İran, Koreya, Vyetnam, İndoneziya, Əfqanıstan, Həbəşistan, Qara Afrika yazıçılarının qərinələrin, illərin dərinliyindən gələn səsi müasir Asiya və Afrika yazıçılarının, dünyadakı bütün tərəqqipərvər yazıçıların gur səsinə qarışır.

Bu səslər yer üzündə insan adı, insan şərəfinə layiq bir dünyanın qurulması, həqiqi insan azadlığını, irqindən, dərisinin rəngindən, din və milliyyətindən asılı olmayaraq, bütün əməkçi insanlar üçün nəsib olmasını tələb edən qarşısıalınmaz bir axına çevirmişdir.

Bu səslər içində bizim həməsrimiz olan yazıçıların səsi bizim üçün çox qiymətli və əzizdir: iztirablar dənizindən keçib öz səadət və azadlıq yolunda irəliləyən Hindistandan yüksələn Krişnan Çandr, Mülk Rac Anand, Sumidranandan Pant, Manulal Şərmanın səsi; Pakistandan gələn Fərq Bühari, Faiz Əhməd Faiz, Əhməd Nədim Kəsminin səsi; Atom fəlakətlərinin təsəvvürəgəlməz dəhşətini görmüş, iztirablı Yaponiyadan acı bir fəryad kimi yüksələn Akimi Sukimura, Susumu Nomatinin səsi; Azadlıq uğrunda, müstəmləkəçilik əleyhinə amansız mübarizə bayrağı qaldırmış qədim, böyük söz mədəniyyətinə, elmitarixi irsə malik ərəb ölkələrindən qalxıb bir döyüş nəğməsi kimi hər gün get-gedə yüksələn səslər: Kamil Ömərin, Vəsfi Krunflinin, Məmun-əş Şinavinin, Zeynəb Məhəmməd Hüseynin, Əhməd Şövqinin səsi; Firdovsilər, Hafizlər, Şəmslər, Eşqilər vətəni, Xətailər və Saiblərin yaşayıb, yazıb-yaratdığı ölkədən – İrandan gələn Məlik üş-şüəra Bahar, Büzürk Ələvi, Pərvin və Şəhriyarın səsi; Yunis İmrələr, Nədimlər, Namiq Kamallar, Tofiq Fikrətlərin yanıqlı bir səslə təsvir və tərənnüm etdikləri Türkiyədən gələn Səbahəddin Əli, Şükufə Nihal, Suad Dərviş, Orxan Vəli, Arif Hikmət və Türkiyənin böyük oğlu Nazim Hikmətin səsi; Kürdüstanlı Həjarın, Çiyəxunun

səsi; Qonşu əfqanıstanlı şair Sidqinin səsi; afrikalı Filippa Marrel, O Qox, Lamin Si, Çek Kornun səsi bəşəriyyətin bayraq kimi göylərə qaldırdığı azadlıq, həyat, səadət nəğmələrinin içindədir.

Bu nəğmələr içində Azərbaycan xalqının da öz milli xalları üstündə bəstələnmiş, müasir həyatın nəfəsi ilə isinmiş, qurduğumuz azad dünyanın xalqımıza verdiyi nemətlərlə qat-qat gözəlləşmiş, təravətlənmiş nəğmələri vardır. Bu nəğmələrin insanpərvərlik, xalqlar arasında dostluq və qardaşlıq havası yaratmaq, başqa xalqların tarixinə, mədəniyyətinə, onun nümayəndələrinə dərin hörmət və məhəbbət bəsləmək kimi ölməz təranələrini biz uzaq əsrlərdən başlayıb gələn Azərbaycan şerində, Azərbaycan nağıl və dastanlarında görürük. Bu nəcib insan sifətlərinin rəngarəng lövhələrini Mirzə Fətəli, Cəlil Məmmədquluzadə, N.Nərimanov, Ə.Haqverdiyev, Süleyman Sani, Seyid Hüseyn və başqalarının nəsrində görürük.

Asiya və Afrika xalqlarının azadlıq uğrunda gedən müqəddəs tarixi mübarizəsində müasir Azərbaycan yazıçılarının qələmləri, alovlu sözləri, qəzəb və həyəcan dolu sətirləri yaxından iştirak etmişdir.

Çinlilərin, həbəşlərin, mərakeşlilərin, ərəb, zənci, Vyetnam və koreyalıların, İran və Kürdüstan əməkçilərinin, habelə başqa xalqların mübarizəsi Azərbaycan sovet yazıçılarının ilham və hərarətlə yazılmış şeir, poema, hekayə və romanlarında səslənmişdir. Başqa xalqların taleyinə ürəkdən yanmaq, qonşu və uzaq xalqların mədəniyyətinə, həyat tərzinə, tarix və adətlərinə hörmətlə yanaşmaq, bütün bəşəriyyətə əmin-amanlıq arzulamaq Azərbaycan sovet yazıçılarına klassik ədəbiyyatımızdan, xalq yaradıcılığından qalma müqəddəs bir irs, bir ənənədir. Bu nəcib insani hisslər sovet quruluşu dövründə daha da artmış, inkişaf etmiş, yeni rənglərlə rövnəqlənmiş, zənginləşmişdir.

Hələ səkkiz əsr bundan qabaq yaşayıb-yaratmış məşhur Nizami Gəncəvi öz ölməz mənzum romanlarında başqa xalqların nümayəndələrini böyük məhəbbətlə təsvir etmiş, Azərbaycan xalqının başqa xalqlarla olan mədəni, mənəvi əlaqəsini canlı obrazlarla göstərmişdir. Belə səhnələrdə Nizami humanizminin ülviyyəti, gücü günəş şəfəqləri altına düşmüş almaz kimi parlayır. Onun "Yeddi gözəl" əsərindəki müxtəlif xalqların qızlarına, o cümlədən, Çin, hind, slavyan gözəlinə həsr etdiyi ölməz sətirlər dünya ədəbiyyatının qiymətli inciləridir.

Nizaminin ən sevimli qəhrəmanlarından olan Fərhad öz təhsilini Xətada (Çində) almış qüdrətli bir sənətkar olmuşdur. Maraqlıdır ki,

Nizami yeddi əsr yarım bundan qabaq qan və qılınc gücünə ölkələri fəth edən hökmdarları azərbaycanlı bir qadının dili ilə ifşa edir: "Əgər dünyalar fəth etməkdən məqsəd daş-qaş, qızıl-gümüş isə, al, bu daş-qaşları çörək əvəzinə ye!" – deyə Azərbaycan hökmdarı Nüşabə böyük İskəndərə müraciət edir.

Nizami qələmə aldığı ərəb əfsanəsi "Leyli və Məcnun" dastanında da öz ədəbi-bədii ideyalarına sadiq qalmış, irq və milliyyətindən asılı olmayaraq, insanların təmiz, azad eşq, ləkəsiz, fədakar bir məhəbbət uğrunda hər cür işgəncə və əzablara dözməyə hazır olduqlarını göstərmişdir.

Bu mövzunu yenidən qələmə alan ölməz Azərbaycan şairi Füzuli sonsuz bir məhəbbət və hörmətlə, yüksək poetik obrazlarla ərəb oğlu Məcnunun ərəb qızı Leyliyə olan faciəli eşqini təsvir etmişdir.

Azərbaycanın böyük mütəfəkkiri və dramaturqu Mirzə Fətəlinin fəlsəfi məktubları, "Aldanmış kəvakib" əsəri onun Yaxın Şərq xalqları, o cümlədən İran və Türkiyə xalqlarının taleyi ilə nə qədər yaxından maraqlandığını, bu xalqlara necə dərin bir məhəbbət bəslədiyini aydın göstərir.

Asiya və Afrika xalqlarının uzun illərdən bəri davam edib gələn, dərya-dərya qan və göz yaşlarından keçən azadlıq mübarizəsində Azərbaycanın müdrik Molla Nəsrəddini – Cəlil Məmmədquluzadə və onun böyük silahdaşı ölməz Mirzə Ələkbər Sabir yorulmadan iştirak etmişlər.

Vaxtilə bir ucu Hindistan, bir ucu Əlcəzairə qədər neçə-neçə Şərq ölkələrində intişar tapmış "Molla Nəsrəddin" jurnalının Rusiya çarizmi, İngiltərə, Fransa, Almaniya imperializminin müstəmləkəçilik siyasətini ustalıqla ifşa etməkdə mühüm tarixi rolu olmuşdur. Sabir şeri Şərq ölkələri zəhmətkeşlərinin oyanmasında gur səsli bir şeypur rolunu oynamış, bu xalqlara qurtuluş uğrunda mübarizənin istiqamətini düzgün müəyyən etməklə bir dost yardımı göstərmişdir. Ədalətsizliyə, məişət çətinliklərinə, güclülərin mərhəmətsizliyinə, məzlumların təhəmmülünə ölməz şeirlər həsr etmiş Sabir acı gülüşləri ilə Asiya xalqlarını yeni həyat, mədəniyyət və tərəqqiyə, insan hüququ uğrunda mübarizəyə çağırmışdır. Bu böyük şairin qoyub getdiyi nəcib ədəbi ənənələr müasir ədəbiyyatımızın mübarizə arsenalında yararlı, öldürücü qüvvəsini itirməmiş bir silahdır.

İnsanlar hələ yazı-pozu bilmədikləri zamanlarda söz sənətinin gözəl abidələrini yaratmış, şüurları istiqamətləndirmək üçün sənətin gücündən istifadə etmişlər.

Həqiqi sənət xalqın vicdan səsidir! Xalq mənəviyyatının saf aynası kimi insanların kədər və sevincini, arzu və əməllərini zamanın tarixi sərgisinə çıxarıb müxtəlif ölkədə yaşayan dinayrı, dilayrı, əqidə, mədəniyyət ayrı insanları bir-birinə yaxınlaşdırmaqda, irqlər, millətlər arasında mənəvi bir ünsiyyət körpüsü salmaqda sənət və ədəbiyyatın rolu böyük, tarixi bir roldur. Yazıçı xalq ruhunun tərcümanıdır. Belə şərəfli bir haqq, azadlıq uğrunda mübarizə edən, yer üzündə yaşayan bütün xalqlara xoş gün arzu edən, insan ləyaqətini qorumağa hazır olan yazıçıların nəsibidir. Bu xalq ruhunu, xalq dərdini bilən, onun arzu və dileklərini dərindən duyub tərənnüm edən yazıçı, zamanın tarixi kürsüsündən milyonlarla, bugünlə və sabahla danışır. Asiya və Afrika xalqlarının Daşkənd konfransı belə bir tarixi kürsü olacaqdır. Sənətin, bədii sözün, musiqi və rəssamlığın, heykəltəraşlıq və memarlığın insan qəlbində buraxdığı təsir ən güclü, ən uzunmüddətli təsirdir. Gözəl sənət ürəklərdə gözəl hisslər doğurur. İnsan qəlbinin riqqət, məhəbbət, qəzəb və iradə tellərini dilə gətirir. Həyatın müdhiş cəhənnəmi içində gözəl sənət əsərləri yaratmağa qadir olan insanlar milyon ürəkdə bir məhəbbət yuvası salır, şüurları, könülləri bir qürur hissi ilə doldururlar. Bu kitab Asiya və Afrika yazıçılarının Sovet İttifaqında nəşr olunan yüzlərlə kitabından biridir. Burada müxtəlif xalqların klassik və müasir ədəbiyyatından nümunələr verilmişdir. Biz inanırıq ki, bu kitab Asiya və Afrika yazıçılarının Daşkənd konfransına Azərbaycan xalqı tərəfindən göndərilmiş bir dəstə çiçək kimi dostlarımızın könlünü, gözünü oxşayacaqdır.

Bu və neçə-neçə sovet xalqı tərəfindən, başqa xalqlar tərəfindən konfransa göndərilmiş sair söz çiçəyi dəstələri dostlarımızın zövqünü oxşadığı kimi insan səadəti, insan azadlığı düşmənlərini, qəbzəsindən milyon-milyon sarsılmaz insan əli yapışmış bir mübarizə qılıncı kimi sarsıdacaqdır!

Biz arzu edirik ki, bu kitab səhifələrində yan-yana, nəfəs-nəfəsə, şeir-şerə, söz-sözə, könül-könülə dayanmış müxtəlif ölkə, zaman, irq və millət yazıçılarının əməl və arzu birliyi, canlı həyatda da möhkəm, sarsılmaz bir birliyin rəmzi olsun!

Asiya və Afrika yazıçılarının xalq qarşısında, zaman və tarix qarşısında üzərlərinə düşən vəzifəni şərəflə yerinə yetirəcəklərinə inanan yüz milyonların ümidi boşa çıxa bilməz!

Biz inanırıq ki, Asiya və Afrikanın qabaqcıl yazıçıları birlikdə yeni əsrin, yeni dünyanın yeni ölməz əfsanələrini yaradacaqlar!

Bu əfsanələr, real həyat səhnələri əsasında yüksələn yeni, böyük tarixi həqiqətin – azadlıq, sülh, əmin-amanlıq, əməkdaşlıq, tərəqqi və inkişaf günlərinin ölməz səhnələrini canlandıracaqdır.

Azərbaycan xalqının böyük oğlu, mütəfəkkir yazıçı, alim Mirzə Fətəli Axundzadə həsrət, ümid və arzularını ifadə edərək yazmışdır: "Təəssüf ki, bizim ömrümüz o gözəl və səadətli günləri görməyə vəfa etməyəcək, lakin əmin olun ki, o günlər gələcək və bizim övladlarımız o günlərin bəhrəsini görəcəklər".

Gözəl günlər uğrunda mübarizədə Asiya və Afrika yazıçılarına uğur olsun!

SAĞ OL, PROFESSOR

Saat altı olardı. İşdən çıxıb evə gedirdim. Birdən köhnə müəllimimə rast gəldim. Onu neçə ildi ki, görməmişdim. Böyük şəhər şəraitində bu, təəccüblü deyil. Bu təsadüf məni çox sevindirdi. Mənim müəllimim uzunboylu, ağsaçlı bir adam idi. Adını yazmıram. Ancaq bu şərtlə məktubu mənə verməyə razı oldu. Bir də rica etdi ki, məktubu imzalamış olan kənd həkiminin adını yazmayım, "yazıçı babasan, – dedi, – bir ad tap qoy".

Məktub yazan mənim məktəb yoldaşımdı. Orta məktəbi qurtardıqdan sonra o, həkim olmaq istədi; mən isə şerin kəməndinə düşüb qaldım.

Professor böyük bir binanın ikinci mərtəbəsində olurdu. Biz onun pəncərələri dənizə açılan iş otağına girdik. Yol uzunu söhbətimiz o qədər şirin olmuşdu ki, səs-küylü küçələrdən necə keçib-getdiyimizi, geniş pillələrlə necə qalxdığımızı da hiss etməmişdim. Professor məktubu mənə verdi və bir şey gözləyirmiş kimi üzümə baxdı. Mən bir kəlmə demədən, məktubu oxumağa başladım. Qurtaranda ixtiyarsız ayağa qalxıb professorun əlini bərk-bərk sıxdım və məktubun son sözlərini təkrar etdim:

– Sağ ol, professor!

Şərtimizə əməl edərək, məktubu imzasız göndərirəm. Əgər lazım bilsəniz, bir imza qoyun. Məsələn: "F" və ya "M". Yaxud, sadəcə "Minnətdar tələbə".

Məktub budur:

"Əziz müəllim! Bəlkə də siz məni unutmuşsunuz. Mənim kimi yüzlərlə tələbə yetişdirmiş bir adam bu yüzlərdən birini unudursa, burda təəccüblü nə var?!

Kim deyərdi ki, əvvəllər bu qədər nifrət etdiyim sizə, bir zaman bu qədər məhəbbət və hörmət bəsləyəcəyəm!

Yadınızdadırmı, soyuq bir yanvar günü idi. Mən sizi İnstitutumuzun aşağı mərtəbəsindəki uzun koridorda dayandırdım. "Professor, bu məktub sizə çatacaq" – dedim. Siz kiçik bir heyrət ifadəsilə qaşlarınızı çatdınız, balaca məktubu alıb diqqətlə nəzərdən keçirdiniz. Nə isə bir şey anlamamış kimi, təkrar-təkrar oxudunuz, sonra da mənə müraciət edərək: "Təəssüf ki, mən bu ricaya əməl edə bilməyəcəyəm", – dediniz. Mən bu cavabı gözləmirdim. Xəyalıma belə gətirmirdim. Başqa iki müəllimə həmin məktub yazan adamın yalnız bir telefon zəngi ilə imtahan vərəqəsinə qol çəkdirmiş, əla qiymət almışdım. Sizin cavabınız o qədər gözlənilməz oldu ki, mən çaşıb qaldım. Siz fikrimi gözlərimdən anlamış kimi: "Oğlum, bu, çirkin hərəkətdir. Elm fırıldaq sevmir", – dediniz.

Professor, bilsəniz o gün sizə nə qədər qəzəbləndim!

Bütün varlığımla sizə nifrət etdim. Nədənsə, birdən-birə boyunuz da mənə daha uzun göründü. Əllərinizə baxdım, elə bil ki, onlar taxtadan qayrılmışdı. Çox yeri ağarmış saçlarınız da, nədənsə, mənə üstünə qar yağmış qaratikan kolunu xatırlatdı. Mən kənddə olduğum zaman böyürtkən yığmağa gedəndə üstünə belə qar yağmış qaratikanlar mənim əlimi cırıb-yaralayırdı. İndi də siz, bu uzunboylu, arıq adam, üzünün qırışlarında mərhəmət və mehribanlıqdan bir nişanə belə olmayan insan öz sözlərilə mənim ümidlərimi qırıb, qəlbimi yaraladınız. Mən İntizara: "Görərsən, necə imtahan verərlər!" – demişdim. İndi ona nə cavab verəcəkdim?!

O gün mən imtahana gəlmədim. Axşam məktub vermiş qohumumgilə getdim. Mən onlarda olurdum. Qohumum Səhiyyə Nazirliyində işləyirdi. O, məni diqqətlə dinlədi, sonra pörtmüş halda ayağa qalxıb telefona yaxınlaşdı. Mən o biri otaqdan onun səsini eşidirdim: "Yaxşı da... biz də özümüzə görə bir adamıq axı. Bizə partiya, hökumət iş tapşırıb, bütün kadrları bu köhnəbeyinli, başı Nikolay məktəbinin qaydalarına öyrənmiş adamların əlinə versək, onda gərək kadr yetişdirmək işinə birdəfəlik qələm çəkək". Yəqin ki, danışdığı adama cavab olaraq əlavə etdi: "Bizə bu saat adi həkim lazımdır, Meçnikovlar lazım deyil".

Mən Meçnikov sözünü bir neçə dəfə sizdən eşitmişdim. Onun nə isə özünün nəzəriyyələri varmış. Ancaq bütün eşitdiyim mühazirələrdən yadımda qalan bir neçə qırıq cümlə idi.

Beləcə, sizinlə düşmən olduq, mənim əziz müəllimim! Üç gün yoldaşlarımın dəftərinə baxdım. Ondan, bundan soruşdum, sonra yanınıza gəldim. Siz, aramızda heç bir şey olmamış kimi, məndən imtahan qəbul etməyə başladınız. Altı sualdan birinə cavab verə bilmədim. Nəhayət, siz məndən iltihab bəhsini soruşdunuz. Hər dəfə siz sual verəndə mənə elə gəlirdi ki, bilmədiyim həmin bu məsələdir, siz də bir sövqtəbii ilə bunu hiss edib, məndən bunu soruşursunuz. Nədənsə, o vaxt imtahana çox az hazırlaşdığım, heç bir kitab oxumadığım, tez-tez mühazirələri buraxdığım yadıma düşmürdü. Bütün təqsiri sizdə görürdüm. İmtahanda cavab verə bilmədim. Nədənsə, tez-tez beynimdə "Meçnikov, Meçnikov" sözləri dolaşırdı. Amma nə üçün? Onun iltihab məsələsi ilə nə əlaqəsi vardı? Yadıma sala bilmirdim. Mən lövhənin qabağına gəlib latınca "iltihab" sözünü də yaza bilmədim. Sözün başı yadımda idi, ancaq sonrasını unutmuşdum. Siz qalxdınız, ağır addımlarla yanıma gəldiniz və aydın bir xətlə "İnflammatio" yazdınız.

Mühazirələrdə olduğu kimi, təmkinlə iltihabın əsas əlamətləri haqqında yarım saat mənə izahat verdiniz. Sonra bir neçə kitab adı çəkdiniz: "Get oxu, öyrən, sonra gələrsən", – dediniz. Bu kitablar arasında Meçnikovun "İltihabın müqayisəli patolojisi haqqında mühazirələr" əsəri də vardı. O zaman mənim yadıma düşdü ki, siz mühazirələriniz zamanı uzun-uzadı Meçnikovdan danışırdınız. Onun nəzəriyyələrini izah edirdiniz.

Mən məyus-məyus yanınızdan çıxdım. Ən çox mənə yer eləyən şey bu idi ki, İntizar da – mənim sevdiyim qız – indi, necə deyərlər, uşaqların anası, o zaman mənimlə bərabər imtahan verməyə gəlmişdi. O, məndən əvvəl içəri girib "əla" qiymətlə imtahan vermişdi. Mən isə yenidən bu əzablı və ağır yolu keçməli, üzüqara bir də sizin yanınıza gəlməli idim.

İnstitutdan çıxandan sonra binanın qabağındakı bağın ağaclarına baxdım. Budaqların üstündə qar vardı. Yenə sizi, ağbaşlı müəllimimi xatırladım. Yəqin ki, sizin də qəlbiniz o ağac budağındakı qarlar kimi soyuq və ətrafına biganə idi. Evə gəlmədim. Dəniz kənarına getdim. Orda xeyli gəzib fikirləşdim. Bu fikirlərim üçün indi də sizdən üzr

istəyirəm, professor. Mən düşünürdüm ki, insan nə qədər rəsmiyyətçi olarmış, nə qədər paxıl olarmış! Bu zaman xəyalımda tutduğum insan siz idiniz. Mən düşünürdüm ki, "iltihab" sözünü latınca düzgün yazıb-yaza bilmədiyimin mənim gələcək təbiblik təcrübəm üçün nə mənası var? Sizin kimi başqa müəllimlər də yoxdumu? Doğrudur, institutda çalışan müəllimlərdən çoxu sizin kimi sərt və heç bir güzəştə getmədən, oxuyanlardan bilik tələb edənlər idi. Lakin mən hələ onlarla üz-üzə gəlməmişdim. Sizdən əvvəlki iki imtahanım isə, "müvəffəqiyyətli" keçmişdi. Evində qaldığım qohumum bir gün qabaq zəng eləmişdi, mən də həmin müəllimlərin yanına gedib əvvəlcədən mənə hansı sualları verəcəklərini öyrənmişdim, bir gecədə bu suallara aid bir neçə səhifə oxumuş, əla imtahan vermişdim.

Əziz müəllimim! Bu qədər vaxtınızı aldığım üçün üzr istəyirəm. Ancaq ürəyimi sizə açmağa, bütün düşündüklərimi deməyə ehtiyacım var.

"İltihab" fəlakətindən sonra mən üç gün dərsə gəlmədim. Qəlbimdə qəribə bir hiss oyanmışdı. Bir tərəfdən sizə nifrət edir, o biri tərəfdən yavaş-yavaş özümün müqəssir olduğumu hiss etməyə başlayırdım.

İmtahanlar qurtarmışdı. Bir gün mühazirədən sonra sizə yanaşdım. "Professor, icazə verin bir ay imtahana hazırlaşım, sonra imtahan üçün yanınıza gəlim", – dedim. Siz gülümsəyərək: "Çox gözəl", – dediniz.

Mən bu gülümsəmənin əsl mənasını anlaya bilmədim. Bu, təqdir əlamətimi, yoxsa mənim savadsızlığıma, sadəlövhlüyümə qarşı bir istehzamı idi?

Professor, sağ olun ki, mənimlə amansızcasına rəftar etdiniz. Mənim "xeyirxah" qohumumun ricasını rədd etdiniz, məni kəsdiniz. Sağ olun ki, məni sevdiyim qızın yanında xəcalətli etdiniz. Mən bugünkü işimin müvəffəqiyyəti, bugünkü biliyim üçün, ən ümdəsi ölümün və əzabların əlindən xilas etdiyim insanların taleyi üçün sizə minnətdaram.

Yadınızdadırmı, Bakının tufanlı bir gecəsində sizin tapşırığınızla mən İnstituta gəldim. Çöldə uğuldayan Xəzrinin sovurduğu yağış pəncərələri qırmanclayırdı. Məni nə üçün çağırdığınızı bilmirdim. Kabinetinizin qabağında dayanıb gözləyirdim. Saat onun yarısında siz gəldiniz. Yağış sizi islatmışdı. Kabineti açıb məni çağırdınız. Söz demək istərkən sizi üzüntülü bir öskürək tutdu. Mən diqqətlə üzünüzə baxırdım. Öskürəyin şiddətindən əvvəlcə qızardınız, sonra sapsarı oldunuz. Bir az sakitləşəndə mənə işarə etdiniz ki, oturum. Bu gecəni

mən unuda bilərəmmi?! Siz gecənin bu tufanlı qaranlığında, xəstə-xəstə mənə məsləhət verməyə gəlmişdiniz. İmtahana hazırlaşmaq üçün mənə kömək etməyə gəlmişdiniz. O gecə üç saat mənimlə məşğul oldunuz. Mən indi, bu hadisədən doqquz il keçəndən sonra o gecəni bütün təfərrüatı ilə xatırlayıram. Bütün dediyiniz sözləri bir dəftər səhifəsinə yazılmış kimi hərf-hərf təkrar edə bilərəm. Çünki o gecə siz, hər şeydən əvvəl, bir insan idiniz. O gecə siz şərəfli insan sözünün mənasını unudulmaz bir dillə mənə anlatdınız. Bu, sizin alicənab hərəkətinizin dili idi.

Mən bu müddətdə sizin tapşırığınızla bir neçə kitab oxumuşdum. Boqomolets, Meçnikov, Taraseviç, Nikiforov və Abrikosov. Bir neçə əcnəbi məxəzlərdən də siz mənə məlumat verdiniz.

Bir həftə sonra imtahan verməyə gəldim. Bilmirəm, təsadüf idi, yoxsa özünüz qəsdən bunu eləmişdiniz, bizim fakültənin dekanı və institutun rektoru da sizin kabinetdə idi. Siz məndən soruşurdunuz, mən cavab verirdim. Ürəyim sakit, beynim açıq idi. Çünki bilirdim. Mən cavab verdikcə, dekanla rektor bir-birinə baxır, nədənsə, gülümsəyirdilər.

Sual-cavab qurtaranda, siz qalxıb əlimi sıxdınız, titrəyən bir səslə: "Bax belə, oğlum, sağ ol!" – dediniz.

Mənim bütün vücudumu bir gizilti bürüdü. Diqqətlə gözlərinizə baxdım. Onlarda yaş vardı. Nədənsə qarlı gecəni xatırladım. O budaqdakı qarlar da səhər günün hərarətindən əriyib damla-damla yerə axırdı. Kabinetdən çıxanda birdən qayıtdım, rektora yanaşaraq: "Mənə ümumi yataqxanada yer verin", – dedim. O, təəccüblə üzümə baxdı: "Siz ki..." Mən tələsik onun sözünü kəsdim: "Yox, artıq mən orda qalmayacam".

O axşam yataqxanaya köçdüm. Qohumum əvvəl təəccüb etdi, sonra acıqlandı, nəhayət: "Get, nankor!" – deyib qapını bağladı. Mən onun üzünə baxa bilmirdim, çünki o, öz telefon zəngləri ilə, yazdığı kağızlarla, minnətçiliyi ilə nə qədər adamı şikəst eləmişdi. Savadsız həkimlərin buraxılmasına səbəb olmuşdu. İnsanları yalançılıq, riyakarlıq, saxtakarlıq kimi namussuz və çirkin hərəkətlərə sövq etmişdi. Bunların hamısına da insanpərvərlik donu geyindirmiş, kadr hazırlığı adı ilə pərdə çəkmişdi.

Sağ olun, professor! Sağ olun ki, siz yaxın qohumum olan bu adama qarşı məndə əbədi bir nifrət oyatdınız.

Mən sizə birinci imtahanımı verən gündən, o qohumumun evindən gedən gündən bütün vaxtımı təcrübələrdə, mühazirələrdə, kitabxanalarda keçirdim. Bəzən həyatın çətinlikləri məni sıxırdı. Ümidsiz olurdum. Yorulur, gücdən düşürdüm. Lakin artıq mən başqa adam idim. Hər dəfə sizinlə olan ilk danışığımı, kitabçama imtahansız qol çəkdirmək təşəbbüsümü xatırladıqca, qızarırdım.

İnstitutu bitirib kəndə gəldim. Dörd ildir ki, burda çalışıram. İlk dəfə məni Bakıya aparmaq istədilər, getmədim. Mən Bakını çox sevirəm, professor. Onun ulduzlu gecələrini, Xəzərin yaşıl sahilini, şəhərin çilçıraqban küçələrini həmişə dərin bir həsrətlə xatırlayıram. Ancaq mən burda qalmalıyam, çünki buradakı adamların mənə ehtiyacı var. Hər dəfə bir xəstəni müalicə edərkən, sizin təhrikinizlə oxuduğum kitabların, sizin məsləhətinizlə iştirak etdiyim əməliyyat və təcrübələrin nə qədər lazımlı olduğunu hiss edirəm.

Sağaltdığım adamları gördükcə "iltihab bəhsini", o təsadüfü xatırlayıram. Bəlkə də iltihabın latınca necə yazıldığı əməli işdə mənə çox lazım olmadı. Lakin o gündən sonra həmişə bir məzəmmət heykəli kimi gözlərimin qabağında canlanan "inflammatio" mənə çox şeylər öyrətdi. Məni çox oxumağa, öyrənməyə məcbur etdi, məni mədəni, savadlı bir adam elədi.

Sağ olun, professor, mənə vurduğunuz ilk ağır zərbə üçün sizə təşəkkür edirəm. Həqiqi bir insan olduğunuz üçün sizə minnətdaram. Xalqımızın səadət və gələcəyini hər şeydən yüksək tutduğunuz üçün sizə təşəkkür edirəm. Sağ olun, professor! Sağ olun ki, mənim imtahan kitabçama qol çəkmədiniz, məni fəlakətdən qurtardınız!

29.09.45"

Mən professordan ayrılanda artıq gecə keçmişdi, lampanın işığında onun sakit üzünə baxdım. Bu nəcib simada dərin bir səadət və məmnuniyyət ifadəsi gördüm. Onun iftixar etməyə haqqı vardı.

1950

MİRƏLİ SEYİDOVUN "AZƏRBAYCAN-ERMƏNİ ƏDƏBİ ƏLAQƏLƏRİ (TA QƏDİMDƏN TUTMUŞ XVIII ƏSRİN SONUNA QƏDƏR)" ADLI DOKTORLUQ ƏSƏRİ HAQQINDA RƏY

M.Seyidovun bu qiymətli tədqiqat əsəri iki qonşu xalqın ədəbi əlaqələr tarixinin ən mürəkkəb və demək olar ki, işlənməmiş dövrünə həsr olunmuşdur. Mövzunun çətinliyi onun yalnız işlənməmiş olmasında deyildir. Bu çətinlik eyni zamanda bu dövrlərin həm ictimai, iqtisadi, siyasi həyat və məişət xüsusiyyətlərindən, həm də təfəkkür tərzinin mürəkkəbliyindən doğur. Lakin M.Seyidov belə çətin mövzunun öhdəsindən müvəffəqiyyətlə gəlmişdir. Belə yüksək elmi nəzəri səviyyəli orijinal tədqiqat əsərini yaratmaqla M.Seyidov bir daha sübut etdi ki, o, geniş erudisiyaya malik istedadlı alim və gözəl tədqiqatçıdır. İntixab etdiyi mövzunu işlərkən müəllif hər şeydən əvvəl bu xalqların qədim tayfalar və qəbilələr dövrünü mükəmməl öyrənməkdən başlayır. Bunun üçün o, qədim məxəzlərə əl atır. Ədəbiyyatşünaslıq elmi ilə yanaşı, həm də bu iki xalqın tarix, dilçilik, mifologiya, arxeologiya, folklor, etnoqrafiya, incəsənətinə və s. elmlərinə aid yalnız Azərbaycan və erməni yox, həm də qədim türk, hun, alban, Arran, Midiya, gürcü, yunan, ərəb yazılı və şifahi mənbələrinə müraciət edir. Bu istiqamətdə aparılan ciddi araşdırmalar müəllifə imkan vermişdir ki, yalnız Azərbaycanşünaslığı yox, ümumiyyətlə, türkologiya elmini zənginləşdirən bir sıra orijinal elmi məsələlər qaldırsın və onların marksist-leninçi metodologiya əsasında düzgün elmi cavabını versin. Belə elmi nəticələrin ən qiymətlilərindən biri budur ki, M.Seyidov Azərbaycan xalqının, onun mədəniyyət, ədəbiyyat və dilinin çox qədim və zəngin bir tarixə malik olduğunu, bu mədəniyyətin, bu dilin qonşu xalqlara, o cümlədən erməni xalqına da güclü təsir göstərdiyini faktlar, dəlillərlə sübut etməyə müvəffəq olmuşdur. Bu, M.Seyidovun xalqımıza göstərdiyi mühüm xidmətdir. Müəllif çox doğru hərəkət etmişdir ki, bu təsirin, bu əlaqələrin köklərini birinci növbədə hər iki xalqın əsatiri görüşlərində, mifologiyasında izləmişdir. Çünki tarixi inkişafın tayfalar və qəbilələr dövrü üçün məhz əsatiri dünyabaxışı səciyyəvidir.

Müəllif Azərbaycan xalqının qədim əsatiri görüşlərini, mifoloji dünyabaxışı, onun mədəniyyəti və tarixi, eyni zamanda Azərbaycan

və erməni xalqlarının ədəbi əlaqələr tarixi dissertasiyada uyğur, oğuz, varsaq, haylan-türk, habelə "ağac", "su" kimi onqon-totem anlayışlarının etimoloji tədqiqatında açılır. Bu istiqamətdə aparılan ciddi axtarışlar nəticəsində M.Seyidov bu onqon-totemlərin qədim mənalarını, hansı etiqadlarla, hansı əsatiri anlayışlarla bağlılığını, bunların biri-birilə əsatiri qohumluğunu açır, tarixən keçib gəldiyi mürəkkəb yolu, bu yolda uğradığı dəyişiklikləri, hansı və nə kimi təsirlərə məruz qaldığını tədqiq edir, onların müasir dilimizdə və folklorumuzdakı mövqeyini açıb göstərir. M.Seyidov elmi inandırıcılıqla sübut edir ki, müəyyən iqtisadi-siyasi, ictimai və mədəni əlaqələr zəmininde yaranmış qarşılıqlı əlaqə nəticəsində bunlar sonradan başqa xalqlara, o cümlədən erməni xalqına da keçərək yeni keyfiyyətlər, milli boyalar almışdır. Ermənilər onlara öz arzu və zövqlərinə uyğun don geydirmiş, öz doğma tanrıları, ilahələri kimi tapınmış, sitayiş etmişlər.

Azərbaycan xalqının soykökünün – etnogenezisinin müəyyənləşdirilməsi işində də M.Seyidovun bu əsərinin əhəmiyyəti böyükdür. Müəllif elmi inandırıcılıqla sübut edir ki, türkdilli qəbilələr Azərbaycana eramızdan əvvəl III əsrdə, bəlkə daha əvvəllər gəlmiş, burada yerli qəbilə və qəbilə birləşmələrilə çarpazlaşmış, beləliklə də, vahid Azərbaycan xalqı yaranmışdır.

Yekun sözümdə demək istəyirəm ki, böyük zəhmət və alın təriylə, yüksək elmi səviyyədə yazılmış bu qiymətli tədqiqat yalnız azərbaycanşünaslığın yox, ümumiyyətlə, türkologiya elminin yeni, ciddi nailiyyətidir. Odur ki, bu əsərə görə M.Seyidov filoloji elmlər doktoru alimlik dərəcəsi almağa tamamilə layiqdir.

Rəsul Rza
Azərbaycanın əməkdar
incəsənət xadimi, Xalq şairi

YÜKSƏK EŞQİN BÖYÜK HEYKƏLİ

Ən böyük sənət əsərinin mövzusu insan və insan taleyidir. Belə əsərləri oxuyur, dinlərkən qəlbimizdə nəcib hisslər oyanır. Qürurla təkrar edirik: mən də insanam! Bu əsərlərdəki qəhrəmanların göstərdiyi rəşadət, alicənablıq, onların zəka və qüdrəti gözəl insan sifətləridir. Onları yaradan da insandır. İnsan hər şeyə qadirdir.

Həqiqi insan dünyanın qara qüvvələri ilə mübarizə edib, bəşər ləyaqətinin təntənəsi, gözəl və nəcib duyğuların çiçəklənməsi üçün özünü qurban verir. Böyük sənət əsərinin insan qəlbinə aşıladığı duyğular yaz günəşinin işıq şüalarına bənzəyir. Bunlar insan qəlbini isidir, insana sevinc gətirir, onda yaşamaq, yaratmaq həvəsini alovlandırır. Həqiqi sənət əsəri qəlbləri ram edir, insan səciyyəsinin təşəkkülündə böyük rol oynayır, insanları və həyat həqiqətini təmiz və aydın bir aynada göstərir.

Nizami yaradıcılığı həqiqi, böyük sənətin gözəl bir nümunəsidir. Onun qüdrətli qələmi ilə yaranmış insan səciyyələri əsrlərin boranlı və tufanlı yollarından keçərək, bu günə qədər gəlmiş, bu uzun və məşəqqətli yollarda təravətini, rəngini, hərarətini hifz etmişdir. Vətənimizin qocaman sənətkarı tərəfindən yaradılmış obrazlar içərisində yüksək eşqin böyük heykəli olan Şirin xüsusi yer tutur.

Şirin, Azərbaycan torpağının doğma balasıdır. Onun bibisi Mehin Banu Dərbənd dənizinin kənarında gözəl bir ölkədə yaşayır. Böyük mal və dövlətə sahib olan bu hökmdar qadının ən qiymətli gövhəri, qardaşı qızı Şirindir. Mehin Banu hər fəsildə öz ölkəsini bir dilgüşa guşəsinə aparır. Abxaziya, Ərmən yurdu, Bərdəətrafı, Muğan onların seyrangahı ovlaqları, cıdır və istirahət yerləridir.

Xosrova Şirin haqqında ilk xəbəri verən Şapur belə deyir:

"Dərbənd dənizinin bir sahmanında,
Bir gözəl ölkə var dağlar yanında.
Şahzadə qadındır orda hökmran,
Qaynaşır qoşunu İsfahanatan.
Arandan başlamış Ərmənə qədər,
Onun fərmanına boyun əyirlər.
Hər zaman gəlincə yeni bir fəsil,
O qurur özünə bir təzə mənzil.
Gül fəsli gəlincə yatağı Muğan,
Yay zamanı yeri göy Ərmənistan.
Yay keçib gəlincə bir gün son bahar,
Abxaziya elində gedib ov ovlar".

Nizami qələminin nadir qüdrəti ilə Şirinin yalnız xarici gözəlliyi deyil, onun daxili gözəlliyini, bu azəri qızının qəlbində, ruhundakı tükənməz zənginlikləri təsvir edir:

"Bir pəri kimi qız pəri deyil, ay,
Qəhrəman bir qızdı, başda kəlağay.
Dirilik suyu tək gözləri qara,
Gecəni qərq edir, ay tək nurlara.
Sehriylə yaxılsın deyə hər ürək,
Ağzında yüz dil var, şirin-şəkər tək.
Dodaqları duzlu, sözü dərindir,
Duz heç şirin olmaz, bu çox şirindir.
Gümüş bir qılıncdır burnu, sanasan,
Bölmüşdür almanı tən ortasından.
Sulanmış əqiq tək dodaqları var,
Eşilmiş kəmənddir, cüt, qara saçlar.

Şirin füsunkar Azərbaycan təbiətinin qoynunda böyümüş bir qızdır. Onun isməti gözəlliyinin keşiyində durmuşdur.

Şirin qayğısız, bipərva yaşayırkən birdən-birə Şapurun məkrli toruna düşür, min könüldən Xosrova aşiq olur. Bu böyük və müqəddəs eşqin müqabilində Xosrovun pozğun əxlaqı, onun həris, şəhvani duyğuları Şirinə nə qədər yaralar vursa da, qız mətanətlə seçdiyi, məhəbbət yolunun daşlı-tikanlı cığırları ilə açıq alın, dik başla gedir. Onun ənin və şikayətləri, əzab və iztirabları, isti göz yaşları eşqinin alovunu artırır, qəlbinin əzmini daha da bərkidir.

Şirin ləkəsiz eşqinə qarşı Xosrovdan ancaq biməfalıq və hərcayilik görür. Məhəbbət və sədaqətdən çox, ani zövq və işrətlərə aludə olan Xosrov, Şirini dönə-dönə qanlı göz yaşı tökməyə məcbur edir. Lakin Şirin bir an belə Xosrovun məhəbbətini qəlbindən çıxara bilmir. Bu eşqin yolunda möhnət səhralarını addımlayır, iztirab qamçılarına sinə gərir, lakin yenə də öz ismətini, öz təmiz adını qoruyur və ancaq Xosrov onu el adəti, xalq qaydası ilə toy edib özünə arvad elədiyi zaman, Şirin eşqinin qəhrəmanına təslim olur. Xosrovun məhəbbəti ilə bu qədər əzab və işgəncələrə dözən Şirin gözəl və nəcib duyğularla Fərhada bağlanır. Lakin o, Fərhadı sevə bilmir. Fərhadın bütün nəcib sifətlərini, qəhrəmanlığını, onun sədaqət və vəfasını görən Şirin diz çöküb Allaha yalvarır ki, bəlkə Fərhadın məhəbbətini Allah onun qəlbinə salsın, bəlkə Şirin bu alicənab insanı həqiqi bir məhəbbətlə sevə bilsin. Lakin məhəbbətin qüdrəti, amansız düyünlərlə onun varlığını elə bağlamışdır ki, o, Xosrovdan başqa kimsəyə könül verə bilmir.

Nizami Şirin obrazını ağır sınaqlardan keçirərək, böyük insan duyğusunun təntənəsi kimi sona çatdırır. Xosrov yalnız Şirinə qovuşduqdan sonra, onun təsiri altında öz taxt-tacından əl çəkib gözəl əməllər ardınca düşməyə qərar verir. Bütün əsər boyu Nizami, Xosrovun ani şəhvət alovlarına, keçəri duyğularına, hərcayi səciyyəsinə qarşı Şirinin mətanət və səadətini, vəfa və iradəsini qoyur. Varlığında böyük, saf bir eşqi təcəssüm etdirən Şirinin, Xosrova nə cür təsir buraxdığını göstərir. Xosrovla Şirinin bir görüşü zamanı, qəsrdə oturub ürək çırpıntısı ilə Xosrovun yolunu gözləyən Şirin, şahın onun yanına sərxoş gəldiyini görüncə qələnin qapılarını bağlayıb, şahı içəri buraxmır. Çünki o öz eşqi, öz duyğuları haqqında sərxoş şahla deyil, onu həqiqilə təqdir edən huşyar bir adamla danışmaq istəyirdi. Daha sonra çadırda müğənnilər vasitəsilə Xosrovla söz mücadiləsinə girərkən Şirin, ona alicənablıqla: "Sənin kimi asiman mənim xərabəmə yerləşə bilməzdi" – deyə onu utandırmaq istəyir.

Şirinin Xosrov üzərindəki təsirini Nizami, əsərinin sonundakı gözəl bir hissədə vermişdir.

Şirin yeri öpüb dedi, ey məlik,
Bu işrətdən əl çək, gör nədir bilik.
Sən çox kam almısan qoca dünyadan,
Sərbəst yaşamısan bir xeyli zaman.
Şahların əlindən çox ayna, inan,
Qırılıb getmişdir məzlum ahından.

Daranı, Cəmşidi yadına salsan,
Görərsən nə etmiş bu qoca dövran.
Varını verməsən, pis çıxar adın,
Verdiyin hər parça olar imdadın.

Şirinin bu öyüdləri bica deyildir. O özü Mehin Banunun ölümündən sonra taxt-səltənəti əlinə alırkən bütün ölkədə ədalət bayrağını qaldırmışdır. Bir az müddət şahlıq etdikdən sonra, öz taxt-tacını qullarından birinə bağışlayaraq, səltənəti tərk etmişdir.

Nizami bu gözəl insanın şahlığını belə təsvir etmişdir:

"Şirinin əlinə yetincə şahlıq,
Hər yana yayıldı ölkədən işıq.

Ədalətlə qıldı rəiyyəti şad,
Məhbusları etdi həbsdən azad.
Zülmdən qurtardı bütün məzlumlar,
Haqsızlıqdan əsla qalmadı asar...
Vergidən qurtardı şəhər, kəndistan
Ona dua xoşdur dünya malından.
Bolluq oldu, hər şey məhsul gətirdi,
Bir buğda dənəsi yüz dən bitirdi".

Nizami Şirinin belə təsvirini verirkən, onun simasında öz istək və arzularını tərənnüm etmişdir. O, Şirinin, Fərhadın surətini yaradıb onların nəcib xasiyyətlərini dərin bir məhəbbətlə təsvir edirkən, öz könül arzularının xəyal lövhələrini yaratmışdır. Nizami dünyanı azad, ədalətli qanunlarla idarə olunan, əmək və hünərin təntənəsi ilə bəzənmiş bir aləm kimi görmək istəyirdi. Təsadüfi deyildir ki, Şirinin ədalətli hökmranlığından danışarkən şair əlavə edir:

Padşahın niyyəti xoş olsa əgər,
Oddan kül yerinə gövhərlər bitər.
Pis nəfsin ağacı quru budaqdır,
Bolluq ədalətdən yaranacaqdır.
Ölkədə qıtlıq yox, bolluq olarkən,
O şahın əlindən verəcək nişan,
Pis niyyətli, zalım olarsa bir şah,
Onu nəzərindən salacaq Allah.

Şirinin Fərhada olan duyğuları ayrıca bir məqalənin mövzusudur. Nizami Şirinin surətini yaradarkən, o zamankı azərilərə xas olan bütün gözəl sifətlərin ədəbi-fəlsəfi cövhərini vermişdir.

Şirin gözəl olduğu qədər zəkalı, sadiq olduğu qədər qəhrəman, vəfalı olduğu qədər iradəli və mətanətlidir. Şirin dünya ədəbiyyatında yaranmış yüksək mənəvi aləmə malik olan nadir qadın surətləri sırasında birincilərdəndir.

CAHANA SIĞMAYAN ŞAİRİN QƏRİB MƏZARI

Suriyada olduğumuzun səkkizinci günü Hələbə gəldik. Hələb Şamdan sonra Suriyanın ən böyük şəhəridir. Burada bir sıra sənaye müəssisəsi, elm ocağı, qədim abidələr, muzey var. Məni hər şeydən artıq maraqlandıran Suriya səfərimin ehtimal və nigaranlıq dolu bir məqsədi – Nəsimi idi. Görəsən, ondan bir nəm-nişan qalıbmı? Hələ Bakıda ikən hörmətli alim Araslı müəllim: "Nəsiminin qəbri Hələbdə olmalıdır. Siz yəqin onu görəcəksiniz", – demişdi. Lakin uzun illərin əlaqəsizliyi bu məlumatın nə qədər səhih olduğunu bir nigaranlığa bağlamışdı. Nəsiminin faciəli ölümündən keçən beş yüz ildən artıq zaman onun həyatını, başına gələnləri, öldürüldüyü, dəfn edildiyi yeri sanki qalın bir dumana bürümüşdü. Yüksək rütbəli ruhanilərin fitvası ilə bir kafir, bir asi, bir din düşməni kimi dabanından diri-diri soyulmuş şairin qəbri yüzillərin uzaqlığından bu günə qalarmı? Hansı cəsarətlə, kim onu dəfn edib, zamanın unutqanlıq qüvvəsindən qoruyub saxlaya bilərdi?

Bir zaman Şam, bu gün Dəməşq adlanan şəhərdə, müqəddəs Şamda (Bosra), ölkəni gəzdiyimiz bir çox şəhərdə də bu nigaran fikirlər məni rahat qoymurdu. Dəməşq və başqa şəhərlərdə görüşdüyümüz suriyalı – yeni tanışlarımız, dostlarımız da şair Nəsimi haqqında təsəllili bir şey deyə bilmirdilər.

Bəziləri bu adı eşitməmişdi, bəziləri eşitmiş, lakin onun dəhşətli bir əfsanəyə bənzəyən ölümündən başqa bir şey bilmirdi. Səfərimizin kosmik sürəti və bir paradoks kimi vaxtımızın mühüm hissəsini udan gözləmələr, güman gələn elmi müəssisələrə, kitabxanalara baş vurmağa, ayrı-ayrı mötəbər elm adamları ilə görüşməyə imkan vermirdi. Bu qədər desəm, kifayətdir ki, 14 gündə Suriyanı eninə-uzununa gəzdik, hətta bir günümüzü əlavə Livan-Beyrut proqramına sərf etdik. Elə gün oldu ki, səhər saat 6-da qalxıb 8-də yola düşdük, axşam saat 7-8-də o günkü səfərimizin son mənzilinə çatdıq.

Belə səfərlərdən birində 700 kilometr yol getdik. Aydındır ki, mümkün qədər çox görmək, çox görüşmək istəyi ilə təmkinli, əsaslı axtarış bir-birinə uyan şeylər deyil. Lakin bütün bunlara baxmayaraq, görünür, bəxt bizdən üz döndərməmişdi. Nəhayət, Hələbə gəldik.

Kərəm Əslisini, Qərib Sənəmini axtara-axtara gəlib Hələbə çıxdılar. Nəsimi hansı sevdanın qaçılmaz çəkiminə yön tutub, qədim Şirvan

torpağından ayrıldı, ruzigar çalxamına düşmüş yarpaq kimi uzaq Suriya ellərinə getdi? Hələbin qaynar havasında "iki cahan sığan" qəlbini haqq-həqiqət susuzluğundan qurtarmaq istədi? Diri-diri soyulan bədənin yana-yana göynəyən yarasından bir damla qan sıçrayıb zahidin riyakarlığını ifşa etdi. "Miskin aşiqdə" dözümün sonsuz olduğunu göstərdi. Bu cahana sığmayan şeyx, filosof, mübariz insan, qorxusuz, haqq-ədalət mücahidi İmadəddin, Şirvan balası beş əsrdən artıqdır ki, yarıqaranlıq sərdabəsinə sığınıb əbədi uyuyur.

Yağmurlu bir noyabr günü onun yaralarının sızıltısı, göynəyi yenidən oyandı, gözlərimizdə yaşa, sinəmizdə həyəcanlı döyüntüyə, dilimizdə həzin bir nəğməyə döndü, xəyalımızda uzaq günlərin unudulmaz mənzərəsini yaratdı.

...Neçə gün idi ki, biz, Azərbaycan mədəniyyət xadimlərinin nümayəndə heyəti Suriyada ərəb dostlarımızın qonağı idik. Qədim Şam şəhərinin müasirləşmiş mənzərəsi, görüşlər, qarşılıqlı salam və sorğu-suallar, sovet səfarəti, müxtəlif nazirlik və elm-mədəniyyət ocaqları ilə tanışlıq, ölkənin uzaqlarına – neft, pambıq rayonlarına, qədim mədəniyyət mərkəzi Bosraya, Palmiraya, müasir sənaye mərkəzlərinə – Qamışlı, Lataka, Tabka, Xomsaya səfər maraqlı olduğu qədər, hadisə və qeydə dəyər faktlarla zəngin idi. Lakin mən ölkəni görmək, gərgin tarixi bir dövr yaşayan, yüksəliş yolunda hərəkət edən dost Suriya xalqının ayrı-ayrı nümayəndələri ilə görüşməklə nə qədər şad, məmnun, maraqlı idimsə, Fərat çayı üzərində tikilən su bəndi və elektrik stansiyasındakı sovet mütəxəssisləri sırasında çalışan qızımı – Fidanı bir an əvvəl görməyə can atırdımsa da, hər şeydən artıq məni rahatsız edən, fikrimi, xəyalımı bir an dinc qoymayan Nəsimi idi. Ondan bir nişan qalmışdırmı?

Qəbri haradadır? Əsərlərindən, bəlkə də əlyazmalarından tapmaq mümkün oldu?

Hələb qubernatoru (mühafizi) Əbdülqəni Əssədavi ortaboylu, qarabuğdayı bir kişidir. Zil qara bığları var. Başının tükləri də qapqaradır. O, mühəndisdir. Fəratproyektdə – Tabkada olduğumuz gün bizə dedilər ki, Hələb qubernatoru Əbdülqəni, eyni zamanda, müvəqqəti olaraq, Fərat bəndi tikintisinin baş mühəndisliyi vəzifəsini də aparır.

Qubernatorun idarəsi Hələbdə adi bir evdədir. Binanın otaqlarından biri onun kabinetidir. Bəzək-düzək yoxdur. Otağın yeri, bütün Suriya şəhər evlərində olduğu kimi, kvadrat daşla döşənmişdir.

Qubernator bizi qarşıladı, yer göstərdi, oturduq. O da oturdu. İlk tanışlıqdan sonra sual-cavab başladı. Sualların əksəriyyəti bu əyalətin iqtisadiyyatına aid idi. Nəhayət, qubernatora müraciətlə dedim:

– Hörmətinizə görə sağ olun! İcazə versəniz, sizdən bir xahiş edim.

– Buyursunlar!

– XIV əsrin ikinci yarısında bu Hələb şəhərində bizim həmyerlimiz bir şair yaşayıb. Onun anadan olmasının 600 illiyi Sovetlər İttifaqında geniş bayram ediləcəkdir. Bu bayram YUNESKO xətti ilə bütün dünyada da təntənə ilə keçirilməli bir bayramdır. Əgər hörmətli qubernator İmadəddin Nəsimi adlı bir Azərbaycan şairi haqqında, onun qəbri, nəsli, əsərləri haqqında bir məlumat almaqda bizə mümkün olan köməyi göstərərsə, ona çox minnətdar olarıq.

Qubernator bir anlıq fikrə getdi, sonra öz köməkçilərindən birini çağırdı, ona nə isə dedi.

Söhbət başqa sahələrə keçdi. Qubernator Sovetlər İttifaqı, xüsusilə, Azərbaycandakı quruculuq, mədəniyyət işləri ilə maraqlanırdı. 15-20 dəqiqə sonra xəbər gətirdilər ki, Nəsiminin qəbri Hələbdədir. İstəsəniz, onu indicə ziyarət edə bilərsiniz. Göründüyü kimi, bu xəbərdən Hələb qubernatoru özü də çox məmnun idi. Bizim isə uçmağa qanadımız yox idi. Öz aramızda məsləhətləşib bu qərara gəldik ki, Nəsiminin qəbrini səhəri günü layiq olduğu kimi ziyarət edək: gülləçiçəklə. Beş yüz ildən artıq sürən bir həsrət yolunda bir gün nədir ki!..

Noyabrın 29-da Suriyanın mədəniyyət xadimləri, Sovet İttifaqının Hələbdəki konsulu, bizim bütün nümayəndə heyəti Nəsiminin qəbrini ziyarətə getdik.

Hələbin hərbi qalası – Sitadel səkkiz əsrdən artıqdır ki, şəhərin ortasında, 200 metrə qədər hündür bir təpənin üstündə mürgüləyir, illəri, əsrləri köçəri quşlar kimi bir-birinin ardınca yola salır.

Bu qalanın dörd həndəvəri dərin, enli xəndəkdir. Qala düşmənlər tərəfindən mühasirə olunanda, bu xəndək su ilə doldurulur, qala qapıları bağlanırmış. İndi də qala qapısından keçib yuxarı – köhnə şəhərin xərabəliyinə qalxanda yolun hər bir neçə addımdan tin-tin burulduğu hələblilərin müdafiəyə yaxşı hazırlaşdıqlarını göstərir. İç qapıya gedən yol elə düzəldilmişdir ki, bura uzun direklər gətirib dəmir qapını helləməklə (taranla) sındırmaq, deşmək, qoparmaq mümkün deyil.

Aşağıda qalanın sol tərəfindən bir yol keçir. Bu yol haçalanıb iki küçəyə ayrılır. Sol tərəfə ayrılan küçə sanki bir-birinə geydirilmiş

müxtəlif boylu, müxtəlif biçimli evlərin arası ilə əyri-dolay zolaqla şəhərin içinə uzanır. Bu qol küçənin başlanğıcında, sağ əldə ilk bina Nəsiminin məqbərəsidir. Bu küçə Nəsimi küçəsi adlanır.

Əvvəlcə kiçik bir həyətə girirsən: həyətdə beş-on qəbirli bir ailə qəbiristanlığı var. Başdaşlarında "Nəsimi" sözü görünür. Hələbdə bu günə qədər Nəsimi babaadı – familiyası ilə yaşayan onlarca ailə var. Qərib şairin adını daşıyan bu uzaq Nəsimi nəslindən biri – Hikmət Nəsimi bizə bələdçilik elədi. Bu Nəsimi 48-50 yaşlarında bir adamdır. Onun şəklinə baxan bu adamın mütləq şirvanlı olduğunu tərəddüdsüz deyər. O, çadır alveri ilə məşğuldur.

Həyətdən keçib yarıqaranlıq bir otağa girdik. Burda üstü parça ilə örtülü (Suriyada belə bir adət var: məşhur adamların qəbrini bahalı ipək parça ilə örtürlər) bir tabut – qəbir var. Ortada kiçik bir çarhovuz, divarlarda çərçivəyə salınmış yazılar var. Bu yazılardan biri dörd misra şeirdir. Onun fotosunu çəkdik.

"Üzüldük, dönmədik mərdanəlikdən,
Xudaya, böylədir hübbi-səmimi.
Kəsafətdən çıxıb olduq bəhəqqə
Gülüstani-ilahinin Nəsimi".

Bu şeir hicri 1217-ci ildə ramazan ayında Məhəmməd Sübhi adlı bir adam tərəfindən yazılmışdır.

Nəsiminin qəbri olan otağın divarında azərbaycanca başqa bir neçə yazı da vardı. Gətirdiyimiz iri, təzə güllər əklilini Nəsiminin qəbri üstünə qoyduq. Əklilin lentinə bu sözlər yazılmışdı: "Ölməz şair, böyük həmyerlimizə Azərbaycan mədəniyyət xadimləri nümayəndə heyətindən". Nəsiminin qəbri otağın içində, taxta barmaqlıq arxasındadır. Bu otaqdan ikinci otağa üçpilləli keçid enir. İkinci otaqda da iki qəbir var. Bunlar Nəsiminin yaxın qohumlarının qəbridir. Onlar da Nəsimilərdir. Bütün bina kədərli təsir oyadır. Lakin edam edilmiş bir şairin qəbrinin bu neçə yüz il ərzində saxlanması, onun xatirəsinin əziz tutulması, adına küçə qoyulması bizi çox mütəəssir elədi. Hikmət Nəsimidən soruşduq ki, şairin əlyazmalarından, kitablarından bir şey qalıbmı? O, atasından belə bir rəvayət eşidib ki, 60-70 il bundan qabaq İmadəddinin bir çox əlyazması və kitabını kimlərsə Türkiyəyə aparıblar.

Əlbəttə, bir gün, bir neçə saatlıq vaxtda şairin irsi, onun həyatı, mübarizəsi haqqında az-çox səhih məlumat toplamaq mümkün deyil.

Öyrənə bildiyimiz bu oldu ki, Hələbdə şairin qəbri, adına küçə var və onun məqbərəsi olan məhəllədə 40-50-yə qədər ailə Nəsimi babaadını daşıyır.

Burdan Hələb kitabxanasına getdik. Kitabxananın baş elmi işçisi Yunis Rəşiddən başqa sorğu-suallarla yanaşı, Nəsimini soruşduq. Bir kitab gətirdilər. "Hələb şəhərinin tarixinə aid materiallar. VII cild". Onun 144-cü səhifəsində ərəbcə bu sözlər yazılmışdı: "820-ci il. Bu ildə Hələb şəhərində yaşamış mürtəd Nəsimi öldürülmüşdür. O, hürufilərin şeyxi idi. Hələbdə yaşamış şeyxin tərəfdarları çox idi. Onun təriqət tərəfdarlarının artdığını görən Sultan əmr edir ki, onun boynu vurulsun, dərisi soyulsun və dar ağacından asılsın".

Bu amansız, nadan, qanlı əmr o zamankı ruhanilərin fitvası ilə həmahəng idi. Bəlkə də o gün Hələbin qızmar günəşi köz kimi yandırır, onun işığından gözlər qamaşırdı. Lakin mövhumat və istibdadın məşum qara kölgəsi insanların üstünə düşmüş, onların qəlbində ağrılı-acılı bir fəryad qoparmışdı. Belə insanlar olmasaydı, şairin adı, şeri, xatirəsi bu günə kimi qalardımı? Nəsimi onu qan aparırkən "Mən Günəşəm, Günəş qürub edəndə saralar" deməyə haqlı idi. Lakin illər, əsrlər onun yüksək poeziyasını susdura bilmədi, saralda bilmədi.

Rəngi saralmış köhnə vərəqlərdən belə Nəsimi şeri haqq, həqiqət, ədalət, yüksək humanizm şəfəqləri ilə parlayır. Onun insan azadlığını, insan təfəkkürünün təntənəsini tərənnüm edən sətirləri bu gün də hər biçimli, hər geyimli müstəbidlərə qorxunc bir xəbərdarlıqdır. Nəsiminin əsrlərin dolaşıq yollarında didərgin düşmüş səsini bir ahəng düzümündə toplamaq, onun sözlərini, yazılarını axtarıb tapmaq, toplamaq, dünya poetik fikrinin bu cəsarətli, dönməz nəğmələrini bilməyənlərə eşitdirmək, tanımayanlara tanıtmaq müqəddəs vəzifəmizdir. Suriyaya – Hələbə, Türkiyəyə, İrana, güman gələn hər yerə adamlar göndərib Nəsimi irsini təmkin və inadla axtarıb tapmaq, toplamaq gərəkdir. Vaxt gələcək, həqiqət yolunda, fikir azadlığı yolunda qurban getmiş böyük Azərbaycan şairi Nəsiminin tunc heykəli yüksələcəkdir. Bu heykəlin qarşısında qoyulacaq ən dəyərli hədiyyə onun ana dilində və onlarca başqa dildə nəşr edilmiş tam toplu əsərləri olacaqdır. Böyük bayrama bu gündən hazırlaşaq.

1969

BÖYÜK ŞAİR HAQQINDA QEYDLƏR

Nəsimi haqqında çox yazılmış, daha çox yazılacaqdır. Onun fəlsəfi yönü, şeirlərindəki ifadələr yeni tədqiqat, axtarış, tapıntılarla çözüldükcə, şairin əzəmətli heykəli təxminlər, şübhələr, münaqişələr toranından çıxaraq, daha aydın, daha maraqlı, daha canlı görünəcəkdir.

Bütün cəsarəti, acı taleyi, üsyanlı fikri, böyük həqiqəti ilə yüzillərin uzaq-uzaqlığında qalmış böyük şairimizin həyatı, mübarizəsi, inam və tərəddüdü etiqad bağlarını duymaq, açmaq, anlamaq, şərh etmək üçün ən etibarlı qaynaq onun əsərləri, yenə də əsərləridir. Dövrünün ən bilikli adamlarından olan Nəsiminin üç dildə – azərbaycanca, fars və ərəbcə yazdığı əsərlərin hələ bu vaxta qədər bir topluda nəşr edilmədiyi nəsimişünaslığımızın böyük qüsuru sayılmalıdır. Nəsimi əsərlərini nəşr etmək, onun yaradıcılığını tədqiq etmək, şairin fəlsəfi inam və etiqadının elmi təhlili ilə məşğul olmaq yolunda müəyyən iş görülmüşdür. Xatirəsi xalqımız üçün əziz olan, klassik ədəbi irsimizin nadir xəzinədarı Salman Mümtazın "Kommunist" qəzeti nəşriyyatında çap etdirdiyi "Seyid İmadəddin Nəsimi" adlı azərbaycanca, farsca şeirlər toplusu Nəsimini Azərbaycanda oxuculara tanıtmaqda ilk qiymətli addım idi. Klassiklərimizin yaradıcılığı üzərində uzun illər səmərəli tədqiqat aparmış akademik H.Araslı, görkəmli alim Ə.Seyidzadə, filoloji elmlər doktoru M.Quluzadə və başqalarının Nəsimiyə, onun poeziyasına, fəlsəfi görüşünə həsr edilmiş məqalə və kitabları ədəbiyyatşünaslığımızda gərəkli səhifələr kimi, Nəsimi irsinin təhlil-tədqiq və təbliğində mühüm təşəbbüslərdir. Lakin bu da bir həqiqətdir ki, Nəsimi yaradıcılığının tarixi-ədəbi, fəlsəfi-elmi dəyəri, onun Azərbaycan poeziyasındakı mövqeyi, Nəsimi yaradıcılığına bağlı problemlərin hərtərəfli öyrənilməsi, aydınlaşdırılması üçün hələ görülməli çox iş, deyilməli çox söz, açılmalı çox düyün, yazılmalı çox səhifə vardır.

Bu vaxta qədər Nəsimi yaradıcılığının bir hissəsi respublikamızda nəşr olunmuşdur. Onun azərbaycanca yazdığı şeirlərin təxminən üçdə ikisi, farsca şeirlərinin üçdə biri oxucularımıza məlumdur. Şairin ərəbcə yazdığı əsərlərindən isə bugünkü oxucularımız, demək olar ki, xəbərsizdirlər.

Nəsiminin Azərbaycanda istər azərbaycanca, istər farsca nəşr olunmuş şeirlərində (həm Mümtazın nəşr etdirdiyi topluda, həm də

1962-ci ildə "Uşaqgəncnəşr"in buraxdığı "Seçilmiş əsərləri" kitabında) səhv və nöqsanlar vardır. Bu səhvləri şərti olaraq iki yerə bölmək olar: tədqiqə, sübuta ehtiyacı olanlar və mübahisəsizlər. Mənim mübahisəsiz dediyim yanlışlar şerin bədii məntiqi ilə uyuşmayan ayrı-ayrı ifadələr və bəzən də açıq-aşkar görünən mətbəə və katib xətalarıdır. Təəssüf ki, belə səhv və yanlışlar ədəbiyyatşünaslıq elmimizin diqqətini, demək olar ki, cəlb etməmiş, bu təhriflərə düzəliş verilməmiş, beləliklə, onlar uzun illərdən bəri sinsiyib qalmış, bir növ "sənəd hüququ" qazanmışdır.

Hətta bəzi hallarda Nəsimi şeirlərinin təkrar çapında yeni nəşrin təşəbbüsçüləri belə şeirləri mexaniki, təkrar çap etməklə yanlışları, səhvləri "qanuniləşdirmişlər".

Mən bu yaxınlarda qədim bir əlyazması əldə etdim. Onu hicri 971-ci il, cəmadiyəlaxir ayının 10-da (miladi 1564-cü ilin yanvarında) yazıb bitirmiş katib, Nəsimini "danışanların ən mahiri, bilik sahibləri və həqiqət axtaranların öndə gedəni" adlandırır.

Əlyazması divanında Nəsiminin 9000 sətirdən artıq qəzəl, qəsidə və rübaisi var. Müqayisə zamanı, hələlik gözümə dəyən fərqlərdən biri əlyazmasında bir sıra kəlmə və ifadələrin osmanlı türkcəsinə deyil, azərbaycancaya daha uyğun olmasıdır. Məsələn, Nəsimi çox yerdə **bən yox, mən; şimdi yox, imdi; kiprik yox, kirpik; iləri yox, irəli** və s. yazır.

Dil baxımından Nəsimi şeirləri ilə ilk tanışlıq onun lüğətinin bu gün belə işlətdiyimiz sadə Azərbaycan sözləri ilə zəngin olduğunu göstərir: **kəsək, adaş, yaşınmaq, ala, ummaq, iraq, uğurlu, azər, buğda, başa qaxmaq, başaqçı, tuş gəlmək, davar, irişmək, üzərrik** və bu kimi. Həm də bu sözlərin deyimi bugünkü dilimizdə işləndiyi kimidir.

Maraqlıdır ki, bəzi sözləri Nəsimi klassik ənənəyə deyil, xalq deyiminə yaxın formada işlədir. Əruz vəzninin müəyyən bəhrilə yazılmış bəzi şeirlər Nəsiminin çox yerdə yar sözünü uzatmadan, xalqda deyildiyi kimi işlətdiyini aydın göstərir.

Yuxarıda haqqında yazdığım yanlış, səhv işlənmiş sözlərə bir neçə misal: S.Mümtazın "Nəsimi"sində "Dəryayi-mühit cuşə gəldi" misrası ilə başlayan məşhur məsnəvisində belə sətir var: "Hər zərrədə **günəş** oldu zahir". Mənim əsaslandığım əlyazmasında bu sətir belədir: "Hər zərrə **günəşdən** oldu zahir". Vəznin tələbinə görə, birinci variantda günəş sözü "günəş" kimi yazılaraq, uzadılmış oxunmalıdır.

İkincidə isə oxunuş daha səlis və təbiidir. Bu formal cəhətdən başqa, mənasına görə də ikinci variant daha məntiqi və dolğun mənalıdır. Nəsimiyə xas olan vəhdəti-vücud fəlsəfəsinə daha uyğundur.

Yenə orada "**Bəhr** oldu şu kim, bu bəhrə daldı" (S.M.) sətri yanlışdır. Əslində isə "**Məhv** oldu şu kim, bu bəhrə daldı" (əlyazması) şəklindədir ki, bunun bədii, fəlsəfi məntiqi aydın-aşkardır.

Belə misallar, təəssüf ki, çoxdur. Daha artıq təəssüf ediləcək məsələ budur ki, Nəsiminin şeirlərindən təkrar çap edilmiş bəzilərində əvvəlki nəşrin nöqsan və səhvləri təkrar olunur. Məsələn: Nəsiminin "Gözümdən dəmbədəm axan, qəmindən su deyil, qandır misrası ilə başlayan qəzəli S.Mümtazın nəşrində xeyli səhvlərlə getmişdi. 22 sətirlik qəzəldə ona qədər səhv var. Bu qəzəl eynilə 1962-ci ildə nəşr edilmiş "Nəsimi" kitabında da təkrar olunmuşdur. Qəzəldə mənim səhv hesab etdiyim bəzi söz, ya cümlələr haqqında bəlkə də mübahisə etmək olar. Olsun ki, həm birinci, həm də ikinci kitabı tərtib edən hörmətli alimlərimizin əlində lazımınca material yox imiş. Ancaq klassiklərimizin, yalnız klassiklər deyil, hər bir bədii əsərin təkrar çapında mətn diqqətlə yoxlanmalı, tutuşdurulmalı, şübhə doğuran yerlərə ayrıca qeyd verilməlidir. Tədqiqatçı əlindəki bu və ya başqa kitabın yazı nüsxəsini mexaniki qəbul etməməlidir. Bədii məntiq, sənətkarın yaradıcılığına xas olan şakər, onun dil xüsusiyyətləri, vəzn və qafiyə səliqəsi, bir sözlə, müxtəlif komponentlər nəzərə alınmalı, heç olmazsa, bir təxmin, bir ehtimal olaraq "**belə olmalıdır**", ya "**belə ola bilər**" kimi izahlar verilməlidir.

Bununla belə, bəzi şübhəsiz şeylər də vardır.

Aydındır ki, Nəsimi kimi sənətkar "Könül hicrindən usandı, məni hicrindən usandır" kimi məntiqdən uzaq bir misra yaza bilməzdi. Lakin təəssüf ki, hər iki nəşrdə bu misra belə verilmişdir.

Məndə olan əlyazmasında isə "Könül hicrandan uzandı, məni gəl vəsl ilə qandır" yazılıb. Hicrandan yorulmuş aşiqin vəsl ilə təselli tapmaq istəməsi təbiidir və şerin bütöv bədii məntiqinə uyğundur.

Başqa bir misal. Haqqında söhbət gedən qəzəlin iki nəşrində bir beyt belə verilmişdir:

Gəl ey hurisifət dilbər, qəmindən bağrımın içi
Dürüst ol qönçəyə *bənzər ki, ağzı dopdolu qandır.*

Əlyazmasında isə bu beyt belədir:

Gəl ey hurisifət dilbər, qəmindən **bağrımı gör kim,**
Yumulmuş qönçəyə *bənzər ki, ağzı dopdolu qandır.*

Yumulmuş qönçəni təsəvvür edin, onun başında (ağzında) görünən gül yarpaqlarının qan rəngini gözlərinizin qarşısına gətirin! Burda obrazın tamamlığı və dəqiqliyi beytin təsir qüvvəsini qat-qat artırır. Burda məhz yumulmuş qönçə təşbehi yerindədir, poetik bir rəngdir. "Dürüst ol qönçəyə bənzər..." ifadəsi isə qurudur, hərarətsiz, rəngsizdir. Nəsimiyə yaraşmır. Doğrudur, bu məsələlər lazımi tədqiqat tələb edir, burda zövqi mülahizə yeganə və əsas ola bilməz. Lakin böyük sənətkarın ədəbi irsi bizdən daha artıq diqqət, məsuliyyət və estetik təfəkkür tələb edir.

Hər iki nəşrdə həmin qəzəlin:

Ənəllahın odundan ki, yanağın şəmi yandırdı,
Ləbi-ləlindən afaqi-həyatın abina qandır.

beytində fikir aydınlığı yoxdur. Burda həm də qrammatik uyuşmazlıq vardır. Əgər bu beyti bəhs etdiyim əlyazmasındakı kimi oxusaq, həm məna məntiqi, həm də qrammatik uyğunluq düzəlmiş olur. Beyt əlyazmasında belədir:

Ənəllahın odun çünküm yanağın şövqi yandırdı,
Ləbi-ləlindən afaqi-həyatın abina qandır.

Başqa sözlə desək, sənin yanağının şövqi ənəllah odunu yandırmışdır. Dodaqlarının ləindən həyatın üfüqlərini doydur.

Yenə də həmin qəzəldə bir beyt:

Rüxün şəmi fərqindən könül pərvanətək yanır,
Bədəl qıl vəslə hicranı, həsudin ürəyin yandır.

şəklində hər iki nəşrdə çap olunmuşdur. Əlyazmasında isə belədir:

Rüxün şəmi fəraqindən könül pərvanətək **yandı,**
Ulaş vəslinə *hicranda həsudin* **bağrını** *yandır.*

Birinci halda **yandı** sözü əvəzinə **yanır** yazılmışdır. Bu da vəznə görə sözün uzanmasına, qeyri-təbii tələffüzünə səbəb olur. Sənətkarlığa nöqsan gəlir. Eyni söz **bağrını** əvəzinə **ürəyin yandır** dedikdə, həm sözün süni uzanması, həm də təhrifi göz qabağındadır. Əlyazmasındakı "Ulaş vəslilə..." nə qədər təbii, nə qədər orijinal və Nəsimi poeziyasına uyğundur! Bu, vəslə çatmaq, yetmək ulaşmaqla həsəd aparanın bağrını yandır deyən şairin sözündə nə qədər təbiilik, sığal, məna aydınlığı var. Bu misalla mən hörmətli alimlərimizin zəhmətinə xor baxmaq fikrində deyiləm. Mən inanıram ki, vaxtı ilə onların imkan dairəsi daha dəqiq yoxlamaq üçün bəs deyilmiş. Lakin klassiklərimizin, o sırada Nəsimi irsinin gələcək araşdırmalarında belə nöqsanlara yol verilməsə, yaxşıdır.

Nəsimi əbədi irsinin ciddi, elmi araşdırmaları bu günün sabaha qoyulmamalı işidir. London, Paris, İstanbul, Ankara, Konya şəhərlərinin, ADR, İran, Hindistan, Pakistan, Əfqanıstan və bir sıra başqa ölkələrin muzeylərində Azərbaycan şair və alimlərinin hələ tədqiq olunmamış çoxlu kitab, əlyazması vardır. Bunlardan az bir hissəsinin mikrofilmləri, fotosurətləri Azərbaycanda var. Çoxu isə hələ doğma torpağa yol gözləyir.

Bu yaxında SSRİ Yazıçılar İttifaqının nümayəndə heyəti sifəti ilə Türkiyədə olduğumuz zaman Konya şəhərinə də getmişdik. Orda İzzət Qoyunoğlu deyilən bir adam 45-50 il müddətində dişi ilə, dırnağı ilə topladığı nadir eksponatlardan zəngin şəxsi muzey düzəltmişdir. Bunu deyim ki, muzeydə nadir əlyazmaları içində Füzulinin şəkilli qədim bir əlyazması, divanı, Nəsiminin azərbaycanca-farsca əlyazma divanı, bir sıra Azərbaycan rəssamının çəkdiyi şəkil, Azərbaycana aid müxtəlif sikkə və başqa eksponatlar da vardı.

Vaxt deyilmi ki, neçə-neçə əvəzsiz səhifələri, qayıtmaz, məhv olmuş mədəniyyət, ədəbiyyat irsimizi bu gün, bütün imkanımız, səyimiz, fədakarlığımızla toplayaraq, əsərləri nəşr edək, maddi-mədəniyyət nümunələrini xalqın xeyrinə, faydasına verək?!

Klassiklərimizin nəşrində ciddi bir problemin də həlli bu günümüzün məsələsidir.

Məlumdur ki, indi işlətdiyimiz əlifba ilə klassiklərimizi nəşr edəndə qarşıya ciddi problemlər çıxır ki, bunların üstündən keçmək, bunları nəzərə almamaq mümkün deyildir. Hamıya məlumdur ki, Azərbaycan ədəbiyyatı klassikləri, yalnız klassiklər deyil, demək olar ki, yazıçılarımızın böyük əksəriyyəti əsərlərində başqa xalqlardan, xüsusilə, ərəblərdən, farslardan gəlmə sözlər işlətmişlər. Vaxta görə bizdən uzaq olan şair, alim və yazıçılarımız ərəb-fars sözlərini çox işlədib, onların semantik çalarlarından bacarıqla istifadə etmişlər. Bu sözlərin ərəb əlifbası ilə yazılışına görə mənaları çox zaman bir-birindən fərqli olur. Bu fərq ayrı-ayrı halda cümlə tərkibinin mənasını tamam başqalaşdırır. Ərəb əlifbası ilə yazılan sözlərin hansı "d", hansı "n", hansı "s", hansı "t" ilə yazıldığı bu sözlərin bir-birindən fərqli məna verməsinə səbəb olur. Belə şəri, ya başqa əsəri müasir əlifbamızla yazdıqda məna fərqi itir. Belə nəşr əsasında elmi-tədqiqat aparmaq istəyən adam ərəb əlifbasını bilmirsə, ciddi çətinliklərə rast gələcək. Məncə, müasir əlifbamızın söz mənası çalarlarını verə bilmədiyini nəzərə alaraq və ümumiyyətlə, elmi-tədqiqat işində dəqiqliyi təmin etmək üçün elmi-transkripsiya yaradılması lazımdır. Bunun üçün bir uyğun elmi ocaqda xüsusi komitə və ya heyət düzəlməli və dilimizin, ədəbi-elmi irsimizin tarixi təcrübəsi əsasında əlifbamıza müəyyən işarələr əlavə etmək yolu ilə, ya daha başqa münasib bir yol ilə elmi transkripsiya düzəlməli, onun layihəsi geniş müzakirədən sonra qəbul edilməlidir.

Belə transkripsiyadan yalnız sözün məna fərqlərini ayırd etmək üçün deyil, həm də uzadılan və qısa saitləri düzgün oxuya bilmək üçün məktəb dərsliklərində istifadə etmək olar.

Hazırda istifadə olunan dialektoloji transkripsiya kamil deyil və ümumi elmi transkripsiyanı əvəz edə bilməz.

1969

İFTİXARIMIZ

Əgər divarlar dil açıb danışa bilsəydi, qədim Nuxanın (indiki Şəki) dar dalanlarından birində, səkisi yerdən beş qarış hündür evin divarları nələr danışmazdı. Gənclik həvəsi, qırılan ümidlər, yanan bir qəlbin sonsuz iztirabı – qanadlı gəncliyin mürəkkəb yollar, təzadlar, anlaşılmaz müəmmalarla dolu dünyası. Bu dünyanın qaranlıq döngələri, işıqlı cığırları...

Əgər torpaq xatirələrini söyləyə bilsəydi, qədim Gəncənin iztirablı torpağı, bu gün bir xalqın iftixarı olmuş, o zamankı gəncin tərəd-

düdlü addımlarından, onun həyat yolundan, kimsənin gedib xəbər gətirmədiyi qorxu və nigaranlıq dolu müəmmalı gələcək ayrıcılarından, Allah yolu, din, möminlik, mütilik yolunun, Allaha, dinə möminlik və mütiliyə qarşı qəzəbli üsyan yoluna çevrildiyindən, insan cəsarətinin misilsiz gözəlliyindən, insan təfəkkürünün igidliyindən, insan gözlərinin günlər, illər arxasından gələcəyi görə bilmək qüdrətindən nələr, nələr danışmazdı.

Əgər yolların yaddaşı olsaydı, dəfələrlə əməlləri, ümidləri bir ilğıma dönmüş iztirablı Haminə – Təbriz yolları, Arazaltı – Azərbaycan yolları dərdi, ana həsrəti ilə qovrulan qəlbin yanıqlı hekayətlərindən, tozlar üstündə çopur-çopur naxış salan göz yaşlarının dilsiz fəryadlarından nələr, nələr saxlamış olmazdı.

Əgər hava səs dalğalarını olduğu kimi saxlaya bilsəydi, zaman keçmiş günlərin səhifələrini geri qaytarıb sözlərin, gülüşlərin, hıçqırıqların, tənələrin, fəryad və yalvarışların, nifrət və məhəbbətin insan taleyində buraxdığı izləri, sevinc və kədəri bu gün gözlərimizdə, qulaqlarımızda canlandıra bilsəydi, bu aləm içində biz ölməz vətəndaşımız M.F.Axundzadənin döyünən qəlbinin həyəcanını duyar, gözlərinin həsrətini görər, doğma xalqının yaxşı günlərinə bağladığı ümid və arzuların ağrısını daha yaxından duyardıq. Biz onun qəhrəmanlıq epopeyasını görüb, iftixar hissi ilə bu kişilər kişisi, bizim babamızdır, – deyərdik.

Qəhrəmanlıq. Məgər din və xurafatın, istibdad və milli hüquqsuzluğun rəsmi dövlət qanunu ilə əsaslandığı, dövlət quruluşuna sədaqət sayıldığı bir dövrdə hər cür din və xurafata qarşı amansız mübarizə bayrağı qaldırıb, insan zəkasının öldürücü qüdrəti ilə şahları, despotları, ruhaniləri qamçılamaq, o zaman məzlumları inqilab etməyə çağırmaq kişilik, tarixi cəsarət, böyük qəlbin, dərin ağlın ən parlaq təzahürü deyildimi?

Bəzən əllaməlik göstərərək, M.F.Axundzadənin guya çar üsuli-idarəsinə müəyyən güzəştə getdiyini söyləyənlər olur. Belə adamlarda nadanlığın, ya riyakarlığın daha artıq olduğunu söyləmək çətindir. Ancaq ən xeyirxah məqsədlə deyilmiş olsa belə, bu adamların zaman və məkan məfhumundan xəbərsiz olduqları aydındır. Mirzə Fətəlinin böyüklüyü orasındadır ki, o, sözün ən geniş mənasında bir novator idi. O, Azərbaycanda, Yaxın Şərqdə yeni bir ədəbi janrın əsasını qoydu – dramaturgiyanın klassik nümunələrini yaratdı. Müasir nəsrimizin dərin

ictimai məzmuna malik örnəyini – "Aldanmış kəvakib"i verdi. Bu povestin ədəbi-bədii dəyərindən başqa, prinsipial əhəmiyyəti burasındadır ki, Mirzə Fətəli bu əsərində əsrinin ictimai fikir səviyyəsindən irəli gedib, cəmiyyətin ictimai quruluşunu dəyişmək haqqında yeni söz dedi.

Mirzə Fətəlinin ictimai görüşlərində materialist müddəaların çox güclü olduğu məlumdur. "Aldanmış kəvakib" povestində o, yalnız materiyanın deyil, ictimai hadisələrin də izahında fransız materialistlərindən irəli getdi.

Bu əsərin bədii vasitələrlə təsdiq etdiyi həqiqət budur ki, yuxarıdan reforma vasitəsilə cəmiyyət quruluşunu dəyişmək olmaz, xalq kütlələrinə yaxşı güzəran düzəltmək olmaz, bunun üçün lazımi tarixi şəraitin mövcud olması zəruridir. Burada Mirzə Fətəli artıq metafizika çərçivəsindən çıxmış və prinsipial yeni pilləyə yüksəlmişdir.

Böyük insan qəlbinin möcüzəli qüdrəti var. İllərin isti-soyuğundan keçib gələn gözəl arzular və ümidlərlə dolu böyük bir qəlbin – Azərbaycan torpağının ölməz, qəhrəman oğlu Mirzə Fətəlinin nəcib, humanist, bütün xalqlara, yaxşı insanlara məhəbbətlə dolu olan qəlbinin döyüntüsünü bu günümüzdə, onun yeni dünya quran vətəndaşlarının qəlb döyüntülərində duyur, eşidirik. Bu ürəklər nəsil-nəsil, əsr-əsr döyündükcə Mirzə Fətəli yaşayacaq, gözəl gələcəyə doğru irəliləyəcəkdir.

YENİ AZƏRBAYCAN ƏDƏBİYYATININ BANİSİ

Mirzə Fətəli Axundzadənin adı Azərbaycan ədəbiyyatı tarixində xüsusi mövqe tutur. Azərbaycan xalqının poetik yaradıcılığı minillik tarixə malik olsa da, Mirzə Fətəli Axundzadəyədək bədii nəsr və dramaturgiya sahəsində azəri dilində az-çox sanballı əsərimiz yox idi.

Görkəmli Azərbaycan yazıçısı, materialist mütəfəkkir, maarifpərvər və demokrat M.F.Axundzadə yeni realist Azərbaycan ədəbiyyatının – təkcə məzmun və ideyalarının zənginliyi ilə deyil, həm də geniş oxucu təbəqələrinin yaxşı və asan başa düşdüyü janrların rəngarəngliyi ilə fərqlənən ədəbiyyatın bünövrəsini qoymuşdur.

Axundzadənin atası Məhəmmədtağı Cənubi Azərbaycanın Xamnə kəndindəndir. 1811-ci ildə o, Zaqafqaziyaya köçməyə məcbur olur və

Nuxa (indiki Şəki) şəhərində məskən salır. Məhəmmədtağı Nuxada yerli axund Ələsgərin qardaşı qızı ilə evlənir. 1812-ci ildə onların oğlu olur; adını Fətəli qoyurlar.

Hələ uşaq yaşlarında Fətəli geri qalmış müsəlmanların necə acınacaqlı həyat sürdüklərinin şahidi olmuşdur. Tezliklə o, atasından ayrı düşür. Axund Ələsgər Fətəlini və anasını öz himayəsi altına alır.

Möhkəm iradəli bir oğlan olan Fətəli, hələ uşaqlıq çağlarından hər şeylə maraqlanırdı. Gənc yaşlarında şərq dillərini öyrənmişdi, məntiqdən, hüquq elmindən xəbərdar idi. O, 1832-ci ildə Azərbaycanın ən böyük şəhərlərindən sayılan Gəncədə məşhur Azərbaycan şairi Mirzə Şəfi ilə tanış olur və ondan hüsnxətt öyrənir. Mirzə Şəfi ilə tanışlıq M.F.Axundzadənin mənəvi inkişafında böyük rol oynamışdır. Mirzə Şəfinin təsiri altında M.F.Axundzadə ruhani olmaq fikrindən əl çəkmiş, səylə biliklərə yiyələnməyə və rus dilini öyrənməyə başlamışdı. Həyatda müstəqil fəaliyyət üçün özünü tamamilə hazırlıqlı hiss edən gənc Fətəlini o zamankı kiçik əyalət şəhəri Nuxa qane etmirdi.

1834-cü ildə M.F.Axundzadə Tiflisə köçərək, Qafqaz canişinliyinin baş idarəsində şərq dilləri mütərcimi vəzifəsində işləməyə başlayır.

Rus dilini mükəmməl öyrənib bilməsi sayəsində M.F.Axundzadə öz dövrünün qabaqcıl və savadlı adamlarından sayılırdı.

Tiflisdə M.F.Axundzadə dekabristlərdən A.Bestujev-Marlinski, A.Odoyevski ilə, Polşa şairi L.Zablotski və başqaları ilə dostlaşır.

O zamankı Rusiyanın qabaqcıl adamları ilə bu ünsiyyət M.F.Axundzadənin mənəvi aləminə böyük təsir göstərdi. O, klassik və müasir rus ədəbiyyatını, Qərbi Avropa ədəbiyyatını öyrəndi. M.F.Axundzadə Derjavinin, Karamzinin, Puşkinin əsərlərinə bələd idi.

1837-ci ildə A.S.Puşkin öldürüldükdə M.F.Axundzadə böyük rus şairinin faciəli ölümündən mütəəssir olaraq, "A.S.Puşkinin ölümünə" adlı əsərini yazdı. Bu əsər o zamankı Rusiyanın demokratik dairələri ilə müəllifin ideyaca bağlı olduğunu sübut edir. O zaman "Moskovski nablyudatel" jurnalında dərc olunmuş "Şərq poeması"nda Axundzadə A.S.Puşkinin ölümünə yas saxlayır. Axundzadə yazır:

"Onu əcəl oxuna nişan qoyub da,
Varlığını eylədi ölüm tarmar".
"Ey qatillər əlilə ölən namidar,

Qurtulmadın zamanın qanlı şərrindən".
"Zülm qara buludlardan dolu yağdırıb,
Tökdü ömür barını, etdi xakisar".

M.F.Axundzadənin bu poeması Lermontovun məşhur "Şairin ölümünə" şeri ilə səsləşir.

Rusiyanın qabaqcıl adamları ilə təmas, M.F.Axundzadənin ictimai-siyasi və estetik baxışlarının təşəkkülündə böyük rol oynamış, o, despotizmə, feodal əsarətinə, fanatizmə və nadanlığa qarşı fəal mübarizə aparmışdır.

Yaşadığı dövrün tənqidində M.F.Axundzadə ədəbiyyat və incəsənətə böyük əhəmiyyət verirdi. Ədəbiyyatın yeni məzmunu uğrunda mübarizə M.F.Axundzadə üçün mahiyyət etibarilə yeni demokratik janrlar uğrunda mübarizə demək idi. Axundzadə yazırdı: "Gülüstan" və "Zinətül-məclis" dövrü keçmişdir. Bu gün bu cür əsərlər millətin işinə yaramır. Bu gün millət üçün faydalı və oxucuların zövqləri üçün rəğbətli olan əsər – dram və romandır".

M.F.Axundzadə Azərbaycan dramaturgiyasının banisidir. Dramı "sənətlərin ən şərəflisi" hesab edən M.F.Axundzadə başa düşürdü ki, patriarxal-feodal münasibətlərin hökm sürdüyü geri qalmış ölkədə səhnə sənəti xalq ilə ünsiyyət üçün ən qısa və doğru yoldur.

Azərbaycanda "əyalətlərin idarə üsullarını öyrənmək", "ali silkin hüququnu tədqiq və müəyyən etmək üçün" çar hökumətinin yaratdığı müxtəlif komissiyalarda iştirak edən M.F.Axundzadə xalqın həyatı, məişəti, arzu və düşüncələri haqqında zəngin faktiki material toplamışdı. M.F.Axundzadə öz müşahidələri zamanı nadan və qolugüclü ruhanilərin, ağaların, xanların, hakimlərin, dərvişlərin, cadugərlərin və başqalarının bütün fırıldaqlarına bələd olmuşdu.

M.F.Axundzadə öz xalqına mədəniyyət və maarif yolu ilə irəliləmək imkanı verməyən bütün ictimai bəlalara qarşı mübarizə aparmağı möhkəm qərara aldı; çünki maarifpərvər və demokrat olan M.F.Axundzadə xalqın xoşbəxtlik yolunu tərəqqidə, mədəniyyətdə görürdü. Bir sıra hallarda o, daha irəli gedərək, cəmiyyətin simasını ictimai islahatlar yolu ilə dəyişdirmək zərurətindən danışır və bu islahatda geniş xalq kütlələrinin böyük rolunu qeyd edirdi. O öz demokratik idealları uğrunda mübarizə aparırdı. Bu mübarizənin formalarından biri də bədii yaradıcılıq idi.

Dərin həyat həqiqəti, xalqın həyatında səciyyəvi olan cəhətləri təsadüfi, keçici hallarda seçmək bacarığı, son dərəcə sadəlik – bütün bu keyfiyyətlər M.F.Axundzadə əsərlərinə həqiqətən əbədi şöhrət qazandırdı.

Şərq ədəbiyyatının sarsılmaz ehkamlarına, gözəlliyin "dəyişməz" ideallarının son dərəcə şərti, mücərrəd-romantik ruhda tərənnüm edilməsinə zidd çıxan M.F.Axundzadə qətiyyətlə realizm yolunu tutdu. Həyat həqiqəti nə qədər dəhşətli və acı olsa da, Mirzə Fətəli geri çəkilmədi. O, feodal-patriarxal cəmiyyətinin ətalətini, eybəcərliyini, nadanlığını, dəhşətli nöqsanlarını bütün çılpaqlığı ilə ifşa edirdi.

M.F.Axundzadə xalq həyatını yaxından duyurdu. Xalqa yaxından bələd olan, onu dərin məhəbbətlə sevən Mirzə Fətəli xalqı zahiri səciyyəvi əlamətlərinə görə yox, onun tarixi yolunu, mütərəqqi səylərini aydın başa düşərək, təsvir edirdi. Mirzə Fətəli yazıçının xəlqiliyini "heç də təkcə yerli təbiətin gözəlliyini təsvir etməyi bacarmaq, xalqdan eşidilən sərrast ifadəni işlətmək, ayinləri, adətləri doğru-düzgün vermək" kimi başa düşmürdü. Mirzə Fətəli bilirdi ki, "əsil xalq şairi olmaq üçün xalq ruhuna daha dərindən nüfuz etmək, onun həyatı ilə yaşamaq, xalqla ayaqlaşmaq, zümrələrə məxsus zehniyyəti, kitab nəsihətini bir kənara atmaq... Hər şeyi xalqın sadə hissləri ilə duymaq lazımdır" (N.A.Dobrolyubov).

M.F.Axundzadə qısa müddətdə (1850-1855-ci illər) altı komediya: "Molla İbrahimxəlil kimyagər", "Müsyö Jordan və dərviş Məstəli şah", "Vəziri-xani Lənkəran", "Xırs-quldurbasan", "Sərgüzəşti-mərdi-xəsis" və "Mürafiə vəkilləri" komediyalarını yazmışdır. Bu komediyalarda, Mirzə Fətəli XIX əsrin 30-40-cı illərindəki Azərbaycan həyatını təsvir edir, feodal cəmiyyətinin nöqsanlarını, hakimlərin özbaşınalığını, ruhanilərin ikiüzlülüyünü, patriarxal həyatın ətalət və durğunluğunu amansız tənqid atəşinə tutur.

Mirzə Fətəli ilk komediyalarında – "Molla İbrahimxəlil kimyagər" komediyasında namuslu əməklə məşğul olmaq əvəzinə, müştəriləri aldadan, onlara keyfiyyətsiz mal satan zərgər Hacı Kərimin, bir qəbiristanlıq adam qıran yalançı həkim Ağa Zamanın, həyasız və nadan molla Salmanın, fitnə-fəsadçı və avara Səfər bəyin simasında öz dövrünün tüfeyli ünsürlərini ifşa edir.

Asan yolla pul qazanmaq həvəsi ilə yaşayan, namuslu əməyə həqarətlə baxan bu yalançı adamlar daha mahir fırıldaqçı molla İbrahimxəlilin qurbanı olurlar.

Mirzə Fətəli Axundzadə öz dövrünün tamahkar və nadan adamlarını ifşa edərək, şair Hacı Nurunu onlara qarşı qoyur. Hacı Nuru insanın əməyini, sənətini, onun xoş güzəranının mənbəyi hesab edir. Pyesin digər surətləri ilə Hacı Nurunun söhbətindən öyrənirik ki, Hacı Kərim, Ağa Zaman kimi həmvətənlərini və başqalarını doğru yola, namuslu əmək yoluna, maarif yoluna çəkmək üçün Hacı Nuru uzun müddət inadla səy göstərmiş, lakin onun bu səyləri heç bir nəticə verməmişdir. Adını həkim qoyan Ağa Zaman "rus həkiminin yanına gedib, barı qızdırma davasını ondan" öyrənmir.

M.F.Axundzadə "Molla İbrahimxəlil kimyagər" komediyasında dərin mənalı ictimai məsələ qaldırır, göstərir ki, əmək, sənət cəmiyyətin bütün mənəvi və maddi nemətlərinin mənbəyidir. Namuslu əməkdən qaçan adamlar nəcib hisslərdən məhrum, əllərindən hər cür nalayiq hərəkətlər gələn tüfeylilərdir. Mirzə Fətəli göstərmişdir ki, belə adamlar üçün vətənin taleyi, xalqın taleyi bir qara qəpiyə dəyməz. Onların fikri-zikri asan yolla qazanc əldə etməkdir. Pul ehtirasının kor etdiyi bu adamlar çox asanlıqla fırıldaqçı Molla İbrahimxəlilin toruna düşürlər.

Bu ilk pyesində M.F.Axundzadə dramaturqdan daha çox novellaçıdır. Təkcə Molla İbrahimxəlil istisna olmaqla, bu komediyada bitkin və dolğun xarakterlər yoxdur. Belə xarakterlərlə biz Mirzə Fətəlinin sonrakı pyeslərində, xüsusilə, "Sərgüzəşti-mərdi- xəsis" və "Mürafiə vəkilləri" komediyalarında qarşılaşırıq...

İkinci pyesində – "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasında M.F.Axundzadə həqiqi alim Müsyö Jordanı guya təbiətin sirlərinə bələd olan yalançı "alim", fırıldaqçı İbrahimxəlilə qarşı qoyur.

"Müsyö Jordan" pyesində Mirzə Fətəlinin ilk dəfə yaratdığı qadın obrazları inkişafın yolunu kəsən bir əngəldir. Həyat həqiqətinə sadiq qalan M.F.Axundzadə göstərir ki, sağlam düşüncəyə və adi məntiqə zidd olaraq, cahil və nadan Şəhrəbanu xanım və Şərəfnisə xanım qələbə çalırlar. Bu dərin mənalı komizm əsərin əsasını təşkil edir. Müəllifin sonralar yazdığı "Aldanmış kəvakib" hekayəsində iranlılar ulduzları aldatdıqlarına inanırlar. "Müsyö Jordan" komediyasında da qadınlar lovğalanırlar ki, onlar Məstəli şahın cadusunun gücünə Müsyö Jordanın kələklərini pozmuş və Şahbazı "xilas etmişlər".

M.F.Axundzadə göstərir ki, bu qadınlar, xüsusilə, Şərəfnisə son dərəcə geridə qalmış və nadan olsalar da, kinli və müzür adam deyillər.

Bu qadınlar heç kəsə yamanlıq etmək istəmirlər, təki onların xoşbəxtliyinə əl uzadan olmasın. Cadugər Məstəli şahın cin-şəyatinlərə hər cür əmrlər verdiyinə və onların buyruğu ilə, Müsyö Jordanın məhv ediləcəyinə inanan bu qadınlar – "indiyədək onlara heç bir pislik etməmiş" alimi "bağışlayırlar". Onlar bütün acıqlarını "kişilərin məclisində açıq əyləşən, Şahbaz bəyin ağlını başından çıxaran Paris qadınlarının" üstünə tökürlər. M.F.Axundzadənin bu komediyada ilk dəfə yaratdığı qadınlar iradəli, zirək və qətiyyətlidirlər. Onlar Azərbaycan ədəbiyyatında həyati, real, yeni surətlər idilər.

Güclü xarakterə malik bu qadınların əksinə olaraq, ailənin başçısı Hətəmxan ağanı müəllif iradəsiz, mütərəddid şəxs kimi təsvir etmişdir.

Bu yolla müəllif, Hətəmxan ağanın nadanlığı haqqında tam təsəvvür yaratmaqla, öz dövrünün köçəri əyanlarının həyat tərzini gözlərimiz önündə canlandırır.

Qəribədir ki, maarif və elm haqqında Müsyö Jordanın dediklərindən bir şey anlamayan Hətəmxan ağa, Müsyö Jordan bu işin mənfəətli olduğundan danışdıqda Şahbaz bəyin getməsinə icazə verir. Hətəmxan ağa və onun kimilər üçün insanın ləyaqəti var-dövlət ilə ölçülür.

"Xırs-quldurbasan" komediyasında M.F.Axundzadə ilk dəfə olaraq sadə kəndli surəti yaratmış və nəcib, namuslu, qoçaq Bayramı hampa Məşədi Qurbanın oğluna qarşı qoymuşdur. Sevdiyi qızın yolunda dar ağacına getməyə hazır olan Bayramın əksinə, məşədi Qurbanın oğlu Tarverdi son dərəcə qorxaq, miskin, aciz və bacarıqsızdır.

Müəllif Bayramın qəlbən nəcibliyini belə bir faktla da qeyd edir ki, məhv olacağını görən Bayram sevgilisi ilə vidalaşarkən, əsil "quldurlu" ələ vermək istəmir və deyir: "Mənim başqa təqsirim yoxdur. Özgəyə quyu qazan özü düşər. Mən özgəyə quyu qazdım, özüm düşdüm. İndi sən istəyirsənmi ki, mən özümü bədnam edib, çuğulçuluq adını üstümə götürüm? Tarverdini nişan verim?".

Bu pyes cəmiyyətin adlı-sanlı, "hörmətli" adamları üzərində sadə kəndlinin mənəvi üstünlüyündən bəhs edir. Burada M.F.Axundzadənin demokratizmi özünü xüsusi bir qüvvə ilə büruzə verir.

M.F.Axundzadənin böyük ifşa qüvvəsinə malik pyeslərindən biri də "Mürafiə vəkilləri" pyesidir.

Axundzadə sanki tamamilə kiçik həyat münaqişəsinin – vərəsəlik iddiasının fonunda İran məhkəmələrinin riyakarlığını, özbaşınalığını və haramzadəliyini o ki var ifşa etmişdir. Mirzə Fətəli Şərq vəkil-

lərinin klassik obrazlarını yaratmışdır. Onlar qanunları ayaqlayaraq, böhtançılıq, rüşvətxorluq, müxtəlif fırıldaqlarla məşğul olur, təkcə müştərilərini deyil, öz aralarında bir-birini də aldadırlar.

Əlamətdar haldır ki, M.F.Axundzadə feodal İranının ədalət məhkəmələrini kəskin tənqid etməklə yanaşı, İranda mövcud qaydalar şəraitində ədalətin qələbə çalmasının tamamilə təsadüfi hal olduğunu göstərmişdir.

Pyesdə iştirak etməyən şahzadənin Səkinə xanım ilə qardaşının dul arvadı arasındakı münaqişəyə qarışması M.F.Axundzadə yaradıcılığının bir sıra tədqiqatçılarında təəccüb hissi doğurmuşdur. Halbuki, bu məsələdə M.F.Axundzadənin mövqeyi tamamilə aydındır. Geriliyi, cəhalətə və özbaşınalığı ifşa edən müəllif göstərir ki, Şərq istibdadı, feodal zorakılığı şəraitində ədalətin təntənəsi tamamilə təsadüfi xarakter daşıyır. Təsadüfi "xoşbəxt" sonluq qətiyyən şəkk-şübhə doğurmur ki, İran ədalət məhkəməsinin ruhu da, hərfi də ədalətsizlikdir.

M.F.Axundzadə "Vəziri-xani Lənkəran" komediyasında xanın öz hərəkətlərində feodal "ədalət məhkəməsi" hoqqabazlığını ifşa edir. Bu komediyada da konflikt bir təsadüf nəticəsində həll olunur, lakin "Vəziri-xani Lənkəran" komediyasında bu təsadüf xan məhkəməsi ədalətsizliyinin, feodal qaydaları despotizminin tam kəskinliyi ilə faş olmasını zəiflətmir.

Mirzə Fətəli Axundzadənin dram əsərləri içərisində "Sərgüzəşti-mərdi-xəsis" (Hacı Qara) adlı ən yaxşı komediyası xüsusi yer tutur. Bu komediya obrazların klassik bitkinliyi, dərin mənası, süjetin aydınlığı, beynəlmiləlçiliyi ilə fərqlənir. "Sərgüzəşti-mərdi-xəsis" komediyasında müəllif bir tərəfdən talanıb-çapılan və iflasa uğrayan bəyləri, digər tərəfdən isə xəsis tacir Hacı Qaranın simasında acgöz, tamahkar tacirləri göstərir. M.F.Axundzadə Sona xanımın, Kərəmənlinin simasında öz dövründəki sadə adamların və namuslu əməyi dünyada hər şeydən uca tutan adamların obrazlarını yaratmışdır.

"Hacı Qara" komediyasındakı əmək ideyasını – Axundzadə dramaturgiyasının əsas ideyasını müəllif "Molla İbrahimxəlil kimyagər" komediyasından başlayaraq inkişaf etdirir. "Molla İbrahimxəlil kimyagər" komediyasında azadfikirli şair Hacı Nuru təsdiq edir ki, insanın ləyaqəti silki imtiyazlarla deyil, şəxsi keyfiyyətlərlə, əməyə məhəbbət, ağıl, istedad ilə ölçülür. Hacı Nuru deyir: "...Hər kəsin sənəti özünə iksirdir və xoş güzəranlığına baisdir".

M.F.Axundzadənin komediyaları müəllifin özü tərəfindən rus dilinə tərcümə olunmuşdu; sonra bu komediyalar gürcü, erməni, fars, ingilis, fransız, alman dillərində buraxıldı.

"Müsyö Jordan və dərviş Məstəli şah" və "Xırs quldurbasan" komediyaları Peterburqda və Tiflisdə rus səhnəsində tamaşaya qoyulmuşdu. Azərbaycan dramaturqunun pyeslərinin rus səhnəsində göstərilməsi o zaman mühüm hadisə idi. Mətbuat hər iki pyesi yüksək qiymətləndirirdi.

Azərbaycan səhnəsində M.F.Axundzadənin komediyaları ilk dəfə 1873-cü ildə göstərilmiş və o vaxtdan etibarən milli teatrın səhnəsində davam edib qalır. Azərbaycan teatrının yaranma tarixi də 1873-cü ildən başlanır.

1856-cı ildə yazılmış "Aldanmış kəvakib" povesti Axundzadənin bədii əsərləri arasında böyük əhəmiyyətə malikdir. Bu realist povestdə Axundzadə İranın nadan və müstəbid hakimlərini, satqın saray əyanlarını və ruhaniləri amansız tənqid edir, feodal əsarəti şəraitində sadə xalqın necə təhqir olunduğunu parlaq boyalarla açıb göstərir.

Şərqə yaxından bələd olan M.F.Axundzadə I Şah Abbasın sarayında hökm sürən kəmağıllılığı realist boyalarla təsvir edir. M.F.Axundzadə İranın dözülməz həyat şəraitini, xalq kütlələrinin hüquqsuzluğunu və səfalətini, feodal hakimlərin özbaşınalığını gözlərimiz önündə canlandırır. M.F.Axundzadə xalq içərisindən çıxmış sadə şəxsin – Yusif Sərracın obrazında onu əhatə edən aləmə münasibətini bildirir. Yusif Sərrac mövcud idarə üsulunu amansız tənqid edir. O deyir ki, kəndxudadan tutmuş ta padşahın özünə qədər vəzifəli şəxslərin hamısı quldur və zalımdır. Yusif Sərracın fikrincə, xalq hakimlərdən heç bir xeyir görmür, onlar heyvani ehtiraslarını söndürmək naminə yoxsul xalqı hər cür vergi və qanunsuz töycülərlə talayıb çapırlar.

İctimai hadisələrin dərk edilməsində M.F.Axundzadənin tarixən mövcudluğu və dünyanın simasını ictimai islahatlar yolu ilə dəyişdirmək haqqındakı baxışlarının idealizmi bu povestdə özünü büruzə verir. Lakin bununla yanaşı, M.F.Axundzadə əsil sənətkar duyğusu ilə belə bir qənaətə gəlir ki, müstəbid hökmdarı xalqın rifahı qayğısına qalan insanpərvər şəxslə əvəz etməklə ölkənin xoş güzəranı və tərəqqisi təmin olunmaz.

M.F.Axundzadə Azərbaycanda ədəbi tənqidin banisidir. M.F.Axundzadənin bir çox tənqidi məqalələrində onun estetik baxışları, bədii sözü xalqın həyatı, taleyi ilə sıx bağlamağa can atan bir

novatorun baxışları öz ifadəsini tapmışdır. M.F.Axundzadənin ədəbi-estetik görüşləri mühüm bir dərəcədə böyük rus inqilabçı demokratlarının təsiri altında formalaşmışdır. Ədəbiyyatın ayrı-ayrı məsələləri barəsində onun fikirləri Belinskinin, Çernışevskinin və Dobrolyubovun estetik baxışlarına çox yaxındır. Mirzə Melkum xanın pyeslərinin təhlilinə həsr etdiyi məqaləsində Axundzadə incəsənəti həyat kitabı adlandıraraq yazır: "Dram sənətinin məqsədi insanların əxlaqını yaxşılaşdırmaq, oxucu və qulaq asanları ibrətləndirməkdir".

M.F.Axundzadə köhnə ədəbiyyatın şərtiliyi və mücərrədliyi əleyhinə, obrazların qəlizliyi və poetik vasitələrin bəsitliyi əleyhinə çıxır. O, realist sənətin böyük carçısı idi. Bu sənətin vəzifəsi isə xalqı əsarət altında saxlayanları, tüfeyliləri və müftəxorları ifşa etmək, habelə tərəqqi uğrunda və xalqın xoşbəxtliyi uğrunda çarpışan qəhrəmanların obrazlarını yaratmaqdır.

Əlifba islahatı keçirmək, ərəb əlifbasını yeni, daha mükəmməl əlifba ilə əvəz etmək ideyası M.F.Axundzadəyə məxsusdur. O, ərəb əlifbası islahatına hər vasitə ilə əngəl törədən İran və Türkiyə irticaçılarına qarşı ardıcıl və gərgin mübarizə aparırdı. O deyirdi ki, mən düşməndən qorxub, geri çəkilənlərdən deyiləm, bütün ömrüm boyu İstanbul vəzirlərinə qarşı çarpışacağam.

M.F.Axundzadə həmçinin bir sıra publisistik məqalələrin və "Hindistan şahzadəsi Kəmalüddövlənin İran şahzadəsi Cəlalüddövləyə yazdığı üç məktub və Cəlalüddövlənin ona göndərdiyi cavab" adlı böyük fəlsəfi-siyasi traktatın müəllifidir. Azərbaycan dilində yazılmış bu əsəri müəllif rus və fars dillərinə tərcümə etmişdir.

"Məktublar"da M.F.Axundzadə materialist filosof və ateist kimi çıxış edir, islam dininin mürtəce mahiyyətini və Şərq hakimlərinin istibdadını ifşa edir, ruhanilərin ikiüzlülüyünü və riyakarlığını, cəmiyyətdəki ətaləti, geriliyi və nadanlığı şiddətli tənqid atəşinə tutur. M.F.Axundzadənin bu dahiyanə əsəri nə müəllifin sağlığında, nə də ölümündən sonra, ta Azərbaycanda Sovet hakimiyyəti qurulanadək işıq üzü görmədi.

M.F.Axundzadənin "Məktublar"ı materialist fəlsəfəsinin görkəmli əsəridir. Fəlsəfənin əsas məsələsinin – təfəkkürün varlığa münasibəti məsələsinin materialistcəsinə həlli sayəsində M.F.Axundzadə bu nəticəyə gəlir ki, materiya əbədidir və ilahi qüvvə tərəfindən yaradılmamışdır: "Külli kainat bir qüvveyi-vahidə və kamilədir". Mirzə Fətəli daha sonra yazır: "Nə əvvəl ona siqlət edirmiş, nə axır ona xatəmə olacaqdır".

M.F.Axundzadə bu fikirdə idi ki, kainat öz təbii qanunları olan atomlardan ibarətdir, zaman və məkan materiyanın mahiyyət və atributlarıdır, onun varlıq formalarıdır. Maddi aləmin obyektivliyini etiraf edən M.F.Axundzadə yazırdı ki, xarici aləm insanın duyğu orqanlarına təsir göstərərək, müəyyən hisslər doğurur, bunun əsasında insan təfəkkürü yaranır və inkişaf edir.

Lakin M.F.Axundzadənin materializmi metafizik xarakter daşıyır. Təbiət hadisələrinin izahında materialist olan M.F.Axundzadə ictimai münasibətləri dərk etməkdə idealist idi. Öz ictimai-siyasi baxışları ilə Axundzadə maarifçilik mövqelərində dururdu.

M.F.Axundzadə insan şəxsiyyətinin azadlığına tərəfdar çıxır və göstərirdi ki, feodal istibdadı şəraitində, dinin və cəhalətin tam hökmranlıq etdiyi bir şəraitdə bəşəriyyətin tərəqqisi üçün zəruri olan fikir azadlığı mümkün deyildir.

Xalq kütlələrinin dini və mənəvi əsarətinə qarşı qəzəblə çıxış edən Axundzadə, eyni zamanda, ictimai və cismani zülm əleyhinə, insan üzərində zorakılıq əleyhinə hiddətlə etiraz səsini ucaldırdı. M.F.Axundzadə cəsarətlə bu qənaətə gəlir ki, "...zülmü aradan qaldırmaq üçün iki şey lazımdır: ya zalım zülmdən əl çəkməlidir, ya da məzlum zülmə dözməməlidir". İdrakın təsdiqi ilə zülmü dəf etməkdə bu iki yoldan başqa heç bir yol təsəvvür edilə bilməz. On min ilin ərzində bütün filosoflar və şairlər zülmün aradan qaldırılmasını istəyərək, belə bir əqidədə idilər ki, onu aradan qaldırmaq üçün zalıma moizə oxuyub, nəsihət vermək lazımdır. Lakin bir çox təcrübələrin nəticəsində tamamilə aydın olmuşdur ki, bəşəriyyətin ən şərəfli nümayəndələri olan bu adamların əsrlər boyu zülmü aradan qaldırmaq yolunda çəkdikləri zəhmətlər bütünlüklə nəticəsiz və faydasız qalmışdır. Zülm isə dünyada əsla aradan qaldırılmamışdır. Zülmü aradan qaldırmaq üçün moizələr və nəsihətlər zalımın təbiətinə qətiyyən təsir göstərməmişdir... Zülmü aradan qaldırmaq üçün heç də zalıma müraciət etmək lazım deyildir, bəlkə əksinə, məzluma demək lazımdır ki, "Ey nadan, sən ki qüdrət, say və bacarıq cəhətdən zalımdan qat-qat artıqsan, bəs nə üçün zülmə qatlaşırsan? Qəflət yuxusundan oyan və zalımın atasının goruna od vur!" (Mirzə Yusif xana məktubundan).

Azərbaycan ədəbiyyatının gələcək inkişafında yeni azəri ədəbiyyatının banisi, materialist filosof M.F.Axundzadənin böyük təsiri olmuşdur.

ONUN QƏLBİ

Sənətkarı xalq yaşadır. Xalqın həyat və ideallarından uzaq olan bir adam, ümumbəşər mədəniyyəti tarixinin baş yolundan kənarda qalır. Səhrada tək-tənha bitmiş ağac ancaq təsadüfi yolçunu kölgəsinə ala bilər. Onun yarpaqlarının səsi insan qəlbindən əks-səda ala bilmədiyi üçün boz səhranın kədərli səssizliyində itib gedir. Zaman keçdikcə tək ağac quruyur, yeni bir pöhrə vermədən məhv olur.

Bu doğrudur. Sənətkar bütün istək və arzularının yuvası olan qəlbinə, beyninə qidanı xalqdan, xalqın həyatından alır. Antey gücünü torpaqdan aldığı kimi, torpağa bağlı ikən məğlubedilməz olduğu kimi, sənətkar da xalqa, doğma torpağa bağlı qaldıqca qüdrətli, səmərəli, ilhamlı olur.

Bunlar doğrudur. Məlum həqiqətdir. Lakin elə sənətkarlar da var ki, xalqın adını ucaldır, xalqın tanınmasında əsri, tarixi rol oynayır. Xalqın könül tərcümanı olur. Onun şöhrət və şərəfini artırır. Çox zaman bütün bir xalqı belə sənətkarların adı ilə adlandırırlar. Şekspirin, Puşkinin, Mirzə Fətəlinin, Tolstoyun, Firdovsinin, Füzulinin, Rustavelinin, Nəvainin, Şevçenkonun xalqı deyəndə, biz bu böyük sənətkarların əzəmi dərəcədə o xalqların mənəvi təmsilediciləri olduqlarını təsdiq edirik.

Sabir belə sənətkarlardandır. Sabirin dərdi – xalqın dərdi, Sabirin sevinci – xalqın sevinci idi. O, qoynunda yaşadığı torpağın ağrılarını öz qəlbinin ağrısı kimi, xalqın müsibətlərini öz müsibəti kimi duyurdu. Sabir şerinin misilsiz geniş yayılması bunu aydın göstərir. Onun açdığı yol Azərbaycan xalqının uzun əsrlərdən bəri yaratdığı poeziya aləmində zəngin, yeni bir yol idi. Sabir bu sözün həqiqi mənasında novator şair idi. O, elə məsələləri poeziya predmeti eləmişdir ki, yalnız Azərbaycan ədəbiyyatı deyil, bir çox millətlərin ədəbiyyatına görə də bu, bir inqilab idi. Sabir, "Ey alnın ay, üzün günəş" deyə kəskin satira atəşinə tutduğu durğun, təqlidçi qəzəlçiliyə qarşı çıxaraq, əsrin nəfəsi ilə nəfəs alan, yaşadığı həyatın ictimai təzadlarını açıb göstərən etirazlı, təəssübkeş bir ədəbiyyatın gözəl nümunələrini yaratdı. İndi Sabiri oxuyan adamlardan bəzilərinə elə gələ bilər ki, Sabirin cəsarətindən, uzaqgörənliyindən, novatorluğundan danışarkən, taziyanələrin vətəndaşlıq pafosundan bəhs edərkən, biz müəyyən dərəcədə mübaliğəyə yol veririk, artırırıq. Lakin bu, belə deyil. Sabirin yaşadığı mühiti gözünüzün qabağına gətirin. Sabiri – sabun

tiyanı başında gününü keçirib, böyük ailəsinə gündəlik ruzi qazanmaq məcburiyyətində qalan Mirzə Ələkbəri təsəvvür edin. Bütün nadanlıq, mövhumat, məhdudluq, çirkin ehtiraslarına qarşı çıxdığı adamlar arasında yaşayıb, onlardan asılı olan Sabirin dərdlərini yaxından duymağa çalışın. Sabirin qarşısında duran yolları xatırlayın: mərsiyə, qəzəl yazmaq, o zamankı Şamaxının əyan və əşrəflərinin gözündə mömin, Allah bəndəsi bir adam olmaq, Kərbəla müsibətlərini, eşq macəralarını yanıqlı bir dillə tərənnüm edən bir şair olmaq, hörmətlilərin hörmətini qazanmaq, firavan yaşamaq, hədiyyələr, ehsanlar, müavinətlər içində qayğısız bir həyat keçirmək.

Bu yol Sabirin qarşısında açıq idi. O, bu yolla gedə bilər və çəkdiyi möhnətlərin yüzdən birini görməyə bilərdi.

İkinci yol, xalqın könül tərcümanı olmaq, onun yaralarını açıb göstərmək, əlac aramaq, ictimai tüfeylilərə qarşı çıxmaq, hakim dairələrin riyakarlığını ifşa etmək, sabun tiyanı başında dayanıb yalnız o zamankı müstəmləkə Azərbaycanın deyil, bütün Yaxın Şərqin faciəsini dərindən duyub anlamaq, şahlara, sultanlara qarşı, çarlara, krallara, bəy, xan, molla, müctəhidlərə, qoçulara, yalançı millətçilərə qarşı amansız bir müharibə elan etmək, xalqın ağrılarını ovutmağa çalışmaq.

Bu da bir yol idi. Bu yolda qazanc, gəlir, şöhrət yox, məhrumiyyət, yoxsulluq, hər cür tənə və təhqirlərə məruz qalmaq, əzab və işgəncə vardı. Sabir, həqiqi xalq şairi, Azərbaycanın böyük oğlu, ikinci yolu – mübarizə və məhrumiyyət yolunu seçdi.

Sabir yeni Azərbaycan şerinin böyük yaradıcısı oldu.

Sabir şeirləri yarandıqları zamanın ən doğru bədii sənədlərindəndir. Yalnız kəskin ictimai məzmun deyil, forması etibarilə də Sabir poeziyası Azərbaycan ədəbiyyatında yeni bir mərhələ, yeni geniş bir yol, yeni ədəbi bir məktəb idi.

Sabir şeirlərinin əksəriyyətini əruzla yazmışdır. Lakin baxın, Sabir əruz vəznini necə azəriləşdirmişdir.

"Oxutmuram", "Xanbacı" və s. xatırlayın. Mən, adətən, şeri yaxşı yadda saxlaya bilmirəm. Öz şeirlərimin də çoxunu əzbərdən bilmirəm. Ancaq deyə bilərəm ki, Sabir şeirlərinin çoxunu əzbər bilirəm. Həm də bu şeirləri 30-35 il qabaq oxumuşam. O zamandan yadımda qalıb:

Ey dərbədər gəzib ürəyi qan olan çocuq,
...Ey ehtişami-milləti talan olan çocuq.

Bəli, Sabir ehtişami-milləti talan olan çocuğun taleyinə yanırdı.

Sabir yaradıcılığı – iyirminci əsr əvvəlinin salnaməsidir.

İran, Türkiyə hadisələri, ölkədə baş verən hərəkat Sabir qələminin qüdrəti ilə canlanır, bədii lövhələrə çevrilir. Şüurları, vicdanları hərəkətə gətirirdi. Mirhaşımlar, Məmmədəlilər Sabir qələminin amansız zərbəsi ilə yaralanıb damğalanırdılar. O, Zəngəzur aclarını, tez-tez qapanan qəzetləri, Bakı fəhlələrini unutmurdu. Ən ağır günlərdə xalqları qardaşlığa çağırırdı.

O, ağızlara qıfıl vurmaq istəyənlərə deyirdi:

– *Qanma.*
– *Bacarmam, məni məzur tut.*

Gözümü də yumsam, qulaqlarımı da tıxasam, gecə-gündüz ağlasam da qanmaya bilmərəm deyirdi. Çünki qızğın od içində olub, yanmamaq mümkün deyil. Bu od böyük Ağlar küləyinin möhnətləri, acı gülüşlər içində keçən həyatı, onun sevdiyi doğma xalqının yandığı od idi. Hüquqsuzluq odu, əsarət zəncirlərinin açdığı yaraların yanğısı, azadlıq həsrəti ilə qovrulan ürəklərin alovu idi. Nadan və avamların, məsləksiz, satqın "inteligentlərin", jandarmın, ağaların, azğın, harın sahibkarların, hampaların, qoçuların bəd əməlləri ilə, xalqa dəyən zərbələrin acısı idi. Sabir bunu duymaya bilərdimi?

Bu gün yüzillik bayramını keçirdiyimiz Sabir həqiqi qiymətini, uğrunda misilsiz fədakarlıq göstərib və işgəncələrə dözdüyü xalq tərəfindən almışdır.

Sabir, həqiqətən, bir qocaman dağa bənzəyir ki, xalq məhəbbəti dənizində yüksəlir. Sabir elə bir sənətkardır ki, mənsub olduğu xalqın başının ucalığıdır; onun fəxri kimi müasir aləmi ölkə-ölkə, şəhər-şəhər, ürək-ürək gəzir. Onun qəlbi doğma xalqının qəlbi ilə həmahəng döyünürdü.

1962

O BİZİM SIRALARIMIZDADIR

Mən bilmirəm, Şamaxıda – Azərbaycanın o qədim Parnasında poeziyaya üsyankar ruhlu Xaqanini, dönməz iradəli filosof şair Nəsimini, bir sıra böyük, gözəl alim, memar, müğənni, musiqişünas, qəhrəman vermiş bu şəhərdə, baxtına qədim zəngin Azəri poeziyasında yeni bir yol açmaq kimi şərəfli iş düşmüş oğlan uşağı anadan olanda hava necə, gün necə idi. Bəlkə də bu gün işıqlı bir gün idi. Hər tərəfdən bahar çiçəklərinin məstedici qoxusu gəlirdi. Bəlkə də göy üzü qara buludlarla örtülmüşdü. Yaxın bir tufanın əlamətləri duyulurdu.

Ancaq mən bilirəm ki, bu gün mənim xalqım, mənim vətənim üçün, mənalı, mühüm bir gün idi. O gün anadan olan uşaq ancaq Sabir olmadı. O, iztirab çəkən, zavallı insanların taleyini yaxşılaşdırmaq uğrunda mübariz oldu. Çətin bir həyat yolu keçmiş, zaman-zaman ən kiçik ümidini belə itirmiş bu adam, sevmək və nifrət etməyin ağrılı, iztirablı dərsini həyatdan öyrəndi, minlər, yüz minlərlə insanın könül tərcümanı oldu.

Onun qarşısında iki yol var idi. Biri uzaq Ərəbistan səhralarında neçə əsr bundan qabaq baş vermiş faciəyə yanıqlı misralar həsr etmək, imamlara matəm şeirləri yazmaq, mədhiyyələrlə zamanın qolugüclü, sözügüclülərinin zövqünə uymaq, ruhunu oxşamaq.

Lakin başqa bir yol da vardı – tikanlı, yoxlanmamış, gözlənilməz hadisələr, məhrumiyyət və bəlalarla dolu yol. Burada şairin nəsibi məzəmmət, soyuq münasibət, nifrət və qolugüclülərin arası kəsilməyən təqibi, təhqiri olacaqdı.

O, ikinci yolu – mübarizə yolunu, sükut və sükunəti pozmaq yolunu seçdi.

O, burjuaziya, mülkədar, ruhani və çar zülmü altında inləyən xalqın göz-göz yara kimi açılan fəlakətini, insan iztirabını, vətən dərdini görə-görə imamların faciəsinə göz yaşı tökə bilməzdi.

O, hər gün "bədbəxt tükəzbanlar"ın ah-naləsini eşidib, onların insanlıq, qadınlıq şərəfinin tapdandığını görüb, hurimisal gözəlləri tərif etməklə məşğul ola bilməzdi.

Onun təşviş dolu gecələri, işıqsız gündüzləri, kədərli, soyuq güzəranı vardı. Onun çiynindəki ömür yükü zindan kimi ağır idi.

O, insanların sevincsiz həyatını görürdü. O, "ehtişami-milləti talan olan" çocuqların taleyinə yanırdı. O, qırmızı saqqallı, başı dudkeş

papaqlı qocalara bir qul kimi satılmış körpə qızların fəryadını eşidirdi. Ac kəndlilərin çörək-çörək səsi onun qəlbini qana boyayırdı. Bəylərin, hampaların, milyonçuların, dükançıların, ruhanilərin törətdiyi rəzalətlər onun vicdanında üsyan fırtınası qaldırırdı. Yaltaq ziyalıların iyrənc nökərçiliyi onda bir ikrah hissi oyadırdı.

Sabirin şairlik və vətəndaşlıq böyüklüyü onda idi ki, həyatdan üz döndərmirdi, dövrün vacib məsələlərindən kənar durmurdu. O, üzünü doğma xalqına tərəf çevirib, mərd-mərdanə onun dərdlərinə şərik olur, ümid və arzularını duyur və öz xalqına acı həqiqəti kişi kimi, açıq deməkdən çəkinmirdi. Bu həqiqət acı, amansız idi. Lakin o, dost dili ilə – xalqın ən kiçik dərdini, ağrısını həssas qəlbi ilə duyan, xalq taleyini öz taleyi, xalq fəlakətini öz fəlakəti bilən bir adamın dili ilə – deyilmiş həqiqət idi. Bu həqiqət ürək ağrısına səbəb olur və bəzən bədxahların ağzında Sabirin doğma xalqına qarşı bir ittihama çevrilirdi. Sabir bunu bilir və şüurlu olaraq bu yolla gedirdi. Doğrudur, Sabirin zülmkarlara qarşı mütəşəkkil mübarizə aparmaq üçün aydın bir planı yox idi. O, xalqı doğrudan-doğruya qəti inqilabi hərəkata çağırmırdı. Ancaq o, xalqı əsarətdə saxlayanlara qarşı öz silahı ilə mübarizə aparırdı. Bu, qızmar satira silahı idi. Doğrudur, həyatda inqilabi dəyişikliklər yolu Sabirə məlum deyildi. Lakin o, dahi bir sənətkar həssaslığı ilə, əsrin azarını duyur və əzablar içində bu xəstəlikləri aradan qaldırmaq, səadət qapılarını xalqın üzünə açmaq yollarını arayırdı.

Sabir hüquqsuz əcdadının zəngin diyarında, sabun tiyanının yanında durub heyrət doğuran bir aydınlıqla hər şeyi görür, əsrin nəfəsini duyur, günlərin isti-soyuğunu, havanın qoxusunu hiss edirdi.

Çar hökumətinin, İran şahının, Türkiyə sultanının riyakar siyasətini, ingilis müstəmləkəçilərinin fitnəkarlıqlarını bütün incəlikləri ilə yaxşı anlayırdı.

Sabir yaradıcılığının tematikası şairin yaşayıb-yaratdığı dövrün ən vacib məsələ və problemləri dairəsində idi. Lakin Sabir yaradıcılığının bədii ideya əhəmiyyəti, onun təsir gücü o qədər böyük, davamlı və müxtəlif cəhətli idi ki, onun yazdığı əsərlərdən bir çoxu bu gün də köhnəlməmiş, günün, əsrin, zamanın tələblərinə uyğun səslənir.

Sabirin bədii ümumiləşdirmələri, həqiqi, böyük sənətkarlarda olduğu kimi, elə həyati, dərin və əhəmiyyətlidir ki, onun şeirləri bizə "köhnə, lakin qorxulu bir silah" kimi gəlib çatmışdır.

Hələ oxuyub yazmağı bilmədiyim vaxt mən Sabirin bir çox şeirlərini əzbər bilirdim. O zamandan bəri həmişə Sabiri öz yanımda hiss etmişəm. Yenidən təkrar-təkrar onun şeirlərini oxuduqca, onun həyat hadisələrini necə geniş qavraya bildiyinə, ifadələrinin yüksək sadəliyinə, şeirlərinin emosional gücünə heyran qalırsan.

Adama elə gəlir ki, qarşında bir insan dayanıb, qəmli gözləri ilə sənə baxır, onun dodaqlarında kövrək bir təbəssüm vardır. O, sənə çox şeylərdən, mühüm hadisələrdən sakit-sakit danışır.

Elə dərin riqqət və ürək yanğısı ilə danışır ki, müəllifin məhəbbəti, nifrəti ixtiyarsız səni öz təsiri altına alır. Adama elə gəlir ki, səninlə bir dost kimi söhbət edən bu insanın dərdi sənin dərdindir. Məzəli sətirlərdən onun ürək ağrısı duyulur.

Bu insan öz dərdini, möhnətini, iztirab və ümidlərini, acılarını və inamını dünyaya söyləmək istəyir. Lakin ağrı o qədər böyük, o qədər güclüdür ki, o öz dərdini sənə açmaqla sənin də qəlbini yaralamaqdan, həyatını kədər və qüssəyə salmaqdan qorxur. Buna görə də daha artıq məzəli, gülməli olmağa çalışır. O öz qəlb ağrısını, öz iztirablarını, alabəzək kinayə, yumor, satira paltarı ilə bəzəyir.

Lakin sarkazm, acı gülüş bu adam üçün ağır kədər və qüssələrdən qaçmaq üçün bir sığnaq yeri deyildi. Bunlar şairin sınanmış döyüş silahları – ictimai ədalətsizliyə qarşı mübarizə silahları idi.

Sabirin poeziyasında inqilabi ruhdan uzaq olan, ictimai və milli zülmə qarşı protest ruhu daşımayan, oxucuda mövcud üsul-idarəyə qarşı qəzəb doğurmayan şeirlər tapmaq çətindir.

Sabir özü üçün yazmırdı. Əslinə baxsan, yazdığı hər yeni şeir onun üçün bir də əzab yollarından keçmək deməkdir. Şeirlərindən birində Sabir deyirdi ki, gözlərimi yuma, qulaqlarımı tıxaya bilərəm, lakin məni anlamamağa məcbur edən bir qüvvə yoxdur.

Bu kiçik şeirdə əyilməz məğrur ruhu ilə, bütün varlığı ilə canlı Sabir görünür. Onu güclə susmağa məcbur edərlər, ancaq o anlayır, bu insana məxsus keyfiyyəti ondan heç kəs ala bilməz.

Sabir yalnız poeziyanın mündəricəsini, onun predmetini anlamaq, temanı seçmədə deyil, forma sahəsində də novator idi. Onun şeirləri tam mənasında təbii danışıq intonasiyasındadır. Bu, şairin yaşadığı dövr ədəbiyyatında, xüsusilə, poeziyasında prinsip etibarilə yeni bir şey idi. Sabirin bu novatorluğu xalqımızın bədii arsenalına böyük bir hədiyyə idi. Şerin əruz vəzni Sabirləşməklə, yenidən canlandı,

dəbdəbədən xilas oldu, oynaqlıq qazandı, Azərbaycan dilinə uyğunlaşıb, onunla daha artıq həmahəng oldu.

Sabir köhnə şeirlə yeni şeir arasında elə bir uçurum yaratdı ki, artıq geri dönmək mümkün deyildi desək, haqlı olarıq. Bu əlavəni də edək ki, Sabir Azərbaycan şerinin ən yaxşı ənənələrini bu uçurumdan keçirib gətirdi. Bu ənənələri yeni rənglər, orijinal sədalarla zənginləşdirdi.

Sabir məşhur yazıçı-dramaturq Cəlil Məmmədquluzadənin nəşr etdirdiyi "Molla Nəsrəddin" jurnalında iştirak edərək, yeni ədəbi məktəb yaratdı. Bu ədəbi məktəb qısa bir müddətdə bizim XX əsr əvvəlləri ədəbiyyatımızda ən populyar, ən həyati bir məktəb oldu.

Sabirin poetik talantı o qədər qüvvətli, parlaq, orijinal idi ki, yalnız Azərbaycanda, yalnız türkdilli xalqlar arasında deyil, Yaxın Şərqin bir çox ölkələrində bu yolun davamçıları, tərəfdarları yarandı.

Biz Sabir məktəbinin bu uzaqlara yayılmış təsirini az tədqiq edib, öyrəndiyimiz kimi, Sabirin publisistikasını da az tədqiq etmiş, az öyrənmişik.

Sabir talantına hörmət bəsləyən geniş oxucu kütləsi Sabiri bir ictimai xadim kimi də lazımi qədər tanımır. Bütün bunlar bizim qarşımızda Sabiri öyrənmək, tanımaq və tanıtmaq, onun əsərlərini geniş yaymaq sahəsində bir sıra praktiki məsələlər qoyur.

Müasir ədəbiyyatımızda Sabirin rolu çox böyükdür. Son zamanlar mən satira silahına tez-tez müraciət edirəm. Açıq deməliyəm ki, həm də bir az qorxa-qorxa, nigarançılıq və təşvişlə müraciət edirəm.

Sabirin yaradıcılıq nümunələri o qədər ciddi və əhəmiyyətlidir ki, indi onun ölümündən əlli il keçəndən sonra belə, böyük məsuliyyət hissi, ürək çırpıntısı və ciddiyyətlə bu yola ayaq basırsan.

İxtiyarsız düşünürsən: Sabir indi sağ olsaydı, həyatımızdakı bəzi eybəcərliklərdən necə qəzəb və amansızlıqla yazardı. İnsanlıq simasını itirmiş imperializm dünyasını necə ifşa edərdi. Təsadüfi deyil ki, mən yeni satirik şeirlər siklini "Sabir sağ olsaydı" ümumi başlığı altında yazıram.

Mənə elə gəlir ki, kəskin satirik şeirlər yaratmaq üçün biz Sabir ənənələrini lazımi qədər inkişaf etdirmirik.

Beynəlxalq imperializmin ifşası, kolonializmin riyakar, ikiüzlü vəkillərinin "böyük" və "balaca" işlərindəki çirkin rolunu olduğu kimi xalqa göstərmək üçün belə şeirlər çox lazımdır.

Sabir bizə yaxın, bizim üçün çox qiymətlidir, çünki o, qüdrətli talantını, bütün gücünü, bütün həyatını xalqın xidmətinə vermişdi. Onun məhəbbət və nifrət, mərdlik və sarsılmaz iradə timsalı olan poeziyası hələ uzun illər məfkurəvi mətanət nümunəsi, yaradıcılıq atəşi, misilsiz nəcabət nümunəsi olaraq yaşayacaqdır.

Sabir bu gün bizimlə bir sırada addımlayır, Sabirin insan ləyaqətini alçaldan hər bir şeyə qarşı mübarizədə ovxarlanmış silahı indi də öz kəsərini itirməmişdir. Bizim nəslimizin əlində bu silah daha da kəskin olmuşdur.

Sabirin yaradıcılığına dərindən bələd olduqca onun heyrətli dərəcədə həssas olan bir qələmlə yaratdığı qəmli, məzəli lövhələrə diqqət etdikcə, insan təkrar-təkrar onun humanizmi, onun əməkçi insanlara olan məhəbbəti qarşısında heyran qalır. O, çətin, əzablı, iztirablı vətəndaş-şair yolunu insanlara olan məhəbbəti naminə seçdi.

Xəyalən mənim gözlərimin qarşısında Sabirin mübarizə, zəhmət, iztirabla dolu həyat mənzərələri canlanır. Onun bir vətəndaş, bir şair kimi fədakar, mərdanə obrazı bütün əzəməti ilə yüksəlir. Kişiliyə, həqiqətə, vicdan təmizliyinə eşq olsun! – deyirəm.

İllərin amansız imtahanlarından öz hərarətini, öz məhəbbətini keçirib gətirə bilən böyük insan qəlbinə eşq olsun!

İndi də bizim sıx sıralarımızda bizimlə addımlayan böyük Sabirə eşq olsun!

MİNLƏRLƏ KÖNÜLDƏ TƏƏSSÜFÜ QALDI

Hüseyn Cavid Azərbaycan sovet şairlərinin yaşlı nəslinə mənsub idi. O, poetik ömrünün ən gəlimli illərində, gözəl vaxtında bizdən ayrıldı. İyirmi-iyirmi beş illik qısa bir zamanda bəzən haqlı ədəbi mübahisələrə səbəb olan poetik əsərlər, dramlar, faciələr, poemalar, şeirlər qoyub getdi. Minlərlə könüldə təəssüfü, inciyi, nigaranlığı qaldı.

Dahilərin də, ən sadə, adi insanların da ömür möhləti vardır. Bu möhlət əvvəlcədən müəyyən edilməsə də, bir gün son nöqtəyə çatır, qurtarır, insan sevdiyi dünyadan, arzularından, ümidlərindən ayrılmalı olur.

Hüseyn Cavid illərlə göz ağrısından iztirab çəkdi, bəlkə də bu xəstəliyin şairin qısa ömründən qopardığı aylar, illər sevdiyi sənətinə – şairlik zəhmətinə sərf olunsaydı, indi ədəbiyyatımızın dəyərli

dəftərində neçə-neçə gözəl, poetik ilhamla yazılmış səhifə də olardı. Olmadı! Şair Hüseyn Cavidin yazıb-yarada bilmiş olduqları, şərəfli bir insan ömrünün, bir şair ömrünün tutumlu, dolumlu, unudulmaz səhifələridir. Hüseyn Cavidlə ilk tanışlığım çox gənc illərimə təsadüf etdi. O illərdə mən Göyçayda yaşayırdım. Bir neçə günlüyə Bakıya böyük bacım Kübragilə qonaq gəlmişdim. Küçələrdə elan lövhələrində Hüseyn Cavidin "Topal Teymur" tamaşasının elanını gördüm. Tələbəlik dostum Abdulla Faruqun böyük bir çətinliklə tapdığı biletlərlə teatra getdim. Yerimiz yaxşı deyildi. Səhnəyə və tamaşa salonuna "Quş uçuşu"ndan baxırdıq.

Tamaşaya gələn adamları sanki sayıb-seçmişdilər. Tamaşa bir bayram təsiri bağışlayırdı. Bakının bütün gözəlləri, elə bil, məhz bu gün söz qoyub teatra toplaşmışdılar. Tamaşa salonu, foyelər, səhnə, müxtəlif geyimli insanlar... Bəlkə də bu, kənddən birdən-birə şəhərə düşmüş bir gəncin gördüyü, gördükcə böyütdüyü, böyütdükcə rənglərə, çeşidlərə, çalarlara saldığı mənzərələrdir. Mənim xatirimdə bu tamaşa unudulmaz bir bayram kimi qalmışdı. Şair Hüseyn Cavidi də ilk dəfə bu tamaşada gördüm.

Sonralar Bakıya köçdüm. Ədəbi mühitə yaxın oldum. Bir neçə gənc şairlə, yazıçı ilə tez-tez görüşürdüm.

Müşfiq, Rəfili, Sabit, Mehdi, Əli Nazim, Süleyman Rüstəm, Məmməd Rahim – bu yeni dostlar, tanışlar arasında idim. Tez-tez ədəbi yığıncaqlarımız olurdu. Bu yığıncaqların bəzisinə Hüseyn Cavid də gəlirdi. Cavid çox vaxt çənəsini əsasına dayayar, diqqətlə danışanlara qulaq asar, özü, demək olar ki, danışmazdı.

Yazıçılar İttifaqının idarəsi indiki "Araz" kinosunun binasında birinci mərtəbədə balaca otaqda idi. Bir gün Müşfiq, Rəfili, Sabit və bir neçə başqa yoldaşla bu otaqda yığışıb bekarçılıqla məşğul idik. Qapı açıldı. Hüseyn Cavid gəldi. Salamlaşdıq. Söhbət Hadidən düşdü. Cavid çox kədərli görünürdü. Adətən, az danışan, həmişə fikirli, qayğılı görünən şair dərindən bir ah çəkərək belə qəmli bir hekayət söylədi:

– Sizin yadınıza gəlməz, uşaqlar! Bəlkə o vaxtlar siz hələ əlifba öyrənirdiniz. Bakıda, Kommunist küçəsinin aşağı qurtaracağında, Metropol mehmanxanasının qabağından keçəndə bir əl qolumdan tutub məni saxladı. Üzümə baxmadan əlindəki yazılı vərəqələrdən birini uzadıb: – Al! – dedi. Diqqətlə baxdım, bu, şair Məhəmməd Hadi idi. Başını aşağı dikmiş, qoltuğundakı vərəqələrdən birini titrəyən əli

ilə mənə tərəf uzatmışdı. Boğuq bir səslə təkrar etdi: – Al! Mən kağız pulu ona verəndə birdən başını qaldırdı. Dumanlı gözlərlə məni süzdü. Bir uşaq kövrəkliyi ilə dodaqları büzüldü, o, məni tanımışdı. Hıçqırtı ilə kağız vərəqələri yerə tullayıb səndələyə-səndələyə getdi. Mən yerimdə donub qalmışdım. Bu qüdrətli şairin acı taleyi məni sarsıtmışdı...

Hüseyn Cavidin ağır-ağır, qəhərlənərək danışdığı bu hadisə hamını həyəcanlandırmışdı. Bu hadisədən bir neçə gün sonra Hadinin taleyi haqqında daha ətraflı məlumat almaq üçün Müşfiqlə söz qoyub Hüseyn Cavidgilə getdik. Cavid o zaman, indiki Ali Sovetin binasında yuxarı mərtəbədə yaşayırdı. Mənzilin qapısını özü açdı.

– Xeyir ola, uşaqlar, – dedi.

– Bir şey yoxdur, gəldik böyük şairə salam və hörmətimizi yetirək.

Cavid xəfif bir təbəssümlə bizi içəri çağırdı.

– Vaxtsız qonaq kisəsindən yeyər, – dedi, – indi mən sizi nəyə qonaq eləyim. Yaxşı çayımız var.

– Sağ olun, Cavid əfəndi, – dedik, – bizi şerə qonaq eləsəniz, çox məmnun qalarıq.

Cavid bir anlığa nə isə fikrə getdi. Sonra:

– Siz çayınızı için. Mən də "Azər"dən bir parça oxuyum, – dedi.

Cavid şerinin valehedici musiqisi, "Azər"in düşündürücü, həyəcanlandırıcı misraları bizi elə bir sehrə salmışdı ki, gəldiyimizin əsas məqsədini unutduq. Böyük şair gənc dostlarının heyranlığını görüb riqqətlənmişdi.

Sonra yol boyu Müşfiqlə bir kəlmə də danışmadıq. Səssiz ayrıldıq. Görünür, ikimiz də Cavidlə görüş havasından, "Azər" poemasının poetik təsirindən ayrılmaq istəmirdik.

Cavidin mürəkkəb yaradıcılığı mübahisələrə, münaqişələrə səbəb olurdu.

Bu tənqidi mülahizələrdə doğru, xeyirsevərli qayğılar olduğu kimi, ədalətsiz, haqsız, qərəzliləri də vardı. Xüsusilə, şairi həyəcanlandıran nadan iradlar, qərəzli atmacalar, əsassız qarayaxmalar idi. Onun hər yeni əsərinə yerli-yersiz bir qulp qoyan bir nəfər vardı ki, şair bu adam haqqında özünəməxsus bir sarkazm ilə deyirdi:

– Bir də görürsən bir triniçi durar, moizəyə başlar ki, Cavidin filan əsərində sinfi qüvvələrin tənasübü... Nə bilim, dil cəhətindən belə-belə... Bu hərifin özünə bələd olsan, görərsən ki, əlifi beydən seçə bilmir, iki nəcib heyvanın yemini bölüşdürə bilmir.

Onu dinləyənlər bu tənqid cəngavərinin kim olduğun yaxşı bilirdilər. Doğrudan da, şairin özünəməxsus bir deyimlə verdiyi xarakterizə həqiqətə uyğun idi.

Hüseyn Cavid Azərbaycan ədəbiyyatında qüdrətli bir faciə ustası idi. Onun romantik qanadlı şeri yüksək sənətkarlıq nümunəsi idi. Bu gün də öz təsir gücünü itirməmişdir. Cavidin şeir dilinin, bugünkü dilimizə görə bəzən çətin anlaşılması haqqındakı fikirlər yalnız qismən qəbul oluna bilər. Dilimizin inkişaf yolunu izləyənlər bilirlər ki, Cavidin yazıb-yaratdığı illərdə Azərbaycan dilinə yad olan sözlər, tərkiblər dövri mətbuatda belə az deyildi.

Cavid yaradıcılığının ən bitkinləşən vaxtında bizdən ayrıldı. Sağ olsaydı, bəlkə də bu günün həyat nəbzini daha dəqiq duyar, daha tutumlu, daha ictimai əsərlər yaradardı...

1978

O, SADƏ İNSAN İDİ

Kim deyə bilərdi ki, illər keçəcək, əziz dostumuz, qardaşımız, Azərbaycan torpağının yetirdiyi ən qüdrətli sənətkarlardan biri – Cəfər Cabbarlı haqqında xatirə yazmalı olacağıq.

İndi onunla nə zaman, harda, necə tanış olduğumu yadıma salmaq istəyəndə görürəm ki, bu, çox çətin bir işdir. Çünki adi təsəvvür etdiyimiz mənada onunla tanışlıq, olsa-olsa, qəribə bir təsadüf ola bilər.

Bəlkə də Cəfər Cabbarlı ilə kimin isə vasitəsilə rəsmi tanış olan, əl verib ad-familiyasını deyib, bir neçə standart söz əlavə edənlər olur... Ola bilər!

Mən, Cəfər Cabbarlı ilə harda, necə tanış olduğumu yadıma sala bilmirəm. İndi xatirələrimin vərəqlərini çevirib uzaqlarda qalmış o illər, aylar və günləri bir-bir yoxladıqda mənə elə gəlir ki, biz onunla həmişə tanış idik. Bu tanışlığımızın axırı olmadığı kimi, əvvəli də yoxdur. Bu tanışlıq öz-özünə, elə təbii yaranmışdır ki, onun başlanğıcı deyil, özü, hərarəti, səmimiyyəti, bəzən məzəli söhbətlərdə, bəzən də sərt münaqişələrdə keçən dəqiqələrinin, saatlarının dadı, duzu qalmışdır.

C.Cabbarlı məşhur bir dramaturq, hər gün adı rəngli afişalarda görünən bir yazıçı idi. Biz hələ ədəbiyyatda yeni-yeni dar-dar eləyən gənclər idik.

Lakin Cəfər Cabbarlı ilə danışmaq, mübahisə etmək, ondan məsləhət almaq, hətta ona "məsləhət" vermək üçün rəsmi və yaxın tanışlıq lazım deyildi. Cəfər Cabbarlının bütün ömrünü saatlara bölsək, demək olar ki, bu saatların çox az hissəsi onun yuxusuna, istirahətinə, qalan böyük hissəsi isə teatrda, səhnədə, evdə, tramvayda, küçədə gedəndə onun bir laboratoriya kimi işləyən yaradıcı qəlbinin, beyninin fəaliyyətinə sərf olunurdu.

Bir dəfə Cəfərin "1905-ci ildə" pyesinin, yanılmıramsa, elə birinci tamaşalarından sonra qəzetlərin birində kəskin bir resenziya çıxmışdı. Bu məqaləciyin müəllifi Cəfəri dünyanın bütün mövcud olan və olmayan günahlarında təqsirləndirirdi.

Üç-dörd yoldaşla Kommunist küçəsi ilə üzüyuxarı gedirdik. Cəfərə rast gəldik. Dayandıq. Salamlaşdıq.

Cəfər çox hərarətlə danışmağa başladı.

"Mən nə yazsam, tənqidi əvvəldən hazırdır, – deyirdi, – siz də susub durursunuz. Cəfəri tənqid eləyəndə, maşallah, təbiniz rəvan olur. Ancaq..." Görünür, o danışmağa çətinlik çəkirdi. Bəlkə də bu, bir çəngə pambıq kimi boğazına soxulan Bakı küləyinin təsirindən idi. Bəlkə də daxili bir həyəcan onu sakit danışmağa qoymurdu.

Söhbətimiz xeyli sürdü. Mən məqalədən çox narazı olduğumu ona dedim. Elə bil, Cəfərin gözlərində bir maraq oyandı. Diqqətlə üzümə baxdı. Elə bil, məni birinci dəfə görürdü. Bəlkə də bu sözü gözləmirdi. Çünki o zamanlar bizdən də tez-tez Cəfərin əsərləri haqqında haqlı-haqsız mülahizələr yürüdənlər var idi.

Ancaq mənim dediklərim həqiqət idi. Məqalə elə insafsız, ədalətsiz və qərəzlə yazılmışdı ki, ədəbiyyatla yaxın olmayanlar da bunu hiss edirdilər.

Bir neçə gün sonra Azərbaycan Dram Teatrında çağırdığımız disputda məqalə müəllifini suya salıb çıxartdıq. Onda sağ-salamat yer qoymadıq.

Cəfər son dərəcə riqqətlənmişdi. O, gənclərin bu müdafiəsindən çox məmnun qalmışdı. Sonra bir söhbət zamanı dedi ki: "Düzü, mən elə bilirdim, elə siz də məqaləçinin fikrini müdafiə edəcəksiniz". O, *məqaləçi* sözünü bir acı təbəssümlə dedi.

Bu sözdə Cəfərə məxsus zərif bir yumor, bəlkə də bir istehza duyulurdu.

İli yaxşı yadımda deyil, onu deyə bilərəm ki, "Dönüş" pyesinin ikinci, ya üçüncü tamaşası idi. Əzizbəyov adına Azərbaycan Akademik Dövlət Dram Teatrının indiki ön səhnəsində, zaldan baxanda sağ tərəfdə görünən geniş qapının yerində loja vardı. Biz Cəfərlə bu lojada oturub tamaşaya baxırdıq. Bu vaxt onunla dəfələrlə görüşmüş, dramaturqun ayrı-ayrı əsərləri haqqında xeyli söhbətimiz olmuşdu.

Demək istəyirəm ki, bu, bizim birinci, ya ikinci görüşümüz deyildi. Oxucu soruşa bilər ki, bu zaman Cəfər Cabbarlı tanınmış bir dramaturq, on-on beş illik ədəbi təcrübəyə malik bir yazıçı idi. Rəsul Rza isə yenicə ədəbi mühitə ayaq basmış, cəmi-cümxuru beş-on şerin, üç-dörd hekayənin və bir neçə məqalənin müəllifi idi. Necə olurdu ki, Cəfər onunla ədəbi mübahisələrə girişir və əsəri haqqında ondan rəy eşitmək istəyirdi?

Əvvəla ona görə ki, C.Cabbarlı son dərəcə təvazökar bir adam idi. O, əsərləri haqqında ən adi adamların rəyini dinləyərdi.

İkincisi, o zaman Azərbaycan proletar yazıçılar assosiasiyasının böyük nüfuzu vardı. Mən də bu təşkilatın aktiv üzvlərindən biri idim. Dəfələrlə tamaşaların ictimai baxışı zamanı bizim nümayəndəmizi gözləyir, pərdəni açmırdılar. Bəli, belə vaxtlar da vardı.

Tamaşa zamanı mən ayrı-ayrı obrazlar və əsərin bəzi cəhətləri haqqında öz fikrimi müəllifə dedim. Cəfər gah gülümsəyir, gah da iri gözlü çeşməyini götürür, dəsmalla silir, sonra yenə də gözünə qoyurdu. Cəfəri yaxşı tanıyanlar bilirlər ki, bu hərəkətlərin öz dili vardır. Cəfər sənə gülümsəyə-gülümsəyə baxanda, bu, o demək idi ki, sən çox sadəlövh fikir deyirsən, sənin gətirdiyin dəlillər ciddi etiraza dəyməz, sən görünür ki, ya məsələnin nə yerdə olduğunu yaxşı dərk eləməmisən, ya da ağıllı görünmək üçün əlləmə lik eləyirsən.

Bəzən də o, tərifdən pərtləşdiyi zaman belə gülümsəyərdi.

Cəfər çeşməyini çıxarıb tez-tez silində, bu, o demək idi ki, hirslənib, həyəcanlanıb, deməli, sən ya elə ölçüyəsığmaz, insafsız söz demisən ki, bu onu qəzəbləndirib, ya da dediklərin, doğrudan da, əsərin qüsurunu düzgün ifadə edir, zərbə müəllifin sevər yerindən dəyib, odur ki, onu həyəcanlandırmışdır. C.Cabbarlının hiss və həyəcanları ancaq bu iki şəkildə təzahür edirdi demək, o, böyük sənətkarı çox məhdud boyalarla təsvir etmək olardı. Cəfərin hiss və həyəcanlarının təzahür forması sonsuz idi. Mən ancaq konkret söhbətimizə aid olan iki hərəkətindən danışdım.

Tamaşa qurtaranda mən: "Dönüş" o biri əsərlərindən zəifdir" – deyə fikrimə yekun vurdum. Cəfər həyəcanla: "Yox, yox, – dedi, – "Dönüş" mənim bu vaxtacan yazdığım və bundan sonra yazacağım əsərlərin hamısından yaxşıdır". Birdən onun səsi dəyişdi. Gözləri, elə bil ki, yaşardı. Çeşməyini çıxardığından bu gözlərdə qəribə, aciz, köməksiz bir ifadə vardı. Elə bil ki, onun qaynar, nüfuzedici və həmişə bulaqlarında xəfif bir təbəssüm gizlənmiş gözlərini dəyişib yerinə bir ana nəvazişinə, bir dost yardımına möhtac olan gözlər qoydun. Qolumdan tutdu və alçaq bir səslə: "Ata, ana öz şikəst balasını bütün övladlarından çox istəyər", – dedi.

Biz bir kəlmə söz deməyib ayrıldıq. Sonralar söhbətlərimiz zamanı mən inandım ki, bu sözlər gəlişigözəl bir söz kimi deyilməyib, o, doğrudan da, bu əsərini xüsusi bir məhəbbətlə sevir.

1960

QƏLƏBƏNİ TƏBRİK EDİRƏM, NAZİM!

Bəzən şairin kitab rəfi az qala dünyanın bütün dillərində nəşr edilmiş əsərləri ilə dolu olur, o isə kiçicik də olsa, təzə kitabının arzusu ilə yaşayır.

Bu qəribə hala az təsadüf olunur. Lakin Nazim Hikmət məhz belə şair idi.

...Soyuq qış gecələrindən birində biz Nazimin Peredelkinodakı bağında müasir dövrdə şairin xalqların həyatındakı mövqeyi haqqında söhbət edirdik. Nazimin sülh uğrunda yenilməz mübariz və dünyanın ən böyük şairlərindən biri kimi məşhur olması hamıya bəllidir. İkinci mərtəbədəki geniş otağın divarları boyunca rəflərdə Nazimin onlarca dilə tərcümə edilmiş müxtəlif formatlı və rəngarəng cildli kitabları düzülmüşdü. Belə ümumdünya şöhrəti hər kəsə qismət olmur. Lakin Nazim kədərli idi. Elə bil ki, burdakı yüzlərlə kitab onu sevindirmirdi.

Mən yarızarafat soruşdum: "Bəlkə sən kitablarının bütün qitələrdə nəşrindən narazısan?" O, gec cavab verdi. Rəflərdən birinə yanaşdı, bir kitabça götürüb mənə uzatdı. Bu, çox az ömür sürmüş istedadlı türk şairi Orxan Vəlinin toplusu idi.

Mən sual dolu nəzərlə Nazimə baxdım.

"Qardaş, – dedi, – görürsənmi, haqqımda yazan dostlarımın tez-tez təkrar etdikləri kimi mən cahanşümul şairəm. Lakin bununla belə, bu cür bir kitabçamın vətənimdə, ana dilimdə nəşr olunması səadətindən məhrumam. Mən necə kədərlənməyim".

Onu kədərli düşüncələrdən uzaqlaşdırmaq üçün mən Nazimin 1928-ci ildə Bakıda nəşr olunmuş ilk kitabını və son vaxtlarda yenə orda buraxılmış ikicildliyini xatırlatdım. Axı azəri və türk dillərinin bir-birinə çox yaxın olduğu məlumdur. O gülümsədi və dedi: "Əlbəttə, bu mənim üçün böyük xoşbəxtlikdir. Lakin mən istəyirəm ki, şeirlərimi vaxtı ilə Yunis İmrə, Koroğlu və Qaracaoğlanın ahəngdar şeirlərini dinlədiyim torpaqda – Anadoluda oxusunlar".

R.Fiş "Nazim Hikmət" adlı maraqlı bir kitab nəşr etmişdir. İnsan fədakarlığının qəmgin, lakin ibrətamiz və nikbin salnaməsi olan bu kitabı vərəqləyərkən şairə bəslədiyi məhəbbət, onun haqqında həqiqəti söyləmək səyinə görə müəllifə təşəkkür etmək istəyirsən.

Kitabı oxuduqca, gözlərimiz önündə həqiqətən bəşəriyyətin böyük şairi və milli dühanın insan səadəti, həmvətənləri türk fəhlə, kəndli və ziyalılarının xoşbəxtliyi uğrunda yorulmaz mübarizin surəti canlanır.

Biz, Nazimi uzun illər boyu tanıyan dost və yoldaşları onun haqqında çoxlu yeni şeylər öyrənirik. Nazimin kommunist, şair, insan kimi obrazını tamamlayan epizod, ştrix və təfərrüatları onu bizə daha da yaxınlaşdırır, biz onun güclü nəfəsini, həyəcanlı çağırışını, dost əlini daha böyük qüvvə ilə duyur, onun artıq aramızda olmadığını ürək ağrısı ilə düşünürük.

R.Fiş haqlı olaraq yazır: "Gec-tez açılmayan sirr yoxdur. Bu hikməti mövqeyindən asılı olmayaraq, bütün cinayətkarlar xatırlamalıdır" (səh. 268).

Müəllif sənədlər əsasında göstərir ki, polis və hakim dairələrin bütün hiylələrinə baxmayaraq, irticanın Nazimin başına gətirdiyi müsibətlər türk ictimaiyyətinə məlum olurdu. İctimaiyyətin ən yaxşı hissəsi, onun qabaqcıl nümayəndələri Nazimi müdafiə edir, dövrün böyük şairinin azad olunması uğrunda mübarizə aparırdı.

R.Fiş yazır: "O, çox məğrur idi. Heç vaxt ona necə işgəncə verildiyindən danışmazdı" (səh. 269). Halbuki, Nazimə nə kimi işgəncələr verilmirdi? Türmə, psixoloji təsir göstərmək məqsədilə göyərtədə düzəldilən güllələnmə səhnəsi, yatab, aclıq, yeni il gecəsində qəsdən edilən həbslər, çörək pulu qazanmaq imkanlarından məhrum edilmək və s.

Nazim həqiqi beynəlmiləlçi idi. Bu haqda R.Fişin kitabında maraqlı, həyəcanlandırıcı səhifələr var. Məncə, o, Nazimin məğrurluğu haqqında yuxarıda deyilən fikri davam etdirərək, aşağıdakıları yazmaqda tamamilə haqlıdır: "Bu qürur da xalis milli xüsusiyyətdir. Sonuncu türk şovinisti belə "türklərin necə qırıldığından" yox, "türklərin başqalarını necə qırdıqlarından" danışar. Türk şovinistlərinin vəhşiliklərini bütün təfərrüatı ilə bildiyimiz halda, Türkiyədə milli-azadlıq hərəkatı illərində yunan şovinistlərinin vəhşiliklərindən, bolqar monarxofaşistlərinin Bolqarıstanda milli azlıqda olan türklərə etdikləri vəhşiliklərdən xəbərsiz olduğumuza görə biz az qala unuduruq ki, türklərin vəhşilikləri kimi ispanların Latın Amerikasının istilası dövründə, ingilislərin Hindistanda, fransızların Əlcəzairdə, italyanların Həbəşistanda, rusların çar hakimiyyəti dövründə Odessadakı yəhudi qırğınları zamanı, almanların bütün Avropada, avropalıların Afrikada, yaponların Koreyada, çinlilərin Tibetdə (bunların sayı-hesabı yoxdur) törətdikləri vəhşiliklər də məlumdur" (səh. 269).

R.Fiş Nazim Hikmətin azadlıqda və daha çox məhbəs divarları arasında apardığı əzəmətli mübarizədən, sadə insanların ona necə inam bəsləmələrindən, Bursa, İstanbul, Ankara türmələrinin məhbusunu özlərinə arxa və məsləhətçi hesab etmələrindən həyəcanlı boyalarla, ağıllı və maraqla danışır.

Kitabda şairin arzusu ilə yaşadığı ölkədə – Sovet İttifaqında olarkən keçirdiyi günlərdən bəhs edən səhifələr də var.

Nazimin poetik sözü yeniləşdirmək, yeni türk şerini yaratmaq sahəsindəki həqiqətən nəhəng işindən inandırıcı, elmi sübut və maraqla danışılır.

Müəllif haqlı olaraq yazır: "Xalq kütlələrinin inqilabi əhval-ruhiyyəsini ifadə etmək, onlara qovuşmaq üçün yeni poetik vasitələr lazım idi. Və Nazim bu illərdə onları yaratdı.

Sərbəstritmli şeir yeni qafiyələnmə prinsipi, genişmiqyaslı məcazlar, ...və fəlsəfi leksika, canlı dil, nitq intonasiyası – bütün bunları türk poeziyasına Nazim Hikmət gətirmişdir. Bu qədər işi görmək üçün gündə 24 saat belə az idi".

Şübhə yoxdur ki, böyük şairin pərəstişkarları R.Fişin kitabından çox qiymətli, maraqlı, ibrətamiz şeylər öyrənəcəklər.

Nazimin göy gözlərinin əbədi yumulduğu kədərli gündən beş il keçir. Ölümündən sonra Nazimin şöhrəti daha da artdı. Onun şeirlərini ana dilində nəşr etdirmək arzusu həyata keçir. Əsərləri yalnız tam

külliyyat halında buraxılan Bolqarıstanda deyil, İstanbul və Ankarada da çap olunur.

Nazimin şeir topluları, yaradıcılığı haqqında monoqrafiyalar çıxır. Türkiyədə Vala Nurəddinin "Bu dünyadan Nazim keçdi" kitabı nəşr edilmişdir. "Mətbuat Nazim haqqında" adlı kitabda müxtəlif xalqların nümayəndələrinin Nazimə həsr olunmuş şeir və fikirləri toplanmışdır.

Hətta belə hallar olmuşdur ki, şairin şöhrətindən, oxucu kütlələrinin ona məhəbbətindən sui-istifadə edən ayrı-ayrı fırıldaqçılar guya Nazim Hikmətin yazdığı roman və povestlər nəşr etdirmişlər.

Tanınmış yazıçı Yaşar Kamalın İstanbulda nəşr etdirdiyi "Ant" jurnalının bir nömrəsi məndədir. Bu, jurnalist və ictimai xadim Zəkəriyyə Sərtəlin xatirələri dərc olunmuş nömrələrdən biridir. Xatirələrin çox hissəsi Nazim Hikmətlə bağlı hadisə və görüşlərə həsr olunmuşdur. Burdaca Nazimin şeirləri də dərc olunmuşdur.

Nazimin pyesləri hələlik Türkiyədə tamaşaya qoyulmur. Hələlik deyirəm, çünki bir neçə il bundan əvvəl nəinki şairin əsərləri, hətta adını çəkmək belə qadağan idi.

Bu yaxınlarda Türkiyədə oldum.

Burda mən yalnız dostlarım – türk yazıçıları ilə deyil, həm də başqa ziyalılarla, ölkənin sadə adamları ilə görüşdüm. Hər yerdə Nazim Hikmətə böyük, səmimi məhəbbətin şahidi oldum.

Sovet İttifaqında Nazim Hikmətin əsərlərinin müxtəlif dillərdə, o cümlədən azəri dilində böyük tirajla nəşr olunduğunu, pyeslərinin Moskva, Leninqrad, Bakı və Daşkənd səhnələrində tamaşaya qoyulduğunu, azəri bəstəkarı A.Məlikovun Nazimin librettosu əsasında yazdığı baletin ölkəmizin və xarici ölkələrin teatrlarında müvəffəqiyyət qazandığını türk müsahiblərinə dedikdə, onlar minnətdarlıqla əlimi sıxırdılar. Bu zaman mən şair – vətəndaş Nazimin ölməzliyini, ona böyük xalq məhəbbətini duydum.

Nazim vətənini sevir, onun xoşbəxt olmasını arzulayırdı. O, İstanbul haqqında dərin həyəcan və sonsuz məhəbbətlə danışırdı. Mənə elə gəlirdi ki, Nazim İstanbulun gözəlliyindən danışarkən müəyyən qədər mübaliğə edir. Mən bunu təbii hal sayıram. Kim doğma diyarından, gəncliyini keçirdiyi, sevinc və kədərləri ilə bağlı olan torpaq haqqında belə sadəlövh heyranlıqla danışmaz.

Lakin mən İstanbulu eninə-boyuna gəzdikdən sonra Nazimin bu məftunluğunu, onun şəhər haqqındakı kədər və arzu dolu söhbətlərini başa düşdüm.

Mən İstanbulu ilk dəfə 10 il bundan əvvəl bir anlığa, bir neçə saatlığa görmüşdüm. İndi isə onu daha yaxından və hərtərəfli görmək imkanım var idi.

Bəli, İstanbulu heç nə ilə müqayisə etmək olmaz. Xəlici (Qızıl buynuz körfəzi) sübh vaxtı görməyən, Bosforun qürub gözəlliyini seyr etməyən, 530 məscidin göyə yüksələn minlərlə minarəsinə heyran olmayan adam Nazimin həsrətini duya bilməz. Mən məşhur türk şairi Tofiq Fikrətin ev muzeyi "Aşiyan"da bir tələbə qızın dediyi sözləri tez-tez xatırlayıram. Nazimlə yaxın tanış olduğumu bildikdə o dedi: "Bu şəhərin övladı şair olmaya bilərmi?!"

Yeri gəlmişkən, mən bir sual vermək istəyirəm: Şair haqqında oxucu ilə necə danışmaq daha yaxşıdır. Mən başa düşürəm ki, söhbətim bir vaxt Nazimlə dayandığımız kitab rəfindən xeyli uzaq düşdü. "Literaturnaya qazeta"nın yeni, lakin artıq özünə möhkəm yer eləmiş "Dünən kitab rəfinin yanında" rubrikasına inanan oxucusu Nazimin kitabı haqqında, bəlkə də başqa şeylər eşidəcəyini gözləyirdi. Lakin, məncə, şair nasirdən fərqli olaraq ya onun poetik mühiti haqqında, ya da özü haqqında danışılmasını tələb edir.

Mən qeyri-ixtiyari Nazim ölendən bir il sonra onun Moskvadakı evinə gəlmiş qəribə bir məktubu xatırlayıram. Onu yapon uşaqları – "Min durna" cəmiyyətinin (klubunun) üzvləri göndərmişdi. Məktubla birgə gənc yapon oğlan və qızları rəngli kağızdan kəsilmiş min durna şəkli göndərmişdilər. Yapon uşaqları məktubda Nazimə müraciət edərək yazırdılar ki, o, dünyanın bütün uşaqlarını atom təhlükəsindən qorumaq uğrunda mübarizəni davam etdirsin.

Uşaqların Nazimin öldüyünü bilə-bilə ona müraciət etmələri olduqca təsirli idi. "Əziz Nazim, sizi narahat etdiyimiz üçün bağışlayın. Axı siz uşaqları çox sevirsiniz" və i. a.

R.Fiş kitabında yazır: "Yer üzündə heç bir şəhərdə hələlik onun adına küçə, yaşadığı evlərin heç birində xatirə lövhəsi yoxdur. Lakin Bursada İbrahim Balabanın iki oğlu – Nazim və Hikmət böyüyür. Və bu divarların arxasında yazılmış şeirlər dünyanın bütün dillərində yaşayır".

Bəli, bu müqəddəs həqiqətdir.

Bunlar olacaqdır. Çünki Nazim qalib gəlmişdir.

Qələbəni təbrik edirəm, Nazim!

CANLI NAZİM

Nazim Hikmət deyərdi ki, hər gün, azı, on məktub alır. Mən bu məktubları onun yazı masasının üstündə, iş otağındakı şüşə qapaqlı qəfəsələrdə çox görmüşəm. Bu məktubların coğrafi xəritəsini çəkməli olsaq, gərək şairin Peredelkinodakı yaylaq evindən və Moskvada 2-ci Pesçanındakı mənzilindən dünyanın bütün qitələrinə, ayrı-ayrı ölkələrin bir çox şəhərinə, kəndinə xətlər çəkək. Yalnız şəhərlərdən, kəndlərdən deyil, okeanlarda üzən gəmilərdən, təyyarələrdən də Nazimin adına məktublar, teleqramlar gəlirdi. Bu məktubların böyük bir əksəriyyəti şairin tanımadığı adamlardan, oxuculardan olurdu. Bu məktub müəlliflərinin çoxu gənclər idilər. Görürdün ki, həmin məktublardan bir dəstə götürüb baxır və onlarla canlılarla danışan kimi danışırdı. Üstündə müxtəlif biçimli markalar olan zərflərdəki məktublar neçə-neçə insanın sevincindən, dərdindən, arzusundan danışırdı. Nazim gah kədərli, gah həyəcanlı olan bu məktub – insanların onu ən çox düşündürən insanlığın canlı parçaları olduğunu söyləyir və təəssüflə əlavə edirdi ki, onların hamısına cavab vermək imkanı yoxdur.

Bir il idi ki, böyük şairin yaralı qəlbi əbədi susmuşdu. Nazimin Moskvadakı mənzilində onun bir neçə yaxın dostu ilə oturub Nazimin şeirlərini oxuyur, ondan danışırdıq. Bu vaxt bir kağız qovluq gətirdilər. Yaponiyadan idi. Qovluğun içində bir məktub və rəngli kağızdan kəsilib ipək sapa düzülmüş durna ülgüləri vardı. Bunları tokiolu uşaqlar – "Min durna" klubunun üzvləri göndərmişdilər. Xirosima faciəsindən sonra Yaponiyada belə klublar yaradılmışdır. Bu klubun üzvləri rəmzi olaraq "Min durna" adı ilə insanlığı atom fəlakətinə qarşı mübarizə aparmağa çağırırlar.

Məktubun mənə ən çox təsir edən cəhəti bu deyildi. İnsanlığı yeni fəlakətlərdən qorumağa çağıran yüzlərlə belə məktub indi də hər gün görkəmli sənət, elm xadimlərinin adına, redaksiyalara gəlir. Maraqlı orası idi ki, yaponiyalı uşaqlar Nazimə "Əziz Nazim, sən bilirsən ki, biz ilk atom bombasının dəhşətinə hədəf olmuş ölkənin uşaqlarıyıq". – deyə yazırdılar. Bu məktub canlı, diri Nazimə yazılmışdı. Məktubdan aydın görünürdü ki, onlar Nazimin bir il əvvəl vəfat etdiyini bilirlər. Lakin tokiolu balalar varlığın bu amansız hökmünü qəbul etmək istəmirdilər. Onlar yazırdılar: "Böyük şair, sənin xirosimalı Ölü Çocuq – yəni ölü qız haqqındakı şerini heç bir şair təkrar yazmalı

olmasın deyə, biz mübarizə edirik. Bu mübarizədə sən də bizim sıramızdasan, bizim dəstəbaşımızsan".

Əgər Nazim Hikmət – əsrimizin böyük sənətkarı sağ olsaydı, bu gün onun 65 yaşını bayram etdiyimizi gözləri ilə görərdi. Nazim yoxdur. Lakin bu gün onun ölməz sənətinin bayramıdır. Yaponiyalı balalar, "Min durna"nın üzvləri haqlıdırlar, Nazim Hikmət haqqında həmişə sıramızda olan mübariz, humanist, novator bir şairdən, canlı bir insandan danışan kimi danışmalıyıq. Mən dünən Moskvaya vurduğum teleqramı Nazim Hikmətin adına göndərdim və yazdım ki, sənin yaşayıb-yaratdığın insan yuvasına salam göndərir, təzim edirəm, Nazim, böyük sənətkar, dost, qardaş!

1967

XALQIMIN DOĞMA OĞLU

Elə sənətkarlar var ki, onlar səhrada tək qalmış ağaca bənzəyirlər. Zaman canlı həyat mənzərələri ilə onların əlaqəsini kəsmişdir, yaxında pöhrələri, uzaqda toxumlarından cücərmiş zoğları yoxdur. Belə sənətkarlar nə qədər böyük olur olsun, bədbəxtdirlər. Mən silsilədən ayrı yüksək dağ, xırda çayları qoynuna almayan böyük çay görməmişəm.

Əgər ağac obrazını şərti qəbul etsək – çünki bütün təşbehlər şərtidir – deyə bilərik ki, o sənətkar xoşbəxtdir ki, səhrada tək-tənha qalmış ağaca bənzəmir. Torpaq binəli, bahar qoxuludur, arxasında göz işlədikcə görünən qollu-budaqlı, köklü-köməcli, ondan hündür, ondan alçaq başqa ağaclar var. Ətrafında yarpaqlarının biçimi, budaqlarının şaxələri bir-birinə bənzəməyən, gövdələrinin kölgə naxışı bir-birindən fərqli neçə-neçə ağac var. Önündə yeni pöhrələr baş qaldırmışdır. Bu pöhrələrin böyük, dərin kötüklü, geniş şaxəli ağaca bənzəyənləri də var, bənzəməyənləri də. Onlardan öz görkəmi, boyu, yarpaqlarının naxışı, çiçəklərinin, meyvələrinin qoxusu ilə yeni bir mənzərə təşkil edənləri də var. Lakin bütün bunlar kökləri ilə bir torpağa bağlıdırlar, bir axardan su içirlər.

Əgər Azərbaycan xalqının ədəbi zənginliyini, həmişəyaşıl təravət və gözəlliyini itirməyən, illərin, əsrlərin hökmünə baş əyməyib, qocalmayan bir bağa bənzətsək, buradakı barlı ağaclar içərisində kökü

torpağa dərin işləmiş, yarpaqlarında daim qəlbimizə munis bir hava duyduğumuz, ətri bizə doğma vətən torpağını xatırladan bir ağac vardır ki, bu, unudulmaz şairimiz Səməd Vurğunu xatırladan ağacdır. Onun arxasında dünya şöhrəti qazanmış babaları – Nizami, Füzuli, Vaqif, Sabir, onun ətrafında qələm dostları, müasirləri, Azərbaycan sovet ədəbiyyatını yaradan böyük ordunun sıra nəfərləri, onun qarşısında onu sevən, onun sənətinin gözəl nümunələrindən öyrənən, yeni axtarışlara, yeni üfüqlərə can atan gənclik vardır.

Səməd Vurğun öz zəhməti, yüksək poetik talantı, yorulmaz qələmi ilə böyük şöhrət qazandı. O, milyonlarla oxucunun qəlbini fəth etməyin sirrini yaxşı bilən bir sənətkar idi.

Məncə, biz hələ Səməd Vurğun yaradıcılığını lazımınca tədqiq etməmiş, öyrənməmişik. Onun zəngin yaradıcılığında səthi təhlil edilmiş, yersiz tərifləmiş əsərlər var, lakin hələ əsl qiymətini almamış səhifələr daha çoxdur.

Poetik talantının yeni bir qüvvətlə qol-qanad açdığı, yazıb-yaratmaq imkanlarının geniş meydan qazandığı zamanda sıramızdan getmiş Səməd neçə-neçə duzlu sözünü, gözəl şerini, maraqlı poemasını, yeni pyesini, neçə-neçə onun və milli ədəbiyyatımızın şöhrətini daha da artıracaq əsərini sinəsində apardı. Lakin S.Vurğunun qısa bir ömür möhlətində yazıb-yaratdıqları böyük bir şair adı, qüdrətli bir sənətkar şöhrəti, uzun illər hörmət və məhəbbətlə yad edilmək üçün dönə-dönə yetər. Azərbaycan xalqı yaşayıb-yaratdıqca onun əziz şair oğlu Səməd Vurğunun adı ürəklərdə yaşayacaq, dillərdən düşməyəcək...

1966

XATİRƏLƏR DƏFTƏRİNDƏN

Səməd Vurğunla harada, haçan tanış olduğumu deyə bilmərəm. Qalaq-qalaq günlərin arxasından bu ilk tanışlıq günlərini arayıb tapmaq çətindir. Səməd Vurğunu bir şair, bir insan kimi uzun illərin axarında, əgər belə demək olarsa, pillə-pillə, səhifə-səhifə tanıdım. Mübahisəmiz, birgə mübarizəmiz, fikir, zövq uyarsızlığımız, dostluğumuz, soyuqluğumuz da oldu. Mən xatirimdə qalan bəzi epizodları xəyalımda yenidən canlandırıram.

Bu xatirələr xronoloji olmayacaq. Mənim gündəliyimə, bəlkə də aydalıq, ildəlik demək daha doğru olardı. Ayrı-ayrı qeydlərimin tarixləri arasında bəzən yaxın, bəzən də çox uzun zaman var. Vaxtaşırı edilmiş bu qeydlərdə gərəkli olanlarla yanaşı, az əhəmiyyətli, təsadüfi, ötəriləri də az deyil.

Bakı, "Kommunist" qəzetinin Stalin adına klubu. Ədəbi gecə. Mübahisələr. Bir-birini inkar edən fikirlər... Mikayıl Rəfilinin bir şeri qızğın mübahisəyə səbəb oldu.

Nəşədir yaşamaq,
Nəşədir həyat.
Alqış sənə, ey ölməyən kainat.

Mikayıl Rəfilinin bu sətirləri Səmədde kəskin etiraz doğurmuşdu. O, insanların ağır zəhmətini, yer üzündə milyonlarla adamın iztirab və məşəqqətdə yaşadığını şahid çəkərək, həyatın, yaşamağın nəşə olmadığını söyləyirdi.

Səmədin fikri ilə razı olanlar da, olmayanlar da vardı. Mehdi Hüseyn, mən M.Rəfilinin fikrinə səs verdik. Dedik ki, bütün çətinlik və iztirablara baxmayaraq, kainatda həyatın hərəkət yönü nəşəyə-sevincə, daha işıqlı günlərə doğrudur. Mübahisə bitmədi. Tərəflər öz mövqeyində qaldı. Sonralar bu mübahisələri xatırlayanda, mən bu qənaətə gəldim ki, bu fikirlərdəki uyarsızlıq, məsələnin mücərrəd, qeyri-müəyyən məkan və zamanda qoyuluşundan gəlirmiş. Hər iki fikir ayrı-ayrı baxımdan doğrudur.

Bir dəfə soruşdum ki, Səməd, niyə sərbəst yazmaq istəmirsən?

O gülümsündü: – Yazacağam, yazacağam, – dedi. Bir qədər fikirləşəndən sonra əlavə etdi: – Sərbəst şeri hələ geniş oxucu kütləsi qavraya bilmir. Doğrudur, bu formanın üstünlükləri var. Fikri dəqiq demək, yeni söz birləşməsi yaratmaqda sərbəst şeir geniş imkan verir. Lakin heca vəznində hələ də istifadə olunmamış imkanlar çoxdur. Heca vəzni ən sadə oxucuya da doğma və aydındır. Tez əzbərlənir. Bizim el havaları, muğamat kimi xalqın iliyinə, sümüyünə işləmişdir. Mən heca, bəzən də əruz vəzni ilə yazıram ki, oxucu mənə inansın, şerimi sevsin. Əlbəttə, mənim əsas yolum heca vəzni olaraq qalacaq. Ancaq sərbəst şeir forması da mənə yad deyil.

Sonralar Səməd sərbəst şeir də yazdı, həm də bu şeirlər mənə dəyəri, ictimai pafosu ilə onun yaradıcılığında müəyyən yer tutdu.

* * *

Yerevana, David Sasunlunun yubileyinə gedirdik. Ermənistan yazıçılarından bir qrupu bizi Ağstafa dəmiryol stansiyasında qarşıladı. Maşın qatarı Qazaxdan keçib Dilican yoluna çatdı.

Səməd fikirli görünürdü. Nigar soruşdu ki, ay Səməd, nə olub? Gəmilərin qərq olub, nədir? Səməd fikir içində köks ötürdü:

– Cavanlığımı yadıma saldım, – dedi, – A Niyar, bu Dilican dərəsidir, axı.

Mən bu qəmli xatirələrdən uzaqlaşmaq üçün gülə-gülə dedim:

– Yoxsa, belin bükülüb, qocalıq səni haqlayıb?

Səməd dinmədi, arıq əli ilə saçını sığalladı. Onun saçına dən düşmüşdü. Maşınımız dağ yolu ilə yoxuşa qalxırdı. Səməd dodaqaltı zümzümə edirdi:

Fələk möhür basdı düşmən deyənə,
Bəs mənim verdiyim yadigar hanı?

Bizim nümayəndə heyətinin bir dəstəsi bir gün qabaq Yerevana getmişdi. Böyükağa Qasımzadə, Mirvarid Dilbazi, yanılmıramsa, Abdulla Faruq da bu dəstədə idi. Yerevana gələndə uşaqları bir az məyus gördüm. Bizi görəndə sevindilər.

– Yetim kimi qalmışdıq, – dedilər.

Səməd:

– Biz ölmüşdük ki, siz yetim qalasınız, – deyə çırtıq çaldı, oyuna girəcək kimi əllərini qaldırdı. Hamı gülüşdü.

Tanışlar, dostlarla görüşdük. Aleksandr Fadeyev özünəməxsus sirayətedici gülüşü ilə bizi qarşıladı. Gürcüstan, Ermənistan yazıçıları ilə əl tutduq. Salamlaşdıq.

Gün günortadan xeyli əyilmişdi. Yeməkxanaya getdik. Nümayəndə heyətimizi qonaqlar və ev yiyələri alqışlarla qarşıladılar.

Bizim üçün ayrılmış stol ətrafında oturduq. Səməd hara isə getdi, bir neçə dəqiqədən sonra o, restoranın çalğıçıları ilə gəldi. Çalğıçıları süfrəmizə dəvət etdik. İlk əvvəl Azərbaycan mahnıları, sonra gürcü, rus, erməni havaları səsləndi.

Məclis get-gedə qızışdı. Səməd:

– Kirvə, bir "Yallı" ver gəlsin, – dedi.

Adamlar salonun ortasında halaylandı. Böyük bir dəstə "Yallı" gedirdi. Səməd onun həm dirijoru, həm rejissoru, həm də baş oyun-

çusu idi. "Yallı"nın ritminə uyğun tez-tez: "Ha, gözünə dönüm", – deyə ucadan səslənirdi. Qadınlar süfrə arxasından durub oynayanlara baxmaq üçün dörd tərəfdə düzülmüşdülər. Birdən Səmədin səsi musiqi səslərini yarıb ucaldı:

– Ha Varpetcan, gəl görək.

İsahakyan əlində dəsmal oynayanlara qoşuldu. Çəpik, gülüş səsləri, "ay yaşa", "vaşa", "getso" səsləri salonu tərpədirdi. Bütün bu şənliyin, bu məclisin canı Səməd idi.

Axşam şeir gecəsində tamaşaçılar Səmədi hərarətlə qarşıladılar. Mehmanxanaya qayıdarkən Səməd üzünü bizim uşaqlara tutub, gülə-gülə: "Hə, lələşinizi necə gördünüz", – dedi.

***

Samur-Dəvəçi kanalının açılışı da yadımdadır.

Səmədlə Qubaya getdik. Kanalın açılışı gurultulu, təntənəli keçdi. Axşam mehmanxanada bu günün hadisələrindən, sadə adamların hər yerdə bizə hörmət və məhəbbətindən xeyli danışdıq.

Yuxumuz gəlmirdi. Səməd həmişəki kimi narahat idi...

Samur-Dəvəçi kanalının açılışına hər birimiz bir neçə sətirlik şeir yazıb, bir növ, ürəyimizi boşaldırdıq. Təəssüf ki, o şeirləri indi axtarıb tapa bilmirəm. Bəlkə də mənim şerim Səmədin arxivindədir. Onun yazdıqlarından ancaq bu misralar yadımda qalıb:

Gün keçər, zaman gələr,
Göyərər əkilənlər.
Qəmli günlərə düşər
Özünü tək bilənlər.
Nə qədər yaşasa da,
İnsan adını almaz,
Şöhrət üçün, ad üçün
Yeddi qat bükülənlər.

Ovçuluq Səməddə bir ehtiras idi. Biz, onun ov yoldaşları Səmədlə ayaqlaşa bilmirdik. "Siz bir balaca burada qızının, mən, bax, oraya baxım, gəlim". Bu sözlərlə Səməd ovçu yoldaşlarını tonqalın yanında qoyub bir anda yox olardı. Onun "bir macal", "bir qınnax" dediyi vaxt bəzən saatlarla çəkərdi. Qayıdıb gələndə, adətən, kəmərindən, heç

olmasa, bir-iki quş asılmış olardı. Sonra hamımız yeni ovlağa gedərdik. Səməd yorulmaq nədir, bilməzdi. Ov vaxtı, elə bil, cavanlaşırdı.

Bəzən ov uğursuz olanda Səməd yorulardı. O, sərrast atar, qabağına çıxan ovu əldən buraxmazdı.

Sazaqlı bir qış günü bir neçə yoldaşla Cəngiyə getdik. Deyirdilər, Cəngidə, Bakı yolunun sağ tərəfində, təpələrin dalında, çay qırağında kəklik olur. Ovçular bilir ki, kəklik ovu çətindir. Bu çətinlik Səmədi daha artıq həvəsə salırdı. Səhərə bir az qalmış Cəngiyə çatdıq. Üç dəstəyə ayrıldıq. Sağa, sola və qabağa yol aldıq. Səmədlə mən qabaq tərəfə, çay qırağına yönəldik. Bu dəfə Reks (onun ov iti) yox idi. Bir müddət qabaq maşın altında qalmışdı. Biz irəlilədikcə hava açılır, alatoranlıq əriyirdi.

Səməd dodaqaltı nə isə deyirdi. Yaxınlaşdım. Səməd "ay Reks, ay Reks", – deyə, ah çəkirdi. Sanki onun ov həvəsi də yoxdu. Çox kədərli görünürdü. Birdən sağ tərəfdən bir kəklik pırıltı ilə qalxdı. Mən tüfəngimin qayışını çiynimdən keçirmişdim. Hə-hü eləyib tüfəngi əlimə alınca, Səmədin tüfəngi gurladı. Kəklik yerə düşdü. Səməd yaralı quşun ardınca yüyürdü. Kəklik uça bilmirdi. On-on beş dəqiqədən sonra Səməd yorğun addımlarla geri döndü. Mənə baxıb güldü.

– Səməd, niyə gülürsən? – dedim.

– Ayə, ov yerində tüfəngi dəyənək kimi saxlamazlar. Həmişə əlin tətikdə olsun.

Səmədin yaxşı yolluğu vardı. Yol boyu gülüb-danışar, zarafat eləyərdi. Bu dəfə ovumuz uğursuz oldu. Nə qədər gəzdiksə, bir sərçə də tapmadıq. Səməd dinməz-söyləməz geri qayıdırdı. Dindirəndə könülsüz cavab verirdi. Ov onunçün təkcə əyləncə deyildi. Ov zamanı sanki bütün böyük-kiçik qayğılarından azad olur, fikri, diqqəti ancaq bir şeyə – ova bağlanırdı. Ov uğurlu olanda kefi kökəlirdi.

***

Səmədin tərcüməsində "Yevgeni Onegin"in yeni nəşrini redaktə etməyi mənə tapşırdılar. Bu tərcümə ciddi zəhmətin, həvəs və ilhamın nəticəsi idi.

Puşkinin məşhur "Onegin bəndləri"ndə orijinalın özünəməxsus formasını saxlamaq çətin iş idi. Səməd bu işin öhdəsindən gəlmişdi. Bununla belə, təkrar nəşrdə ayrı-ayrı misraları dəqiqləşdirmək, bəzi yerlərdə deyimləri (ifadələri) daha da səlisləşdirmək gərəkdi.

Bunların çoxunu Səməd özü qeydə almışdı. Bəzilərini redaktə zamanı düzəltmək lazım idi.

Tərcümənin mətnində düzəlişləri Səmədlə müzakirə edirdik. Razılaşdığı da, razılaşmadığı da olurdu. Bir də görürdün ki, gecənin bir vaxtı telefon zəng çaldı. Yuxulu-yuxulu dəstəyi götürürdüm. "Ayə, bu tezdən yatarlar?" Saata baxıb: "Yaman tezdir, saat üçə işləyib" – deyirdim. Səməd gülürdü: "Ömür elə uzun deyil ki, onun çoxunu yuxuda keçirəsən. Ayə, o gündüz dəyişdiyimiz misralar belə olsa, yaxşı deyilmi?" Mən diqqətlə onu dinləyirdim. Çox vaxt yeni variantın daha səlis, daha orijinal olduğunu təsdiq edirdik. Bəzən də razılığa gələ bilmirdik. Səməd mübahisəmizi zarafatla qurtarırdı: "Görürəm yuxulusan. Gecənin xeyrindənsə, gündüzün şəri yaxşıdır".

Bu yaradıcılıq nigaranlığı Səmədin xarakterinə xas olan mühüm cəhət idi.

Bəzi əsərlərinin taleyi son illərdə Səmədi çox düşündürürdü. Müəyyən səbəblərdən poeziyamızda yaranmış birtərəflilik, müəyyən fikir, deyim çərçivəsi onun nigaranlığının əsas səbəbi idi. O, dəfələrlə söhbət zamanı ölümdən beş-on il möhlət istədiyini bildirirdi. "Sinəm doludur, yeni şeirlər yazmaq istəyirəm", – deyirdi. Bu ürək çırpıntısının şerə çevrilmiş misraları onun "Şair, nə tez qocaldın sən", "Mən tələsmirəm" kimi şeirlərində yüksək poetik ifadəsini tapmışdır.

Heyif ki, araya əbədi ayrılıq düşdü. Neçə-neçə belə gözəl əsərləri – yeni "Vaqif"ləri, "Komsomol poemalarını", "Zəncinin arzuları"nı Səməd sinəsində apardı...

1976

TORPAQ KİMİ SƏXAVƏTLİ

Əsil insan həmişə məndə torpaqla oxşarlıq hissi oyadır. Xalq min illər boyu torpağın zənginliyindən, onun meşəsindən, bulağından istifadə edir, ondan bol məhsul götürür. Ancaq torpaq dəyişməz, səxavətli və müdrik qalır. Biz deyirik: – Anamız torpağa eşq olsun!

Əsil insan xalqa özünün ürək hərarətini verir. O, xalqa əsil sevinc gətirir, insanlara yaşamaq, mübarizə aparmaq və qələbə çalmağı öyrədir. Əgər o, ictimai xadimdirsə, xalqın səadəti uğrunda ədalətli mübarizəsində məşəl olur. Əgər o, yaradıcı adamdırsa, ilhamlı sözü, musiqi rəngləri, rənglərin musiqisi ilə kütlələrdə mərdlik, Vətən məhəbbəti hissləri tərbiyə edir. O, insan xarakterlərinin dərindən dərk edilməsi sevincini bizə bəxş edir. Bizi müdrikləşdirir, təkrar-təkrar bizdə xeyirxah hisslər: zəhmət adamlarına məhəbbət, əsil insana qarşı çevrilmiş hər hansı qeyri-insani hisslərə nifrət oyadır. Əsil insanda onun azadlığa, işıqlı ideallara can atmağını ifadə edir. Biz deyirik: – İnsana, onun böyük zəkasına, nəcib mübarizəsinə eşq olsun!

Yüz, iki yüz, daha çox il yaşasa da, insan əzmi, insan qüdrəti tükənmir. O, torpaq kimi öz nemətlərini bitib-tükənməyən mənəvi aləmində mühafizə edib saxlayır.

Belə adam həyatdan gedəndə, deməli olduğu nə qədər sözü, çəkilməmiş nə qədər şəkli, bəstələnməmiş nə qədər nəğməsini özü ilə aparır. Belə adam haqqında böyük təəssüf hissi ilə deyirik: – Nə tez getdi?!

Səməd Vurğun belə insan idi. O, yer oğlu idi. Torpaq kimi mehriban, müdrik idi. İndi onun 60 yaşı olardı. O, ancaq 50 il yaşadı. Əgər onun həyat yolunu nə etmiş olduğu ilə ölçsək, onda Səməd Vurğun ömrünün onlarla adi həyata bərabər olduğu görünər. Yüzlərlə şeir, onlarla poema, neçə mənzum pyes, çoxlu məqalə... Böyük istedadlı şair-dramaturqun ədəbi irsinin ancaq üzünü köçürmək lazım gəlsə, buna illər tələb olunar. Əgər özlüyümüzdə düşünsək ki, o, bir ifadəni, bir sətri yazmaq üçün nə qədər iztirab, yuxusuz gecələr keçirmişdir, aydın olar ki, şair necə gərgin enerji, iradə və ilhamla işləmişdir.

Ancaq hər halda, Səməd Vurğun aramızdan gedəndə öz xalqına, bəşəriyyətə vermək istədiyi böyük poetik zənginlikdən, məhsuldan bizi məhrum etdi. Bəlkə, o ancaq bir dənə ölməz şeir, bəlkə təzə romantik dram, bəlkə sadə insan taleyinə həsr edilmiş poema yazacaq idi.

Səmədə yaxın olanlar, onunla tez-tez görüşənlər bilirlər ki, onun ürəyi həmişə təzə sətirlərlə, surətlərlə, ideyalarla dolu olardı.

Səməd nəinki poetik əsərlər yaratmışdır, o, həmçinin tez-tez bizim ədəbiyyatın müxtəlif problemlərinə də öz münasibətini bildirmişdir. Heç də onunla mənim fikirlərimiz eyni olmurdu. Bizim zövqi ixtilaflarımız az deyildi. Aramızda tez-tez ədəbiyyatın, xüsusilə, poeziyanın inkişaf yolları haqqında qızğın mübahisələr gedirdi. Səməd bu gün yaşasaydı, yəqin ki, indi də belə mübahisəli məsələlər tapılardı. Səməd canlı insan idi, o, Azərbaycan, eləcə də ümumsovet ədəbiyyatının taleyi ilə maraqlı idi. Bütün bunlarla bərabər, deməliyəm ki, ədəbiy-

yatımızın partiyalılığı və onun xalqa xidmət etməli olduğu haqqında bizim aramızda heç bir ayrılıq və mübahisə yox idi.

Mənə elə gəlir ki, indi də buna əminəm, Səməd Vurğunun böyük, mürəkkəb yolunu hamar, əvvəldən axıra kimi düz, əziyyətsiz sayanlar həqiqətin əleyhinə gedir, faktları təhrif edirlər.

Səməd Vurğunun gücü bunda deyildi ki, guya o, ilk illərdə də yaradıcılığının çiçəkləndiyi dövründə olduğu kimi eyni qüvvətlə, kamil şeirlər yazmışdır. Yox, Səməd poetik ürəklə doğulmuşdu, ancaq onun sənətkarlığı və istedadı gərgin zəhmət, böyük əmək nəticəsində parlamışdır. Onun bir neçə şeri var ki, – təəssüf ki, bir neçə – şair onları ölümündən az əvvəl yazmışdır. Mən belə hesab edirəm ki, bu şeirlər incə poetik müşahidələri, dilinin şirinliyi ilə, Səmədin valeh-edici poeziyasında yeni, yetkin bir mərhələdir. Bu şeirlərdən biri – "Şair, nə tez qocaldın sən?" adlanır. Kim bu şeri diqqətlə oxuyubsa, o, asanlıqla fəlakət yaxınlığında nigaranlıq çəkən insan üçün təbii olan kədəri aydın duyar. Lakin buna baxmayaraq, şerin həyatla sıx əlaqəsini, həyata bağlılığını da görər.

"Mən tələsmirəm" şerində həyatda çox görmüş, öyrənmiş, həyat təcrübəsi ilə müdrikləşmiş insan poeziya dili ilə bizimlə danışır. Bu şerin sətirləri o qədər təbii və əlvandır ki, onu hər vaxt oxuyanda elə bilirsən ki, onlar yazılmayıb, birnəfəsə nəğmə kimi oxunub. Səməd məhz bu yüksək sadəlik – iztirablar, yuxusuz gecələr hesabına başa gələn sadəliklə geniş oxucu kütlələrinin rəğbətini qazanmışdır.

Səməd o xoşbəxt insanlardan idi ki, öz mənəvi zənginliyini xalqa verdikcə, özü daha da zənginləşirdi, gəncləşirdi, onu qocalıq haqlamırdı.

"Vaqif", "Fərhad və Şirin", "Xanlar" şairin böyük dramaturgiya istedadının parlaq nümunələridir. Ancaq Səmədin dramaturqluq bacarığına hörmət bəsləməklə bərabər, mən bu fikirdəyəm ki, onun dramlarının tamaşaçıya dərin təsir bağışlaması, birinci növbədə, Səməd şerinin gözəlliyi, axıcılığı ilə izah olunmalıdır.

Səməd haqqında çox yazılmış, daha çox yazmaq olar və lazımdır.

Səməd Vurğun görkəmli ictimai xadim, publisist idi. Onun xaricə səfərindən sonra yaranmış şeirləri aydın, səlis, öz ideyası ilə snaypercəsinə hədəfə tuşlanmışdır. Onun xarici, xüsusən, London şeirlərində sovet vətəndaşının – dünya şöhrətli poeziyası, qəhrəmanlıq tarixi olan qədim Azəri oğlunun, bu gün sovet xalqlarının ailəsində yeni dünya quran xalq adından danışan bir insanın iftixarı böyük qüvvətlə səslənir.

O bizim kəndlərin sadəlövh ibtidailiyini sevir, həm də onların yeni həyatını salamlayırdı. Şair siqlətli sətirlərlə öz əllərinin əməyi ilə bütün sovetlər vətənində şöhrət qazanmış sadə azərbaycanlı qadının – Bəstinin obrazını yaratmışdır. Onun qəhrəmanları – vətəndaş və Böyük Vətən müharibəsi döyüşçüləri, Mingəçevir quruculları, neftçilər idilər. Səməd nədən yazır yazsın, bu əsərlər səmimi, həyəcanlı və ürəkdən olurdu.

Vurğun çox gözəl bir vaxtda, sovet xalqının ölkədə sosializm quruculuğu uğrunda mübarizə apardığı bir dövrdə yaşamışdır. Ancaq onun həyatı ölkənin həyatı kimi çox çətin və mürəkkəb olmuşdur. Çətin günlər, ağrı-acıların yanığı var idi, ancaq onlarla yanaşı qələbə və mübarizə sevinci, irəliyə – ən müqəddəs məqsədə can atma da var idi.

Səməd özünə Vurğun ləqəbi götürmüşdü. O öz vətəninə, öz xalqına vurğun idi. O, poeziyanı sevirdi. O, yer oğlu, təbiət övladı idi. O, qarlı dağları, ənginlikləri sevirdi. Bakını sevirdi, ona çoxlu şeirlər həsr etmişdir. Moskvanı məhəbbətlə tərənnüm edirdi. O, insanları, yaxşı, təmiz ürəkli, insan ləyaqətinin bayrağını yüksək tutan, yer üzündə insan səadəti uğrunda axıra kimi mübarizəyə sadiq olanları sevirdi. O, uzun müddət müxtəlif millətlərdən olan, müxtəlif yerlərdə yaşayan bu insanların qəlbində yaşayacaqdır.

MÜŞFİQİ UNUTMAQ OLMAZ

İllərin uzaq sahillərindən bir səs gəlir... "Gənc şair Mikayıl Müşfiq yeni şeirlərini oxuyacaq". Bu səs gözlərimizin qarşısında keçmiş günlərin maraqlı bir mənzərəsini canlandırır. Xəyalən 25 il bundan qabaqkı günlərə qayıdırıq.

Geniş salon ağzına qədər adamla dolmuşdur. İynə atsan, yerə düşməz. Şeir gecəsidir. Qarabuğdayı, ortaboylu bir cavan kürsüyə yanaşır. O, həyəcanlıdır. Rəngi bir az qaçmışdır. Dodaqlarındakı xəfif təbəssüm onun daxili nigaranlıq və həyəcanını gizlədə bilmir. Alqış səsləri dərələrdən şaqqıldayıb gələn gurultulu selləri xatırladır. Qarabuğdayı oğlan sağ əlini qaldırıb adamları sakit etmək istəyir, lakin alqış səsləri susmaq bilmir. Kürsüdə bir an səssizcə dayanan bu cavan Müşfiqdir. Mikayıl Müşfiq! O, şerinin ilk misralarını deyir. Birdən-birə salon dərin sükuta qərq olur. Milçək uçsa, eşidilər. Elə bil, şerin misraları

uzaq yollardan keçib ilıq bir bahar günü gəlmiş, çırpına-çırpına yuvasını axtaran qaranquşlardır. Bu misralar salonda qanad açır, ürəklərə qonur, könüllərə bir bahar təravəti gətirir. Gənc şair Mikayıl Müşfiq şeir oxuyur. Bəli, o, gənc idi. O, olduğundan daha artıq qüdrətli, daha gözəl bir şair ola bilərdi. Mikayıl Müşfiq! Bizim qələm yoldaşımız, dostumuz, qardaş kimi sevdiyimiz, açıqürəkli şair! O, Vətəni sevən, bütün əməkçi insanlara böyük məhəbbət bəsləyən yaxşı bir insan idi.

Onun məşəqqətli çocuqluğu, ağır, möhnətli gəncliyi olmuşdu. Körpə yaşlarından anadan yetim qalmışdı. Söhbət zamanı qəflətən biri anadan söz salanda, onun gözləri yaşarardı. O, dərin bir həsrətlə: "Mən ana şəfqətindən məhrum olmuşam", – deyərdi. Mikayıl Müşfiq uşaq vaxtlarından çörəyini əlinin zəhmətilə qazanmağa başlamışdı. Biz hərdən onu məzəmmət eləyib deyərdik: "Niyə belə çox papiros çəkirsən?" Müşfiq gülümsəyərək cavab verərdi: "Mən illərlə papiros satıb güzəranlıq eləmişəm. Papiros bir növ mənim çörək ağacım olub. Necə ona vəfasız ola bilərəm?" Bu zaman onun kiçik, qara, mənalı gözləri yumular, bu gözləri bürüyən gülüş qırışları arasında tamam itərdi.

Deyirlər ki, bizdən əbədi ayrılanlar gənc qalırlar. Müşfiqin mehriban surəti də mənim xəyalımda bu vaxta qədər cavan qalmışdır. İndi onun əlli-əlli bir yaşı olardı. Lakin mən heç cür Müşfiqi saçları ağarmış, üz-gözü qırışmış bir qoca kimi təsəvvürümə gətirə bilmirəm. Onun şeirlərini oxuyanda bir gənclik təravəti, coşqun həyat eşqi, yaratmaq həvəsi duyurdum. Ölkəsinin, xalqının səadətli günlərini böyük ilhamla tərənnüm etmək Müşfiq üçün yaşayıb nəfəs almaq kimi bir ehtiras idi.

O zamanlar "Gənc işçi" qəzetinin redaksiyası bir növ gənc yazıçıların klubu olmuşdu. Bura tez-tez yığışan, şeir, hekayə oxuyan, mübahisə və münaqişə edən gənclər arasında Süleyman Rüstəm, Abdulla Faruq, Mehdi Hüseyn, Sabit Rəhman, Məmməd Rahim və başqaları vardı. Müşfiq hamımızın sevdiyimiz və şeri əzbərimiz olan bir yoldaşımız idi. Onu yaxşı tanıyanlar bilirdilər ki, Mikayıl Müşfiqin şeirdən, sənətdən ayrıldığı bir gün, bir saat belə yox idi. Bəzən ümumi söhbət zamanı görərdin onun gözləri bir nöqtəyə zilləndi, sakit, səssiz dayandı. Belə vaxtlarda onun yanında top atılsaydı, eşitməzdi. Çünki belə vaxtlarda o, daxili aləminin dərinliyinə çəkilib, yeni şerin ilk xallarını, ilk misralarını, ilk bəndlərini yaradardı. Bəzən yazdığı yeni bir şeri gətirib bizə oxuyardı. Biz onu təbrik edər, şeri çox bəyəndiyimizi söyləyərdik. Onun qarayanız üzünün mehriban xətləri daha mülayim,

daha yaraşıqlı görkəm alardı. Lakin birdən qaşları çatılardı. Biz, onu tanıyanlar tez "yaxşıdır, yaxşıdır, dəymə" deyə qışqırardıq. Çünki onun indicə oxuduğu şerin bir bəndini, ya bir misrasını, ya da ayrı-ayrı kəlmələrini dəyişəcəyini bilirdik. Lakin Müşfiq öz fikir və xəyalının aləmində artıq bizdən uzaqlaşmış olurdu. O, əlindəki qələmlə, ya da elə-belə, dodaqlarını tərpədərək şerə əlavələr edər, onun ayrı-ayrı misralarını dəyişər, ixtisar eləyərdi. Bir neçə dəqiqə sonra şerin yeni variantını oxuyurdu. Baxırdın, doğrudan da, şerin təravəti, ahəngi, axıcılığı daha da artmış, misraları daha mənalı, daha gözəl olmuşdur. Cəsarətlə demək olar ki, Müşfiq əksər hallarda şeirlərini belə yaradırdı. Onların oxuculara necə təsir etdiyini yoxlayır, şerin dildə necə səsləndiyinə diqqət verir və lazım olduqda müəyyən dəyişikliklər edirdi. O, şeirlərini masa dalında yazmırdı. O, masa arxasına keçəndə, adətən, beynində yazıb dilində əzbər olan şeri kağız üzərinə köçürürdü.

Onun gözəl hafizəsi vardı. Yalnız öz şeirlərini deyil, başqa şairlərin də bəzən çox uzun və mürəkkəb olan şeirlərini əzbər bilirdi. Bir dəfə şairlərimizdən birinin çox quru və ilhamsız yazılmış uzun bir şerini əzbərdən oxudu. Biz təəccüblə soruşduq: "Bu cəfəngiyyatı niyə əzbərləmisən?" O, belə cavab verdi: "Əzbərləmişəm ki, buna oxşayan şeir yazmayım".

Otuzuncu illərin əvvəllərində biz, o zamankı Azərbaycan proletar yazıçıları sıralarında olan bir qrup gənc, demək olar ki, hamımız subay idik. Ata-babadan qalma "subaylıq sultanlıqdır" fikrini çox geniş mənada başa düşür və bu sultanlıqdan doyunca istifadə etmək istəyirdik. Tez-tez yığışıb şeir oxuyur, yeni çıxmış əsərlər haqqında münaqişə aparır, gəzintilərə gedirdik. Bu əyləncələr və yığıncaqlar rəsmi xarakter daşımır, onları kimsə təşkil etmirdi. Lakin, elə bil ki, bütün bu toplanışlar bizim ömrümüzün cədvəlinə görünməz bir əllə yazılmışdı. Yadımdadır, günlərin bir günü bir neçə yoldaş "Gənc işçi"dən çıxıb dəniz kənarına tərəf getdik. O zaman bulvar indikindən üç-dörd dəfə kiçik idi. Yeni bulvardakı ağaclar hələ körpə idi. Onların kölgəsi bir adamın belə üstünü örtə bilmirdi. Sahildə daşların üstündə oturmuş iki gənc gördük. Onların biri tar çalır, o biri həzin-həzin zümzümə edirdi. Hamımız dayanıb bu qəribə proqramsız konserte xeyli qulaq asdıq. Müşfiqin üzündə bir gərginlik vardı. Onun dodaqları yavaş-yavaş tərpənirdi. Biz bilirdik ki, bu dodaqları tərpədən yeni bir şerin ahəngi, yeni misralar, sözlərdir.

Gəzintidən geri dönəndə o, birdən ayaq saxladı və yeni şerin ilk misralarını dərin bir hisslə oxumağa başladı:

Oxu tar, oxu tar!
Səni kim unudar!

Adətən, adamlar qocaldıqları zaman xatirə yazmağa, keçmiş haqqında uzun-uzadı danışmağa meyl göstərirlər. Biz hələ qocalmamışıq və yaxın zamanda qocalmaq fikrində də deyilik. Mənə elə gəlir ki, həyata, insanlara, həyat hadisələrinə olan maraq söndüyü zaman, yaratmaq arzularını ərincəklik əvəz etdiyi vaxt, mübarizə həvəsini laqeydlik bir hörümçək toru kimi bürüdüyü zaman insan özünü qoca hesab eləyə bilər. Nə yaxşı ki, hələ bu hisslər bizdən uzaqdır! Amma necə olursa olsun, 25-30 il də az müddət deyil. Təbiidir ki, otuz il bundan uzaq bir zamanda qalmış gəncliyi biz xəfif kədər və riqqət hissi ilə xatırlayırıq.

Bu gün Bakının dağüstü hissəsində yeni, gözəl, böyük bir şəhərin yarandığını hamı görmüşdür. Geniş pəncərəli evlər, düz, uzun asfalt küçələr, iri meydançalar, çoxmərtəbəli binalar, bu küçələri, bu evləri dolduran insanların səsi, gülüşü, hərəkəti adamın gözünü oxşayır. Ancaq otuzuncu illərdə bu yerlərdə nə vardı? Boz qəbir daşları, toztorpaqlı, çala-çuxurlu yollar, alçaq daxmalar.

İndiki Sovet küçəsinin Park küçəsinə yönələn yoxuşunun üstündə, dik bir yerdə hamımıza gözəl komediyaları, şirin hekayələri ilə tanış olan Sabit Rəhman yaşayırdı. O, gənc yazıçılar arasında ən şux, hazırcavab və məzahlı bir adam idi. Sabit Rəhmanın bu yuxarı dağlıq hissəsində balaca bir daxması vardı. Bu elə bir daxma idi ki, necə deyərlər, içində "yel vurur, yengələr oynayırdı". Biz tez-tez Sabit Rəhmanın "guşəyi-inziva", yaxud "fərdi cənnət" adlandırdığı bu daxmaya yığışardıq. Biz Füzulinin məşhur "Duzəxə girməz sitəmindən yanan. Qəbili-cənnət deyil əhli-əzab" misralarını oxuyardıq, gülüşərdik. Müşfiq isə əlavə edərdi: "Sabit, sənin bu otağında yaşayana min il cəhənnəm əzabı yoxdur". Bəli, o günlərdən nə qədər xatirələr vardır!

Müşfiq şeirlərinin əksəriyyəti nəğmədən seçilmir. Onun bəstələnmək üçün yazdığı xüsusi nəğmələri də vardır. Nəğmələrin sayı hələ çox deyil. Lakin mən əminəm ki, hörmətli bəstəkar dostlarımız Müşfiq

şerinin təravətini musiqi dili ilə xalqımıza çatdırmaq üçün yaxın zamanlarda yeni nəğmələri ilə bizi sevindirərlər. Gözəl hiss, axıcılıq və məna zərifliyi ilə zəngin olan Müşfiq şeirlərində yeni nəğmələr üçün nə qədər gözəl material vardır! Bu vaxta qədər Müşfiqin şerinə yazılmış nəğmələr dilə-dodağa yatan, çox tez yadda qalan, oxumlu nəğmələrdir. Mən bir neçə ildir ki, Müşfiqə həsr etdiyim poema üzərində çalışıram. İndi bu poema bitmişdir. Onun nə qədər müvəffəqiyyətli olub-olmadığını oxucular deyərlər. Mən bunu qeyd etmək istəyirəm ki, poemanın ilk xalları məndə ruhi bir ehtiyacdan, ürəyimi dolduran sözləri səsim gəldikcə demək, hamıya eşitdirmək ehtiyacından doğmuşdur. Mən onu ürək ağrısı ilə, həsrətlə, yana-yana yazmış, yaza-yaza yanmışam...

1955

AZƏRİ XALQININ SEVİMLİ ŞAİRİ

Xatirələrin incikli yolları, bu günlərdən aralı yolları var. Bəzən bu yollarla geriyə, günlərin arxasında qalmış uzaqlara qayıtmalı olursan. Xatirələr vərəq-vərəq çözülür. Sevinclər soyumuş, iztirablar səngimiş, həyəcanlar ləpəsiz sular kimi sakit, istək-arzular susmuş görünür. Yeni arzular, həyəcan, yeni sevinc və qayğılar baş qaldırır. Düşünürəm: zaman necə amansızdır. Hər şeyi öz gücünə tabe edir. Hər şeydə izini buraxır, təkrarsız günlərin qaynarını uzaqlaşdırır. Bir vaxt dözümü qeyri-mümkün görünən könül yanğılarına bizi alışdırır, biganəliyə, laqeydliyə deyilsə də, təsəlliyə vərdişlədir.

Bu adi məktub deyil. Məktubun ünvanı olar. Bu məktub ünvansız, bəlkə də çoxünvanlıdır. Məktubu canlılara, var olanlara yazarlar.

İndi sənin altmış yaşın tamam olur. Nəğmələrinlə minlərlə ürəkdə yaşadığın, bəzi insan ülfəti, insan səadəti, insan ləyaqəti ilə zəngin günlərə çağırdığın vaxtdan neçə on il keçib. Mən bu məktubu sənə, vətənimizin şair oğlunun canlı anımına yazıram. Ayrıldığımız o gündən 32 il keçir. Bu illər sənin ömrünün çoxu olardı. Onda sənin 29 yaşın vardı. İndi altmış yaşın. Onda sənin ümidlərin, arzuların vardı, yaşamaq, yaratmaq həvəsin vardı. İndi səndən keçmiş zaman kateqoriyası ilə söhbət açırlar. Gözəl şair idi. Yaxşı insan idi. Sədaqətli dost

idi, deyirlər. Bu sözləri şairdir, insandır, dostdur sözləri ilə əvəz etmək bizim imkan və iqtidarımızdan kənar olduğundandır ki, o nisgilimiz ovunmaz, ürək ağrılarımız susmaz olardı, sənətin qəlbimizi qürur hissi ilə doldurmasaydı. Sən uzun bir ömür yaşaya bilərdin – yüksək poeziyanın sevincini, sözün təravətini, idrak kəşfini bahar çiçəkləri kimi insanlara bəxş edə bilərdin. Sən ən kiçik incikliyini, ən körpə arzusunu nadir bir həssaslıqla duyduğun doğma xalqının həyat səhifəsində yeni-yeni imzasını görmək üçün hər fədakarlığa hazır idin. Sən bütün varlığınla vətənə, xalqa, insanlara bağlı idin.

Bu dünyanın iki qapısı var, deyirlər, birindən girir, birindən çıxırlar. Bir insan yoxluğu ilə dünya boşalarmı?! Sənin yoxluğun mənə dərin, hüdudsuz bir boşluq kimi gəldi. Nə əlim çatdı, nə ünüm yetdi sənə. Biz sındırılmış budağı, yandırılmış bir çiçəyi, cırılmış bir vərəqi görəndə kədərlənir, bu kiçik, böyük ziyankarlıqların adlı-adsız müəllifinə nifrət və qəzəbimizi bildiririk. Sındırılmış budaq, pöhrə yenidən göyərir, tapdalanmış çiçək sulanıb, sığallanıb yenidən rəngini, təravətini qaytarır. Sən insan idin. Səni heç bir qüvvə qaytara bilməz. Bu gün, altmış illiyində sıra-sıra, üst-üstə yığıla biləcək kitablarının çoxu yoxdur. Bu kitablarda, sayı neçə-neçə səhifəni doldura biləcək şeirlərini sən özünlə apardın. Onlar ağır, acı günlərin iztirablarında əridi, itdi, bir aha, bir həsrətə, bir neçə damla göz yaşına döndü.

Bu iki qapı arası – ömür yoludur, həyatdır. İnsan ağlaya-ağlaya dünyaya gəlir. Yaşayır, mübarizə edir, çalışır, yaradır, ömrün acısını, şirinini dadır. Bu uzun, ya qısa yolu – iki qapı arasını keçib gedir. Bu yolda acizlərin, kölgə adamların ləpiri qalmır. Ömrün qaba daşlarında iz buraxmaq hər kəsə nəsib olan səadət deyil.

Xalq deyir: "İgid gedər, adı qalar". Sən getdin, adın qaldı. Sən dünyaya gələndə bir qurtum ana südü, bir ciyər nəfəs üçün ağladın – bütün insanlar kimi. Lakin sənin şerin, sözün insanları səadətə, könül dolusu sevincə çağırdı.

İnsan var ki, onu görməyənlər görmək, tanımayanlar tanımaq istəyər, onun ayrılığına ürəkdən yanar, ürəkdən ağlayar, onun adı, işi ilə fəxr edərlər. Sən belə bir insan, belə bir dost, belə vətəndaş idin.

Bu gün, altmış ilinin bu tayında sənin anım gününə nə göz yaşı, nə ah-zar yaraşır. Sən sıramızdasan. Bu, böyük bir təntənə bayramıdır – xalqın öz şair oğluna sonsuz məhəbbət bayramı.

Əziz dostum, qardaşım Müşfiq!

Mən bir neçə gün əvvəl sənin küçənə getdim. Bakıdakı Mikayıl Müşfiq adlı küçəyə. Bu küçənin aşağı və yuxarı başındakı çoxmərtəbəli evlərə baxdım. Sənin bir zamanlar yaşadığın daxma yadıma düşdü. Sən bu məhəllənin oğlu idin. İnsan işıq sürətinə qalib gəlib, keçmiş günləri vaxtın nisyan aləmindən qaytarmağı bacardığı gün, bəlkə sənin də səsini yenidən canlandıracaq – bu məhəllədə, bu küçədə "Günəbaxan tumu alın!", "Papiros alın!" səsini, ilk şerinin yeni ayaq açan körpə kimi büdrəyən misralarını.

İndi bu məhəllə yeni bir şəhər olmuşdur. Neçə kəhrəba işıqlı evli, yaraşıqlı bir şəhər.

O gün, Bakıda azad qadın heykəlinin sol yanında yeni geniş binada, siniflərində neçə yüz məktəbli balalar oxuyan məktəbdə, Mikayıl Müşfiq adına məktəbdə, bu məktəbin ad günü bayramına toplanmış böyük yığıncaqda uşaqlar sənin şeirlərini necə həyəcan və həvəslə oxuyurdular.

Bu şeirləri dinlədikcə sən gözlərimdə canlanır, böyüyür, real bir surətə dönürdün. Yoxluğun amansız bir həqiqət olmasaydı, deyərdim gedək, qədim Gəncənin ən geniş, ən yeni küçələrindən birində, Mikayıl Müşfiq adını daşıyan küçədə "Füzuli" məktəbinə gedək. Sevdiyin böyük şairin adı ilə şərəflənmiş məktəbdə yeni şeirlərini oxu! Sonra M.Müşfiq adlı Altıağac sovxozunda şeir həvəskarları ilə görüşək.

Bu gün hansı kitabxana, hansı məktəb var ki, orda sənin şeirlərin əzbərlənməsin, sənin şeir kitabların əldən-ələ gəzməsin. Hansı şənlik, hansı bayram, hansı toy-düyün var ki, orada sənin nəğmələrin səslənməsin.

Bu, qalibiyyətdir, Müşfiq! Şerin, sənətin qalibiyyəti, ədalətin qalibiyyəti. Bu, unutqanlığa, tənə daşlarına qalib gəlmək deyilmi! Bu, sənin bayramın, bizim bayramımız, hər nisgilə üstün gələn bir xalq bayramıdır.

Biz, sənin vaxtdaşların, sənətdaşların, əməl, iş qardaşların sənin altmış illiyinə xalqın böyük məhəbbəti, minlər, yüz minlərlə insanın səni anmaq, səni qəlbində yaşatmaq arzusu, öz gözəl şairini, alovlu nəğmələrini heç bir zaman unutmamaq əzmi ilə gəlmişik. Sən Vətən oğlu, xalq şairisən, xalq, Vətən səni unutmaz.

1969

MÜŞFİQ... MÜŞFİQ...

Bu əziz günlərdə onu salamlamaq, bağrımıza basıb "neçə-neçə belə bayramlar görəsən" demək əvəzinə, nəsibimiz əbədi həsrətli, kədərli xatirələr oldu. Əbədi həsrətli deyirəm, çünki artıq heç bir qüvvə onu bizə qaytara bilməz. Bizdən heç kəs ona heç bir şey deməyə qadir deyil, ona candan artıq sevdiyi vətəninin bu günündən, qardaş dediyi insanlardan, xalqının yeni nəslindən xəbər verə bilməyəcəyik...

O, gənc yaşlı, sinəsi şeir, söz dolu, arzuları, istəkləri, həyəcan və həvəsi ilə birlikdə yolları kilidli uzaq-uzaqların əzabxanalarında susmuş bir şair kimi, kövrək təbəssümlü, nigaran baxışlı, saf ürəkli, geniş könüllü, xalqın əziz və nakam oğlu Müşfiq kimi yaddaşımızda qalacaqdır.

Biz onunla əl-ələ verib, ana qoynu kimi əziz Bakının, qədim Gəncənin Mikayıl Müşfiq adlı küçələrində gəzə bilməyəcəyik. Biz onun adını iftixarla daşıyan yerlərdə bayram təntənələrini birlikdə keçirə bilməyəcəyik.

Bəli, bizə qalan əbədi həsrət oldu.

Bir gün, bir saat, bir dəqiqə ona səsimiz çatsa, ünümüz yetsə, ən tutumlu, ən zərif, ən həyəcanlı ürək sözlərimizlə, Müşfiq şerinin dili – Füzulinin, Sabirin, Nərimanın ölməz dili ilə ona nə qədər fərəhli xəbərlər verə bilərdik. Onun cild-cild kitablarını, dalğa-dalğa nəğmələrini, onun şerini dinləmək üçün yüz-yüz salona toplanan insanları nişan verər, deyərdik: "Əziz dostumuz, qardaşımız, xalqımızın şair oğlu Müşfiq! Həsrətin əbədi olsa da, sən heç zaman, ən mümkünsüz günlərdə belə, bizdən ayrı olmamısan, deyilsən, olmayacaqsan!"

Kədərli xatirələr dedim. Bu xatirələr yalnız öz-özlüyündə kədərli olduğu üçün deyil, həm də qayıtmaz, təkrarsız olduqları üçün, ötüb keçmiş ömrümüzdən bir parça olduqları üçün kədərlidir. Bu xatirələr əziz, mehriban, qiymətli, unudulmaz bir dostumuzla, Mikayıl Müşfiqlə əlaqəli olduğu üçün kədərlidir.

Mikayıl Müşfiq sağ olsaydı, onun altmış illiyi ərəfəsində ki şənliklərdə şair özü də iştirak edərdi. Çox sevdiyi dostlarının, oxucularının yanında olardı. Yeni şeirlərini oxuyardı. Onun nadir talantını sevənlərə yeni sevinc, yeni estetik zövq verərdi. Şair Müşfiq, vətəndaş Müşfiq sıramızdadır, canlı Müşfiq yoxdur. Bu yoxluğun ağrısı, acısı, kədəri var. Bu acılar, bu ağrılar adı ölkə-ölkə gəzən, sənəti xalqımızın yaradıcılıq xəzinəsində bəslənən şairin gündən-günə artan şöhrəti ilə

birgə yaşayır. Mən bu gün şair Müşfiq haqqında, sənəti ilə yaşayan, xalqa, doğma vətənə məhəbbəti ilə yaşayan, mərd Müşfiq, şair kişi haqqında bir neçə söz demək istəyirəm. Mən minlərlə oxucu qarşısında Müşfiqə müraciətlə danışıramsa, onun nakam getdiyini, onun qısa ömrünün uzun iztirabını unutduğum üçün deyil, onu həmişə canlı, qaynar fəaliyyətdə, xalqın işi, taleyi ilə qırılmaz tellərlə bağlı bir vətəndaş bildiyim, duyduğum üçün belə edirəm. Xalq yaşayır, Müşfiq də yaşayır. O, Azəri xalqının şair oğludur, bu xalqın şerindən, nəğməsindən onun unudulmaz səsi illər keçdikcə daha gur eşidiləcəkdir, illər keçdikcə biz Müşfiqi daha dərindən, daha yaxşı tanıyacağıq.

Müşfiq, bizsiz dost! Biz sənsiz səni xatırlayırıq. O soyuqlu qışı, 1936-cı ilin şaxtalı axşamını unutmaq olarmı? Sabir bağının yanında üzü yuxarı gedirdik. Əlləri cır-cındır pencəyinin qolunda itmiş kilkəbaş bir uşaq "papus-papus" deyə qabağımızı kəsdi. Sən yerə mıxlanmış kimi birdən dayandın, elektrik işığında titrəyən əli ilə əzik papiros qutusunu sənə uzadan uşağa baxdın, iri kağız pulu ona verdin və papirosu almadan əsəbi addımlarla yoluna davam etdin. Mən, soyuqdan artıq heyrətdən donmuş uşağı, əlində pul, gözləri həm sevinc, həm heyrət dolu uşağı durduğu yerdə qoyub özümü sənə yetirdim. Üzünə baxdım, gözlərindən sakit-sakit süzülən göz yaşları yanağından aşağı axırdı. Sən bu yaşları silmirdin. Üzü yuxarı gedə-gedə sən keçmiş ömrünün kədərli bir səhifəsini açdın.

– Belə şaxtalı gecələrdə, qızmar günlərdə nə qədər "ay papiros" geyə küçələri dolaşmış, birgünlük çörəyimi qazanmağa məcbur olmuşam, – dedin. – Hətta müştəri cəlb etmək üçün "papiros şeirləri" də qoşurdum:

"Gəl ay müsəlman, urus
Əla, xoroşi paprus".

Bir ah çəkib xatirələrə son verdin. "Görəsən, belə bir gün gələcəkmi ki, insanlar hamısı xoşbəxt yaşasın?" – dedin.

O günlərdən çox keçmişdir. Müşfiq, hələ də sənin arzun bütün yer üzündə həqiqət olmamışdır. Lakin olacaq. Əlbəttə, elə bir gün gələcək ki, insan – səadət sözləri sinonim olacaq. Əgər belə bir gün, tez-gec gəlməyəcəksə, yaşamağın nə mənası! Əgər hər işimiz, hər addımımız belə bir günü yaxınlaşdırmırsa, şərəfli insan adını daşımağa nə haqqımız var!

Sən də, sənin şeirlərin də belə bir gün uğrunda mübarizə aparanlar sırasında olduğunu bu gün biz daha aydın duyuruq.

Yuxarı məhəllədəki alçaq ev yəqin ki, sənin itkin düşmüş qeyd dəftərində aydın xətlə yazılmışdı.

Puşkinin "Yevgeni Onegin" kitabını kitabxanadan sən götürmüşdün. Əvvəlcə, "Moy dyadya samıx çestnıx pravil" sətrindən başlanan parçanı tərcümə etmək istədik. Sonra "zanemoq" sözünün mənasını uzun-uzadı axtardıq. Nəhayət, bu qərara gəldik ki, "Tatyananın məktubu"nu tərcümə edək, sonra bütün əsəri. "Məktubu" tərcümə etdik. Bütün əsəri? Sənsiz?

Sən bu sözün nəcib mənasında nə qədər "vasvası" idin. Hər sətri on dəfə yazıb-pozurdun. Günlərimizi bölürdük. Hər gün 4-5 saat tərcüməyə ayırırdıq. Bir dəfə vədləşdiyimiz gün gəlmədin. Səhəri səni məzəmmət etmək istəyirdim. Yeni şerini oxudun. – "Puşkin günahımdan keçər", – dedin. – Tərcümə əvəzinə öz şerimi yazmışam". Mən də: – Əlbəttə, keçər! – dedim.

Olsun ki, bu "Küləklər" şeri idi, bəlkə də başqa şeir idi. Hər halda, ağır təqsiri əfv etdirməyə qadir bir şeir idi. İndi sağ olsaydın, yəqin ki, o şeri əzbərdən oxuyardın. Axı sən yaddaşda bir fenomen idin.

Deyəsən, "Demon və Tamara"nı da bu vaxtlar tərcümə etdik. Mən bu tərcümələr zamanı səndən çox şey öyrəndim. Sən rus dilini yaxşı bilmirdin. Bədahətən dediyin o məşhur rusca misralar buna misaldır. Bulvarda pivə içdiyimiz zaman demişdin.

"Madam, dayte qorox dlya nam!"

Xeyli gülüşdük.

Bəli, rus dilini yaxşı bilmirdin, lakin şeri, bədii məntiqi o qədər dərin duyurdun ki, mübahisəmizdə haqlı çıxdığın az olmurdu. Sözarası deyim ki, mən də o zaman sənin və xatirəsi əziz, böyük şair Cavidin gözündə "rus dili mütəxəssisi" idim. Əslində mən də çox sözü lüğətdə axtarır, bəzən də harda axtarmaq lazım olduğunu da yaxşı bilmirdim.

Sonralar mən "Demon"u yenidən işləməli, bəzən də ehtiyac yox ikən, dəyişməli oldum. Kim bilirdi, bir də sənin adını mətbuatda çəkə biləcəkdikmi? Dostlar, səni tanıyanlar, şeirlərinə az-çox bələd olanlar arasında sən həmişə vardın. Sən həmişə Azərbaycanın alovlu şairi Mikayıl Müşfiq idin. Lakin bu az idi. Axı sən "Tar" müəllifi idin.

Oxu tar, oxu tar!
Səni kim unudar!

Sənin ayrılığın, sənin həsrətin mənə "Qızılgül olmayaydı" poemasını yazdırdı. Bu yanıqlı, gileyli sətirlərdə mən yalnız öz qəlbimin ağrılarını deyil, xalqın qəlbində yaşayan Müşfiqin obrazını da verməyə çalışmışam. Müvəffəq olub-olmadığımı deyə bilmərəm. Lakin bu mənim bir qardaşlıq, bir vətəndaşlıq borcum idi. Yazdım.

1968

SABİT RƏHMAN HAQQINDA

Sabit Rəhman mənim ən qədim, ən yaxın dostumdur. Biz onunla gəncliyin qaynar günlərini də, qocalığın soyuqlarını da bir yerdə keçirmişik. Sabitlə bizim aramızda çoxlu məktublaşma olub. Lakin bu məktublar o qədər məzəli, zarafatlı və çox zaman heç kəsin anlaya bilməyəcəyi ştrixlərlə doludur ki, onları nəşr etmək, ya onlardan nümunə vermək mümkün deyil. Sabitlə mən otuzuncu ildə tanış oldum. O zaman cavan şeir, sənət həvəskarları arasında "Gənc işçi"lər dəstəsi vardı. Bu dəstə rəsmi bir təşkilat, bir ədəbi məktəb deyildi. Bu, sadəcə xasiyyəti, zövqü, sevinc və kədəri bir-birinə yaxın olan bir neçə gənc idi. Bu dəstədə Mikayıl Müşfiq, Abdulla Faruq, Mehdi Hüseyn, Sabit Rəhman vardı, bir də mən. Biz hamımız "Gənc işçi" qəzetinin redaksiyasında çalışırdıq. Bu gənclər içində Müşfiqi həmişə "şair", Mehdini "tənqid", Abdulla Faruqu "istiot", Sabiti "məzəli oğlan" adlandırırdıq. Mənə "anti vəzn", gah da "sərbəst" deyirdilər.

O vaxt Sabit şeir yazırdı. Şeirlərindən biri "Bakı şurasına ərizə" adlanırdı. Bu şeirdə Sabit mənzildən necə korluq çəkdiyini yazırdı. Şeri "Gənc işçi"də mən, Mehdi, Müşfiq, Sabitlə birlikdə redaktə etdim. Sabit hamıdan çox iti söz deməyi bacarırdı. Şeir çox duzlu yazılmışdı. Redaktədən sonra bir də oxuduq. Bir səslə qərara gəldik ki, şerin ilk variantı daha yaxşı, daha kəskin və təsirlidir. Sabit bir şeir də yazmışdı, orda belə misralar vardı:

Qolçomağın qarnının
üstündə

qah-qah çəkir
traktor.

Bu şeir o zaman yazılmış standart-publisistik "birgünlük" şeirlərdən idi. Şeir qəzetdə çıxanda gördüm ki, Sabit şeri mənə ithaf edib. Bu da bizim zarafatlarımızdan bir nümunə idi.

Sabitin mənzil şikayəti, demək olar ki, realist bir əsər idi. O zaman Sabit yuxarı məhəllədə "əl vurma, uçar" bir daxmada yaşayırdı. Biz işdən azad vaxtımızın çoxunu orda keçirərdik. Otuzuncu illərin ortalarında Sabitlə Moskvaya oxumağa getdim. Bir neçə il orada ümumi yataqxanada yaşadıq. Hər gün görüşür, söhbət edir, yazılarımızı birbirimizə oxuyurduq.

Sonralar Sabitlə kino sahəsində çalışdıq. Onun ssenarisi üzrə çəkilən "Arşın mal alan" filminin əziyyət və sevinclərini bir yerdə çəkdik, birlikdə duyduq.

Sabit təxminən 1931-32-ci illərdə şerin daşını atdı. Nəsrə, sonra da dramaturgiyaya keçdi. Onun duzlu, məzəli, sadə və səlis dili, hadisələrdə hədəf nöqtəsini tapıb satirik qələmlə, məharətlə onu qamçılaması mənim həmişə xoşuma gəlmişdir. Sabit çətin yaradıcılıq yolunda dəfələrlə tənə daşlarına hədəf olmuşdur. Onun "Vəfasız" kimi klassik povesti kəskin tənqidlə qarşılandıqda, Sabit özünəməxsus təmkinlə bu "vur-haraya" dözdü və yolunu, yaradıcılıq prinsipini itirmədi.

Mən Sabiti bir yazıçı, sədaqətli dost, doğma qardaş kimi sevirəm.

DOSTUMUZ, QARDAŞIMIZ

Əziz dost! İllər nə tez keçdi. Gəncliyin qaynar günləri nə tez xatirələrə döndü, uzaqlaşdı, harda isə illərin, ayların sahilində qaldı. İndi heç bir qüvvət, heç bir hökm onları – arzularla, ümidlərlə dolu o günləri geri qaytara bilməz. Doğrudur, gözəl arzularımızın çoxu həqiqət oldu, ümidlərimiz ömrümüzün səhifələrini bəzədi. Lakin hər yaşın bir dünyası, bir aləmi var. Könül dolusu həvəs o əziz günlərdə qaldı. Hanı şəvə kimi qara qalın saçların? Hanı səhərdən axşama, axşamdan səhərə qədər ardı-arası kəsilməyən, gülüşlü, mübahisəli söhbətlərimiz?

Sabit, qardaşım, sən nə xoşbəxtsən ki, həm sənin üçün, həm dostların üçün əziz olan bu gündə alnıaçıq, doğma xalqının üzünə baxıb

"Mən, şüurlu ömrümün bir gününü də sənin səadətin uğrunda mübarizədən kənarda keçirməmişəm" deyə bilirsən. Bundan böyük səadət olarmı?

Mən hər zaman sənin haqqında düşünəndə gözümün qabağına bir təbib obrazı gəlir. Elə bir təbib ki, o, insanları incidən, onların ömrünü məşəqqət və məhrumiyyətlərə salan xəstəlikləri böyük bir təmkinlə müalicə edir. Sənin müalicə vasitən bəzən acı, bəzən kəmşirin, bəzən qəzəbli, bəzən mehriban, bəzən öldürücü, bəzən xilasedici kimi sakitliklə və dincliklə təsir edən gülüşdür.

Sən insan ruhunun qayğı çəkən, geniş və nəcib ürəklər təbibi kimi neçələrini müalicə etmiş, sağaltmışsan. Çox zaman biz sənin həqiqi, böyük istedadla yaratdığın əsərlərə baxıb ağızdolusu gülərkən bu yumşaq qamçıların bizə də dəydiyini, bizim də qəlbimizdə, bəlkə də hələ çox kiçik, çox əhəmiyyətsiz olan qəbahətciklərə dəydiyini hiss etmirik, bizim də daxili aləmimizdə başlamış və ya başlayan ayrı-ayrı "mənəmliklər" toxumunun gülüş sənətinin ecazkar yandırıcı qüvvətiylə silinib getdiyini birdən-birə duymayırıq.

Mən inanıram ki, bir zaman bizim müasir ədəbiyyatın qüvvəti və dəyərini öyrənmək üçün yaşadığımız günlərin tarix olmuş səhifələrini çevirən nəsillər, bədii sözün xalq şüuru, xalq mənəviyyatı, xalqın yaradıcı qüdrəti üzərindəki təsirini öyrənmək istəyən övladlarımız, nəvələrimiz sənin Azərbaycan sovet ədəbiyyatında açdığın yola, Azərbaycan sovet komediyasının yaranmasında göstərdiyin fəaliyyətinə, sənin əllərinlə qoyulmuş təməl daşlarına baxdıqda klassik irsin yalnız uzaq keçmişdə deyil, yaxın bu günümüzdə də yarandığına inanacaqlar.

Mən hər zaman sənin haqqında düşünəndə dostluq, səmimiyyət və yoldaşlığın böyük mənasına yeni bir qüvvətlə inanıram. Qoy elə bilməsinlər ki, bizim dostluğumuz buludsuz bir göy kimi həmişə sakit və cansıxıcı olmuşdur. Yox, biz sənlə bir insan, bir vətəndaş, bir yazıçı kimi dost olmuşuq. Mübahisələrimiz də olub, bəzən bir-birimizdən incimişik də. Bəlkə də məhz ona görə bu dostluq müəyyən ülgüyə uydurulmuş, cansız, qansız olmadığı üçün ömrün-günün sınağından şərəflə çıxmışdır. Bu dostluq bizim əsrin, sovet varlığının böyük həqiqətinə bağlı, Vətənimizin talc və səadətinə bağlı, xalqımızın müqəddəratına bağlı olduğu üçün bu gün də gənc və qüvvətlidir. Biz sənlə yarım əsrlik bir ömür keçmişik. İndi bizi bəzən "müəllim", bəzən "əmi", bəzən də "qardaş" deyə çağırırlar. Bəlkə yaxın zamanda bizə

"baba" dedilər. Nə desən olar!.. Lakin mən sənin yaradıcı qüdrətinin heç bir zaman qocalmayacağına inanıram. Mən həmişə sənin əsərlərinə baxanda, oxuyanda, söhbətini eşidəndə, müraciət üçün bircə söz bilirəm: "Cavan oğlan!"

Sənin gülüşündəki gənclik təravəti, fikrindəki gənclik təmizliyi, həyata baxışındakı nikbinlik, bitmək, tükənmək bilməyən, cingiltili, zərif, mənalı, orijinal, insanı fikir və qayğılardan bir anda xilas etməyə qadir olan həyat sevgisi ilə dolu muzahın – bunlar hamısı sənin ruhən gənc, hər cürə ürək, əsəb xəstəliklərindən uzaq olduğunu göstərir.

Yaşa, qardaşım! Hələ bir yarım əsr də yaşa, sən xalqıma, Vətənimə, çox lazımsan.

1960

SÜLEYMAN RÜSTƏMİN QƏZƏLLƏRİ HAQQINDA

Musiqi ilə şeir ekiz doğulmuşdur. Kamil bir musiqi əsərini dinlərkən insanın gözündə ülvi bir şerin yaratdığı zəngin mənzərələr, insan səadət və iztirabının unudulmaz lövhələri canlandığı kimi, şerin ahəngdar misraları da qulaqlarda ən munis, ən gözəl bir musiqi kimi səslənir.

Şeirlə musiqinin bu yaxınlığı yalnız sözlərin, vəzn və qafiyənin musiqisi və musiqinin şeriyyət dolu incəliyi deyil, bəlkə ən əvvəl bu iki sənət növünün mənəvi yaxınlığından doğur. Bu mənada qəzəl şerin ən çox muğamata yaxın formasıdır.

Ölməz Füzulinin hər qəzəli öz mənası ilə bizi heyran qoyduğu kimi, öz musiqisi ilə də qulaqlarımızı oxşayır, qəlbimizi titrədir, ruhumuzda alovlu bir iz buraxır. Füzuli qəzəlindəki yüksək musiqi qammalarını yalnız əruzun ahəngində, qafiyələrin harmoniyasında aramaq səhv olardı. Füzuli qəzəli bir sənət növünün çərçivəsinə sığmayan qüdrətli bir ilhamın həm danışan, həm də səslənən lisanıdır. Bəlkə bu səbəbdəndir ki, hələ də Füzuli qəzəlinin səviyyəsinə qalxan bir qəzəlçi şair olmamışdır.

Bahar Şirvani kimi az tanınmış, fəqət sənətkarlıq qüvvəti ilə Azərbaycan torpağının yaratdığı ən müqtədir sənətkarlardan olan bir şair belə nadir qəzəllərində ancaq Füzuliyə bənzəyə bilmək kimi bir şərəfə yetə bilmişdir:

"Yetdikcə gül dodağına mey bilməzəm alır,
Meydən dodaq nəşəni, ya mey dodaqidən".

Bu misraların təravəti Füzuli qəzəlinin çiçəklərindən gələn rayihələrdən yaranmışdır. Bu şerin musiqisi Füzuli şerinin füsunkar çeşməsinin səsidir.

Həssas bir qadın qəlbinin incə tellərindən qopan könül iniltiləri belə, Natəvanı Füzuli şerinin səmalarına qaldıra bilməmişdir.

"Sənin bu hüsnünə aid heyif ki, əhdin yox,
Bu yaxşı şivə deyil, olma bivəfa ey, dost".

Bəlkə də ədəbiyyatımız Füzuli kimi insan könlünün eşq və ələm ensiklopediyasını yaratmış bir dühaya malik olmasaydı, Baharın, Natəvanın, S.Ə.Şirvaninin qəzəlləri şeir sənəti tariximizin birinci səhifələrində yazılardı. Lakin indiki halda Füzuli bir ustad, ondan sonra gələn və qəzəl yazmaqda öz qüdrətini sınamış bütün şairlərimiz isə ancaq onun şagirdi olaraq qalır. Belə iddia heç də Füzulidən sonra gəlmiş və qəzəl yazmaq işində öz qələmini sınamış şairlərimizi kiçiltməyir, onların ədəbi tariximizdəki yerini aşağı salmır. Çünki heç kəs insanı dağla müqayisə etməklə, o dağın əzəməti qarşısında insanı kiçiltmiş olmur. Heç kəs insan xəyalını göylərin dərinliyinə bənzədərkən bu xəyalı aşağı endirmiş olmur.

Biz Füzulini az nəşr etmiş, az oxumuş, çox az tədqiq etmişik və çox az tanıtmışıq. Dünya ədəbiyyatında Füzuli qədər böyük eşq və ələm şairi yoxdur. Füzuli yaradıcılığı bir xəzinədir ki, biz onu bir muzeyə çevirməliyik.

Hələ uzun illər nəsil-nəsil insanlar Füzulinin kiçik qəzəllərindən böyük şerin rümuzunu öyrənəcəklər.

Füzuli öz nakam eşqinin həzin dastanını ən çox qəzəl formasında vermişdir.

İnsan duyğusunun sənət ifadəsi müxtəlif ola bilir. Bir memarın yaratdığı bina (Sankt-Peterburqda İsakov kilsəsi), bir heykəltəraşın canlandırdığı insan iztirabları (Laakoon), bir rəssamın fırçasından həyat alan faciə (İvan Qroznının oğlunu öldürməsi), bir bəstəkarın könüllərə nüfuz edən musiqisi ("Koroğlu"), bunların hamısı insan duyğusunun sənət ifadəsidir.

Lakin şerin dili dəruni insan duyğularını ifadə edən sənət formalarının ən zəngin dilidir.

Qəzəl isə ehtizaza gələn tellərinin incəliyi ilə sənətin xariqələrini təcəssüm etdirən ən gözəl bir rübabdır.

İlk nəzərdə ta Füzulidən tutmuş Vahidə qədər yazılmış qəzəllərin ifadə etdiyi hiss və həyəcan, duyğu və düşüncələr nisbətən məhdud bir dairə içərisində olub az-çox fərqlərinə baxmayaraq, eynidirlər. Bu təsir ilk baxışda olsa da həqiqətdən o qədər də uzaq deyildir. Hicran və vüsal, cavabsız və təmənnasız bir eşq, həsrət və intizar, şikayət, məzəmmət, könül fəryadı, ürək andı və sair bu kimi sözlərin ifadə etdiyi duyğu, hiss, qəzəl dediyimiz şeir nümunələrinin əsas məzmununu təşkil edir.

Bunun üçün də Füzuli qəzəlinin böyük məziyyəti bu duyğuların bir bahar səhəri kimi rəngarəng verilməsindədir.

Onun qəzəllərində bir-birinə bənzəyənləri varmı? Var. Lakin Füzulinin bir qəzəldə ifadə etdiyi hiss, duyğu və çırpıntıların insan qəlbində doğurduğu müxtəlif ehtisasat elə bir ilham təravətidir ki, sənət aləmində böyük sənətkarlardan belə ən azı buna nail olmuşdur.

Füzuli iztirab çəkən və iztirabının səbəbi sevgilisinin eşqi olduğu üçün bu iztirabı sevən bir şairdir. Şübhə yoxdur ki, Füzuli yaradıcılığının təhlilini verən alimlərimiz onun ifadə etdiyi duyğuların ictimai əsaslarını açıb göstərəcəklər. Bu əsaslar Füzuli şerinin düzgün izahına böyük yardım göstərəcəkdir. Mən bu yaradıcılıqdan ancaq bir münasibətlə bəhs etdiyimdən, belə bir vəzifənin həllini üzərimə götürməmişəm.

Əsrlər sovuşub keçdi. Zaman və insan dəyişdi. Sənət tərcümanı olduğu duyğuların yeni ifadələrini yaratdı. Əski klassik qəzəl forması şerimizin az-çox görkəmli bir qanadı olaraq belə qalmadı. Bu da çox qanuni bir hadisə idi.

Vahidin qəzəlləri istisna edilərsə, şerimizdə qəzəl forması heç bir görkəmli yer tuta bilmədi. Əsrin hərarətli romantikasını yeni sözlərlə, yeni formalarla, yeni boyalarla ifadə etmək lazım gəldi.

Böyük və gərgin hadisələrin – inqilabi dəyişikliklərin sürətli inkişafın obrazını yaratmaq üçün daha geniş ədəbi formalara ehtiyac doğdu.

Doğrudur, Füzulidən sonra Füzulinin özündə belə, qəzəl yeganə şeir forması deyildir. Lakin inqilabdan əvvəl xüsusilə, son iki onillik içərisində yaranan Azərbaycan ədəbiyyatında yeni formalara çağırış

şerinə, bu və ya digər siyasi hadisəyə həsr olunmuş hərarətli parçalara daha çox tez-tez rast gəlirik ki, bu da şerimizin inkişafında böyük rol oynayan müsbət hadisədir. Qəzəlin ana vəzni – əruz vəzni unudulmağa başladı. Sərbəst şeir, nəsrlə nəzmin birləşməsindən doğan yeni formalar yarandı. Lakin şerin inkişaf yolları bu yeniliklərlə də kifayətlənə bilmədi. Odur ki, bu gün ayrı-ayrı şairlərimizdə qəzəl formasına qarşı olan meyl tamamilə qanuni və hərtərəfli, təhlilə layiq bir hadisədir. Bu, əski formanın yüksək bir inkişaf pilləsində yeni keyfiyyətlə meydana çıxmasıdır. Bu geri dönmək, keçənləri təkrar etmək deyildir.

Bu cəhətdən Süleyman Rüstəmin qəzəlləri xüsusi diqqətə layiqdir. Bu qəzəllərdə klassik qəzəl ənənələrinin davamı ilə yanaşı (təşbehlər, ifadə formaları, vəzn) şerin yeni insan duyğularını bizim əyyam üçün xas olan fikri anlam və duyğuların nümunələrini görürük.

Süleyman Rüstəm qəzəllərinin çoxu mahiyyət etibarilə yeni qəzəllərdir. Bu yenilik yalnız onların forma və ifadə tərzinə aid deyil, bəlkə birinci növbədə bu qəzəllərin məzmununa aiddir.

Şair qəzəl formasında yazdığı lirik parçalarda yeni insanların öz əlləri ilə qurub yaratdıqları dünyaya qarşı bəslədikləri dərin eşqini, doğma Vətənə coşqun məhəbbətini, gələcəyə olan inamını, bu günün hadisələri ilə döyünən təmiz qəlb çırpıntılarını vermişdir.

Klassik qəzəl formasında canana deyil, vətənə, xalqa olan məhəbbət tərənnümünü bu gün İran Azərbaycanı şairlərinin də çoxunda görmək olar ki, bu yeni və diqqətəşayan bir ədəbi hadisədir. Süleymanın "Vüsal" adlı qəzəlində

"Mən etibar edib o nigarın vəfasına
Düşdüm məhəbbətin dolaşıq macərasına.
Rüstəm yaralı qəlbi ilə iftixar edir
Yetdin vüsali yarə böyük qan bahasına!"

misraları xasiyyət etibarilə, sözlərin işlənməsi, ifadə tərzi etibarilə klassik qəzəl formasından ayrılmırsa, "Sağlıq" qəzəlindəki atəşli misralar mündəricəsi ifadə tərzi etibarilə yeni qəzəl formasının gözəl bir nümunəsidir.

"Vətən olmazsa sönər şam kimi eşqim, həvəsim,
Onu qəlbimdə görür baxsa gözüm hansı yana.

Qanlı yollar keçərək məclisə gəlmiş yeni il,
Ehtiram ilə könül süfrədə yer göstər ona.
Qaldırıb badəni eşq ilə ürəkdən içirəm,
Ordumun, millətimin, rəhbərimin sağlığına!"

Bu kiçik şerin qısa misralarında nə qədər böyük bir eşq çırpınır. Burada məhəbbət söz deyil, duyğudur. Burada sadə bir insanın məhəbbəti, sədaqəti, qəhrəmanlığı vardır. Süleyman:

"Bir ev ki, məhəbbətdən uzaqdır nəyə lazım,
Heç kəs acımaz uçsa o bir gün təməlindən" –

– deyərkən yüz qat haqlıdır. Süleymanın bu məhəbbət dediyi söz yalnız bir gözələ bağlanan qəlbin sızıltısı deyildir. Bu məhəbbət, böyük qəlbin çırpıntılarından doğan yüksək bir insani məhəbbətdir ki, eşq dediyimiz bu hiss, bu məhəbbətin ancaq bir parçası, bir hissəsidir. Süleyman Rüstəmin Təbriz qəzəllərində ancaq bir eşq lirikası arayanlar çox səhv etmiş olurlar. Bu parçalar xalq dərdinin, böyük insan arzularının, işıqlı bir dünyaya həsrətinin bəzən yanıqlı, bəzən də qəzəbli səslənən rübabıdır:

"Birdən gözüm sataşdı xiyabanda bir qıza,
Qafqazdakı həyatımı mən andım, ağladım.
Namərd olum dedim səni qurtarmasam əgər,
Yüksəldi asimana mənim andım, ağladım".

Süleyman şəxsi hisslərlə ictimai hissləri birləşdirən, onların təzə və təravətli ifadəsini verən sözlər tapır, bu duyğularını özünə məxsus bir mələhətlə ifadə edir:

"Qoymaram yadları əl vurmağa bu könlümə, yox,
Orda ellər gözəli, can quşu, canan yaşayır.
Təkcə canan deyil, yaxşı baxanlar görəcək
Orda ellər atası, sevgili loğman yaşayır.
Döyüşərkən qarı düşmənlə, əminəm, bilirəm,
Vətən uğrunda əgər ölsə də insan, yaşayır!
Yurdumun dəbdəbəli, dalğalı bir bayrağı var
Onun altında bu el, bir də Süleyman yaşayır".

Klassik qəzəl üçün xas olan xüsusiyyətləri Süleyman bir sənətkar kimi bilir və onlardan bütün şair qüdrətilə istifadə edir.

Şeirdə müəyyən bir obraz bir, iki, dörd və heç bir qanunla müəyyən edilməyən daha çox misralarda verilə bilər. Qəzəlin xüsusiyyəti hər beytin bitkinliyinin müəyyən bir həlqə cizgisi kimi tamamlanmış olmasını, hər bir obrazın, heç olmazsa, o obrazı təşkil edən fikir naxışlarının eyni beytdə başlayıb həmin beytdə qurtarmasını tələb edir. Bu qəzəlin qədimdən davam edib gələn gözəl qaydasıdır:

"Sordum sorağını dedilər qeyrə yar olub
Ey kaş, lal olaydı dilim bu sorağından"

(*Bahar*)

Qüsurum nə idi, səni sormaqmı? İndi peşmanam, çünki dedilər sən özgəyə yar olmusan. Dilim lal olaydı, mən sormasaydım, bu cavabı da almazdım.

Yaxud:

"Nə qədər kim fələkin sabitü səyyarəsi var
O qədər sinədə qəmzən oxunun yarəsi var".

(*Vazeh*)

Sənin qəmzən oxu o qədərdir ki, bunun sonsuz olduğunu duymaq üçün göylərin ulduzlarına bax, onların sayını təsəvvür et.

Bəlkə belə bir çərçivə, fikir vüsətini müəyyən əhatə içinə alır, hiss və həyəcanı məhdudlaşdırır. Lakin şübhəsizdir ki, belə bir tələb bizim şerə ən çox lazım olan bir tələbdir. Biz klassik ədəbiyyatımızın qəzəldə görünən bu xüsusiyyətindən istifadə edərək, şerimiz qarşısında intizam, sözə qənaət, misralara qənaət və fikri ifadə üçün qurduğumuz şeir qurğusunu yalnız enə-boya deyil, ən çox dərinliyə doğru inkişaf etdirmək məsələsini qoya bilərik.

Füzulinin bir beytdə dediyi mənanı, iki misrada yaratdığı təşbeh dairəsini, qısa bir cümlədə tamamladığı obrazı biz bəzən uzun bir şeirlə deyirik. Bu isə sənətkarlığın yetişmədiyini, yazıçının sözə deyil, sözün yazıçıya hakim olduğunu göstərir.

1946

BƏXTİYAR VAHABZADƏ

Bəxtiyar Vahabzadə sözün əsil mənasında, şairdir. Onun poetik fırçasının çəkdiyi lövhələr rəngarəng və maraqlıdır. Dili şirəli və koloritlidir. Vahabzadənin poeziyası – düşüncələr poeziyasıdır. Bu düşüncələr bəzən həyatın üst qatlarına toxunsa da, şeirlərinin bir qismində ayrı-ayrı motivlər – məsələn, yaxınlaşmaqda olan qocalığın kədərli müjdəçisi olan ağaran saçlar motivi – təkrar olunsa da, ümumiyyətlə, Vahabzadənin poeziyası müasir Azərbaycan ədəbiyyatının maraqlı hadisələrindəndir. Şair ən yaxşı şeirlərində oxucuları ilə məhrəmanə söhbət edir. Adama elə gəlir ki, o, daha bir şeir yazmaq istəməmiş, öz dəruni fikirlərini ən yaxın dostları – oxucuları ilə bölüşməyi arzulamışdır. Şairin ovqatı qeyri-ixtiyari olaraq sizə sirayət edir, sizi sevinc, kədər bürüyür. Siz əvvəllər, bəlkə də qəlbinizdə bu cür emosiyalar doğurmayan şeylərin, hadisələrin mənası haqqında düşünməyə başlayırsınız. İndi isə həmin şeylər, hadisələr dəqiq tapılmış şairanə sözlərin gücü ilə qat-qat mühüm əhəmiyyət kəsb edir. Onlar sizi fəaliyyətə, məhəbbətə, nifrətə çağırır...

Vahabzadə geniş imkanlara malik həssasqəlbli şairdir. Onun poetik duyumu insan qəlbinin incə tərpənişlərini tutur və şair əksər hallarda onları öz ürəyinin hərarəti ilə, işığı ilə zənginləşdirərək təqdim etməyi bacarır.

(B.Vahabzadənin Moskvada nəşr olunmuş "Razdumya" kitabına ön söz)

1959

BƏXTİYARLIQ

...Şair Bəxtiyarın bəxtiyarlığı onun qibtə ediləcək dərəcədə böyük olan istedadıdır. Bu yaradıcılıq istedadı ona dərin xalq məhəbbətini qazandırmışdır. Onu vətənin sevimli şairi etmişdir. Belə bir tale səadətdir. Belə bir insan həqiqətən bəxtiyardır.

Onun ilhamlı ürək döyüntüsü ilə keçən yuxusuz gecələri, onun xalqını, vətənini əsrin çətin yüksəliş yollarında, yürüşdə ilk sıralarda görmək arzusu ilə keçirdiyi nigaranlıq, duyduğu sevinc, keçirdiyi incikli günlər hər kəsə nəsib olmayan bəxtiyarlıqdır.

Qəlbindən qopan duyumlarda, incə deyimlərdə canlanan həqiqi poetik fikirlər minlərlə insanın, müasirlərinin mənəvi aləmini zənginləşdirir – bu, həqiqi bəxtiyarlıq deyilmi? Bu bəxtiyarlıq bir insan, bir vətəndaş, bir nəğməkarın bəxtiyarlığıdır. Mən Bəxtiyarı belə tanımışam, belə duymuşam, belə sevmişəm.

İnanıram ki, o, doğma xalqının poetik illərliyində belə qalacaqdır. Bizi yeni-yeni şeirləri ilə sevindirəcəkdir.

"Ədəbiyyat və incəsənət" qəzeti,
23 avqust 1975

OXUYUN, MƏSLƏHƏT GÖRÜRÜK

Bəxtiyar Vahabzadə ədəbiyyatımızın orta nəslinə mənsub istedadlı şairdir. Onun şeir və poemaları geniş oxucu kütləsinin rəğbətini qazanmış, ədəbi ictimaiyyətimiz tərəfindən təqdir olunmuş əsərlərdir. Vahabzadə sözün həqiqi mənasında şairdir. Onun şeirlərində fikirlə hissin gözəl bir vəhdəti vardır. Bəxtiyar Vahabzadənin ən yaxşı şeirləri üçün, lakoniklik və bədii ümumiləşdirmə səciyyəvidir.

Uşaqgəncnəşr tərəfindən buraxılan bu kitabda şairin iki poeması verilmişdir.

"Etiraf" poeması son zamanlarda müasir mövzuda yaranmış maraqlı əsərlərdən biridir. Əsərdə sovet adamının mənəvi simasından, onun yüksək əxlaqi keyfiyyətlərindən, kommunist şüurluluğundan bəhs olunur.

Şair poemada şablon tərənnüm üsulundan, ümumi sözlərdən qaçmış, konkret hadisələr əsasında konkret, canlı obrazlar yaratmağa meyl etmişdir. Poemanın birinci yaxşı cəhəti orasındadır ki, konflikt, mübarizə yalnız obrazlar arasında deyil, obrazların daxilində də gedir. Əsərdə əsas iki obraz var: Cahangir və Bahadır.

Bunların birincisi həkim, ikincisi isə prokurordur. Əsərdəki həkim xeyirxah, insanpərvər, prokuror isə eqoist, bədxah adamdır. Hadisələr inkişaf etdikcə həkim öz xeyirxahlığı, müsbət hərəkətləri ilə prokuroru sarsıdır. Əsərin əvvəlində həkimlə intriqaya başlayan prokuror həkimi dolaşdırmağa, onu rüsvay etməyə çalışır. Buna görə də onu addım-addım izləyir. İzlədikcə rəqibini daha dərindən tanıyır, tanıdıqca həkimin nəcibliyi qarşısında öz kiçikliyini açıq-aydın görür.

Həkimi məğlub etməyə çalışarkən özü məğlub olur. Bütün bunlar psixoloji cəhətdən əsaslandırılmışdır.

Beləliklə, əsərdə müsbət qəhrəmanın təsiri ilə, mənfi qəhrəmanın daxilən dəyişib təmizlənməsi prosesi göstərilir.

Kitaba daxil olan ikinci əsər, dahi Azərbaycan şairi Füzulinin həyat və fəaliyyətinə həsr olunmuş "Şəbi-hicran" poemasıdır. Bu əsərdə müəllif Füzuliyə aid yazılı, şifahi mənbələrə əsaslanaraq şairin bədii obrazını verməyə çalışmışdır. Bəxtiyar Füzulini yalnız məhəbbət müğənnisi kimi deyil, vətəndaş bir şair kimi göstərir. Buna görə də müəllif, Füzuli şerindəki kədəri yalnız onun nakam məhəbbətilə deyil, həm də ictimai hadisələrlə əlaqələndirmək yolunu tutmuşdur.

B.Vahabzadənin bu yeni kitabını oxucularımızın maraqla qarşılayıb, şairin ilham və zəhmətini layiqincə qiymətləndirəcəklərinə əminəm.

1962

HƏSRƏT, ÜMİD, İNAM NƏĞMƏLƏRİ

Vətənimizin şair qızı Mədinə xanımın kövrək qəlbinin yeni, həzin nəğmələri məni incikli xatirə yolları ilə ana Təbrizin qoynuna qaytardı. Aşıq Hüseyn Cavanın unudulmaz poetik sətirlərini sanki yenidən eşitdim: "Əlimi əllərdən üzür ayrılıq". O günlərdən aylar, illər keçib. Xatirələr xatirələrə qarışıb, zamanın amansız nisyan sularında əriyib gedənləri, rəngini, təsir gücünü itirənləri, bu günə qədər köz kimi yandıranları, fikrimdə, zehnimdə olduğu kimi qalanları var.

O günlərdə Təbriz, ana Təbriz – xalqımın şöhrətli, iztirablı, ümidli ömür səhifələrinin müdrik könül dəftəri Təbriz əlvan oyuncaqları sındırılmış bir uşaq kimi kövrək, nigaran, səksəkəli idi. "Əlimizi əllərdən üzən ayrılıq" artıq amansız bir həqiqət olmuşdu.

Balaca qız – Mədinə yanaqlarından süzülən damcı-damcı göz yaşlarını əlinin dalı ilə silir, "Qardaşlar, məni də... məni də aparın!" – deyə fəryad edirdi.

O günlərdən on illər keçib. Bəlkə də bütün bunlar dünən olub. Xatirələr o qədər canlı, o qədər göynəklidir ki, sanki heç zaman onların rəngini soldurmayıb.

O günlərin xatirə səhifələrindən bu günə gəlmiş balaca qız – Mədinə indi Azərbaycanın sətirləri incə tellər kimi həzin, bəzən

qəzəb, bəzən ümid, inamla çırpınan, bəzən ana laylası kimi riqqətli səslənən şair qızı olmuşdur. Onun "atasının kasıb evi, koması, anasının yuxu kimi şirin laylası" yenidən səsləndi; "Azərbaycan qadını" jurnalının builki ilk nömrəsində bizi incə ruhlu şairin könül dünyasına, həsrət dünyasına, ümid dünyasına səfərə çağırdı.

Bir beşikdə böyümüş yeddi qız uşağının beşiyini yelləyən ananın həsrətini duyduq. Onun dərya səbrinə, sonsuz intizarlarına şahid olduq. Bir gün "ata koması yeddi qızsız" qaldısa, "yeddi evdən gəldi ana laylası"; bu, həyatın ölməzliyi, davamı, ümid və arzuların pöhrələnməsi oldu. Mədinə Gülgünün həzin şeirlərində bu ümid və inam nə qədər qüvvətlə verilmişdir! Mənim dediklərimin həqiqətini görmək, duymaq istəyənlər Mədinə xanımın "İlk yurdum, ilk nəğməm" şerini bir də oxusunlar. Onda görərlər ki, əsil poeziyanın ilham çeşməsi necə həyatdan qəlbə dolur, qəlbin hərarətində isinir, közərir, əvəzsiz təsir gücü qazanır.

Söz o zaman poetik məna, qüvvət, təsir gücü qazanır ki, bir qəlbin, bir könülün kədər və sevincini, ümid və inamını, həvəs və göynəyini min-min insan qəlbinə yetirə bilsin, insanı düşündürsün, onun həyata bağlılığını artırsın, insanda daha artıq insanlıq oyatsın.

Mədinə xanımın "Telefon xətlərində" şeri belə bir poeziya nümunəsidir. Bu şeir son dərəcə kədərli bir hadisədən bəhs edir. Şair otuz illik ayrılıq qəmindən sonra sərhəd arxasında olan anası ilə telefonla danışa bilmək səadətinə yetir:

Telefon xətlərində
bir səs düşdü dünyaya,
Telefon xətlərində
birləşdi ana-bala;
Bir ananın səsindən
sanki üşüdü dünya,
Bir balanın səsindən
göy ağladı az qala.

Bu sətirlər hansı qəlbi sarsıtmaz?! Bu sətirlərdə ananı baladan ayıran "əlimi əllərdən üzür ayrılıq" günlərinin yaraları sızım-sızım sızıldayır.

Mədinə xanım bu sevincli, kədərli görüşün, ana səsini eşitmək səadətinin qəmli sonluğunu poetik dillə deyə bilmək üçün gərək olan ən uğurlu, ən deyimli, yeganə gərəkli olan sözlər tapmışdır:

Sona çatdı, nəhayət,
telefon görüşümüz,
Elə bil, bir qəriblik
yayıldı yer üzünə;
Görüşərkən təzədən
ayrılmalı olduq biz,
Anam da, mən də sonsuz
nağıla döndük yenə.

Doğrudan da, bu görüş dünyamızın uzaq məsafələri bir anlıq eləyən texnikasının həm olmuşa, həm nağıla bənzəyən həqiqətidir. Bu görüş nağıl qədər şirin, nağıl qədər gözlənilməzdir.

Bu kimi bir könül çırpıntısında şair təsəllisiz, ümidsiz deyil. O, ömür, mübarizə, sənət yoldaşına, "ata koması", "ana laylasının" həsrətli günlərində ona kömək, həmdərd, həmümid, həmiman olan Azəroğluya müraciətlə deyir:

Nə yaxşı ki, sən
var idin yer üzündə,
Nə yaxşı ki,
ulduzumuz qoşa yandı.
...Nə yaxşı ki, el dərdini
qoşa çəkdik.
...Nə yaxşı ki, haqq yolunda
əsgərik biz,
Zərrələrik, dalğalarıq,
ümmanlarıq;
Torpaq üstə qoşa qalıb
izlərimiz.

Bu sətirlər lirik olduğu qədər epik, intim olduğu qədər ictimai, konkret olduğu qədər əhatəli, fəlsəfi, mənalı, dəqiq, dürüst yönlüdür. Bu bir qadın qəlbinin, bir canlı insan nəfəsinin poetik duyum, könül tərcümanıdır.

Mədinə xanımın bu şeirlər silsiləsində "Təbrizin küçələri" də məni xatirələr yolu ilə o günlərə – ana Təbrizin sevincli, həyəcanlı günlərinə qaytardı. Şair bacım! Təbriz "gecə yuxuma gəldi" deyirsən. Mən də Təbrizi tez-tez yuxuda görürəm. "Gah ağladı, gah güldü Təbrizin küçələri" – deyirsən. Bu kövrək "gülüş" onun küçələrinin xatirəsində o günlərdən, onun haylı-haraylı, sevincli, qaynar günlərindən qalmış gülüşlər deyilmi?!

Sən Təbrizin küçələrinin, məhəllələrinin adını çəkirsən. Mən onlardan çoxunu görə bilmədim. Mənim xəyalımda Təbriz bir xalqın tarixi, dünya mədəniyyətinə yazdığı zəngin səhifələr, cəngavərlik dastanları, Sahib şerinin ölməz sətirləri, Xiyabanilərin, Səttarxanların, Bağırxanların, Firudinlərin tunclaşmış heykəli kimi bir əzəmətli, canlı abidə-nişan olaraq qalıb. Sən Təbrizin küçələrini mənim gözümdə bir də canlandırdın. Təbrizin həsrətini qəlbimdə yenidən oyatdın. Dodaqlarımda iki kəlmə titrədi: "Təbrizim – mənsizim". Sən bu şeirlərinlə unudulmaz xatirə səhifələrini yenidən açdın. Sağ ol, bacım. Sağ ol, vətənimin şair qızı!..

1978

SADƏ VƏ BÖYÜK İNSAN

(Xatirələr dəftərindən)

Biz ona Üzeyir əmi deyərdik... Yaşına görə yox, hörmət əlaməti olaraq. O vaxt Üzeyir bəyə qoca demək olmazdı. Otuz il bundan qabaq! Onu yaxından tanıyanlar "sərt adamdır", "qaradinməzdir" deyə bilərdilər. O, çox danışmağı, uzun danışmağı sevməzdi. Onu yaxından tanıyanlar bu adamda olan yumora, hazırcavablığa, xoş söhbətin tükənməzliyinə heyrət edirdilər.

Mən Üzeyir bəylə şəxsi tanışlıqdan çox-çox qabaq onun əsərlərini oxumaq, görmək, eşitmək yolu ilə tanış olmuşam. Yadımdadır, bizim ailə hələ Göyçayda ikən tez-tez Bakıya gəlib-gedən kiçik əmim Hidayət "Arşın mal alan" operettasından bizə danışar, Soltan bəyin, Vəlinin rollarından parçalar "göstərər", bizi güldürər, bizdə Üzeyir bəyin əsərlərinə və şəxsiyyətinə böyük maraq oyadardı.

İş belə gətirdi ki, mən 1938-ci ildə Moskvada keçiriləcək Azərbaycan İncəsənət Dekadasına hazırlıq zamanı respublika dövlət filar-

moniyasında işləməli oldum. Üzeyir əmi ilə yaxından tanışlığım da buradan başladı. Dekadaya hazırlıq, dekada vaxtı və dekadadan sonra xeyli müddət bir yerdə işlədik. Dekadanın bədii rəhbəri kimi, Üzeyir bəy kadr məsələsindən tutmuş repertuarın çox kiçik görünən detallarına qədər, hər şeyə qarışar, məsləhətlər verər, qərarlar çıxarardı.

Bəzən onun mülahizə, ya qərarı sərt olurdu, lakin düşündükcə görürdün ki, bu rəy, mülahizə ya qərarları prinsipial yaradıcılıq mövqeyindən başqa heç bir şeylə bağlı deyil. Elə olurdu ki, fikir mübadiləsi zamanı Üzeyir bəy başqalarının dediyini haqlı görür və adi bir şəkildə, "əmma"sız, "lakin"siz, qaşlarını belə çatmadan razılaşırdı. Belə hallar az olurdu, amma olurdu.

Üzeyir bəy elə sənətkardır ki, onun adı tərif yükü götürmür, o, hər hansı tərif pilləsindən yuxarıda duran bir simadır. Belə adamların hər hansı xalqa mənsub olması o xalqın adını şərəfləndirir, yüksəldir. Mən Üzeyir musiqisinin, Üzeyir dramaturgiyasının yüksək bəşəri dəyərindən, tarixi qiymətindən, bədii nadirliyindən yazıramsa, bu, ancaq bir iftixar hissinin, bir mənəvi qürurun mütləq ifadəsindən qaçılmazlıqdır. Bəli, Üzeyir musiqisi bizə Azərbaycan sözü kimi, vətən sözü kimi, həyat sözü kimi yaxın, əziz və doğmadır. Onun yaratdığı əsərlərin, istər böyük, istər kiçik olsun, xallarında biz qəlbimizin, könlümüzün səsini eşidir, arzu və inamımızın ləhnini dinləyirik.

Üzeyir bəy, bir sənətkar kimi, böyük sadəliyin ən gözəl nümunələrini vermiş, sadəlik üçün enməyib, yüksəlmiş, geniş üfüqlərə qanadlanmışdır. Üzeyir bəyin dramaturgiyası hələ öz inadlı, istedadlı, geniş bilikli tədqiqatçısını gözləyir. Bu intizar azmı-çoxmu sürəcək, bilmirəm. Yalnız onu deyə bilərəm ki, M.F.Axundzadə, Mirzə Cəlil dramaturgiyası qədər Üzeyir dramaturgiyası da elə zəngin bir axtarış, tapıntı, icad, yaradıcılıq zəfəri doğura biləcək mənbədir ki, bu yolda nəcib, ağır, maraqlı zəhmətə qatlaşan – tarixi bir vəzifə görmüş olacaq və minlər, yüzminlərin məhəbbətini qazanacaqdır.

"O olmasın, bu olsun" ya "Arşın mal alan" əsərinin dramaturgiyası dərindən, ətraflı təhlil, izah olunsa, burda nə qədər yeni-yeni sənətkarlıq sirri açılar! Bu əsərlərin dramaturji kamilliyi, hər bir replika, hərəkət və situasiyanın necə zərgərcə işləndiyindən, sözlərin yerinə düşdüyündəndir ki, Üzeyiri təshih etmək, onu "zənginləşdirmək", müəyyən sənət formasının tələblərinə uyğunlaşdırmaq təşəbbüsləri baş tutmur, ya primitivliyə, ya bayağılığa, ya sxematizmə aparır.

Vaxtı ilə Üzeyir bəyin sağlığında çəkilmiş "Arşın mal alan" filminin böyük müvəffəqiyyəti, geniş xalq kütlələri, eləcə də sənət mütəxəssisləri tərəfindən məhəbbətlə qarşılanmasının "sirri" də məhz kino "Arşın mal alan"ın səhnə "Arşın mal alan"ı ilə ekizliyində idi. Bu ekizlik doğum tarixinə görə yox, xarakterik bədii cizgilərin, belə demək olarsa, musiqi və dramaturji rənglərin, ürək çırpıntısı ahənginin vəhdətində, doğmalığında, yol birliyində idi. Səhnədə "deyilən" kinoda "göstərilir", səhnə imkansızlığını kino imkanı əvəz edir, obrazların taleyi yeni, əslindən gələn, eyni təfəkkür yolunun məhsulu olan cizgilər, detallarla zənginləşmiş olurdu.

Belə xarakterik bir epizodu xatırlayıram. "Arşın mal alan" filminin çəkildiyi zaman əsərin musiqisini orkestrə etmək lazım idi. Yalnız tar, kamança, qaval yetər deyildi. Musiqi müasir orkestrin müxtəlif alətləri dilində, əlvan rənglərlə səslənməli idi. Bir dəfə Üzeyir bəyi kinostudiyaya dəvət etdik. Orkestrə edilmiş parçaları dinlədik. Mən diqqət etdim, musiqini dinlədikcə Üzeyir əminin qaşları çatılır, o, adətən, əsəbiləşdiyi zamanlarda olduğu kimi, bığını didişdirirdi. Dərin bir sükutdan sonra o, heç kəsə baxmadan dedi: "Mənim övladım yoxdur. Əsərlərim mənim balalarımdır. Nə üçün onu bu kökə salmısınız?"

Əsərin musiqisində elə böyük bir dəyişiklik edilməmişdi. Bəzi parçalar ritmik cəhətdən "müasirləşdirilmişdi". Hərdən adamın qulağına tez keçən, ötəri caz xalları dəyirdi.

Bu "yeniliklər" böyük bəstəkarı dərindən incitmişdi. Ona görə ki, bu xallar, bu ritmik dəyişmələr Üzeyir bəyin açıq-aydın, duru, müdrik musiqisinə yad, Azərbaycan xalq musiqisi şakərlərindən, musiqi təfəkküründən xaric elementlər idi.

Üzeyir bəy haqlı bir qısqanclıqla əsərlərini – balalarını hər cür təcavüzdən qoruyurdu. O böyük sənətkar istər musiqi, istərsə söz materialını elə diqqət və məntiqlə, ehtiyat və cəsarətlə, bilik və bacarıqla işlədirdi ki, bu bəstələrdə, bu sözlərdə – hərəkətlərdə əvəzi asan, təsadüfi yerlər, parçalar axtarmaq səmərəsiz bir zəhmət olardı.

Bir dəfə Üzeyir əmi ilə filarmoniyada məşqdən çıxıb dəniz kənarına, bir az hava almağa gedirdik. Mən uzun zaman dilimizin ucunda olan bir sualı verdim:

– Üzeyir əmi, – dedim, – necə olur ki, sizin kimi sənətkar "Məşədi İbad" əsərində məntiqə uymayan cümlə yazır?

O, çeşməyin altından, nigaran baxışla mənə baxdı, sanki məni birinci dəfə görürdü. "O nədir, oğlan?" – dedi. Üzeyir bəy, adətən, daxili həyəcan keçirdiyi ya əsəbiləşdiyi zaman yaxın adama da "oğlan" deyə müraciət edərdi. Mən bunu hiss etdim və sualımın bir qədər nəzakətsiz olduğunu da öz-özümə etiraf etdim. Lakin artıq söz ağzımdan çıxmışdı, – nə olar, olar! – dedim.

– Məşədi İbadın qoçuları Sərvərin üstünə hücum çəkəndə deyirlər:

Ey kimsən orda, aç qapını!
Aç qapını, gələk səni öldürək.

Adam öldürməyə gələn heç belə bir xəbərdarlıq eləyərmi?

Üzeyir bəyin düyünlənmiş qaşları açıldı. Dodaqlarında xəfif təbəssüm göründü. Gözlərinin ifadəsində bir mehribanlıq, bir qayğı, bir təəssüf duymaq olurdu. Sanki bu baxışlar, bu təbəssüm deyirdi: "Get dolanginən, xamsan, hənuz!.."

Bir neçə addım səssiz getdik, mən qızardığımı hiss edirdim. İndi mübahisə başlanacaq. Lakin fikrimin qüsursuzluğuna o qədər inanırdım ki, mütləq qalib çıxacağıma əmin idim. Üzeyir bəy dənizkənarı bulvardakı skamyalardan birini göstərib, – oturaq! – dedi. Oturduq.

Üzeyir bəy bığlarını didə-didə:

– Bilirsənmi, Rəsul, – dedi, – mən o sözləri bilə-bilə yazmışam və burda heç bir məntiqsizlik yoxdur. Bakı qoçularının adı çıxmışdı, onların "qoçaqlığı" haqqında əfsanələr uydurulmuşdu. Əslində onlar qorxaq və xırda adamlardı. Məşədi İbadın qoçuları bu yağlı məşədini mümkün qədər soymaq istəyirlər. Onlar Məşədi İbad üçün qanlı vuruşmaya girmək, özlərini təhlükəyə salmaq fikrində deyildilər. Odur ki, "aç qapını, gələk səni öldürək" deyirlər ki, Sərvər məsələdən agah olsun, çıxıb getsin. Bildiyin təki, bir fit səsi eşidən kimi qoçular qaçıb gedirlər. Məntiq də elə burdadır.

Bəlkə də Üzeyir bəy bu sözləri belə ardıcıllıqla, bu düzümdə deməmişdi. Mən yadımda qalanları yazıram. Ancaq əsas mahiyyət bu idi.

Bu epizodu xatırladıqca bir daha görürəm ki, böyük bəstəkarımız, böyük dramaturqumuz Üzeyir bəyin əsərlərində təsadüfi epizodlar, yerinə düşməmiş sözlər axtarmaq təşəbbüsləri acı nəticələr verir. Üzeyiri oxuya bilmək üçün Üzeyir sənətinin dilində savadlı olmaq şərtdir.

"Məşədi İbad" kinofilminin müvəffəqiyyət qazana bilmədiyi məhz Üzeyir sənətinin prinsiplərinə yad olan əlavələr, "təshihlər", dəyişmələrin acı nəticəsidir. Fransızlaşdırmaq, küçədə qovdu-qaçdı səhnələri düzəltmək və bu kimi "kinolaşdırmaq" Üzeyir musiqisi və söz dramaturgiyasını dərindən dərk etməmək deməkdir.

Eyni sözləri daha artıq qətiyyətlə Bakı kinostudiyasının ikinci dəfə çəkdiyi rəngli "Arşın mal alan" haqqında demək olar.

Rəngli "Arşın mal alan" filminin müəllifləri daha artıq texniki imkan və geniş ifadə vasitələrindən istifadə edə bildikləri üçün, rəng kimi yeni elementin zəngin təsir gücündən faydalana bildikləri üçün daha maraqlı, daha tutumlu, daha kamil əsər yaratmalı idilər. (Əslində filmin ikinci dəfə çəkilməsi də məhz bu məqsədlə ola bilərdi). Belə olmadı. Rəngli "Arşın mal alan" Üzeyir dramaturgiyasına yad olan bayağı səhnələr, primitiv yumor, qeyri-təbii epizodlarla korlandı: nəticədə bədii dəyəri son dərəcə aşağı, çox yerdə təəssüf doğuran bir film, boyalı "Arşın mal alan", bayağı əlavələrlə klassik yumoru, təbiiliyi, yüksək ilham parıltısı söndürülmüş "Arşın mal alan" meydana çıxdı.

Rəngli "Arşın mal alan"da Üzeyirdən nə qalmışdırsa, yaxşı, gözəldir; Üzeyirə nə əlavə edilmiş, nə dəyişdirilmişsə, əsərin ruhuna uymayan bir yamaq kimi bədii ahəngi, düzümü pozmuşdur.

Məncə, rəngli "Arşın mal alan"a gedən tamaşaçıların böyük əksəriyyəti birinci "Arşın mal alan"ın həvəsi ilə gedir.

Hər hansı bir əsər ekran dilinə çevrildiyi zaman müəyyən dəyişiklik olmalıdır, bu, mübahisəyə ehtiyacı olmayan bir həqiqətdir. Ancaq necə? Ayrı-ayrı cizgiləri açmaq, təsir gücünü artırmaq, kino sənətinin özünəməxsus imkanlarından bacarıqla istifadə etmək yolu ilə. Yuxarıda gətirdiyim iki misaldan aydın görünür ki, Üzeyir bəy "kefim gəldi" əlavələr və dəyişikliklərə qəti düşmən idi.

Üzeyir bəy saysız oxucuları, dinləyiciləri, tanış-bilişləri arasında olduğu kimi, evdə, ailə üzvləri arasında da böyük məhəbbət və hörmətlə qarşılanırdı. Mehribanlıq, sadəlik, qayğı Üzeyir bəyin özünəməxsus bir şəkildə onun sözündə, hərəkətində görünür, duyulurdu. Bir dəfə (1938-ci ildə) Üzeyir bəy bizi – məni və Nigarı evinə qonaq çağırmışdı. Biz Üzeyir bəyin yaşadığı birmərtəbəli evin qapısından girəndə onun anası və bir neçə başqa qadın "xoş gəldiniz!" – deyib bizi içəri apardılar. Üzeyir bəy hələ gəlməmişdi. Biz səliqəli, sadə otaqda oturduq. Divardakı şəkillərə baxır, çay içir, ev sahibinin gəlməsini

gözləyirdik. Üzeyirin anası tez-tez qapıya, pəncərəyə baxır, "bu uşaq harda qaldı?" – deyib həyəcan keçirirdi. Ananın nigaranlığı bizi də rahatsız etmişdi. Mən bilirdim ki, Üzeyir əminin övladı yoxdur. Bəs bu uşaq kim ola? Ana bir neçə dəfə qapını açıb küçəyə baxdı və hər dəfə eyni sözləri təkrar etdi: "Bu uşaq harda qaldı?" Nəhayət, ayaq səsləri gəldi. Üzeyir bəy qapıda göründü. Ana onu qarşılayıb: "Ay bala, harda qaldın? Yəqin acsan", – deyib tələsik o biri otağa keçdi. Üzeyir bəy gecikdiyi üçün üzr istəyib hal-əhval sordu. Mən "Üzeyir əmi, ananız çox nigarandır. Uşaqlardan kimi isə gözləyir", – dedim. Üzeyir əmi bərkdən güldü. "O uşaq mənəm!" – dedi. Sonra onun üzünə xəfif bir kədər dumanı çökdü. Bəlkə də bu, yüzlərlə övlad yetişdirib, onları həyat yoluna çıxarmış böyük sənətkarın kədəri, "bala, uşaq" sözünü anası kimi deməkdən məhrum olduğundan doğan bir kədər idi.

Onun övladları əsərləridir. Gəlin, onlara böyük hörmət, ehtiyat və məsuliyyətlə yanaşaq!

1969

XALQIN "ARŞIN MAL ALAN"I

"Arşın mal alan" xalqımızın ən çox sevdiyi operettalardandır. Bu əsər sadə süjeti, aydın, təmiz və xalq folkloruna əsaslanan musiqisi ilə geniş kütlələr içərisində dərin izlər buraxmışdır. O bizim səhnə musiqimizin inkişafını görmək və anlamaq üçün ən gözəl bir aynadır. Respublikamızın xalq artisti Ü.Hacıbəyovun hələ tələbə ikən böyük məhəbbətlə yazmış olduğu, azad sevgi tərənnüm edən bu əsəri sağlam yumoru, parlaq musiqisi ilə bizim üçün əziz və qiymətlidir.

Yanvarın 24-də Mirzə Fətəli Axundov adına Dövlət Opera və Balet Teatrında yeni quruluşda verilən "Arşın mal alan" həqiqətən xalqın "Arşın mal alan"ı adlandırıla bilər.

Respublikamızın əməkdar artisti, rejissor İ.Hidayətzadə "Arşın mal alan"ın bu yeni quruluşu ilə Azərbaycan xalqının həyatını, ona xas olan adətləri dərindən öyrənmiş olduğunu bir daha göstərdi. Quruluşçu rejissor, rəssam, dirijor və ifaçı artistlər işinin vəhdəti, bu vəhdətdən doğan bütövlük, bitkinlik, dolğunluq – quruluşun ən qiymətli cəhətləridir.

Hidayətzadə trafaret yollarla getməmişdir. O, əsərin musiqi və sözlərində olan daxili mahiyyəti açə bilmiş, bütün fantaziyasını əsərin aparıcı xətti ətrafında toplamışdır.

Əsərə əlavə edilmiş kişi və arvad toyları həyatımızı realistcəsinə və hər cürə naturalizmdən uzaq bir şəkildə verir. Bu parçalar əsərdə orqanik hissələr kimi verilməklə bərabər, "Arşın mal alan"ın aid olduğu dövrün (10-cu illər) xarakter xüsusiyyətlərini qabarıq surətdə göstərir.

Avtor və rejissor "öz başlarından" şeylər çıxarmamışlar. Onlar gördükləri, öyrəndikləri həyatın xarakter, tipik cəhətlərini seçib, bədii vasitələrlə əsaslandırıb, səhnəyə çıxarmışlar.

"Arşın mal alan" yazıldığı dövrün şəraitindən asılı olaraq, dar çərçivədə və iştirak edənlərin mümkün qədər az olması prinsipi ilə qurulmuşdu. Yeni quruluşda isə, yeni imkan və şəraiti nəzərə alaraq, əlavə edilmiş qızlar xoru müvəffəqiyyətli bir təşəbbüs hesab edilməlidir. Burda rejissorun müsbət mənada ixtiraçılığı və bu ixtiraçılıqda həddi-hüdud gözlədiyi görünür. Qızlar xoru səhnədə fərəh və nəşə dolu bir mühit yaradır, səhnənin səs və tutum imkanlarından lazımınca istifadə etməyə yol verir.

Gənc rəssam Ədhəm Sultanovun böyük bacarıq və bədii zövqlə verdiyi tərtibat quruluşun müvəffəqiyyətlə başa gəlməsində az rol oynamır. Ayrı-ayrı səhnələrin rəssam tərəfindən necə məhəbbətlə tərtib edildiyi birinci baxışda duyulur. Sultanovun tərtibatı işıq, hava və göz oxşayan rənglər kombinasiyası ilə doludur. Bununla birlikdə, rəssam şərti olaraq götürülmüş Şuşa şəhərinin bir parçasını verdikdə naturalizmə qapılmamış, ən tipik momentləri ümumiləşdirərək, yalnız Şuşa üçün deyil, Azərbaycan üçün xarakter olan arxitektura elementlərindən istifadə etmişdir.

Əsəri müşayiət edən xalq çalğı alətlərinin notlu orkestri (dirijor Səid Rüstəmov) əsərin kolorit və orijinallığını bir qat daha artırır. Bu orkestr "Arşın mal alan"ın yeni quruluşuna orqanik surətdə bağlı və onun ayrılmaz hissəsidir.

"Arşın mal alan"ın bugünkü müvəffəqiyyətlərində artist kollektivinin mühüm rolu vardır.

Süleyman rolunda əməkdar artist H.Hacıbababəyov inandırıcı, səmimi ştrixlərlə özünü sevdirir. Onun məlahətli səsindən başqa, bacarıqlı artist sənətkarlığı dəxi özünü aydın göstərir. Hacıbababəyov əsərin sonuna qədər oyunu soyumayan bir maraqla davam etdirməyə müvəffəq olur.

Soltan bəy rolunu ifa edən Ələkbər Hüseynovun tamaşaçını heyrətdə buraxan təbiiliyi, hər cür şarjdan uzaq, gözəl sənətkarlıqla yaratdığı obraz bu artistin opera səhnəmizdə özünəməxsus mühüm və qiymətli bir yer tutduğunu söyləməyə haqq verir.

Telli rolunda Həqiqət Rzayeva və xala rolunda Münəvvər Kələntərlini ayrıca qeyd etmək lazımdır. Onlar rollarının əsil mahiyyətini bütün dərinliyi ilə anlamış və bunu yaxşı ifa edə bilmişlər.

Saydığımız müvəffəqiyyətlərlə bərabər, quruluşun bir sıra nöqsanları da vardır. Toy məclislərində olan uzunluq əsərə müvəffəqiyyətlə əlavə edilmiş bu parçaları bir qədər soyudur və tamaşaçının diqqətini əsas süjet xəttindən ayırır. Bundan başqa, iştirak edənlərdən çoxusu danışıqlarında nədənsə "kitab dilini" əsas götürmüşlər. Səhnədə həyatın bir parçasını gördüyümüz zaman adamların adi, sadə danışıq dili ilə danışmalarını istəyirik. Belə olmadıqda, bir qırıqlıq duyğusu tamaşaçını rahat buraxmır.

Bir sıra xırda tərtibat və quruluş nöqsanları iş tələsikliyindən meydana gəldiyi və əsərin gələcək göstərişlərində aradan qaldırılacağı aydındır.

"Arşın mal alan"ın müvəffəqiyyəti yalnız opera və balet teatrı, rejissor, rəssam, dirijor və artist kollektivinin müvəffəqiyyəti deyil, həm də Azərbaycan xalqının ildən-ilə artan, böyüyən, tarixdə misli görünməmiş bir sürətlə çiçəklənən mədəniyyətinin yeni müvəffəqiyyətidir. "Arşın mal alan"ın yeni quruluşu sağlam gülüş, nəşə, həyata sevgi, işıq və məhəbbətlə dolu gözəl bir sənət əsəridir.

1938

SƏNƏTKAR DOSTUM

Biz sənlə bir ailədə anadan olmuşuq, ancaq nədəndirsə mən hər zaman səni yaşlı, uzun bir ömür yolu keçmiş çoxdan, lap çoxdan elə beləcə görüb belə tanıdığım bir adam təsəvvür edirəm.

Sənin yaratdığın səhnə obrazlarını xatırladıqda adama elə gəlir ki, o qədər mürəkkəb, çeşid-çeşid, zəngin, rəngli obrazları yaratmaq üçün bir insan ömrü kifayət deyil. Bu geniş diapazonlu, janrı, xarakteri, fəlsəfi məzmunu, hiss və həyəcanları zəngin bir qamma təşkil edən

səhnə qəhrəmanları yaratmaq, həm də uzun illər yaşaya biləcək bir məharətlə yaratmağa illər, illər, illər gərəkdir. Axı, sən səhnəyə ömrün müəyyən məsafəsini keçdikdən sonra gəlmisən.

Bəs bunun sirri nədədir? Məncə, bunun sirri əsil həqiqi sənətin sirridir. Sənət həyat və hadisələrin, insan xarakterinin, həyəcan və hisslərin elə təcəssümünü verir ki, əsrləri saatlara, yüzləri, minləri təklərə, böyük bir aləmi canlı bir damlaya sığışdıra bilir. Sən belə sənətin yaradıcısısan.

Otellonun iztirablarını, onun nəcib qəlbinin ən incə titrəyişlərini bizə çatdırdığın kimi, minnətovların rəzil və qeyri-insani həvəs və ehtiraslarını gözümüzdə qüdrətlə canlandırmısan. Mən bu iki rolu yanaşı qeyd etməklə, ancaq sənin aktyor sənətindəki böyük məharətinə nümunə gətirmək istədim. Bu misallar bir deyil, iki deyil...

Səhnəmiz son illərdə öz yaradıcılıq yolunda müəyyən durğunluq keçirir. Bunu biz ürək ağrısı ilə deyirik. Sən bu səhnənin böyük yaradıcılarındansan. Azərbaycan Dram Teatrı Vətənimizin ən qüdrətli yaradıcılıq ocaqlarından biri olmuşdur. Hamımız səhnəmizin şöhrət və adını yüksəltməyə var qüvvəmizi verməliyik. Sən qabaq sıradasan. Azərbaycan, doğma xalqımız bizdən yeni-yeni yaradıcılıq igidliyi gözləyir.

Ömrünün ikinci yarım əsri yaradıcılıq qələbələri, zəfər sevincləri, gərgin əməkdə, güllər, çiçəklər içində keçsin, qardaşım, dostum Ələsgər!

BÜLBÜL

Xatirələr yolu ilə ötən günlərə, illərə qayıtmaq, olmuşları bir daha yaşamaq qəlb incidir. Hadisələr, mənzərələr, sözlər, baxışlar, gülüşlər yenidən canlanıb insanı heç bir qüvvə, heç bir möcüzə ilə geri dönməyəcək aləmə aparır. Xatirələr yolunun sevincli anları keçib getdiyi, geri dönməz olduğu üçün təəssüf doğurur, acılı, ağrılı olanları bir daha qəlbimizi göynədir.

Xatirələrimiz həmişə bizdən gənc olur. Onlar keçmiş günlərdən dinlədiyimiz tanış səslərdir.

Bu xatirələrin səhifələrində bizim sevincli, kədərli, ümidli, intizarlı ömrümüzün saatlara, günlərə, illərə dolmuş parçaları qalıb. Biz hər

zaman xatirələrimizdən daha yaşlıyıq. Bu günümüzdən onlara baxırıq. Bəlkə də elə bununçün yüngül bir təəssüf hissindən ayrıla bilmirik.

Bülbül haqqında düşünmək, xatirələr yolu ilə keçmişə qayıtmaq məndə daxili bir ehtiyac olsa da, ağırdır. Bu xatirələr, təəssüf ki, bir yoxluqla başlayır. Bülbül bu gün sıramızda yoxdur. Nəğməkar Bülbül, sözü-söhbəti duzlu, sənətkar Bülbül, nəğmələri, ariyaları, zümzümələri, səsinin təravəti, aydın sözlərinin xüsusi ahəngi ilə birlikdə əbədi həsrətini də, göynəyini də bizə verib gedən Bülbül. Onun nəğmələrini əsrimizin texnika ecazı ilə istədiyimiz zaman dinləyə bilirik. İllərlə əvvəl olduğu kimi, nəfəsimizi çəkib, dərin bir sükut içində canlı Bülbülü, zəmanəmizin ən qüdrətli müğənnilərindən biri Bülbülü, nəğməli Qarabağın qoynunda yetişmiş, təbiətin heyrətli sirri olan Bülbülü dinləyə bilirik. Lakin heç bir nəğmə, heç bir bəstə, heç bir xal, guşə onun həsrətini qəlbimizdən qoparmağa qadir deyil.

Məni həmişə həyəcanlandıran, heyran qoyan Bülbül sənətinin təbiiliyi, bu sözün ən yüksək mənasında adiliyi idi. Sənətkar Bülbül quş kimi oxuyurdu. Quşlarda oxumaq necə təbii bir ehtiyac, adi bir haldırsa, Bülbülün də oxumağı belə təbii idi. Mən hər zaman yaşıl yarpaqlar arasında oxuyan quş bülbülü dinləyəndə onun sevincini duyuram. Sanki baharın gözəlliyindən vəcdə gələn bu balaca nəğməkar sevincini ifadə etmək, bəxtiyarlığını bildirmək üçün cəh-cəh vurur. Sənətkar Bülbül də belə idi. Onu oxuyan görəndə insanın qəlbi fərəhlə, riqqətlə dolurdu.

Bülbülün ifası nəfəs almaq, görmək, eşitmək, isti-soyuğu duymaq kimi təbii idi. Lakin bu təbiilik, bu sadəlik mürəkkəb bir prosesin yaratdığı, yetirdiyi, kamilləşdirdiyi bir keyfiyyət idi. Mən, adətən, oxuyarkən üz-gözü qızaran, gərginliyi açıq duyulan, bir sözlə, oxuyarkən "əziyyət" çəkən müğənnilərə qulaq asa bilmirəm. Mənə elə gəlir ki, bu oxumaq onlarçün zövq, sevinc deyil, təbii ehtiyac deyil, ağır bir zəhmətdir.

Poeziya da belədir. Əgər yazılmış şeirdə müəllifin təri, töyşüyü, əziyyəti duyulursa, çox pisdir. Sənətin təsir gücü onu, yarandığının çətinliyi, əziyyəti, iztirabı ilə deyil, insan qəlbində oyatdığı həyəcan, düşüncə, məhəbbət, nifrətlə ölçülür.

Bülbül sənətinin sadəliyi, təbiiliyi arxasında dinləyicinin görüb hiss etmədiyi gərgin yaradıcılıq zəhməti, yuxusuz gecələr, nigaran günlər vardı. Lakin onun nəğməsi bulaq suyu kimi saf idi, təbii çağlayırdı, insana zövq, sevinc gətirirdi.

Mən Bülbüllə şəxsən tanış olmazdan əvvəl onun adını eşitmişdim. Onun şöhrətinin hər yana yayıldığını bilirdim. Tanışlığımız Bakıda oldu. Bülbül İtaliya səfərindən yenicə qayıtmışdı. Mən də Bakıya yeni gəlmişdim. O zaman şair Süleyman Rüstəm işçi teatrında bədii şöbə müdiri işləyirdi. Bülbüllə məni teatrda o tanış etdi.

Sonralar Bülbüllə tez-tez görüşürdük. Onunla yaxın olduq, dostlaşdıq. 1938-ci ildə Azərbaycan SSR Ali Sovetinə seçkilər zamanı mən Tovuz rayonuna seçicilərlə görüşə getmişdim. Görüşlərdən sonra yazıçı Mirzə İbrahimov və Bülbüllə birlikdə Göygölə getdik. Bütün yol boyu Bülbül oxuyur, məzəli əhvalatlar danışırdı. Onun çox yaxşı yolluğu vardı.

Göygölün səfalı mənzərəsi Bülbülü çox həyəcanlandırmış, riqqətləndirmişdi. O, Göygölün hər an dəyişən, rəng verib rəng alan mənzərəsindən gözlərini çəkə bilmirdi.

Suda sakit-sakit yatmış ağac kölgələri, Kəpəzin haça qılınclı bahadır kimi görünüşü, elə bil, deyirdi: Susun! Bu füsunkar gözəlliyi dinləyin! Biz səssiz, sakit dayanıb düşünən təbiətə, sükut içində dayanmış nəğməkara baxırdıq. Bu əzəmətli sakitlik, səssizlik içində birdən xəfif bir zümzümə başladı. Bülbül əvvəlki kimi sakit dayanmışdı. Onun dodaqları tərpənmirdi. Lakin bu xəfif, bu füsunkar zümzümə Bülbül zümzüməsi idi, get-gedə dalğalanıb ətrafa yayılırdı. Gözlərimin qarşısında ətraf mənzərə sanki canlanır, titrəyir, nəğmənin axarına uyğun nəfəs alırdı. Zümzümə qüvvətlənir, zilə qalxır, tanış bir nəğmənin sözləri aydın eşidilirdi:

"Qara tellər, qara tellər,
Yar, könlümü qarət eylər".

Bülbül oxuyurdu. Göygöl, yaşıl meşələr, əzəmətli Kəpəz, göy üzündəki ala-tala buludlar – hər şey onun nəğməsinin ahənginə qoşulub oxuyurdu.

Bülbülün üzündə dərin bir heyranlıq ifadəsi vardı. Mən heç bir zaman heç kəsi belə ilhamlı, belə nadir ifadəli oxuyan görməmişdim. İndi də xəyalımızın aynasında onun vəcdə gəlmiş simasını görür, təkrarsız səsinin insanı valeh edən yapışığını duyuram.

İllər keçdi. Bir gün şair Nazim Hikmət bizdə qonaq oldu. Bu dostlar məclisinə Bülbülü də dəvət etmişdik. Qonaqlar bir-bir, iki-bir gəlirdi. Bülbül gecikmişdi. Pilləkəndən səs eşidib qapıya getdik. Bülbül cavan oğlan kimi pillələri yeyin-yeyin, iki-iki qalxırdı. Nigar: "Bülbül

qardaş, maşallah, kim deyər ki, siz cavan deyilsiniz?" – dedi. Bülbül bu sözləri eşidib tez pillələri endi və yenidən yüyürə-yüyürə yuxarı çıxdı. Pilləkən başında dayanmış adamlar gülüşdülər, əl çaldılar, hamı: "Afərin! Afərin!" – dedi.

Sonralar, Bülbülün qara xəbərini eşitdiyim gün bu epizodu xatırladım. Ölüm xəbərinə inanmağım gəlmədi. Axı Bülbül nəğmələri kimi sağlam, gənc, həyat enerjisi ilə dolu idi.

Bülbüllə bağlı bir epizodu da xatırlayıram. Bakıda növbəti aşıqlar qurultayı çağırılmışdı. Qurultayda aşıqların yaradıcılıq yolları haqqında qızğın mübahisə gedirdi. Sənətdə də yerlipərəstlik hissindən yaxa qurtara bilməyən bir neçə adam aşıq sənətini ancaq müəyyən rayona bağlayır, Azərbaycanın ancaq bir-iki rayonundan əsil aşıq çıxa biləcəyini əsaslandırmağa çalışırdı. Bu fikrin məhdudluğu, primitivliyi, qeyri-elmiliyi, ən ümdəsi, həyat həqiqətinə uyğun olmadığı gün kimi aşkar olsa da, kənək və inad şəxslər fikirlərini bütün qurultaya isbat etməyə çalışırdılar.

Mən qurultayın bir iclasında sədrlik edirdim. Növbəti sözü Bülbülə verdim. Bülbül həqiqi böyük sənətkar kimi sadə, inandırıcı sözlər, misallarla aşıq sənətinin bütün Azərbaycan xalqına xas olduğunu isbat etdi. O, sözlərini tribunadan məlahətlə oxuduğu parçalar, müxtəlif aşıq havaları ilə təsdiq edirdi. Bütün salon sükuta qərq olmuşdu. Hamı Bülbülü – nəğməkar Bülbülü, sənətkar Bülbülü, doğma xalqının musiqi folklorunu gözəl bilən, tədqiq edən alim Bülbülü dinləyirdi. Bülbül sözünü bir aşıq nəğməsi ilə bitirdi. Bu nəğmə guya yeganə aşıq vətəni sayılan tərəflərdən deyildi. Lakin onun ürəyə yatımlı bəstəsi, ahəngi, oynaq ritmi, gözlənilməz dönmələri, qalxmaları, enimləri hamını valeh etdi. Natiq kürsüdən çəkiləndə salon bir an sükut etdi, sonra bəndini qırmış sel kimi alqış gurultusu salonu titrətdi. Uzun müddət davam edən bu alqışlar bütün mübahisələrə son qoydu. O zaman mən beynimdə dolanan bir fikri deməyi lazım bildim. O fikir bu idi: "Çox zaman bizimlə bir gündə, bir yerdə yaşayan adamlar arasındakı böyük istedadların nə qədər nadir olduqlarının fərqinə varmırıq. Onları tez-tez görür, onlara alışırıq, düşünmürük ki, yanımızda oturan bu adam klassikdir. Bir sənət möcüzəsidir. Nadir istedaddır. Bizim Bülbül, nəğməkar Bülbül belə canlı klassikdir". O vaxtdan illər keçib, indi bu gün, Bülbülün son canlı nəğməsindən xeyli zaman sonra bu sözlərin həqiqəti daha aydın duyulur.

BÖYÜK BƏSTƏKAR HAQQINDA KİÇİK QEYDLƏR

O günlərdən qırx il keçir. Söz vaxtına çəkər, – deyərlər. 38-ci ilin fevral ayı idi. Onda Qara – 20 yaşlı cavan Azərbaycan Dövlət Konservatoriyasının tələbəsi idi. Mənim də 28 yaşıma az qalmışdı. Yadımda deyil, bəstəkarlardan kim isə (deyəsən, Səid Rüstəmov) bizi tanış elədi. Dövlət filarmoniyasında ağız deyəni qulaq eşitmirdi. Binanın hər yerindən nəğmə, musiqi səsi gəlirdi. Oxuyan kim, çalan kim, oynayan kim. Moskva dekadasına qızğın hazırlıq gedirdi. Bu gərgin, həyəcanlı, həvəsli məşq günlərində Qara Qarayevlə tez yaxınlaşdıq. Söhbətimiz tutdu. Gənclərə məxsus bir həyəcan və hərarətlə musiqi, şeir, sənətkarlıq haqqında uyarlı, mübahisəli söhbətlər etdik.

Musiqi dilinin yeni, açılmamış imkanları haqqında Qaranın fikirləri, onun sənətə və sənətkarlığa baxışları məndə bu yeni dostuma dərin bir maraq oyatdı.

Moskva dekadasının proqramı, demək olar ki, hazır idi. "Koroğlu", "Nərgiz" operaları, başqa vokal nömrələr dönə-dönə gözdən keçirilmiş, bəyənilmişdi.

Bir gün Qara yeni bir kantata yazmaq istədiyini, bu arzunun gecə-gündüz onu rahat qoymadığını söylədi. Söz qoyduq iki-üç günə mahnının mətni hazır oldu. Qara görünmürdü, bir neçə gün onu gördüm deyən olmadı. Bunu da deyim ki, o zaman mən Azərbaycan Dövlət Filarmoniyasının direktoru idim. Qara bədii rəhbər Üzeyir Hacıbəyova assistentlik edirdi. Gənc dostumuzun bir neçə gün görünməməsi bizi nigaran etməyə başladı. Bu intizar çox çəkmədi. Bir gün Qara yeni kantatanın hazır notları ilə gəldi. Üzeyirin "təqdirini" alandan sonra məşq başlandı. Bu, "Könül nəğməsi" adlı kantata idi.

Dekada zamanı Moskva mətbuatında Azərbaycan incəsənəti yüksək qiymət aldı. Məqalələrdən birində Qaranın "Könül nəğməsi" konsert proqramı içində xüsusi qeyd olundu. Bakıda bu kantatanın baxışı zamanı böyük Üzeyirin dedikləri yerini tutdu. O, kantatanın musiqi müəllifi haqqında demişdi: "Bu cavan çox irəli gedəcək".

İndi Qara haqqında söz demək lazım gələndə, mənə elə gəlir ki, birdən, bəlkə hissə qapılar, sənət yolu yaxınlığının təsiri altında, dostluq bağlarının gücünə görə bəyənimli cəhətləri şişirdər, nöqsanlara göz yummuş olaram. Lakin bu ani tərəddüd, ən ali hakim – zamanın

hökmü, obyektiv həqiqətin təsdiqi ilə tez əriyir, gedir. Sənət yolunun 40 illik yolçusu Qara Qarayevin zəngin yaradıcılıq təcrübəsi təsdiq edir ki, onun simasında Azərbaycan dünya musiqi mədəniyyəti xəzinəsinə tarixi bir dəyər bəxş etmişdir.

Qara özünəməxsus bir yol seçmiş, mənsub olduğu xalqın musiqi mədəniyyəti əsasında yeni söz deyə bilmiş, novator bir bəstəkar kimi sənətkarlığın yeni pilləsinə qalxa bilmişdir.

Mən musiqi nəzəriyyəsi mütəxəssisi deyiləm. Dediklərimdə zövq, bəyənim mühüm rol oynaya bilər. Ancaq bildiyim və inandığım budur: Qaranın böyük xidməti ondadır ki, o, xalqının musiqi irsini həssas bir duyumla dinləyə bilmiş, bu irsin üfüqlərini bugünlü (müasir) texniki imkanlarla aça bilmiş, yeni çalarlarını kəşf etmiş, yaratmışdır. Əgər Qərb və rus bəstəkarlarının uzun əsrlərdən bəri zəngin polifonik musiqi irsi vardı və hər yeni əsər bu irsə əsaslanırdısa, bu irs notlarda yazılıb, nəsildən-nəslə olduğu kimi keçirdisə, Qara, bu sözün geniş mənasında, belə bir irsə malik deyildi.

Muğamat, xalq mahnıları, mərsiyə motivləri (muğamat əsasında) zəngin olduğu qədər də dildən-dilə, teldən-telə keçib gələrək əsrlər boyu nəyi isə itirmiş, harda isə dəyişmiş, zənginləşmişdir. Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin gətirdikləri bugünləşmə (müasirləşmə) bir örnək idi. Lakin bu, inkişaf yolunda bir pillə, mühüm, təqdirli, tarixi olsa da, bir pillə idi. Azərbaycanın gənc bəstəkar qüvvələri, ilk növbədə, Qara Qarayev bu yeniləşməni, dünya musiqisi mədəniyyətinin texniki tərəqqisini, müxtəlif çalğı alətlərinin bütün imkanlarından istifadə etmək bacarığının yeni, parlaq təsdiqini verdilər.

Vaxtilə Lenin Mükafatı Komitəsinin bir iclasında Dmitri Dmitriyeviç Şostakoviç Azərbaycanın gənc bəstəkarlarına, xüsusilə, Qaranın yaradıcılığına verdiyi yüksək qiymət yadımdadır.

Hələ gənc yaşlarından, bəstəkarlıq yolunda ilk addımlarını atdığı zaman, Qaranın qarşısında əsas iki imkan vardı: sınaqdan keçirilmiş, məlum yolla getmək, sənətə, şerə, musiqiyə çox da tələbkar olmayanların zövqünə uyğunlaşmaq, tanış tellərlə tanış bəstələri bu və ya başqa sığallarla təkrarlamaq, beləliklə, tez məşhurlaşmaq yolu. Bir də öz yolunu axtarıb tapmaq, sənət meydanında yeni cığırlar açmaq, öz xalqının və dünya musiqi mədəniyyətinin qabaqcıl ənənələrini yeni çalarlarla, yeni-yeni sənət deyimləri ilə davam və inkişaf etdirmək yolu. Qara bu ikinci, çətin, mürəkkəb, şərəfli yolu seçdi.

Bəstəkar bu yolda irəliləyərək, ildən-ilə, əsərdən-əsərə uğurlar qazandı... Bu gün adı ölkəmizin üfüqlərindən çox-çox uzaqlarda hörmət, məhəbbətlə çəkilən bir sənətkar oldu.

Qaranın musiqi dili ilə dediyi lakonik, tutumlu fikirləri duymaq, dərindən dərk etmək üçün həm ümumiyyətlə bugünlü (müasir) dünya musiqi mədəniyyətinə, həm də Qaranın yaradıcılığına yaxından bələd olmaq gərəkdir. Məlumdur ki, ali riyaziyyat da ən sadə rəqəmlər, işarələr əsasında bünövrələnir. Qaranın yaratdığı əsərlərdə, deyək ki, "Yeddi gözəl", "Leyli və Məcnun" və sairə bu kimi əsərlərində Azərbaycan melosunun xalları aydın duyulur. Lakin onun yaratdığı əsərlərdə musiqi sitatı deyil, xalqın, belə demək mümkünsə, ali riyazi pilləyə qaldırılmış doğma ruhu duyulur.

Bir anlığa "Yeddi gözəl" baletini xatırlayın. Bu baletin musiqi toxumasında çırpınan "Çahargah" qanadlarını bir də qulağınıza gətirin. Burada "Çahargah"ın hamımıza məlum xalları sanki yeni qüdrət, yeni bir ahənglə, yeni musiqi sığalında səslənir.

Bu baletdəki yeddi gözəlin rəqslərini xatırlayın. Sanki yeddi müxtəlif xalqın ruhunu təmsil edən bu gözəllər rəqs edərkən bir-birinə bənzəməyən, lakin əsərin ana axarında müxtəlif dillərdə danışırlar. Sənətin bu möcüzəsi haqqında yazmaq nə qədər asan olsa, onu tellərin, nəfəslərin, zərblərin dilində yaratmaq bir o qədər çətindir. Qara bu çətinliyə "İldırımlı yollarla" baletində də qalib gəlmişdir. Zənci oğlu Lenninin, ağ irqdən olan Sarinin faciəsini musiqi dili ilə bizə çatdıran Qara sanki illərlə Cənubi Afrikanın irqi dözümsüzlük bürküsündə yaşamış, sadə insanların faciəli günlərini dərindən duymuş, ən ümdəsi, Cənubi Afrika xalqlarının musiqi dilində danışa bilmişdir.

"İldırımlı yollarla" baletinin Leninqrad Opera və Balet Teatrındakı ilk tamaşasında böyük şair Nazim Hikmətin Qaraya dediyi sözlər bu gün də mənim qulaqlarımda səslənir: "Sağ ol, qardaş! Təsirli, müdrik, novator musiqinlə bizə verdiyin sevinc, qürur üçün sağ ol! Belə oğlu olan bir xalq xoşbəxtdir!"

Qara iki balet əsəri ilə dünya musiqi mədəniyyəti aləminə iki geniş pəncərə açdı. Azərbaycan balet sənətinin gur səsli carçısı oldu.

Mən Qaranın əsərlərinə hər dəfə qulaq asanda, sanki daxili bir zənginləşmə duyuram. Bu əsərlərdə əvvəllər duymadığım çalarlar, rənglər tapıram. Məncə, bu, böyük sənətin təsir imkanı sonsuzluğundan yaranan bir haldır.

Xüsusilə, Qaranın "Üçüncü Simfoniya"sı bu cəhətdən xarakterikdir. Bu əsər dinləyicidə dərin, həyəcanlı duyumlar oyadır. Səni düşündürür, həyat, insan, dövr, zaman haqqında gah sevincli, gah incikli, gah mürəkkəb, gah aydın, duru fikirlərə yol açır.

Bu əsər, hər bir ciddi, novator əsər kimi, dinləyicilərdə bir-birindən fərqli təsir oyada bilər. Bu, təbiidir. Məncə, üçüncü simfoniya yüksək sənət dili ilə vəsf edilmiş insan taleyi, insanın ağlı-qaralı ömür yolu haqqında bəzən həzin, bəzən həyəcanlı müdrik bir dastandır.

Burda insan qəlbinin sevinc və iztirabı, könül incikliyi, ümid, inamı elə bir qüvvətlə verilmişdir ki, əsəri dinləyəndən sonra uzun bir müddət onun təsir gücündən ayrıla bilmirsən. Düşünürsən: sən necə möcüzələr yaratmağa qadirsən, sənətkar – İnsan.

Qara Azərbaycan musiqi mədəniyyətinə çox şey vermişdir. Hələ çox şey verəcək.

Bəstəkarın şanlı yubiley günləri ərəfəsində onun haqqındakı radio verilişlərinin birində Qaranın "Dəniz neftçiləri mahnısı"nı dinləyəndə mənə elə gəldi ki, coşqun dalğaların qalxım-enimini eşidirəm. Təbiət hadisələrini musiqi dili ilə vermək sənətkardan böyük məharət istəyir. Dinlədiyim bu kiçik nəğmədə Qaranın sənətkar hünəri bütün qüvvəti ilə özünü göstərir. Belə bir təsir, belə bir qənaət əsassız deyil.

Məlumdur ki, dahi Avstriya bəstəkarı Haydn "Topal şeytan" operasında musiqidə tufan effektini verə bilmək üçün günlərlə vurnuxmuş, təsadüfi bir hərəkət – bütün dilləri bir vurğu ilə səsləndirmək yolu ilə istəyinə nail olmuşdur.

Oxucular bu misalı bir yanaşdırmaq kimi deyil, bir sənət faktı kimi qiymətləndirsələr, məni düzgün başa düşmüş olarlar.

Bu gün bəstəkar Qara, vətəndaş Qara, sənətkar Qara, dostumuz, qardaşımız Qaranın altmış yaşı Azərbaycan xalqının, bütün musiqisevərlərin, musiqi mədəniyyətinin bayramıdır.

1978

QƏLƏBƏ YOLLARI İLƏ

Yazıçının qeyd dəftərindən

1958-ci ilin yanvarın dördü, Leninqrad, Kirov adına Dövlət Opera Teatrının geniş salonu. İynə atsan, yerə düşməz.

Musiqinin ilk səsləri salonu dərin bir sükuta qərq edir. Səhnənin daimi, ağır, zərli pərdəsi qalxmışdır. Lakin bugünkü tamaşaya məxsus pərdə – üzərində Afrika səhralarının qaynar qum dalğaları kimi göl-göl işıq zolaqları titrəyən bənövşəyi pərdə hələ səhnənin sirlərini tamaşaçılardan gizləyir.

Tellərin, dillərin şahə qalxan fırtınasını qüdrətli bir ahəng cilovlayır. Sanki sahilləri qamçılayan köpüklü dalğalar öz yatağına girir. Ağır ləngərlə sakitləşən musiqi ləpələrini bir qadın səsi yarır. Bu səsdə ümid, kədər, mətanət, iztirab birləşmişdir. Onun amiranə, çağırıcı ahəngi mübarizə və qələbə ruhu ilə doludur. Bu səs ədalətsiz bir dünyada, ömrü məşəqqətlə dolu insanları ildırımlı yollara, azadlıq və səadət uğrunda mübarizəyə çağırır.

Musiqinin ürəkləri dərin bir həyəcanla dolduran qüdrətli ahəngi, onunla həmavaz yüksələn qadın səsi bütün fikri-xəyalı bir istiqamətə, böyük bir insan faciəsinin kədərli, vahiməli olduğu qədər də əzm və mətanətlə dolu dünyasına yönəldir.

Tamaşanın gərgin bir nigaranlıqla başlayan ilk dəqiqələrindən, arası kəsilməyən gurultulu alqışların salonu titrətdiyi son dəqiqələrinə qədər, zülm və əsarət altında inləyən qara və qaraşın qardaşlarının səadəti uğrunda mübarizə aparan qəhrəmanların necə iztirab və işgəncələrdən keçib, ildırımlı yollarla qələbəyə, azadlığa doğru getdiklərini görür, eşidir, bütün varlığınla duyursan. Gözlərimizin qarşısında vərəq-vərəq çevrilən həyat səhifələri getdikcə gərginləşir, dəhşətli bir faciəyə çevrilir. Musiqinin mənalı, zəngin dili, rəqsin unudulmaz naxışları, ifadəli him-cimlər (pantomima), bizə insan sevinci, məhrumiyyət və zəfərlərini sonsuz bir təsir qüvvəsi ilə nağıl edir.

Musiqinin çağlayıb gedən axını fikri-xəyalı öz qoynuna alıb uzaq bir aləmə – insan şərəfinin təhqir olunduğu müstəmləkə ölkələrinə aparır. Bu elə bir aləmdir ki, orada azad məhəbbət təqib edilir. Xoş arzular, yüksək əməllər "qanun" məngənəsindən can qurtara bilmir. Bu elə bir aləmdir ki, orada insanlar ləyaqətlərinə, hərəkətlərinin gözəlliyinə, arzu və əməllərinin humanizminə, cəsarət və mətanətlərinə

görə deyil, ancaq dərilərinin rənginə, irqlərinə görə iki yerə ayrılırlar: hər hüquqa malik olan ağlar və hər hüquqdan məhrum olan rənglilər.

Cənubi afrikalı yazıçı Piter Abrahamsın məşhur "İldırımlı yollarla" romanından bizə tanış olan adamlar musiqinin insan qəlbində bir heyranlıq, bir nəcib qürur doğuran qüdrəti ilə yenidən gözlərimizin qarşısında canlanırlar.

Bu gözəl musiqinin bu gün yaradıcılığı ilə fəxr etdiyimiz bir azərbaycanlı bəstəkar tərəfindən yazılmış olduğu qəlbimizdəki nəcib qürur hissini qat-qat artırır.

1938-ci ilin yanvar ayı yadıma düşür. Azərbaycan incəsənət ustaları, yüzlərlə gənc qız, oğlan böyük bir həvəslə ölkəmizin paytaxtı Moskvada keçiriləcək incəsənət ongünlüyünə hazırlaşırlar.

Müasir musiqimizin müdrik atası, böyük bəstəkarımız Üzeyir ongünlük konsertlərində nümayiş etdiriləcək ayrı-ayrı nömrələri diqqətlə nəzərdən keçirir. Onların forma və məzmununu dönə-dönə yoxlayır, lazım gələn yerləri təshih edir, məsləhətlər verirdi.

Proqrama daxil edilmiş əsərlər içərisində "Ürək nəğməsi" adlı bir mahnı da vardı. Bu mahnını hələ ali musiqi təhsilini bitirməmiş bir gənc yazmışdı. Onun adına nə əlvan rəngli afişalarda, nə gözəl çap olunmuş proqramlarda rast gəlmək olardı.

Gözündə iri sümük eynək, dalğalı qalın qara saçları dala daranmış, ortaboylu bu cavan Azərbaycan Dövlət Filarmoniyasının qış salonunda arxa sıralardan birində oturmuşdu. Səhnədə orkestr və xor onun nəğməsini ifa edirdi. Cavanın üzündə bir həyəcan və tələş görünürdü. O, xəfif bir titrəyiş duyulan əli ilə papirosunu yandırır, lakin çəkməyi unudur, bir qədər sonra yenidən yandırırdı. Hərdən çeşməyini çıxaranda onun üzünün ifadəsi birdən-birə dəyişir, körpə uşaqlara məxsus köməksiz bir hal alırdı.

Bu, onun ilk böyük imtahanı idi. Nəğmənin orijinal bir tərzdə yazıldığı, onun Azərbaycan milli avazlarının yeni formada işlənmiş, müasir musiqi mədəniyyətinin texniki nailiyyətləri ilə zənginləşmiş bir əsər olduğu hamını sevindirirdi.

Baxış qurtarandan sonra Üzeyir bəy müəllifi yanına çağırdı. Onun əlini sıxdı və "bala, mən görürəm, sən əməlli-başlı bəstəkar olacaqsan", – dedi. Başı sənət yollarında ağarmış, tərifi sevməyən qocaman bir sənətkar tərəfindən deyilən bu sözlər cavan bəstəkarın işinə verilən böyük qiymət idi. Dərin bir həyəcanla bu sözləri dinləyən, indi

adı yalnız Sovet İttifaqında deyil, dünyanın neçə-neçə ölkəsində şöhrət tapmış, bizim vətən oğlu Qara Əbülfəz oğlu Qarayev idi.

Qaranın yeni "İldırımlı yollarla" baleti böyük bir həqiqəti bütün qətiyyəti ilə təsdiq etdi ki, özünəməxsus maraqlı, orijinal bir yolla inkişaf edən istedadlı bəstəkar həqiqi sənətin çətin yollarında bütün məşəqqətlərə, yaradıcılıq iztirablarına dözüb özünün "Ürək nəğməsi" ilə başlayan doğru yoluna sadiq qalmışdır. Bu yolda büdrəmələr olmuşsa da, heç bir şey sənətkarın yaradıcılığındakı ana xətti əyə bilməmiş və bir ötəri həvəs kimi keçib getmişdir.

İllər keçdi. Sənətimiz ölkəmizlə birlikdə boy atdı, yeni inkişaf mərhələlərinə qalxdı. Zəfərlər qazandı. Azərbaycan şerinin, Azərbaycan nəsrinin, Azərbaycan musiqisinin səsi geniş üfüqlərə yayıldı. Qaranın sənət dostları Fikrət, Cövdət, Səid, Cahangir, Tofiq, Ağabacı, daha cavan Nəzirova, Hacıyev və bir çox başqaları kimi gənclər artıq bu gün Azərbaycan musiqi sənətinin şərəfli bayrağını ölkəmizin qüvvətli musiqi sənəti ordusunun ilk sıralarında mətanətlə aparırlar. Sovet quruluşunun sənətimizin inkişafı üçün yaratdığı böyük imkanlar neçə-neçə yeni istedadlı gəncin ortaya çıxması üçün geniş meydan açmışdır.

"İldırımlı yollarla" tamaşasına baxdıqca bu fikirlər yeni bir qüvvətlə adamın beynindən keçir.

Tamaşada musiqi, xoreoqrafiya və rəssamlıq sənətinin üzvi bir vəhdəti vardır ki, bu vəhdət hər səhnədə, hər yerdə yeni bir qüvvətlə özünü göstərir.

"İldırımlı yollarla" balet-tamaşasının musiqisi haqqında ayrıca qeyd edəcəyəm: rəqsləri, him-cimləri o qədər ifadəli, o qədər məzmunlu, bütün təfərrüatı ilə dərindən düşünülmüş, o qədər psixoloji inandırıcılıqla yaradılmışdır ki, insan oyunun, cərəyan edən hadisələrin şərti formasını unudur. Adama elə gəlir ki, hər hərəkət, hər rəqs naxışı sözlərlə, səslərlə ifadə olunan bir iztirab, bir sevinc, bir ümid, bir qəzəb, bir üsyan nəğməsi, ya riqqətlə dolu, həzin, incə bir məhəbbət həsb-halıdır. Bu təsir o qədər qüvvətlidir ki, əgər səhnədə iştirakçılardan biri ağzını açıb danışsa, bir söz, bir cümlə desə, yəqin ki, bizi qanadları üzərinə alan sənətin bütün təravət və gözəlliyi pozulub gedər, duyduğumuz zövqdən ayrılmış olarıq.

Bu sözlərin həqiqətinə inanmaq üçün uzaq-uzaq izdihamlı bir şəhərdə ali təhsil görüb neçə ildən bəri ayrılmış olduğu kəndlərinə gələn Lenninin vaxtsız qocalmış anası ilə görüşdüyü səhnə kifayətdir.

Ana yaxşı geyinmiş yad adamı əvvəlcə tanımır. Bu adamın onun öz oğlu Lenni olduğu ağır işdə bükülmüş qarının ağlına belə gəlmir. Lenni anasına tərəf irəliləyir. Gözlər bir-birinə zillənir, baxışlar uzaq xatirələri vərəqləyir. Qadının dodaqları titrəyir. O ağlayırmı, gülürmü?.. Demək çətindir. Birdən onun ayaqları qırılmış kimi bükülür, ağsaçlı ana oğlunun ayaqlarını qucaqlayır. Lenni cəld bir hərəkətlə anasını qolları üstünə qaldırır və sanki bir an əvvəl gözləri önündən keçən xatirələri davam etdirir. Bir zamanlar öz şirin laylaları ilə onu ovudan ana, indi mehriban oğul qucağında yellənərək ona layla çalır. Bu layla sözsüz, yalnız musiqinin yanıqlı, həzin avazı və hərəkətlərin, rəqs naxışlarının dili ilə söylənən bir nəğmədir. Lakin biz onun bütün riqqət və təravətini duyuruq. Tamaşada belə səhnələr çoxdur.

Əsərin gözəl səhnələrindən biri də 2-ci pərdənin 3-cü şəklində bir-birini sonsuz, fəqət rəsmən yasaq bir məhəbbətlə sevən iki gəncin, rənglilər irqinə mənsub Lenni ilə, ağlar irqinə mənsub mülkədar Kertin qızı Sarinin məhəbbətinə həsr edilmiş səhnədir. Bütün əsər boyu öz təravəti, ifadə və məna gözəlliyi ilə tamaşaçını valeh edən musiqi burada öz apofeoz pilləsinə qalxır. Sanki bir anlığa müstəmləkə həyatının müdhiş həqiqəti uzaq üfüqlərin ardından çəkilir. Qadir məhəbbətin gücü hər şeyə qalib gəlir, ədalətsiz, amansız bir dünyanın qanlı qanunları öz gücünü itirir. Uzun illərdən bəri insanları bir-birindən ayıran sədlər parçalanır.

Bizə elə gəlir ki, gah alovlu, həyəcanlı, gah sakit, həzin hərəkətlərlə öz böyük məhəbbətlərinin müqəddəs nəğməsini tərənnüm edən gənclər rəqs etdikcə musiqi, bu faciəli insan taleyinin yanıqlı dastanını qəzəb və məhəbbət dolu bir dil ilə – bir insan dili ilə danışır. Bu dil salonda oturmuş insanlara müxtəlif millətlərin nümayəndəsi olan, müxtəlif dillərlə danışan adamlara aydındır. Bu, böyük sənətin insan qəlbinə dilmancsız yol tapan ecazkar dilidir.

İlk görüşdən iki gənc arasında alovlanan bu məhəbbət bütün ailəyə, bütün kəndə fəlakətdən başqa bir şey gətirə bilməz. Bunu musiqinin oynaq, lirik axınına hərdənbir qarışan təşviş, təhlükə xalları bizə xəbər verir. Biz xatırlayırıq ki, bir şəkil bundan əvvəl, bu nakam məhəbbət başladığı ilk dəqiqələrdə musiqinin böyük bir təhlükədən xəbər verən bu nigaran xallarını eşitmişik. Ağ irqdən olan bir qızı sevməyin nə qədər böyük bir bədbəxtlik olduğunu bilən ağsaçlı ana titrək əlləri ilə oğlunun gözlərini qapayıb ona "ağ qıza baxma" deyə yalvaranda bu

xallar bizdə bir təşviş oyatmışdı. Lenninin məhəbbətinin hər şeyə qalib gələn gözəlliyi səslərin ahəngini tənzim edir, təmiz insan duyğuları təşviş və nigarançılığa qalib gəlir. Lenni başını sevgilisinin dizi üstə qoyub xəyala dalır. Sari Lenninin çox sevdiyi laylayla bir körpəni oxşayan kimi onu oxşayır, sığallayır. Səhnənin sonunda bu təmiz duyğular, müqəddəs arzular, sevgi, inam dolu aləm, ağ gözətçilərin gəlişi ilə pozulduğu zaman sənətkarlıqla yaradılmış bu epizodun insan qəlbinə nüfuz edən təsiri qüvvətli bir təzadın gücü ilə daha da artır.

Əsər sona qədər gərgin, maraqlı bir vəziyyətdə davam edir.

Lenni və Sari ağ müstəmləkəçilər tərəfindən həbs edilib edama aparıldıqdan sonra xalqın qəzəbini ifadə edən böyük izdihamlı səhnə ümumi süjet xətti ilə yaxşı bağlanmamış olsa da, öz-özlüyündə təsirli və gərgindir.

Tamaşa boyu dəfələrlə gurultulu alqışlarla qarşılanan rəssamın işi, xüsusilə, təqdirəlayiqdir. Həm də ayrı-ayrı texniki effektləri üçün deyil, əsərin, birinci növbədə, musiqinin ruhunu dərindən anladığı, onun ifadə tərzinə uyğun forma və boyalar tapdığı üçün təqdirəlayiqdir. Rəssam Afrikanın qızmar günəşi altında qovrulmuş çöllərin, ağır həyat keçirən rəngli əhalinin yaşadığı kəndlərin koloritini yaxşı verə bilmişdir. Bununla birlikdə, o, kədərli həyat içində əlvan geyinməyi, vaxt tapdıqca çalıb-çağırmağı, gülüb-oynamağı sevən zənci cavanlarının geyimlərini də tamaşanın ümumi ahənginə uydura bilmişdir.

Xoreoqrafiya sənətinin məşhur ustaları – SSRİ xalq artistləri K.M.Sergeyev – Lenni (həm də tamaşanın quruluşçusudur), N.M.Dudinskaya – Sari öz rollarını böyük bir məharətlə aparırlar. Rəqslərin təbiiliyi, axıcılığı, zəngin boyalı və müxtəlif naxışlı olması adamı valeh edir. Sergeyev və Dudinskayanın rəqsləri bu sənətin nə qədər geniş ifadə imkanlarına malik olduğunu bütün aydınlığı ilə göstərir.

Bəzən dalğalı, coşqun bir alov kimi kükrəyən, bəzən xəfif külək qabağında əsən yarpaq kimi titrəyən, bəzən çətin sıçramalar, fırlanmalarla insanı heyrətdə qoyan, bəzən sakit bir göl üstündə üzüb gedən sonalar kimi ayaqlarının ucunda süzən Sergeyev və Dudinskaya tamaşaçıların arası kəsilməyən alqışlarını qazanırdılar.

Bütün bu məziyyətlər "İldırımlı yollarla" tamaşasının ümumi bədii dəyərini artıran, onu zənginləşdirən mühüm cəhətlərdir. Lakin bu məziyyətləri doğuran, onların yüksək bədii bir vəhdətdə birləşməsinə

səbəb olan, təbir-caizsə, onlara qida verən, onları canlandıran, əlbəttə, musiqidir. Musiqi obrazların xarakterini, inkişafını, hadisələrin daxili dinamikasını, mübarizə edən qüvvələrin hərəkət xəttini, bədii formasını müəyyən edən əsas amil, aparıcı, həlledici qüvvədir.

Bəstəkar bu əsərində Afrika xalqlarının musiqi folklorundan çox istifadə etmişdir. Bu əsər Qara Qarayevin bir sənətkar kimi xalq yaradıcılığından necə istifadə etmək məsələsindəki yaradıcılıq prinsipinin mühüm xarakterini aydın göstərir.

Məlumdur ki, Qərbdə, xüsusilə, Amerikada zənci musiqi folklorundan, ümumiyyətlə, cənubi və orta Afrikanın rəngli xalqlarının musiqi folklorundan çox geniş "istifadə" edilir. O da məlumdur ki, bir sıra Qərbi Avropa və Amerika bəstəkarlarının bu xalqların musiqi folkloruna müraciət etmələri, əksəriyyətlə, ekzotik maraqdan başqa bir şey deyildir. Belə bəstəkarların zənci musiqisinə bənzətmələrində və zənci xalq musiqisi adı altında quraşdırdıqları musiqi tərtibatında, hər şeydən əvvəl özünəməxsus əvəzsiz bir gözəlliyə malik zənci musiqisinə və o musiqini yaratmış xalqa, onun ənənələrinə hörmət yoxdur. Zənci musiqisi adı ilə məşhur olan belə əsərlərdə ancaq xarici effekt, coşqun ritm alınır, bunlar da son dərəcə eybəcərləşdirilib hər cür rumbalar, fokstrotlar, rokn-rollar formasında estradaları doldurur. Belə musiqi əsərləri rəngli xalqların folkloru deyil, ancaq bəzi xarici və təsadüfi xətləri ilə ona bənzəyən, əsil həqiqətdə isə dərin insani məzmunu boşaldılmış bir şeydir ki, burada texnika "məharəti" birinci yer tutur. Belə musiqi əsərləri heyvani ehtiras, şəhvət və ekstaz oyatmaq üçün hər cür formalist oyunbazlıqlarla bəzədilir.

Qara Qarayev taleyi haqqında əsər yazdığı xalqın tarixini, adət və ənənələrini, məişətini, xüsusilə, zəngin xalq musiqi sərvətini geniş bir qəlblə, böyük hörmətlə öyrənmiş, bu əsasda özünün müstəqil yaradıcılıq məhsulu olan musiqisini yaratmış, onu hər bir azərbaycanlının qulağına tanış olan xallarla bəzəmişdir. Əsər gərgin, ciddi bir yaradıcılıq məhsuludur. "İldırımlı yollarla" bəstəkarın mahir bir texnika, yüksək bir musiqi mədəniyyəti ilə yaratmış olduğu melodik, bəzən lirik-həzin, bəzən oynaq, qəzəbli, coşqun, bəzən ağır-müdrik, lakin hər zaman mənalı, ürəyəyatan, ifadəli və öz rəngarəngliyi ilə, öz orijinallığı ilə könülləri fəth edən bir sənət əsəridir.

Qara burada bir novator sənətkar kimi hərəkət etmişdir. O, ənənələrin qulu deyil, həqiqi varisidir. O, populyarlıq xatirinə yüksək, mənalı

yaradıcılıq prosesindən qaçmamışdır. O, xalqın irəliyə, inkişafa doğru istiqamətlənmiş zövqünü sənətkarlığının gücü ilə daha da zənginləşdirməyə çalışmışdır. Folklora "enmək" yolu ilə deyil, onun ən yaxşı nümunələrində əks olunan xalq ruhunun qüdrətini anlamağa, mənimsəməyə çalışmış və bu yolda ciddi müvəffəqiyyətlər əldə etmişdir.

O, Qoqolun dediyi kimi, xəlqiliyin kaftanlar, həsir çarıqlarla, ayrı-ayrı köntöy sözlərlə ifadə olunmadığını bilir. O bilir ki, həqiqi xalq yaradıcılığının məhsulu olan əsərlər yüz illərdən bəri kamilləşə-kamilləşə, cilalana-cilalana gəlib bizə çatmış və bu xalq yaradıcılığı heç bir zaman qış yuxusuna getməmişdir. Xalq yaşadıqca, onun yaradıcılıq dühası da yaşayır, yaradır, inkişaf edir. Xalq yaradıcılığının ən gözəl nümunələri də ayrı-ayrı canlı insanlar tərəfindən müəyyən zaman və məkan daxilində öz dövrünün ab-havası içərisində yaranmış, təkmilləşmişdir.

Xəlqilik müasir dövrün nailiyyətlərindən, onun zehni, zövqü, texniki inkişafından ayrılıb geriyə, keçmiş pillələrə qayıtmaq demək deyildir. Bəlkə də xalqın yaratmış olduğu irsi bu günün səsi, bu günün qüdrəti, bu günün məharəti ilə yeni bir təravət və gözəlliklə davam və inkişaf etdirməkdir. Müasir sənətkarın vəzifəsi, ən dərin kökləri ilə xalq ruhuna bağlı olan sənətin ideya dərinliyini və kəskinliyini, texnika imkanlarını, təsir qüvvəsini, ifadə formasını qat-qat artırmaq və zənginləşdirməkdir.

Bu gün Qara Qarayev "Yeddi gözəl", "İldırımlı yollarla" kimi baletlərin, "Leyli və Məcnun" simfonik poeması, "Alban rapsodiyası", neçə-neçə süitalar, konsertlər və nəğmələrin müəllifidir. O, 15-ə qədər kinofilmə və pyesə musiqi yazmışdır. Onun əsərləri Sovet İttifaqının hər yerində və ölkəmizin hüdudları xaricində müvəffəqiyyətlə ifa olunur.

Qaranın musiqi yazmış olduğu əsərlərdən biri də V.Vişnevskinin Puşkin adına Leninqrad Dram Teatrında gedən "Nikbin faciə" əsəridir.

Biz yanvarın beşində bu əsərin tamaşasında olduğumuz zaman teatrın direktoru dedi ki: "Bu gün "Nikbin faciə"nin 187-ci tamaşasıdır. Bu vaxta qədər bütün tamaşalarda salon dolu olmuşdur. Bu müvəffəqiyyətin bir səbəbi də sizin bəstəkar Qarayevin bu tamaşa üçün yazdığı gözəl məzmunlu musiqisidir". Sonra da əlavə etdi: "Bir sıra demokratik ölkələrdə bu əsəri tamaşaya qoyan teatrlar Qaranın bizim tamaşa üçün yazdığı musiqini istəyirdilər. Biz də partiturların üzünü köçürüb

onlara göndərirdik. Axır aylarda xahişlər o qədər çoxalmışdır ki, bizim onları yerinə yetirmək imkanımız yoxdur. İndi İngiltərə, Fransa, Belçika, İtaliya, hətta Argentinadan və başqa Avropa, Amerika ölkələrindən Qaranın partiturlarını tələb edirlər".

Direktorun dediyi bu sözlər Qaranın bir bəstəkar kimi nə qədər geniş şöhrət qazanmış olduğunu göstərir. "İldırımlı yollarla" baleti isə zəngin yaradıcılığa malik olan sevimli bəstəkarımızın artıq geniş beynəlxalq meydana yol açmış olduğunu göstərən mühüm bir hadisədir.

1958

MUSİQİMİZİN PRİNSİPİAL QƏLƏBƏSİ

Qara böyük bir sənətkar kimi artıq bütün dünyada tanınır, sevilir. Otuz ilə yaxındır ki, mən Qaranın yaradıcılığını maraqla izləyir, onun yeni, çətin yolda cəsarətlə, inadla, usanmadan irəlilədiyini görüb, iftixar hissi ilə "nə yaxşı ki, Azərbaycan musiqi sənətinin belə yüksək istedadlı, mədəniyyətli, ucuz şöhrətə uymayan, bu günü və gələcəyi heyrətli bir həssaslıqla duyan sənətkarı vardı" deyirəm.

Şeirdə olduğu kimi, musiqidə də xoşa gəlməyə, ötəri, ucuz populyarlıq qazanmağa aludə olanlar vardır. Belə adamlar daxili bir inamsızlıq, sənətin ən qiymətli dəyəri olan daxili yanğısız yazır, quş ürəklərinin çırpıntısı ilə gözləyirlər ki, böyük, kiçik bir tərif qoparsınlar.

Qara elə sənətkarlardandır ki, xalqın müasir, qabaqcıl zövqünü, arzu və tələbini unutmur, lakin gerilik, ibtidailik, rənglər və ahəngin xoşa gələn bəsitliyi yolu ilə deyil, hər yeni əsərində dinləyicilərin daxili aləmini zənginləşdirmək, onların zövqünü yüksəltmək, dərinləşdirmək, onlara yeni idrak qapılarını açmaq yolu ilə gedir. Məncə, sənətkarın yolu məhz budur.

Üçüncü simfoniya məzmunu, forması baxımından, əsərin bəstələnmə prinsipi və ideya-bədii nəticəsi etibarı ilə Qara sənətinin orijinallığına, dolğunluğuna, texniki virtuozluq və məna dərinliyinə gözəl sübutdur. Bu simfoniya insan haqqında, onun sevinc və iztirabları haqqında poetik, canlı, zəngin, əzəmətli bir lövhədir. Burada insanın sarsılmaz iradəsi, qələbəyə inamı, çətinliyə dözümü və zəfəri musiqinin incə, qəzəbli, qüdrətli, həyəcanlı dili ilə verilmişdir.

Bu zəfərin çətin, bəzən ümidsiz görünən yolları cəsarətlə və realistcəsinə verildiyi üçün qələbənin dəyəri, mənası da ciddi, böyük, inandırıcıdır.

Qaranın mürəkkəb, çətin, nəcib, şərəfli sənət yolunda parlaq bir müvəffəqiyyət olan "Üçüncü Simfoniyası"nı mən müasir sovet musiqi sənətində və mənə məlum dünya musiqi yaradıcılığında prinsipial bir müvəffəqiyyət sayıram.

BELƏ OĞLU OLAN XALQ XOŞBƏXTDİR

Yaxından tanıdığın, sevdiyin bir adam haqqında yazmaq çətindir. Bu nə qədər qəribə görünsə də, çətindir.

Adamda qəribə bir hal əmələ gəlir. Düşünürsən, yaxın bir adam kimi dostluq hissinin həyəcanlı təsiri altında nöqsanlarına göz yummuram ki?

Bu incikli nigaranlıqdan xilas olmağın bir yolu var, amansız və obyektiv bir hakimin – zamanın hökmü.

Bu hakim, bəzən ləng olsa da, həmişə dəqiq və rəddedilməz son hökmünü verir.

Fikrimdə ötüb-keçən illərin səhifələrini vərəqlədikcə, həmin illər ərzində Qara Qarayevin yaradıcılıq uğurlarının zamanın sınağından necə keçdiyini xatırladıqca bu həqiqətə bir daha inanıram.

İllər hər cür təsadüfi, xırda, xarakterik olmayan şeyləri yağışın yuyub apardığı izlər kimi yox edir.

Nəsillərin yaddaşında, zehnində insanın mahiyyətini ifadə edən fəaliyyət, özünəməxsusluq, orijinallıq qalır.

Hamı belə bir sınaqdan çıxmağa müvəffəq olmur. Hətta gərəyincə mətanəti, iradəsi olmayan istedadlı adamlar belə həyatla üz-üzə mübarizədə davam gətirmir, yarı yolda dayanır, ayrı-ayrı ötəri uğurlarla kifayətlənir, əvvəlcədən seçdikləri yoldan kənara çıxırlar.

Qara Qarayevin 40 illik yaradıcılıq fəaliyyəti bəstəkarın güzəştsiz sənət prinsipinə, onun möhkəm əqidəsinə, xidmət etdiyi işə sadiqliyinə parlaq sübutdur.

Bu gün, bütün dünyada tanınmış sovet musiqi ustası Qara Qarayev ildən-ilə, əsərdən-əsərə öz yaradıcılıq prinsipini təsdiq edir.

Tez-tez məndən soruşurlar: Sizinlə Qaranın bir sənətkar, bir insan kimi dostluğunuzun əsasında nə durur?

Mən cavab verirəm: Yeniliyə meyl, yenilik hissi.

Qara Qarayevin yaradıcılıq yolu çətin sınaqlardan keçmişdir. Bu yolda uğurlar olduğu kimi, uğursuzluqlar da, nailiyyətin sevinci olduğu kimi, qeyri-məzmunluğun acısı da olmuşdur. Burada gənc bəstəkar üçün asan yolla gedib musiqidə, poeziyada ancaq əyləncə axtaran, sızıltılar eşitmək istəyən primitiv zövqlü adamların xoşuna gəlmək şirniki vardı. Bu yolu özünə yaradıcılıq istiqaməti seçərək çox tez yüngül şöhrət qazanmaq, tez məşhurlaşmaq olardı.

Qara özünəməxsus orijinal yol seçmiş adam kimi tez məşhur olmaq şirnikinə uymadı. O özünün çətin yolunu seçdi. Bu yol çoxcəhətli, çoxçalarlı, həyatı dərin yaradıcılıqla dərk etmək – bəzən çox incikli olan axtarışlar yolu idi. Bu yol xalqın musiqi ənənələrini, dünya klassiklərinin ənənələrini daha da zənginləşdirmək yolu idi.

Bu gün dünya miqyasında təsdiqini almış ustad sənətkar Qara Qarayev layiq olduğu qiyməti birdən-birə almamışdır.

Musiqi aləmi Qara Qarayevin simasında elə bir sənətkar qazanmışdır ki, dinləyicilərinin onu eşitməsi üçün bəstəkar aşağı əyilmir.

O, dinləyicilərinin zövqünü, sənət anlayışını yüksək pilləyə qaldırmağa çalışır, istəyir ki, bu yüksək pillədən onlarla ünsiyyət bağlasın, bir-birini qarşılıqlı anlayıb duymaq mühiti yaratsın. Bu, yaradıcılıq məharəti, sənət hünəri idi. Qara get-gedə buna daha artıq nail olurdu.

Qara Qarayevin "İldırımlı yollarla" baletinin Leninqradda Kirov adına məşhur teatrdakı ilk tamaşasını xatırlayıram. Tamaşa salonunda oturub gərginliklə musiqini dinləyir, daxili bir nigaranlıqla yalnız səhnədə cərəyan edən hadisələri deyil, həm də tamaşa salonuna olan təsiri izləyirdim.

Tamaşanın əvvəlində salonda hökm edən gərginlik dəqiqələr keçdikcə aradan qalxırdı. Elə bil ki, tutqun səmada günəş şüalarının parıltısı görünməyə başlayırdı.

Baletin musiqisi, gözəl quruluşu artistlərin mahir ifası ilə vəhdətdə get-gedə tamaşaçıları daha artıq cəlb edir, onları öz təsiri altına alırdı.

Öz məhəbbətləri ilə zülmün və irqi düşmənçiliyin qaranlıq səltənətinə meydan oxuyan qara dərili oğlan və ağ dərili qızın faciəli taleyinə salondakılar ürək çırpıntısı ilə tamaşa edirdilər.

Qara məndən bir az kənarda oturmuşdu. Tez-tez ona tərəf çevrilən heyran baxışların fərqinə varmırdı.

Bu, təntənəli dəqiqələrdi. Tamaşaçıların həyəcanı, heyrəti get-gedə artırdı. Pərdə son dəfə örtüləndə alqış səsləri salonu bürüdü. Bəli, bu, həqiqi təntənə idi. Həm də bu, yalnız Qaranın təntənəsi deyil, bütün dünyada şöhrət tapmış, hər yerdə əsil, böyük sənətin pərəstişkarlarının sonsuz məhəbbətini qazanmış sovet baletinin təntənəsi idi.

O gün şair Nazim Hikmət də tamaşaçılar arasındaydı. Bütün gördükləri, eşitdikləri ilə sarsılmış böyük şair Qaranı qucaqladı, həyəcandan titrəyən səslə dedi: "Sağ ol, qardaş. Yeni müdrik musiqinlə bizə bəxş etdiyin sevinc və qürur hissi üçün sağ ol. Belə bir oğlu olan xalq xoşbəxtdir".

Qaranın yaradıcılığında yüksək qiyməti mən Dmitri Dmitriyeviç Şostakoviçdən də eşitmişəm. Şostakoviç keçmiş şagirdinin böyük bir istedadı olduğunu qeyd edib deyirdi ki, Qara yalnız Azərbaycan xalqının deyil, bütün musiqi aləminin fəxridir.

Mənim Qara Qarayevlə 1938-ci ildən "Ürək nəğməsi" ilə başlanan yaradıcılıq dostluğum heç bir vaxt qırılmamışdır. Bəstəkar dönə-dönə mənim şeirlərimə müraciət etmişdir. Hər dəfə Qara ilə yaradıcılıq görüşündən böyük həzz alıram.

İndi Qara Qarayevin şanlı 60 illik yubileyində mən sonsuz qürur hissi ilə onu dostum, xalqımın görkəmli oğlu adlandırıram. Bir insan, sənətkar kimi onunla öyünürəm. Qara musiqi aləminə gözəl, əsil novator əsərlər vermiş sənətkardır.

FİKRƏT ƏMİROV HAQQINDA

Fikrət Əmirov musiqiçi ailəsində anadan olmuşdur. Onun atası Məşədi Cəmil məşhur tarzən idi. Məşədi Cəmil heç bir musiqi təhsili almadan coşqun enerjisi və qeyri-adi istedadı sayəsində nəinki doğma vətəni Gəncədə, həm də bütün Azərbaycanda tanınmışdı.

Azərbaycanda Sovet hakimiyyətinin qurulması Məşədi Cəmilə çoxdankı arzusunu həyata keçirməyə imkan verdi: yerli partiya və sovet orqanlarının köməyi ilə o, Gəncə musiqi məktəbini təşkil edir, orda müdir və müəllim vəzifəsində çalışır.

Əlamətdar faktdır ki, sonralar onun oğlu Fikrət həmin musiqi məktəbinə daxil olur və 1938-ci ildə onu əla qiymətlərlə bitirir.

Məşədi Cəmilə ala gözlü, geniş açıq alınlı, nazik əsəbi dodaqlı, arıq, bədəncə zəif oğlunun bu məktəbə daxil olmasını, orada oxumasını və məktəbi bitirməsini görmək nəsib olmadı. O, 1928-ci ildə, Fikrət 6 yaşında olarkən vəfat etmişdir.

Lakin Məşədi Cəmilin həyatında özünü ən xoşbəxt adam hiss etdiyi bir gün də oldu. Bu gün – oğlu Fikrətin doğulduğu gün və musiqi təhsili görməmiş əyalət musiqiçisinin illərlə ürəyində bəslədiyi ikinci övladı – xalq nağılı motivləri əsasında yazdığı "Namuslu qız" operettasının Gəncədə partiya məktəbi səhnəsində ilk tamaşasının oynandığı gün idi.

Fikrət atasının sifətini yaxşı xatırlamır, lakin son dərəcə həssas uşağın xatirəsində atasının tarda çaldığı heyranedici melodiyaların ahəngi qalmışdı.

Atasının ölümünü Fikrət evlərini həmişə dolduran şən musiqi səslərinin birdən-birə susması kimi qavramışdı.

Təxminən bir il sonra, bir payız axşamı o, anasının evdə olmamasından istifadə edərək anlaşılmaz bir qorxu və ehtiyatla atasının toz basmış tarını ələ alır, tozunu silib simlərinə toxunur. İniltini anladan bir səs gəlir. Fikrət tara baxır – tar onun qarşısında açılan dünya kimi böyük idi.

Tezliklə Fikrət bir zamanlar atasının çalışdığı məktəbə qədəm basır. Atası Məşədi Cəmil üçün bir xülya kimi görünən şeylər oğlu üçün yeni həyat şəraitində həqiqətə çevrilir.

1947-ci ildə Fikrət mənəvi atası, tələbkar və qayğıkeş müəllimi Üzeyir Hacıbəyovun adını daşıyan Azərbaycan Dövlət Konservatoriyasını bitirir.

Hələ lap gənc ikən Fikrət yaradıcı zəhmətin həyəcanla dolu sevinclərini hiss etmişdi. O, öz üzərində çox çalışır, tar çalır, doyumsuzluqla xanəndələrin gah qəmgin, gah şən nəğmələrinə qulaq asır, heyranlıqla məşhur tarzən Qurban Pirimovu, xalqın sevimlisi Bülbülün oxumağını dinləyirdi.

F.Əmirov milli musiqi dilimizin sirlərinə yiyələnib rus musiqisinin dahiləri Qlinka, Musorqski, Çaykovski, Rimski-Korsakovun əzəmətli əsərləri ilə tanış olmağa başlayır. İstedadlı gəncin qarşısında indiyə qədər bilib tanımadığı yeni dünyanın sehrli səhifələri açılırdı.

İlhamlı və gərgin zəhmətlə dolu təhsil illəri başa çatdı. Təsadüfi deyil ki, artıq püxtələşmiş bəstəkarın ən görkəmli əsərləri – "Şur" və "Kürd ovşarı" muğamları əsasında yaranmışdır.

Stalin mükafatına layiq görülmüş bu əsərlər Fikrət Əmirovun Azərbaycan xalq musiqisini gözəl bilməsi və olduqca mürəkkəb müasir musiqi texnikasını ustalıqla tətbiq etməsinin nəticəsi idi.

Bəstəkarın özünün dediyi kimi, "Şur" və "Kürd ovşarı" simfonik muğamları üzərində işləyərkən o, yorulmadan Üzeyir Hacıbəyov, Qlinka, Çaykovski və Rimski-Korsakovu öyrənirmiş – zəngin xalq musiqi yaradıcılığını düzgün dərk etməyi, ondan bacarıqla istifadə etməyi, milli formaları inkişaf etdirməyi, yəni sənətin əsaslarını, yüksək mədəniyyəti, qabaqcıl texnika və aydın üslubda yazmağın sirlərini öyrənirmiş. Bu dərslər gənc bəstəkar üçün çox səmərəli və faydalı oldu.

Hələ simfonik muğamlardan əvvəl Fikrət Əmirov hüdudsuz musiqi yaradıcılığı dünyasında öz üslubunu, öz dilini axtararaq bir sıra simfonik parçalar, fortepiano və vokal üçün əsərlər yaratmışdı.

Fikrət Əmirovun bəstəkarlıq üslubunun səciyyəvi xüsusiyyəti onun əsərlərinin son dərəcə melodik olmasıdır.

Onlar geniş xalq kütlələrinə yaxın olmaqla bərabər, həm də qabaqcıl musiqi sənətinin müasir dili ilə yazılmışlar. "Şur" və "Kürd ovşarı" simfonik muğamlarını yaratdığı zaman bəstəkarın qarşısında çox ciddi və çətin vəzifə dururdu. Xalq yaradıcılığının bu nadir əsərlərini elə şəkildə yenidən dərk etmək, harmonizə etmək, elə bir nizamlı sistemə salmaq lazım idi ki, heç bir vəchlə onların ruhuna xələl dəyməsin, bu musiqi xəzinəsinin təkrarsız daxili gözəlliyi hifz edilsin. Eyni zamanda onların tarixi məhdudiyyət sərhədlərini aşmaq, bütün xalqların geniş təbəqələri tərəfindən anlanılmasını və qavranılmasını təmin etmək vacib idi.

Müasir musiqimizin digər görkəmli xadimi, iki dəfə Stalin mükafatı laureatı Qara Qarayev bu əsərlərin ilk ifası münasibətilə yazır: "Heç də təsadüfi deyil ki, F.Əmirov xalq yaradıcılığına müraciət etdiyi zaman Azərbaycan milli folklorunun ən mürəkkəb forması olan muğam üzərində dayanmışdır. Muğamlar Azərbaycan xalq musiqisində ən yaxşı nə varsa – hamısını özündə toplamışlar. Burada xalq musiqi yaradıcılığının çoxsaylı formaları bütün müxtəlifliyi ilə təmsil olunmuşdur. Məhz burada, bu mürəkkəb, sintetik formada biz həm sərbəst improvizasiya üslubunda ifaya, həm çeşidli rəqs musiqisi ritmlərinə, həm nəğmə melodikasına rast gəlirik. Bunlar hamısı dəqiq və nizamlı lad sistemində birləşərək vahid bir bütöv əmələ gətirir... F.Əmirovun böyük xidməti ondan ibarətdir ki, o, qədim Azərbaycan muğamlarını yaradıcı şəkildə yenidən dərk edərək onları bu günün yeni məzmunu

ilə zənginləşdirmiş, səsləndirmiş, xalqımıza yaxın və aydın yeni ideya ilə dolğunlaşdırmışdır".

Yüksək istedada malik olan bəstəkar Fikrət Əmirov indi yaradıcılığının çiçəklənmə dövrünü yaşayır.

F.Əmirovun atası musiqi sənətinə kübarlar üçün əyləncə kimi baxılan zülmət dünyasında təhsil almaq, bəstəkar olmaq arzusuyla yaşadı. Onun oğlu Fikrət parlaq yaradıcılığı sayəsində təmənnasız xidmət etdiyi xalqının qayğısı ilə əhatə olunmuşdur.

F.Əmirova Stalin mükafatı verilməsi onun bu istiqamətdə əməyinin yüksək qiymətləndirilməsidir.

RƏNGLƏR ŞAİRİ

İnkişaf etmiş mədəni dillərin zəngin söz ehtiyatı var. Bir də bu sözlərin yerinə görə, vaxtına görə müxtəlif mənaları var. Sözlərə nisbətən musiqi dilinin ana vahidləri (lad) müqayisə edilməyəcək dərəcədə məhduddur. Rənglər də belədir. Ən müşahidəçi adam rənglərin sayını əl barmaqları ilə göstərə bilər. Ancaq bu ana vahidlərin (istər musiqi, istər rəng olsun) bölünmələri var. Musiqinin bəmi, zili, rənglərin çalarları var. Bu nüansların, çalarların sonsuzluğu sözlərin ifadə imkanı ilə yarışa bilər. Bu çalarlar rəng ustasına şəkil sənətinin xariqələrini yaratmağa imkan verir. Bu çalarlar, bir rəngin çərçivəsində belə, zəngin bir aləm, sonsuz bir ifadə dünyası yaradır. Bir baxışda çox məhdud görünə bilən qara rəngin çalarlarını tədqiq edəcək olsaq, nə qədər ayrımlı, nə qədər təsirgüclü, zəngindilli bir aləm açmış olarıq!

Əlvan rənglərin qaynar, soyuq, coşqun, həzin, parlaq, sönük və sairə və sairə kimi sonsuz çalarlarının, bizi əhatə edən təbiət qədər tükənməz ifadəli olduğunu hər zaman duymasaq da, bu, belədir.

Adətən, rəssamlar rənglərdən istifadə edirlər. Bəhlulzadə bir rəssam kimi həyatda var olan rənglərdən bacarıqla istifadə edir. Lakin Bəhlulzadə sənəti haqqında bunu demək bəs deyil, onun mənzərə lövhələrinə diqqətlə baxanlar görürlər ki, Bəhlulzadə həm də rəng yaradır, müxtəlif rənglərin yeni çalarlarını kəşf edir.

Mənim evimdə Bəhlulzadənin bir neçə tablosu var. Bunlar Azərbaycanın müxtəlif yerlərindən mənzərələrdir. Hər dəfə mən bu şəkillərə baxanda, elə bil ki, həzin, zərif bir mahnı dinləyirəm, mənə elə

gəlir ki, bu tablolardakı rənglər qəlbimin dərinliklərinə nüfuz edən şeir misralarıdır. Onlar vətənimizin gözəlliyinə, onun təkrarsız rənglər, rayihələr, səslər dünyasına açılmış pəncərələrdir.

Bu pəncərələrdə mən dünyanı görürəm, onun torpağını, səmasını görürəm. Rənglərin fırtınasında canlı baharı duyuram.

Əsil böyük sənətin gücü, təsir ölçüsü bir də ondadır ki, adam belə əsərlərə baxanda, dinləyəndə, oxuyanda onlardakı böyük sənət həqiqəti sənin bütün varlığını fəth edir. Görə biləcəyin, duya biləcəyin tənqid və iradları əridir, söndürür.

İti hərlənən bir təyyarə pərvanəsi arxasından biz qarşı mənzərələri aydın görürük. Çünki bu pərvanə qanadlarının qalaya bildiyi aləm onun açıqlarından görünən aləmdən daha azdır. Belə bir təşbeh qüsurlu olsa da, bitkin olmasa da, fikrinin əsas yönü haqqında müəyyən təsəvvür verir.

Bəhlulzadə sənəti hər vaxt eyni dərəcədə bitkin, eyni təsirqüvvəli, eyni məharətlə zəngin olmamışdır. O, əsərdən-əsərə inkişaf etmişdir. Biz indi Bəhlulzadə məktəbi haqqında ciddi danışa bilərik. Müasir Azərbaycan rəssamlığını bu poetik fırçalı sənətkarsız təsəvvür etmək çətindir. Onun yaradıcılığı sənətimizin adı fəxr ilə çəkiləcək bir qoludur.

Bəhlulzadənin son illərdəki əsərləri onun yaradıcılığında yeni bir mərhələdir. Əvvəllər rəssamın bəzi əsərlərində olan "şirinlik" artıq yoxdur. İndi həyatı daha dəqiq gözlə görən, gördüklərini daha incə, daha dərin, daha təsirli ifadə edən, püxtələşmiş, özü-özünü "inkar" etmiş, fırçasına daha artıq hakim olmuş, rənglər xaosunu məharətlə ahəngli bir düzümə salan bir sənətkar haqqında söhbət gedir.

Bəhlulzadə 60 ilinə belə gəlmişdir. O, bu sözün əsil mənasında, rənglər şairidir. Qarşıda yeni yaradıcılıq kəşfləri, yeni qazanışlar var.

1969

SƏN XOŞBƏXTSƏN, QARDAŞIM!

Səttar Bəhlulzadə Azərbaycan rəssamları arasında mənim ən çox sevdiyim sənətkarlardandır. Hər dəfə onun çəkdiyi şəkillərə baxanda mən dərin daxili bir həyəcan duyuram.

Doğma yurdumuzun mənzərələri gözlərimin qabağında canlandıqca mənə elə gəlir ki, qədim torpaqlarımızın yeni baharı haqqında maraqlı, şirin bir dastana qulaq asıram.

Bəhlulzadənin yeni açılmış sərgisi haqqında çox şey demək olar. Sənətkarın həssas şair qəlbinin həyəcan və titrəyişlərindən doğan rənglərin əlvan dəstəsindən danışmaq olar, onun yaradıcılığına xas olan yüksək poeziyadan söhbət açmaq olar. Vətənimizin dağlarına, bağlarına, yollarına, dəniz, göl və çaylarına bəslədiyi və həqiqi bir sənətkar fırçası ilə ifadə etdiyi dərin, bəzən payız gününün qürubu qədər həzin, bəzən bahar günləri kimi coşqun məhəbbətdən bəhs etmək olar.

Mənə elə gəlir ki, Bəhlulzadənin ən gözəl lövhələri rənglərin ahəngindən, şəfəqlərin oyanmasından, kölgələrin titrəməsindən doğan nəğmələrdir.

Bu nəğmələri biz adi nəğmələr kimi qulaqlarımızla deyil, qəlbimizlə, könlümüzlə eşidirik.

Sən bu lövhələrə baxdıqca suların zümzüməsini, yarpaqların xışıltısını, çiçəklərin, güllərin ətrini, qağayıların qanad səslərini, buruqların nəfəsini duyursan.

İnsana elə gəlir ki, rəssamla bərabər tünd bir qızartıya bürünmüş üfüqlərə doğru uzanan yolların – hara isə böyük ümidin, gözəl arzuların ardınca, xəyalında yaranmış əfsanəvi bir aləmin qoynuna gedirsən.

Bu yollar səni könlü eşq və həvəslə dolu bir sənətkarın fırçası ilə canlanan əzəmətli qarlı dağların ətəyinə, çəhrayı çiçəkləri sanki xəfif küləkdən titrəyən meyvə ağaclarının naxış-naxış budaqları ilə bəzənmiş bağlara, göylərin sonsuz firuzəliklərini əks edən suların çağladığı yerlərə aparır. İnsan bəlkə dəfələrlə gördüyü, seyrinə daldığı, heyran qaldığı bu mənzərələri, elə bil, ilk dəfə, yenicə görür.

Sanki bu dəfə günəşin şəfəqləri bu mənzərələrin daxilində elə gözəlliklər, elə mənalar işıqlandırmışdır ki, adi insan gözü bu vaxta qədər onları görməyə qadir deyildi. İndi rəssamın sənətkar qüdrəti bizə yeni təravət, təkraredilməz gözəlliklər açmışdır. Təbiəti, ömrün baharını bütün incəlikləri ilə gözlərinizin qarşısında canlandırmışdır.

Elə bil ki, rəssam sizi əfsanəvi bir səyahətə çıxarmışdır, sizi doğma yurdun müxtəlif guşələri ilə tanış edir.

Nağıllarda olduğu kimi, bir səs sizə "gözünüzü yumun" deyir. Bir an sonra gözlərinizi açanda sərginin yeni bir salonunda rənglərin yeni bir fırtınası qarşısında donub qalırsınız.

Bəhlulzadənin sərgisinə bir saat da, bir neçə gün də baxmaq olar. Burda elə şəkillər vardır ki, onlara təkrar-təkrar baxıb hər dəfə yeni bir şey kəşf edirsən. Sərgidəki şəkillər hamısı eyni qüdrətdə deyil. Onların

təsir gücü də müxtəlifdir. Bu da çox təbiidir. Lakin, məncə, eksponatları bir qədər azaldıb onların düzülüşünü daha sərbəst eləmək olardı.

Sərgidən çıxdığım zaman mənə elə gəldi ki, mən bütün təravət və gözəlliyi ilə bir bahar aləmindən ayrıldım. Yenidən ora qayıtmaq, yenidən qəlbimi fərəh və qürurla dolduran hissləri duymaq, Azərbaycanın sənətkar oğlu, rənglər, şəfəqlər şairi, dostumuz Səttar Bəhlulzadənin əlini sıxmaq, "Sən insanlara sevinc, məhəbbət bəxş etməyə qadirsən! Sən sənətkarsan, sən xoşbəxtsən, qardaşım!" – demək istəyirdim.

1960

DOSTUM TAHİR SALAHOV

Sənətkar haqqında danışmaq çətindir. Çətindir ona görə ki, sənət elə bir aləmdir ki, onun sirlərini axıra qədər açmaq çox müşküldür. Bəzən sənətin ayrı-ayrı sirləri o qədər dərində, o qədər anlaşılmaz, izahedilməz olur ki, onu demək, təsvir eləmək, oxucuya, tamaşaçıya yetişdirmək çətin olur. Tahir Salahov elə sənətkarlardandır ki, onun haqqında danışmağı mən ikiqat çətin hesab edirəm. Bir cəhətdən ki, o, sənətkardır, çox yüksək bir yaradıcılıq yolunun yolçusudur. Bir tərəfdən də mənim yaxın dostumdur. Dost haqqında da danışmaq çətin olur. Çünki öz-özündə fikirləşirsən ki, onun haqqında dediyim sözlər, deyəsən, azdır. Çünki ürək daha artıq şey tələb edir. Bir tərəfdən də fikirləşirsən ki, deyəsən, dost olduğu üçün daha artıq demişəm, daha artıq tərifləmişəm. İş buradadır ki, əsil sənətkar deyəndə, o, tərif fikrini qəbul eləmir. Bu xas bir sənətkardır. Elə bir sənətkardır ki, onun öz yolu var, onun öz xətti var, onun öz şərtləri var.

Tahiri mən təxminən 20 ildir ki, tanıyıram və onun yaradıcılığına yaxından bələdəm. Onun haqqında yazmışam – mərkəzi mətbuatda da, yerli mətbuatda da. Tahir sənətində məni heyran qoyan, mənim çox xoşuma gələn nədir? O da Tahirin özlüyüdür, yəni özünəməxsusluğu, öz yolu ilə getməsidir. İndiki halda Tahir Salahov ölkəmizdə və onun sərhədlərindən kənarlarda, çox-çox ölkələrdə böyük bir sənətkar kimi tanınır. Ona görə də, əlbəttə, onun haqqında indi belə sözləri demək asandır. Ancaq mən fəxrlə deyə bilərəm ki, 15 il, 16 il bundan qabaq da mən indi dediyim sözləri təxminən beləcə, Tahir

haqqında demişəm, yazmışam və çox fəxr edirəm, sevinirəm ki, bu sözlər get-gedə öz həqiqi mənasını bir daha təsdiq eləyir və Tahir sənətinin yüksəkliyini bir daha nümayiş etdirmiş olur.

Tahirin iş üsuluna mən bələdəm. Yalnız neftçiləri, ayrı-ayrı ziyalıları çəkdiyi portretlərdən, lövhələrdən yox. O mənim də portretimi çəkmişdir və bu iş üsulunu mən o zaman bir neçə seans əsasında müşahidə eləmişəm. Bir də görürdün ki, Tahir müəyyən bir şəkildə, müəyyən bir tərzdə səni otuzdurur və başlayır çəkməyə. Baxıb görürsən ki, doğrudan, çəkdiyi şəkil istər oxşarlıq, istər onun ifadə məzmunu etibarı ilə çox yaxşıdır. Səhərə vədələşib vaxt qoyurdu ki, gəlib davam etdirsin. Səhər gələndə görürəm ki, Tahir bütün kompozisiyanı dəyişib təzədən başlayır. Belə bir, iki, üç, dörd... Bir də görürsən ki, yalnız əlləri çəkməklə bir neçə seans məşğul oldu. Əllərin vəziyyəti, əllərin ifadəsi, əllərin belə demək olursa, təbiri-caizsə, dilini tapmaq yolunda böyük əmək sərf elədi. Tahir Qaranın şəklini çəkib, hamınız görmüsünüz. Nə qədər sadəlik var bu şəkildə. O qara royal, oturub fikrə dalmış Qara, doğrudan da, tamaşaçıda böyük təsir buraxır. Tahirin başqa şəkillərində də daxili məna, ifadəlilik, sənətin yeni-yeni sirlərini açə bilmək qabiliyyəti vardır və onların hər biri çox qiymətlidir.

Rəssamın dili şairin dilindən fərqlənir. Şairin dili musiqi sənətkarlarının dilindən fərqlənir. Əgər bizim iş üsulumuzda ifadə elədiyimiz material – söz materialı minlərlə, on minlərlə və bunların calaşığı yüz minlərlədirsə, ilk baxışda belə görünür ki, musiqi sahəsində çalışanların, rəssamlarımızın bu qədər imkanı yoxdur. Musiqinin yeddi əsas notu, onların yarım notları və sairə başqa vasitələrini saya vursaq, bir neçə on rəqəmi ilə yazıla bilərsə, rəssamın əsas rəngləri barmaqla sayılacaq qədərdisə, söz ehtiyatı çox genişdir. Ancaq rəssamlıq sənətində məharət onda üzə çıxır ki, bu rənglərin ən xırda çalarları, ən xırda qarışığı, ən xırda tündlüyü-açıqlığı vasitəsilə böyük psixoloji, dərin lövhələr yaradılır. Götürsəniz, beləliklə, qırmızı rəngin, göy rəngin bir, iki, üç növü olur. Amma rəssamın gözündə və rəsm sənətinə az-çox bələd olan adamların gözündə bir qırmızı rəngin onlarla çaları var, onlarla ayrı-ayrı nüansları var, onlarla oxşarları və birbirindən az fərqlənən onlarla şəkilləri var. Bunları tapmaq, həmin bu çalarları yerli-yerində istifadə eləmək, onların vasitəsi ilə psixoloji aləmi açmaq. Bu böyük bir sənətdir ki, bizim dostumuz Tahir Salahov bu sahədə, doğrudan da, məharətli bir sənətkardır.

Bu gün dostumuz Tahir sənətin ən maraqlı, ən gərgin, ən səmərəli dövrünü yaşayır. Tahirin adı bu gün şəhərimizin – Bakının, respublikamızın – Azərbaycanın, İttifaqımızın – SSRİ-nin sərhədlərindən çox-çox kənarlarda məhəbbətlə, hörmətlə, qiymətlə yad edilir. Bu da onun sənətinin real həyatla bağlılığıdır. Bu yaxınlarda Tahir Salahova SSRİ xalq rəssamı adı verilmişdir. Bu da mövcud həqiqətin təsdiqidir. Yəni bu ad, Tahir Salahovun sənətinə, onun gördüyü işə, onun ictimai işdəki fəaliyyətinə, bir sənətkar kimi yaradıcılığına verilən doğru, vaxtında olan və yüksək bir qiymətdir. Mənə elə gəlir ki, Tahir Salahov deyə bildiyinin hələ az bir hissəsini demişdir. Onun böyük yaradıcılıq yolu gələcəkdə də bizə – onun xalqına, onu sevən insanlara, bəşəriyyətə yeni-yeni sənət hədiyyələri bəxş eləyəcəkdir.

ŞAİR ƏLİ KƏRİM

Sənətkarın iki doğulma tarixi olur. Biri anadan olduğu gün, o biri ilk sənət əsəri yaratdığı gün. Birinci tarix dəftərxana kitablarında yazılır, o biri tarixi həyat, zaman müəyyən edir.

Əli Kərimin doğulduğu il, gün sənədlərdən məlumdur. Bəlkə də o gün Göyçayın qollu-budaqlı çinarlarında yarpaqlar daha həzin titrəşir, qıjıltılı suları daha sakit axırdı. Bəlkə də torpaq, su, hava bu şair oğlunun dünyaya gəldiyindən xəbərsiz idi. Yarıqaranlıq bir daxmada bir oğlan uşağı dünyaya gəlmişdi, lakin şairin doğulma günü hələ qarşıda, haylı-haraylı illərin, nigaran günlərin arxasında idi. Bu günün təqvimin hansı vərəqində susub qaldığını bu gün də müəyyən etmək çətindir, çünki ilk şeir hələ şair adına vəsiqə deyil. Bu bir təsadüf, bir keçəri həvəs, bir dərkedilməmiş, dumanlı duyumdan gələn təsir ola bilər. Mən, dumanlı sözünü yazdım, elə bu zaman içimdə çoxdan bəri susmuş bir ağrı, bir incik baş qaldırdı. Əli Kərimi də, şair Əli Kərimi də bu "duman" oyuğu ilə qorxudanlar vardı.

Bəli, şair Əlinin ikinci doğulma tarixini müəyyən etmək, açmaq üçün ciddi, uzun, səbirli tədqiqat, təhlil, məhəbbətli axtarış gərəkdir.

Mən Əli Kərimi çoxdan tanıyıram. Məndən soruşsalar ki, Əli Kərimin şairlik tarixi, günü, ili hansıdır? Deyə bilərəm ki, mən onu şair görmüş, şair tanımışam. Mənə elə gəlir ki, o, həmişə şair olmuşdur. Mən deyərdim ki, o, hər həqiqi sənət əsəri olan şeri ilə yenidən doğu-

lur, yenidən həyata başlayırdı. O, hər zaman öz xarakterinə, öz manerasına, öz şairlik simasına sadiq qalırdı. Lakin hər prinsipial şərində, yeni rəng ahəngində, yeni bir təsir gücündə, yeni poetik nəfəsdə təzələşirdi.

Şair var ki, yüksəliş pillələrini dayana-dayana, tövşüyə-tövşüyə, yazdığını təkrarlaya-təkrarlaya qalxır. Şair də var ki, öz-özü ilə yarışda, hər əsərində bir pillə qalxır, özünü, özgəni təkrarlamaq faciəsindən uzaq olur. Əli Kərim ikincilərdəndi.

O, deyə bildiklərinin, demək istədiklərinin az, çox az bir hissəsini dedi. Bu az hissə də şair Əlinin çox böyük poetik imkanlarını aydın göstərir.

Bir gün Əli parıltılı, qara gözlərini yumdu. Üzünü xəstəxana divarına tərəf çevirdi, sakit, səssiz bizdən ayrıldı. Həkimlər: "İnsan öldü!" – dedilər. Oxucular dedi: "Yox, şair ölmədi". Bu, necə ölümdür ki, biz bu gün də onun ürək çırpıntılarını, hərarətini, sevinc və kədərini, məhəbbətinin gücünü şeirlərindən duyuruq? Bu, necə ölümdür ki, şair Əli bu gün də bizim sıramızdadır?! Sanki bu qeyri-adi mübahisənin səsini əvvəlcədən eşidib Əli bu sətirləri yazmışdır:

Bu, ölümlə
həyat çarpışmasıdır,
İnsan çarpışır,
imtahan gedir.

Bu imtahandan şair Əli Kərim qalib çıxdı.

Əlinin hiddət və qəzəblə yazılmış "Qaytar ana borcunu" şərində də, həzin, lirik "O qıza" şərində də, neftçilərə həsr etdiyi şeirlərində də eyni həssas, təmiz, hərarətli, tutumlu şair qəlbi çırpınır.

Əli oğluna yazdığı şərində:

Gəl könlümün istəyi, həsrətimin qənimi –

deyir.

Kədərimi bir daş kimi qoymuşam ayağımın altına

Bu misralar da onundur!

Əllərimi göynədir saçlarının həsrəti.

Bu da.

Gözümdə, könlümdə qəm,
yollarında bitmişəm
İlk baharı gözləyən cavan ağaclar kimi.
Baharı gözləyirəm... Ay qız, gəl, bahar kimi!

Bu misralar da onundur.

Kəlmələr dağıldı sahil boyunca,
Yonulmuş bir gülün ləçəkləri tək.

Bunlar da.

İnsan məhəbbətinin təravətini istəyən şair onun bayağılaşdırılmasından, adiləşdirilməsindən qorxur.

Görüşlər hamısı vərdişə dönər
Bəlkə bir saatda qocalarıq biz.

Bu sətirlər Əli Kərimindir.

Ölümün Nəsimi zirvəsi!

Bu nadir misra da onundur.

Əli bir neçə sözlə bir mənzərə yaradır. Onun sözlərlə çəkdiyi şəkil insanın gözləri qarşısında aydın bir lövhə canlandırır.

Dostumla bayaqdan bir qoca haqda
Yenə nə bilirik deyirik bir-bir.
Oğlumun çərtdiyi rəngli karandaş
Bizim kəlmələri göydə dinləyir.

Atasının bir dostla apardığı söhbətə heyranlıqla, maraqla qulaq asan uşaq özünü o qədər unutmuşdur ki, əlində çərtdiyi qələmlə donub qalmışdır. Bu, rəssamın kətan üstündə yaratdığı bir lövhəni xatırlatmırmı?

Az sözlə çox şey demək Əli poeziyasının əsas xüsusiyyətidir.

Qayıt, yerinə qoy ayı, günəşi!
Qayıt, sahmana sal bu kainatı!

Obrazın əzəməti, təxəyyülün hüdudsuzluğuna diqqət edin!
Ana haqqında:

Demirəm göy kimi ucadır adın,
Yox, yox, alçalmasın söhbətin, sözün.
Sanki yaranışdan oxşar olmadın,
Ancaq özün kimi böyüksən özün.

Füzuli haqqında:

Dünya səni qocaltdı
yaşıdın olsun deyə.

Yaxud:

Ey yeni əsrimiz!
sözüm var sənə...
Bəsitdir nə qədər yanında şerim.
Sənin idrakının zirvələrinə
Uçub yetişməyir fəhlə sözlərim.

Mən inanıram ki, Əli Kərimin zəngin, maraqlı, çoxcəhətli yaradıcılığı neçə elmi əsərə mövzu olacaqdır. Onun yaradıcılığını təhlil etmək, onun az sürən ömrünün gərgin günlərinə necə sığışdığı heyrət doğuran şeir, poema, roman, pyeslərini diqqət və məhəbbətlə təhlil etmək ədəbiyyatşünaslığımızın şərəfli vəzifəsidir.

Yox, mənə deməyin,
çox yazma,
dincəl!
Elə düşərsən ki, gəlməz səsin də.
"Şeir də, sənət də məhv olub getsin!"
Deyərsən, son ağrın, son nəfəsində.
Xeyr, termometrim – bu qələmimdir.
Yandırsın qoy onu hisslərin odu.
Şairi yaşadır hər şeydən əvvəl
Məna ənginliyi, söz kislorodu.

Bu sözlər də Əli Kərimindir.

Onun son şeirləri haqqında ötəri söz demək istəmirəm. Bu şeirlər ədəbi-bədii dəyərinin təhlil və təsdiqindən başqa, bir də psixoloji cəhətdən çox maraqlıdır. Onların çoxu şairin ağır, ümidsiz xəstəliyi zamanı yazılıb. Bunlardakı poetik bitkinlik şair mərdliyi, insan cəsarəti ilə birləşib ədəbi bir hadisəyə çevrilmişdir. Əlinin "Daş" şeri fəlsəfi-poetik təfəkkürün gözəl nümunəsidir. Burdakı yüksək humanist duyumun mahiyyətini dərk edə bilməyənlər axtardıqları "dumanı" tapa bilmədilər.

Bu şeirlər bəstəboy, gülərüz, çox zaman gözləri daxili aləminə dalmış müdrik bir cavanın zəngin mənəviyyatından xəbər verir.

Ey mənim yerimdə
yatan qardaşım.
Bəzi məsləhətə ixtiyarım var.
Dəmir yaddaşında bir çarpayının
Qalar o çəkdiyim sonsuz ağrılar,
Qorxu!
Ürəyinə yol tapsa qorxu.
İnsan da ölməyə başlar o gündən.
Qorxu – kəşfiyyatçı,
verəcək xəbər
Ölümə, bil, sənin hər illətindən
O, yol açar,
Ölüm bu yoldan keçər
Qorxudan qorunmaq qüdrətin olsa,
Ölüm baş götürüb
dünyadan keçər.

Bu misralar da əziz dostumuz şair Əli Kərimindir.

ƏLİ KƏRİM HAQQINDA SÖZ

Göyçayda Boz dağın ətəyində bir park var, şəhər parkı. Bu park mərhum şair Əli Kərimin adınadır. Burda hündürboylu ağaclar, qovaqlar, çinarlar, güllər, çiçəklər var. Bu parkın ortasında, böyük meydan kimi yerdə, tava daşı ilə döşənmiş yerdə bir məzar var, tənha bir məzar

– Əli Kərimin məzarı. 10-15 il bundan qabaq burda nə bu park vardı, nə bu həzin, tənha məzar vardı.

Əli Kərim çox az danışardı. Onun söhbətləri son dərəcə qısa olardı. Onun bir söhbəti yadımdadı ki, həmin bu parkın yerində qanqallı, yovşanlı boz bir düzən vardı. Onun sol sahilində Arvan çayı vardı, quru çay idi bu. Əli Kərim uşaqlıqda gəlib bu çayın kənarında oturar, ilaşırı, iki ildən, üç ildən bir bura gələn dəli-dolu selə baxar və düşünərdi. Deyərdi, mən bu selin gücünü-qüvvətini görəndə, onun dağıdıcı gücünü görəndə onun törətdiyi fəlakətlərə məruz qalan insanları düşünürdüm. Hələ o vaxt, o uşaqlıq zamanında Əli Kərimin xatirində bu Arvan çayının seli, onun törətdiyi fəlakət dərin iz buraxmışdı.

Əli Kərim haqqında danışmaq o qədər də asan deyil, çünki bu həqiqi sənətkar, böyük şair o qədər təvazökar idi ki, onun yazılarını, şeirlərini oxuyanda düşünürdüm ki, bu şeirləri bu sakit adam – Əli Kərim yazırmı? Çünki onun xasiyyətində də, şeirlərində də təmtəraq, gurultu, parıltı yox idi. Lakin bu şeirlərdə olan daxili enerji, onların məna yükü o qədər böyük idi ki, adam bu şeirlərə qulaq asanda, doğrudan da, heyran qalırdı. Əli Kərimin şeirlərində soyuq misralara, biganə parçalara rast gəlmək mümkün deyil. Bu, doğrudan da, həqiqi sənətkar xüsusiyyətidir.

Əli Kərim az bir ömür sürdü, lakin indi onun qoyub getdiyi irsə baxanda təəccüb eləyirsən ki, az müddətdə nə qədər böyük, nə qədər geniş sahədə fəaliyyət göstərmək olar. Onun şeirlərində nə müəyyən mövzuya bağlılıq və onun çərçivəsində qalmaq, nə bir formanı, ancaq onu tapıb, onu tutub davam etmək vardır. Onun yaradıcılığı son dərəcə geniş və mürəkkəbdir. Çox maraqlıdır ki, Əli Kərimin vəfatından sonra onun əvvəllər yazmış olduğu şeirlərindən iki-üç qat artıq çap olunmamış şeirləri ortaya çıxdı. Bu da onu göstərirdi ki, Əli çap olunmaq, məşhur olmaq, tanınmaq üçün yazmırdı. O, daxili bir ehtiyac hissi ilə yazıb-yaradırdı və çox zaman da yazdığı şeirlərin tənqidçisi özü olurdu və bəzilərini bir tərəfə qoyurdu, get-gedə daha yaxşısını yazırdı, pillə-pillə sənətkarlıq yolunda qalxırdı.

Əli Kərim böyük bir irs qoyub getmişdir. Çox təəssüf ki, biz bu gün ona irs deyirik. Ancaq o bu şeirləri, bu əsərləri ilə bu gün də yaşayır. Mən Əli Kərim haqqında danışanda keçmiş zaman formasına müraciət eləmək istəmirəm. Çünki o, canlı şair kimi, insan kimi bu gün də yaşayır. Əgər şairin yaşamağı, varlığı onun sənəti ilə, onun əsərləri

ilə ölçülürsə, onunla müəyyən olunursa, deməli, Əli vəfat eləməmişdir, Əli sağdır, Əli bu gün də bizim sıramızdadır.

Əli şeirləri ilə bərabər, üç gözəl oğul da qoyub getmişdir. Onun Azəri Moskvada, darülfünunda oxuyur və çətin bir sahədə, dəqiq elmlər sahəsində çox uğurla təhsilini davam etdirir. Onun oğlu Paşa şeir yazır. Onun da şeirləri orijinaldır, nə atasına oxşayır, nə başqalarına. Ancaq az yazılmış bu şeirlərdə onun da şair olduğu hiss olunur. Kiçik oğlu Orxan isə orta məktəbdə oxuyur.

Əli Kərim bir sadiq ömür yoldaşı da qoyub getmişdir ki, o, balalarını yetişdirmək, böyütmək işində çox fədakar bir qadındır.

Nəhayət, Əli Kərimin xatirəsini yad eləyərkən, deməliyəm, o, elə bir insan, elə bir şair idi ki, mən gəncləri ondan örnək götürməyə çağırıram. Əli Kərim kimi təvazökar, Əli Kərim kimi dərin düşüncəli, Əli Kərim kimi əhatəli bir yaradıcılıq yolu ilə getməyi tövsiyə eləyirəm.

Bu yaxınlarda Göyçayda Əli Kərim adına parkın açılışı olacaq, orada bizim şair yoldaşlarımız iştirak eləyəcək. Mənə elə gəlir ki, televiziya və radio işçiləri, mətbuatımız bu təntənəli açılışı xəbər verəcəklər.

DUYĞULARIN İZİ İLƏ

Məmməd Araz oxuculara yaxşı tanışdır: şeirlərini oxuyurlar, əzbərləyirlər. O, artıq püxtələşmiş, yolunu, yönünü tapmış, mövzu dairəsini müəyyənləşdirmiş şairdir. Doğrudur, Məmməd Arazın mövzuları bir çərçivədə məhdudlaşıb qalmayıb. Həyatın müxtəlif səhifələri, müxtəlif bəlirləri onun yaradıcılığında poetik deyimini tapmışdır. Bütün bunları təsdiq etməklə yanaşı, deməliyəm ki, şairin əsas mövzusu kənd, kənd adamları, kənd həyatıdır.

Məmməd Arazın heca vəznində yazılmış şeirləri ilə yanaşı, yaxşı sərbəst şeirləri də vardır. Həm də bu sərbəst şeirlər surrağat deyil, ondördlüyün pillə-pillə bölünmüşü deyil (belə hallar da olur), əsil mənada sərbəst şeirdir.

Onun bir sıra lirik parçaları – təbiət gözəlliklərinə könüldən vurğun bir rəssam kimi çəkdiyi mənzərələr, lövhələr yadda qalır, oxucunu düşündürür, dəfələrlə görmüş olduğu dağları, dərələri, çəmənləri, bulaqları, könül oxşayan mənzərələri yeni "gözlə" görməyə, yeni çalarla duymağa yön verir, dönə-dönə baxdığımız, lakin görmədiyimiz rəngləri, biçimləri qarşımızda canlandırır.

Təkrar başlayan yerdə sənət qurtarır. Deyilmiş olanı bir də deməyə ehtiyac varmı – əgər bu deyim yeni bir detal, yeni bir çalarla zənginləşmir, yeni bir duyğu oyatmırsa?! M.Arazın bu baxımdan bəyənimli şeirləri az deyil. Belə şeirlərdə təkrar yox, yeni bir təsdiq var, oxucunun idrak dairəsini genişləndirən, mənəvi aləmini zənginləşdirən baxım yönü var. Şairin təbiət lirikası üçün belə şeirləri xarakterikdir. Bəzən təkrarlara da rast gəldikdə deyirik: bunlar müəyyən pillədə nəfəs dərmək, ləngimək dir.

Lakin M.Arazın yaradıcılığında tapıntılar, səmimi vurğunluq, poetik yanğı üstündür, onun əksər şeirlərinin leytmotivini təşkil edir.

Şairin başqa bir münasibətlə dediyi "Ömrümün hansı bir pilləsindəsə, geriyə qayıtmaq istəyəcəyəm" beytinin onun yaradıcılıq yoluna aid olmayacağına inanmaq üçün şeirlərini oxumaq, onların yazılış tarixinə baxmaq bəsdir.

M.Arazı – şair Arazı ən çox düşündürən insandır, onun mübarizəsi, ağlı-qaralı günləri, mürəkkəb tale yoludur. Bunu istər kiçik həcmli, istərsə də bir sıra iri həcmli əsərində görmək olar.

Onun kitablarını vərəqlədikcə mənə elə gəlir ki, şairin obrazı gözümdə get-gedə daha aydın görünür. Onun poetik varlığının uzaqdan, az tanışlıqdan yaxşı görünməyən cizgiləri aydınlaşır, müxtəlif rəngə dolur, qabarır, daha bəyənimli olur.

Elə bil ki, uzaqdan, kölgədən çıxıb yavaş-yavaş işıqlığa gələn bir adamı görürsən. Sətirlər təmkinlə, həvəslə, qürurla, nigaranlıqla yaxın bir insan qəlbinin nəğməli aləmindən xəbər verir. Bəzən bu sətirlər həvəsli, arzulu, ümidli, bəzən riqqətli, həzin, üzgün olur.

Tək-tək tutarlı obraz lüzumunda məhdud əyalət anlayışı görünən sözlərdə belə, şairin özünəməxsusluğu göz qabağındadır.

Məmmədin adi görünən, bəlkə də onun yaradıcılığında diqqətəlayiq bir hadisə olmayan bir sıra şerində də şair könlünün titrəyişini duymaq olur. Ayrı-ayrı şeirlərin sonunda qoyulmuş tarixlər şairin inkişaf yolunun məsafələri kimi bu yolun irəliyə, kamilliyə doğru tuşlanmış olduğunu göstərir.

Bu yol get-gedə artan uğurlu duyumlar, tapıntılar, dərinləşmə, arınma-durulma yoludur. Ara-sıra təsadüf edilən vəzn qırıqlığının, yerinə düşməyən sözlərin, qafiyə səliqəsizliyinin, deyim rəngsizliyinin azalması, çoxalması, sənətkarlıq cəhətdən dolğunlaşması, büllurlaşması yoludur. Yaxşıdır ki, Məmməd Arazın yaradıcılığında bu saflaşma güclü bir meyildir.

Mən belə saflaşmaya, dərinləşməyə misal olaraq, "Dağlara çağırış" şerini misal gətirməzdim. İlk oxunuşda bu şeir adamda bir maraq doğurur. Təkrar-təkrar oxuyursan, bir-birinin ardınca gələn müraciətlərdə, təşbihlərin düzülüşündə nə isə ilk tanışlıqda açılmamış şeylər axtarırsan... Lakin təəssüflə bu nəticəyə gəlməli olursan ki, burda ancaq zahiri təmtəraq, gəlişigözəl deyimlər var. Olsun ki, şair dağları etibar, dözüm, arxa rəmzi kimi vermək istəmişdir. Bu baxımdan, şerin bənzətmə yükü çox ağırdır.

Ən ağır anında dağlarla danış,
Əli loğmandır o
müdrik qoca.

Bu sətirlərdən konkret bir təsəvvür almaq mümkün deyil.

Dağlar sevgisində bir
ulu ata,
Dağlar ərköyünlər atası deyil.

Belə qeyri-müəyyən fikirlər, yerinə düşməmiş sözlər öz yaşıdlarının ilk sıralarında gedən bir şairin əsərlərində olmasa yaxşıdır.

Bu tələbi qoymağa haqqımız var. Məmməd Araz neçə-neçə uğurlu əsərin müəllifidir.

Dünənimi döşdən asan
deyiləm,
dünənimə qəbir qazan
deyiləm.
Ürəyimsiz kəlmə yazan
deyiləm.
Nə qədər ki öz əlimdir
yazanım.

"Viktor Xara oxuyur" şeri də, ordakı "təbəssümü necə ağ, səsi necə durudur" sətirləri də, "Nifrət aktı" şerindəki "silah cümlə" ifadəsi də M.Arazındır.

"Bir gecə ölümə" şerindəki bu misralar da:

Bir gecə baş-başa yatdım,
Bir gecə qoymadım işıqlar sönə.
...O görə bilmədi məni
yanında.
Bir gecə ölümü yaman aldatdım,
Ölüm kor olurmuş işıq
yananda.

– Məmməd Arazındır.

"Bir əsim küləyəm, bircə dil odam" kimi orijinal deyimlər də Məmməd Arazındır.

Bəzən qısa deyilmiş bir cümlədə olan təsir gücü fikrimizdə, zehnimizdə dərin iz buraxır. Sadəcə bir bənzətmə ilə yaranan poetik düşüncə bizə çox şey deyir.

Əl – günəş,
Qalan şey günəbaxandır.

Məşhur "İnsanı əmək yaratmışdır" fikrini bizə bir də xatırladan bu sətirlər ilk baxışda sadə, böyük məna daşımayan sözlər kimi görünə bilər. Yaxşı diqqət edin! Günəş dünyamızın bütün nemətlərinin əsasıdır. Təbiətdə nə varsa, onun işığından, hərarətindən, şüalarından qidalanır. Günəş ilk qaynaqdır. İnsan əli də həyat nemətlərinin yaranmasında, insanlığın inkişafında əvəzsiz rol oynayır. Ətrafımızda gördüyümüz bütün törəmələrdə insan əlinin qüdrəti vardır. Günəbaxan insan əlinin, şərti olaraq belə desək, insan zəhmətinin maddiləşmiş əksi, bəliri-təzahürüdür.

Bu fikir özlüyündə təzə deyil. Lakin bu fikrin poetik deyimi yeni, orijinaldır. Bu tapıntı da Məmməd Arazındır. "Qəfil" adlı şerində şair lakonik bir dil, təkidli təkrarlarla mühüm həyat səhifələrini vərəqləmişdir.

Bu torpaq əsrlər
qaranlığında
Qəfil nur dağları
dikəldib, axı!
Bu torpaq qədimlər
toranlığında
Nadan sürüsü də kökəldib,
axı.

Bu tutarlı, tutumlu sətirlər də M.Arazın qələmindən çıxmışdır. Həyat bir rəngdə, bir biçimdə deyil; dünyada çeşid-çeşid insan var. Qaranlıqda nur dağları yaradan torpaqdan nadanlar, paxıllar, özümlük azarına tutulmuş insan xırda-xuruşu, insan çürüntüsü də var.

Bu həqiqətə cild-cild kitablar da bağlamaq olar. Yuxarıda misal gətirdiyim bir neçə sətirdə bu həqiqətin bədii təsdiqini vermək olarmış.

Mən, Məmməd Arazın yaradıcılıq şakərinin kəndə, kənd həyatına daha artıq meyilli olduğunu demişdim. Bu meyil onun ancaq təbiət mənzərələrini yaddaqalan boyalarla rəsm etməsində deyil, ən çox təsvir etdiyi hadisələri, haqqında söhbət açdığı insanların obraz düzümünün, söz materialının, belə demək mümkünsə, dadında, duzundadır.

"Atamın kitabı" poeması həm də yaddaqalan, koloritli, orijinal xarakterlər yaratmaq baxımından diqqəti cəlb edir. Həyat hadisəsini bilmək azdır. Onu poeziya predmeti etməyi bacarmaq lazımdır. "Atamın kitabı" poeması buna uğurlu bir misal ola bilər. Poemanın süjeti mürəkkəbdir, çoxplanlıdır. Təəssüf ki, ədəbi tənqidimiz bu ciddi, dəyərli əsər haqqında geniş söhbət açmamışdır. Belə bir söhbətə ehtiyac var.

Poema "Birinci etiraf"la başlayır. "İkinci etiraf"la davam edir. Sonra bir-birinin ardınca fəsillər gəlir. Bu əsər çətin yollardan keçən insan taleyi haqqında incikli, göynəkli, qəzəbli, nikbin bir hekayətdir.

Poemada ağır müharibə illərinin nəfəsi ürəkləri qarsır. Xalqın dözümündən, çətin imtahan günlərindən səhifələr açır, insan sədaqətindən, dostluq sınağından, insanın insana inamından bəhs edilir. Şair:

Bəd xəbərlə açılanda
günlərin ağzı
Kəndimizə ayaq açan qara
kağızın
Tanıdığı qocalardan
biri atamdı,
Sınadığı qocalardan
biri atamdı,

– deyir. Bu ata obrazı poema boyu get-gedə açılır. Konkret bir ata, müdrik, dözümlü, ümumiləşmiş bir el ağsaqqalı olur.

Bu ata, gözləri həsrət yollarının yorğunu analara bir təsəlli, bir ümid, bir inam simvolu olmuşdur. Bir gün fəlakət onun qapısını döyəndə

onun qara kağız tutan əllərinin titrəyişi hər hansı sözdən daha aydın, daha təsirli olur.

Bir gün onun öz adına,
Öz ünvanına
Gəldi doğma
qardaşının
qara xəbəri.
O da durub
Bir qocanın qaçdı yanına
Deyəcəyi – dil demədi,
dedi əllər:
...Özü verən təsəllidən
verdilər ona;
"İnanmasın bu doğrunun
doğruluğuna".
Belə idi o zamanlar.
Bəzən yalan da
Deməliydik
bir ümidə gərək olanda.

"Haşiyə" fəslində şair təsirli, yaddaqalan dramatik bir səhnə yaratmışdır. Burda insan sədaqətinin imtahan səhnəsi qısa sətirlərdə açılır.

Ömür boyu toxum səpən əllərə yazılı bir kağız uzadıb "qol çək", – deyə tələb edənlərə, qoca – "əlli ilin qonşusuyuq, o dumdurudu!" – deyə rədd cavabı verir. Onu cinayətə, haqsızlığa sövq edənlərə "bu saqqalıma yaraşmaz, axı kişi olan böhtan işə bulaşmaz, axı!" – deyir. Bu səmimi etirafın qabağında haqsızlığını amansız səsini eşidir.

Bulaşmasa, biz özünü
bulaşdırarıq,
Öz ipini öz əliylə
dolaşdırarıq.

Bəli, bu, həyatın olmuşlar dəftərinə yazılmış dəhşətli sətirlər, acı xatirəyə dönmüş günlərin göynəyidir. Bu, həm də sadə vətən oğullarının dostluqda sədaqəti, insana sarsılmaz inamı, dözüm, mətanət

timsalıdır. Şair bədii boyalarla bir daha təsdiq edir ki, bu kimi dosta sədaqət, insana inam, həqiqət uğrunda heç bir sınaqda əyilməyən mərdliklə biz ölkəmizə üz vermiş müharibə fəlakətindən alnıaçıq, üzüağ çıxmışıq.

Poemanın "Bir qəbrin önündə" fəsli poetik sadəliyin təsir gücünə yaxşı bir misal ola bilər.

Mahmud qızının qəbrinə üz tutub sanki öz-özü ilə xatirələr dilində danışan qəhrəman, oxucunu da özü ilə bərabər sınaqlı, incikli günlərə aparır.

Qardaş getdi, oğul getdi
davaya,
Qadınların kişiliyi
başladı.
Yanğın düşdü gəlinlərin
ömrünə,
Gülüşlərin payızlığı
başladı;
Qəzəblərin səpinləri
başladı;
Nifrətlərin əkinləri
başladı;
Sınaqların çətinləri
başladı.

Bu tutumlu, amansız sətirlərdən sonra riqqətli, həzin bir həsb-hal başlayır. Bu acı həqiqətin yanıqlı misraları bizə el dastanlarını, bu sözün yüksək mənasında, xalq ağılarını xatırladır. Buradakı nəğmə nəqəratı kimi səslənən "sən yoxsan..." təkrarları, bənzətmələr, detallar həqiqi xalq yaradıcılığı ruhu ilə aşılanmışdır. Bir-birinin ardınca güclənən sətirlər bir yoxluğu, könül həmdəmi, ürək dostu, ömür yoldaşı olan bir insanın yoxluğunu təkidlə bizə xəbər verir.

Yer üzünün işığı bol –
sən yoxsan;
...Aynabəndli ev-eşiyin –
sən yoxsan;

Bir ömrün tüstüsü yox –
sən yoxsan;
Xörəyimin istisi yox –
sən yoxsan...

Bu səmimi etirafdan sonra bir üsyan səsi ucalır:

Bu yoxluğun səbəbkarı
özüməm,
Öz ömrümdən kəsib sənə
vermədim.

Yer üzərində fəlakət yaradanların, yurdları kor qoyan, insanları didərgin salan qara qüvvələrin hökmü nə qədər davam edəcək? Şair insan səadətinə qənim çıxanları yer üzündən yoxaltmaqçın "qələmlərin ucundakı qara gilə amansız qara güllə olmalıdır" – deyir. Sənət insan, insan səadəti uğrunda mübarizə silahı olmalıdır.

Poema tragik notlarla zəngin olsa da, nikbin əsərdir. Şair ömür yolumuzun çətin döngə-dolaylarını bacarıqla təsvir edir ki, bu çətinlərdən qalib çıxan insanların sadə qəhrəmanlığını, sadə qəlbini, mətanət və inamını çeşid-çeşid bədii boyalar, çalarlarla gözümüzdə, zehnimizdə canlandırsın. Bu yaradıcı zəhmətin uğurlu nəticələri şübhəsizdir.

1977

FİKRƏT QOCA HAQQINDA

Son illər Azərbaycan poeziyasına bir dəstə təzə nəfəsli, istedadlı gənc şair gəlib. Bu şeir pöhrələri arasında Fikrət Qoca ilk yerlərdən birini tutur. Bir neçə il əvvəl onun dövri mətbuatda çap olunmuş şeirləri orijinal dəst-xətti, özünəməxsus üsulu olan narahat bir şairin gəlişindən xəbər verirdi.

Sərrast göz, fəhmli adam hələ o vaxt görə bilərdi ki, bu şeirlərin müəllifi – ütülü-sığallı, standart qafiyələnmiş, ənənəvi ölçülü çərçivələrə salınmış şeirlərdən fərqli olaraq, özü ilə ədəbiyyata təzə-tər emosiyalarla yüklənmiş, dərin tutumlu poetik cərəyan gətirir.

Mən əminəm ki, Fikrət yaradıcılığının sonrakı inkişafı bu ilk təəssüratı təkrar-təkrar təsdiqləyib.

İndinin özündə bir neçə poema və onlarla şerin yaradıcısı, "Qağayı" adlı ilk şeirlər kitabının müəllifi olduğu, bir sıra şeirlərinin rus dilinə tərcümə edildiyi vaxtda – bəzən sərrast nişan ala bilməsə də, hərdən obrazları kifayət qədər təsirli olmasa da, şeirlərindəki sözlər arabir yerinə düşməsə də, Fikrət Qoca məhrəm hisslərini oxucularla bölüşməyi bacaran, orijinal, təkrarsız şair olaraq qalır və hər yeni şeri ilə irəliyə addımlayır, öz poetik bacarığını inkişaf etdirməyə davam edir.

Fikrəti, bir şair kimi, daha çox çağdaş dünyanın ən mühüm problemləri, insanların taleyi düşündürür. Onun "Anam yaman fikirlidir", "Sınaqlar", "Pəncərə", "İnsan arzuları", "Balıqçıyam" və bir sıra başqa şeirlərində sadə insanların taleyi üçün güclü bir şair narahatlığı var. Yuxularına haram qataraq çətinliklərlə oğlanlarını böyütmüş qoca ana böyük həyəcanla yeni, dəhşətli müharibənin nəfəsini hiss edir. Elə buna görə də ana özünə yer tapa bilmir. Və bu ana tək deyil, beləleri milyonlardır. Mən başa düşürəm ki, şerin məzmununu belə quru danışmağım əslində çox az şey deyir. Məlum olduğu kimi, saysız-hesabsız detal və incə çalarlardan toxunmuş poeziyanı nağıl etmək mümkün deyil. Elə buna görə də, mən əminəm ki, ciddi şəkildə desək, şeri orijinalda olduğu kimi tərcümə etmək mümkün deyil; "yaxşılaşma" ya da "pisləşmə" həmişə labüddür. Axı misradakı söz birbaşa və ya dolayısıyla mənanı ifadə etmək üçün deyil, həm də yaratdığı musiqiyə görə, nədən əvvəl, nədən sonra, hansı məqamda deyilməyinə görə vacibdir. Bu mənada Fikrət Qoca poeziyasının hələ gənc olmasına baxmayaraq, sözdən ustalıq və bacarıqla istifadə edir.

Fikrətin məhəbbətə, dostluğa, çiçəklərə, qızına və s. bu kimi mövzulara həsr olunmuş lirik şeirləri də az deyil.

Onun "Çiçəklər" şeri çox xarakterikdir. Soyuq bir gündə küləkdə üşüyən çiçəkləri görən şair onları əllərinin hərarəti ilə isitmək istəyir, ancaq əbəs yerə. Çiçəklər hər istiyə yox, bahar hərarətinə tamarzıdırlar.

Fikrətin adamı düşündürən və xatirələrə vadar edən belə şeirləri az deyil. Bu şeirləri oxuduqca insan hisslərinin qamma müxtəlifliyinin nəhayətsizliyi haqqında düşünməyə bilmirsən. Mənə elə gəlir ki, Fikrətdə düşüncə – şeirlər daha yaxşı alınır, nəinki poemaları. Hər halda Fikrət bir şair kimi kiçik şeirlərində daha güclüdür. Bəlkə də bu, onun

gəncliyindən, həyatda və poeziyada təcrübəsinin azlığından irəli gəlir. Bir də mənə elə gəlir ki, gənc şairi tematik təkrardan çəkindirmək lazımdır. Bu qınaq mövzu seçiminin formal cəhətindən daha çox, ayrı-ayrı mövzuların ifadə intonasiyasından gedir. Məlum məsələdir ki, eyni konkret hadisəni müxtəlif cür işıqlandırmaq olar.

Fikrət Qoca inkişafda olan istedadlı şairdir. O, qədim və zəngin Azərbaycan poeziyasının ənənələrindən bəhrələnərək, çağdaş dünyanın poeziyasından öyrənərək öz yolunu, öz ifadə tərzini, öz poetik dəst-xəttini arayır. Bu cəhətdən Fikrət öz poetik yaşına görə çox şeylərə nail olub. Və onun elədikləri əsas verir inamla deyəsən ki, Fikrət öz yaradıcı zəhmətilə böyük uğurlar qazanacaq və Azərbaycan poeziyasında öz görkəmli yerini tutacaq.

GENİŞ YOLLARA ÇIX!

Salon dərin sükut içində idi. Onun barmaqları pianonun ağlı-qaralı dilləri üzərində sürətlə gəzirdi. Səslər qüdrətli ahənglə axır, gah çırpına-çırpına yüksəlir, gah yorğun düşmüş qartal kimi, elə bil, qanad çalmadan süzür, enir, nəfəsini dərir, yeni qatlara yüksəlmək üçün qüvvət toplayırdı. Ortaboylu, qarayanız gənc sanki hər şeyi unutmuşdu. Onun baxışları qeyri-müəyyən nöqtəyə zillənmiş, deyərdin – fikri, diqqəti, qəlbinin bütün hiss, həyəcanı sarsılmaz bir iradəyə bağlanmışdı. Raxmaninovun qüdrət və ehtiras dolu akkordları, elə bil, yalnız telləri deyil, bütün pianonu, səhnəni titrədir, yaralı nəhəng bir quş kimi havada çırpınırdı... Piano çalan bu gəncin qəlbində təsəllisiz bir nigaranlıq, onu içəridən dalayan bir təşviş vardı.

Salonda onun yüzlərlə tanışı, dostu, qohum-əqrəbası oturmuşdu. Lakin ömrünün bu unudulmaz imtahanlı günündə hər kəsdən artıq arzuladığı, bu günü görməsini hər kəsdən artıq istədiyi adam – atası salonda yox idi, məşum bir xəstəliyin amansız pəncəsində, ölüm yatağında yatırdı.

Dillərin, tellərin ahəngi və xalların bu təntənəsində kim deyərdi ki, səhnədə qərib bir tənhalığa düşmüş kimi görünən bu gəncin qəlbində daha müxtəlif, daha zəngin duyğuların, cəsarət və bacarığın, hiss və həyəcanın yatağı var.

İllər keçdi. Bir zaman mənə belə təsir buraxmış bu gecənin xatirəsi duman arxasında qalıb, konturları silinib formasızlaşmış bir mənzərəyə çevrildi.

Bu yaxınlarda bir təsadüf bütün olanları ən kiçik təfərrüatı ilə yenidən xəyalımda canlandırdı.

...Konverti açdım. Səhifələr, səhifələr, səhifələr... Uzun, gödək sətirləri görəndə: – bu da tez-tez aldığım yaxşılı-pisli şeir silsilələrindən biridir, – deyə düşündüm.

Hər zaman belə məktublar alanda qəlbimdə ikiyönlü bir hiss oyanır. Bir tərəfdən gənclərimizin şeir kimi incə, gözəl bir sahəyə can atdıqları, həqiqi istedad sahibi olan şairürəkli adamların yetişdiyini görüb sevinirəm. Bir tərəfdən də belə məktubların əksəriyyətində, çox təəssüf ki, böyük bir əksəriyyətində həqiqi sənət alovundan məhrum olan, yalnız həvəsə düşüb nəzm düzən cavanların səmərəsiz və gələcəksiz bir işlə məşğul olduqlarına təəssüf edirəm.

...Dəqiqələr keçir, vərəqlərdən birini qoyub, o birini götürür, təkrar oxuyuram. Mümkündürmü, ilk dəfə əlinə qələm alan bir gənc belə bitkin, müasir təfəkkür və geniş müşahidələrlə zəngin şeirlər yazsın.

Mən, şeirlərini oxuduğum bu müəllifin imzasına bu vaxta qədər heç bir yerdə rast gəlməmişdim. Bəlkə o, illərdən bəri yazır, şeirləri özünü təmin etmədiyi üçün onları oxucuya təqdim etməyi lazım bilməyib, heç bir redaksiyaya göndərməyib. Əgər belədirsə, bu faktın özü təqdirəlayiqdir. Bu, gənc müəllifin yaradıcılıq işinə ciddi yanaşdığını göstərir.

Şeirlərindən biri "Dünyanın ən ağır qanteli" adlanır. Bu şeir mənə konsert gecəsini, geniş səhnədə qərib bir tənhalıqda qalmış kimi görünən, gözləri qeyri-müəyyən bir nöqtəyə zillənmiş gənci xatırlatdı. Mən bu şeirdə həmin gecənin sevinc və iztirab dolu havasını duydum. Şerin kədərli bəstəsi, şübhəsiz ki, ifadə etdiyi hadisə ilə bağlı günlərdə yaranmış, harda isə qəlbin dərinliklərinə sığınıb qalmışdır.

"Canlı allahlar" adlı şerində müəllif təcrübəli bir şair bacarığı ilə böyük ideyalar uğrunda mübarizə aparan insanların xəyal və təfəkkürün zəngin boyaları ilə bəzənmiş Olimp allahlarından nə qədər yüksək, qüvvətli, dəyərli olduqlarını poetik, təsirli, inandırıcı sətirlərlə vermişdir. Şerin qüvvəti adamda bir qürur hissi oyadır, iftixarla – "mən də insanam" – düşünürsən.

Nazim Hikmətə yazılmış şerin sonluğundakı ümumiləşdirmə özözlüyündə gözəl olduğu kimi bütün şerin məna ahəngində həlledici, yönəldici bir vurğu kimi səslənir. Bəlkə də o, hələ doğulmamış idi. Onun şeri, sənəti gələcək günlərə ünvanlanmışdı. O, yazıb-yaratdığından daha artıq yaradacaqdı.

"Nəhayətsiz yol" şerində buxarlanmış bir damlanın oyatdığı duyğular, insan ovcuna bir şeh damlası kimi düşmüş suyun həm okeanın əzəmətindən bir parça, həm də bir qızın hər gün yuyulan yeganə paltarından buxarlanan həyat qoxulu, insan ətirli bir damla olduğu nə qədər lakonik, gözəl ifadə olunmuşdur.

Əfsanəyə görə, çıraq yandırıb gündüz adam axtaran məşhur filosof Diogenin adı ilə başlanan şeir də maraqlıdır.

Şair sonda:

"Çıraq olmaq istəyirəm,
Qardaşım, hey!"

– deyə öz dostuna müraciət edir. Çıraq! Bu günün ən böyük xarüqələrini yaradan insan adı ilə bağlı bir çıraq. Elə bir çıraq ki, qaranlıqları əridir, işıq, hərarət saçır, elə bir çıraq ki, özü yanır, ətrafdakılara yaşayıb yaratmaq üçün geniş, işıqlı bir aləm yaradır. Hələ bu şeirdəki "Qardaşım hey!" ifadəsi nə qədər təbii və Azərbaycan şeir ənənəsi ilə üzvi bağlıdır. Bu, bizə "Dədə Qorqud"un "Xanım, hey" ifadəsini xatırlatmırmı?

Gənc şairin göndərdiyi şeirlərin hamısı eyni qüvvədə deyil. Bu da təbiidir. Onun qələmi hələ bərkiməmişdir. Belə bir təşbeh yerli olarsa, deyərdim ki, o, üzməyi dörd yanı bağlı bir çarhovuzda öyrənmişdir: İndi açıq dənizə, insan dənizinə, həyat dənizinə çıxır.

Mən onun müvəffəqiyyətinə əminəm. Çünki o, oxucuların böyük əksəriyyətində məhəbbət, qayğı görəcək. Onu anlayaraq, duyaraq, sevərək öz nöqsanlarından və mümkün olan səhvlərdən qoruyaraq tənqid edəcəklərsə, nə qəm. Bu ancaq onun və şerimizin xeyrinə olar.

Uğur olsun, Vaqif.[1] Həm adınla, həm mənsub olduğun ocaqla bağlı şair adını şərəflə daşı, usanma, yorulma. Yaz, yarat!

1963

[1] Vaqif Səmədoğlu

DƏYİRMAN DƏRDİ

Dəyirmanlar, xüsusilə, kənd dəyirmanları ta qədimdən bəri ünsiyyət, bərəkət, qayğı kimi məfhumlarla bağlı olmuşdur. Həmişə yerin səthindən aşağıda qurulan cır dəyirmanlar yeknəsəq çax-çax səsi, dəyirman daşının xır-xırı ilə köhnə kəndlərimizin simvolu kimi xatirimizdə bu gün də yaşayır.

Dəyirmanlar – istər su dəyirmanı, istər od dəyirmanı – həmişə adamlı, səsli-küylü olurlar. Dəyirmanlara çox nəğmə qoşulub, dəyirmanlardan çox şirin, maraqlı, qorxulu nağıllar, hekayətlər söylənib.

Gənc Mövlud Süleymanlının təsvir etdiyi dəyirman belə dəyirmanlardan deyil. Bu özü-özlüyündə tək dəyirmandı. Povest, sadəcə, "Dəyirman" adlanır. Bu dəyirman əhvalatına "Dəyirman dərdi" adı versək, daha doğru olar. Elə bir dərd ki, müalicəsi mümkün, lakin çətin olan ictimai bir dərddir. Bu dəyirmanın prototipini axtarmaq lazım deyil. Bütün suyu-havası, bütün rəngi-çalarları ilə belə bir dəyirman yazıçı təxəyyülündən yaranmışdır. Burada yazıçı ritorik yollarla deyil, bədii obrazlar, təşbih və paralellər yolu ilə bir dəyirman havasını yarada bilmişdir. Bu, sözün konkret mənasında, dəyirman deyil. O, çoxdan öz bərəkət, ünsiyyət yuvalığını itirmiş, kənd içinə düşmüş bir ləkə, bir bəladır. Povestdə təsvir olunan hadisə adamlarda iyrənc bir fikir yaradır. Müəllif bu əsərində yaxşı və pisləri qarşıqarşıya qoymaq kimi primitiv yolla getməmişdir. Bu konkret bir oçerk deyil... Doğrudur, burada boyalar tündləşdirilmişdir. Bu da səbəbsiz deyil. Yazıçı belə bir tündləşdirmə yolu ilə bu xudmani guşəyə, burdakı iştirakçılara, onların özümlük aləminə nifrət oyatmaq istəmişdir. Bu məqsədinə çatmışdır. Povesti diqqətlə oxuyanda belə bir aləmə, həyat yollarında əmələ gəlmiş belə bir pilləkənə dərin ikrah hissi oyanır. Povestdən çıxarılacaq əsas nəticə bu ikrah hissi, onun tərbiyə qüvvətidir.

Povestdə realist təsvir lövhələri çox güclüdür. Müəllif oxucuya təqdim etdiyi səhnələri qabarıq, uzun müddət yaddaqalan rəngli lövhələrlə göstərir. Yalnız dəyirman əhlini deyil, povestin təsir gücündə mühüm yer tutan, ölümə məhkum toğluları, yaltaqlıq rəmzi iti də bacarıqla təsvir edir.

Bu obraz – fərdlər uzun müddət yaddan çıxmır.

"Səhərin belə alayarımçıq açılmasının, Ayatın alayarımçıq mürgüsünün, dəyirman daşına çəkilən bıçağın özündən də iti olan səsinin hələ bütünlükdə elə bir mənası yox idi. Bütün bu yarımçıqlığın dəyirmandan azca aralı göylüyə sancılıb ölümünü duyduğu üçün iştahsız-iştahsız son öynəsini otlayan toğlular tamamlayırdı. Dəyirmanın dörd yanında gözə nə görünürdüsə, hamısının mənası bu bir bölük toğludaydı. Bıçağın səsinin də, dəyirmanın işlənib durulmuş tüstüsünün də, göyçək kababçının duruşunun da sonluğu bu bir bölük toğludaydı. Hər şey gəlib burda qurtarırdı".

Müəllif belə bir nəticəyə gəlməkdə haqlıdır. Bu dəyirmana toplaşanları heç bir aman, heç bir ünsiyyət, heç bir insani duyğu bura gətirməmişdir. Burda hakim olan hiss, arzu, kabab, içki, harın "səxavət", yenə də kabab idi... Bu iyrənc "keyfin", namussuzluğun qurbanı toğluların ölüm növbəsində dayanmaları acı bir həqiqətin ikrah doğuran mənzərəsidir.

"Göyçək kababçı qulplu qazanların ağzını açıb qarışdırmağa başladı. Dünən kəsilən toğluların baş-ayağıydı, axşamdan bəriydi qaynayırdı. Toğluların üzlərini, başlarını qırxmışdılar, dodaqları bişib çəkildiyindən çoxu "gülürdü". Qaynadığı qazana gülürdü, göyçək kababçının göyçəkliyinə gülürdü, çömçəsinə gülürdü. Qazanın ağzından görünən dəyirmana, dəyirmanın bacasından görünən göy üzünə, göy üzünün günəşinə gülürdü.

Göyçək kababçı da birdən-birə gördü ki, baş gülür, o da toğlunun başına güldü.

– Hi-hi-hi, bişdikcə gülür, ə, bu!".

Bu rəmzi gülüşlə real gülüşlər arasında real bir təzad var. Yazıçı bu gülüşləri yanaşı qoymaqla mənalı bir alleqoriya yaradır. Toğlunun "gülüşü" bu eybəcər mənzərəyə, onu yaradanlara bir töhmətdir. Acı bir "gülüşdü". Kababçının gülüşü isə bir nadan, bir yığım pul ehtirasından başqa hər bir hiss və duyğudan məhrum olan bir harının hərzə gülüşüdür. Müəllif deyir: "Kababçı üçün də, dəyirmançı üçün də, yeyənlər üçün də, yedirənlər üçün də nə qoyunlar anaydı, nə toğlular bala. Qoyunlar da, toğlular da ətiydilər, qabırğa kababıydılar, tikəydilər".

İnsanlar qoyunun südündən, yunundan, dərisindən, ətindən də istifadə edirlər və edəcəklər. Yazıçının toğluların bu taleyinə acıması mövcud olan həqiqəti, zərurəti inkar etmək üçün deyil. O, bədii boyalar, orijinal təşbihlərlə, mənasız qırğın, bayağı eyş-işrət məclisində tələf olan canlıların məhvi əleyhinədir.

Povestdəki bir detal belə qırğının, belə harınlığın ölçüsünü inandırıcı göstərir. Kəsilib yeyilmiş ətləri itlərə atırlar. İtlər bu ətləri yemir. İtlər o qədər ət yemişlər ki, artıq onlar yeməkdən qaçırlar.

İtlərin belə harınlığına, bayağı toxluğuna povestin başlanğıcında da işarə vardır.

Bu, əxlaq pozğunluğunun kiçik bir səhnəsidir. Lakin dəyirman əhli belə düşünmür. Onların özlərinə məxsus fəlsəfəcikləri var. Onlar deyir:

– Ey toğlu, çöldə canavar yeyincə, evdə qazanda biş. Canavarı kökəldincə, adamları kökəlt. Kabab ol, qoy üstündə sağlıq deyilsin. Canavar ruhunu yeməzdi, amma dəyirmanda ruhunu da yeyəcəklər.

"Dəyirman dərdinin" başqa bir səhnəsi də insanı sarsıdır. Həmin epizodda müəllifin qələmi qibtə oyandıran bir apofeoza yüksəlir. Həqiqi bir rəssam fırçası, bədii bir gərginlik, dolğunluqla yaradılmış bu səhnə povestin ən təsirli, ən kamil səhnələrindəndir. Mən bu epizodu bütünlüklə burda göstərməyi, povestin bəyənimli təsiri, təsdiqi üçün bütünlüklə köçürməyi lazım bildim.

"Ayat toğlulardan ikisini ayırdı. Dəyirmançı əlini açıb ovcunu toğlulara sarı uzatdı:

– Irrəh!

Bu nəydi? Belə də ölüməmi çağırallar? Belə ota çağırallar. Paya çağırallar. Yəqin duz var kişinin ovcunda. Qara gözlü toğlu xırdalaya-xırdalaya yüyürdü, ağzını kişinin ovcuna soxdu. Kişinin ovcu birdən-birə canavar oldu. Canavar olmuş ovuc toğlunu yıxdı, boğazının tükünü yumşaqca-yumşaqca daradı. "Irrəh!". Qara gözlü toğlunun boğazına od düşdü, rahat-rahat soyudu. Damarının qanı ləzzətlə axıb boşaldı. O biri toğluların qanı bir çökəyə yığışmışdı. Qara gözlü toğlunun qanı da qarışdı. Qan çökəkdən axıb süzülə-süzülə dəyirmanın altından keçən arxa töküldü, xınalana-xınalana axdı. Kababçı qapıya söykənmişdi.

– Bunun əti dadlı olacaq, – dedi, – özü gəldi bıçağa.

Telli qarı su doldururdu, səsi kəndi başına götürdü:

– Qanı suya tökmə, a qanına bələn! A qanın daşlara dağılsın. A yediyin qan-irin olsun, burnundan gəlsin!

Dəyirmançı belini düzəldib, Telli qarıya baxdı:

– Ağzı açıldı qart qancığın.

Tellinin səsi gəldi:

– Kimin qarnını doyduracaqsan, a bayquş? Gül kimi qızını saxlaya bilmədin? Çöllərə salıb, ellərə yem elədin. (Povest boyunca ayrı-ayrı

tiplərin kimliyini, bioqrafiyasını belə-belə kiçik replikalardan öyrənirik. Bu da müəllifin özünəməxsus yazı manerasıdır. – *R.R.*) Qanı suya tökmə, a bu suyun ağırlığı, uğurluğu üstünə tökülsün!

Kişi hirslə əlini dizinə vurdu:

– Lənət sənə kor şeytan!

Küçüklər qarıya sarı hürdülər. Ayat daş götürüb qarını yalamaladı. Qarı özü boyda oda döndü.

– Ey, yetim, gəlib bağanağını ayırram, ha! Bir bu ortalıq malına bax, aaz!

Dəyirmanın balaca arxı rəngini dəyişə-dəyişə, deşilmiş damar kimi qanlana-qanlana kəndin içinə sarı axırdı. Toğluların qanı balıqları qovurdu.

Balaca arxda minlərnən, milyonlarnan canlı var idi ki, qorxu-hürkü içində qaçıb qurtulmağa çalışırdılar. Sudakı bu bulanlığı görüb qurbağalar quruya çıxdılar. Balaca kənd uşaqları kimi daşların, kəsəklərin arasından baxışdılar...

Qan Telli qarının qapısından keçib həyətləri dolana-dolana gedirdi. Temirin anası Güllü arvad da bir az aşağıda paltar yuyurdu.

– Boy, boy, – dedi, – uşağın paltarını qana batırdım. Qanına bələn, ay dəyirmançı. Bir damcı suyumuz var, niyə qana döndərdin, a qan içən? A su deyə-deyə qal, yuyulmamış get o dünyaya!"

Bu qanlı suyun təsviri "dəyirman dərdinin" mahir bir qələmlə çəkilmiş bədii lövhəsidir.

Güllü qarının – mömin kəndli qadının üsyankar küfrü, əyyaşlığa qapılmış Temirin faciəsi də bu mənzərənin mahiyyətini tamamlayır.

"Güllü arvad qanlı paltarları daşa çırpdı. Başını qaldırıb oğlunun göyə çalan üzünə baxdı.

– Hə, yüyür! Budu bax, çaya qan tökub xəbər göndəriblər, səni çağırıllar. Yüyür, sonra qalmaz sənə. Allah qan-irin eləsin yığdığını, a dəyirmançı!

Bu dedikləri Güllü arvadın ürəyini soyutmadı, üzünü Allaha tutub, əllərini göyə qaldırdı:

– Yoxsan, yoox! Dərgahın dağılsın, yoxsan! Ağzım əyilsə də deyəcəm, yoxsan! İtdər yedi dünyanı, niyə eşitmirsən, a kar ol..!"

"...Temir müəllimin mədəsi dilənçi ovcu kimi açılmışdı. Başına arağın tamı damcılayırdı". Güllünün bu təzadlı psixoloji əhvalı: həm inanıb pənah gətirməsi, həm də üsyanlı, qəzəbli küfrü: Temirin keçirdiyi acınacaqlı hal, bizi bir daha "dəyirman dərdinin" varlığına, onun mənəvi təsirinə inandırır. Bu, dəyirman dərdinin bircə anıdır, amma ciddi ictimai problem olduğuna görə onunla mübarizə vacibdir. Həm də bu çağırış ritorik deyil, dərin bədii boyalarla yaradılmışdır. İçkiyə, bayağı keyfə, qarın əmrinə uymağın necə miskinlik yaratdığı görünür.

Bu həqiqəti təsdiq edən səhnələr povestdə az deyil. Gülünü də "araq əydi". Temirin əxlaqi dönüşü yavaş-yavaş başlayır. Çətin iradə sınağından, gərgin psixoloji tərəddüdlərdən keçir.

Temir, yarı real, yarı qeyri-real, gah daxili dialoq, gah sayıqlamaqla durulmağa başlayır. Qoca anasının "Bir də içsən saçlarımı kəsəcəyəm" təhdidi onun beyninə sancılıb qalır. Dəyirman əhlinin hər tərəfdən təkidlərinə boyun əyməməkdə ananın hədəsi bir dayaq olur.

Ümumiyyətlə, povestdə qadınların dəyirman dərdindən nə qədər nigarançılıqlar çəkdiyini görürük, onlar qarğış, hədə, qorxu, nifrin, söyüşlərlə bu bəlaya qarşı mübarizə aparırlar.

Bəzən soruşurlar: – Belə bir dəyirmanı yazıçı harda görmüşdür? Buna mən cavab verərdim: – Çox yerdə. Yalnız bir qeydlə ki, bu dəyirman əhvalatına belə toplu halda deyil, ayrı-ayrı detallar şəklində rast gəlinir. Bu səhnələr real həyat parçalarıdır. Bu kimi epizodlara, təəssüf ki, bu günümüzdə də təsadüf olunur. Povestdə hadisələr bir köhnə dəyirmanda – tozu qurumuş, dəyirman daşı torpağa girmiş, keçmiş bərəkət, el dayağı mahiyyətini itirmiş yerdə cərəyan edir. Təsadüfi deyil ki, müəllif dəyirmanın dəyirmanlığından çıxmış, köhnəlib çürümüş olduğunu yalnız qurumuş, çatlamış işə yaramaz novda, gərəksizləşmiş dəyirman daşında yox, bu mühitdəki "əhalinin" hərəkət və istəklərinin, yaşamaq ideallarının çürüməsində də görür.

"Dəyirman" povestinin əsas personajları kimlərdir. Dəyirmançı, "Dava vaxtı bir ovuc unu bir ovuc qızıla dəyişən" yığmaçı pul hərisi. Qızıldiş cavanlar – həyatın mənasını kababda, içkidə görən insan törtöküntüləri.

Qarınqulu kök kişi. Əlləri pulla oynayan harınlar. İradəsiz Temir, zavallı uşaq Ayat. Oğlunun fəlakətini gördükcə Allaha üsyan eləyən, nəhayət, göz yaşı, yanıqlı fəryadı ilə oğlunu yaman yoldan qaytaran ana. Məclislərdən pay ala-ala insanlıq sifətini itirmiş Güllü. Pul qulu Göyçək kababçı. Qulağı zəfəranlı sarı Qasım, Aradüzəldən Qaqaş Mansır və sairə və sairə... Bir də ölüm növbəsini gözləyən qoyunlar – toğlular.

Bu necə dəyirmandı? "...Novu hələ durudu. Amma susuzluqdan quruyub çatlamış boğaz kimidir, otuz ildən çoxuydu su istəyirdi. Suyu soğrulmuş çayın yatağı qaralmışdı, od düşüb yanmışa oxşayırdı. Su olmadığından nəmlənib ətlənmiş çay daşları çil basmış ölü balıqlara oxşayırdı.

Bu, fırlanım deyin yanan, yarıyacan torpağa girmiş dəyirman daşı, susuzluqdan quruyub çat-çat olmuş, çayın od düşüb yanmışa oxşayan qaralmış susuz yatağı, çil basmış ölü balıqlara oxşayan çay daşları qəribə bir dəyirman tarixçəsi idi".

Bu tarixçə kababxanaya çevrilmiş dəyirmanın keçmişindən, gəlhagəlindən, insanlara gərəkli olduğu günlərdən xəbər verir.

Səmərəli zəhmətlə, işlə dolu olan günün dincəliş fasilələrində yemək, içmək, mahnıya qulaq asmaq, mündəricəli söhbət, deyib, gülməklə məşğul olmaq öz-özlüyündə təbiidir.

Lakin bu istirahət, içki aludəçiliyi, qarınqululuğa, hərzəliyə, vaxtı öldürməyə, şərab, kef düşkünlüyünə çevrilərsə, bu, fəlakətdir. Mövlud Süleymanlı belə bir fəlakəti, belə bir "dəyirman dərdini" qələmə almışdır. Bu dərdi yazıçı bir dəyirmanda mərkəzləşdirmişdir. Həyatda bu dəyirman dərdi orda-burda, xırda, az-çox aşkar, gizli şəkildə vardır. Təəssüf ki, vardır. Xalqın qəhməri rolunu üstünə götürüb belə dərdlərə göz yummaq nə xalqın, nə də ədəbiyyatın xeyrinədir. Müəyyən mübaliğə də belə dərdin müalicəsinə bir əlacdır. Belə "dəyirman dərdinin" təsviri güclü ikrah hissi, ritorik pisləmə, danlama, əxlaq dərsi verməklə deyil, qüvvətli, bədii tündləşdirmə, acı, realist boyalarla yaradılırsa, bunun tərbiyəvi əhəmiyyəti daha böyükdür... Süleymanlı "Dəyirman" povestini məhz belə təsirli, güclü, aydın, obrazlı dillə yazmışdır.

Müəllifə irad tutanlar bir də bunu əsas gətirirlər ki, povestdə söyüş çoxdur. Əvvəla, bədii əsərdə söyüş cirəsini kim müəyyən etmişdir? Bu söyüşlər kimin tərəfindən işlənib? Povestdə təsvir olunan dəyirmançı, kababçı və başqaları tərəfindən. Belə hallar təsvir olunan mühitin xarakterinə uyğun deyilmi? Salamov "Adə, Ağamov, köpək oğlu" deyəndə biz onun deyişmələri ilə hərəkətləri arasında bir vəhdət görmürükmü? Fadeyevin "Tarmar"ını, Şoloxovun "Oyanmış torpağını", Qantəmirin hekayələrini xatırlayın. Başqa neçə-neçə əsərdə həyat səhnələrində söyüş obrazların xarakteri ilə bağlı deyilmi? İçki düşkünü, yemək, kef çəkməyi özlərinə həyat yolu seçmiş adamlar

"Dəyirman"ın kəsif havasında "ədəbi, distilə edilmiş" ifadələrlə, incə, mərifətli dillə danışmış olsaydılar, bu təsvirin reallığına kim inanardı? Mən bu fikrə etiraz edənlərin rişxəndli səsini eşidirəm: "Demək, hərzəlik, söyüşləri təbliğ etmək lazımdır". Yox, yüz dəfə yox. Lakin belə halların bu gün bir yerdə az, bir yerdə daha artıq olduğunu necə deyirlər, "şıxım cücə danan kimi" danmaq olmaz. Həm də əsasında sağlam yazıçı mövqeyində duran müəllifin əsərində belə detalları şişirdib qamçılamaq, bunu bağışlanmaz bir cəhət saymaq, məncə, haqsızlıqdır.

"Dəyirman" povestinin zəngin, koloritli dili vardır. Təşbehlər, müqayisələr, obrazlar çox yerdə təzədir. Tapıntıdır. Yazıçının yazı manerasını, bədii gücünü, özünəməxsus deyim yolu seçdiyini göstərir. Bu təsvirlər, deyimlər, bənzətmələr yadda qalır.

"Dəyirmandan azca aralı daşa bir it bağlanmışdı. Başına nələr gələcəyini duyduğundan tüklərinə qədər göz-göz olmuşdu. Kinindən idimi, yoxsa qorxusundan idimi gözləri qabağa çıxmışdı, üzündən aralı kimi görünürdü.

Dəyirmançıyla sürücünün səsi də, elə bil, səs deyildi, daşıydı. Bu səslərnən, elə bil, iti daşa basmışdılar" (səh.13).

"Yeməyini az elə, – sürücü belə deyib güldü, – bir də istədi desin ki, mal yiyəsinə oxşayar".

Bu kiçik replika povestin lap əvvəlindən dəyirmançının xarakterini açır. Onun necə adam olduğunu göstərir. Çünki it də çox yeyib harınlamışdı.

"Dəyirmançı itə sarı getdi. İt yüz yerindən əzildi, yaltaqlana-yaltaqlana dişlərini ağardıb qırışdı (irişdi olmalıdır), bütün canı ilə yerə sərilib o üzünə-bu üzünə aşırıldı. İtin bu hərəkətlərini bircə cümlə ilə belə yozmaq olardı; "qabağında ölüm". Yaltaqlanmanın belə dürüst təsviri adamın zehnində qabarıq bir lövhə kimi yapışıb qalır.

Dəyirmanın boğuq havası, bütün ikrahedici mənzərəsi vərəq-vərəq çevrilir, açılırdı. Üç-dörd gündə dəyirman mühitinə aludə olmuş çoban məclisə gələndə ona deyirlər: "Əə, xəncərini aç!" Çobanın qısa cavabı bu mühitə, onun əhalisinə dəqiq bir xarakterizə verir. "Yox, itə umudlu ol, ağacını yerə qoyma!"

Çobanın bu təhqirli replikası cavabsız qalır. Dəyirman əhli bu sözlərin onlara aid olduğunu duyur, lakin bu xasiyyətnaməyə etiraz etməyir, susurlar. Bəlkə də belə bir damğanın sözaltı mənasını dərk edə bilmirlər.

Dəyirman əhli yeyir, içir, hətta fəlsəfələyirlər. Təsir, əks təsir və sairə haqqında dayaz-dayaz öcəşirlər. Belə çürüntü mənzərəsini görən günəş sanki bu mühitdən uzaqlaşmağa çalışır.

"...Dağların dalına elə sevinclə enməkdəydi ki, elə bil, dünya üzünə bir də çıxmayacaqdı.

Dağların, buludların kölgələri böyüdüyündən yer üzü ləkə-ləkə olmuşdu".

Dəyirman mühiti də bu ləkələrdən biri idi. Bir fərqlə ki, dağların, buludların kölgəsindən yaranan ləkələr təbii idi, bir sərinlik, dinclik havası yaradırdı. Dəyirman əhlinin yaratdığı ləkə isə bir nigarançılıq, ikrah, iyrənclik hissi doğururdu. "Dəyirmanın, balaca bacası süd əmirmiş kimi günəşin son işığını sormaqda idi. Amma bu işıqdan heç kəsin xəbəri yox idi".

"Dəyirman"da sınıq-sınıq sözlər, yarımçıq-yarımçıq cümlələr stəkan səslərinə qarışıb çiliklənirdi. Yarımçıq-yarımçıq, çeynənmiş-çeynənmiş sözlərlə namusdan danışan vardı. Əl vardı, başının üstündə pul silkələyirdi... Ciyər kababının qarasından hamı burnunun ucuna kimi ləkəli idi, amma heç kim burnunun ucundakı ləkəni görmürdü" (səh.15). Konkret, dəqiq çəkilmiş bir lövhə ki, oxucunun nifrət, ikrah hissini bir qat daha bərkidir.

Günəşin bir də çıxmayacaqmış kimi sevinc içində batması maraqlı tapıntıdır. (Adətən, bədii əsərlərdə qürub çağı kədərli, həzin təsvir olunur.)

Belə bir lövhə bədii məntiqi qüvvətləndirir. "Dəyirmanın balaca bacasının bir faraş dana iştahıyla süd əmirmiş kimi günəşin son işığını əmdiyi vaxt, əllərin pulla oynadığı, günahsızların günahlıları öpdüyü vaxt, Temir müəllimin anası Güllü arvad Allahı söyə-söyə... gəlib dəyirmanın başının üstünü kəsdi:

– Çal qurumsaq, başına yıxacağam bu xarabanı!

Dəyirmançının bıçağı özündən tez dikəldi.

– Allah eşitmir səsimi, əmcək kəsən köpəyoğlu!

– İtil burdan qancıq, qarnını cıraram indi!

...Güllü arvad sümük kimi boğazına ilişmiş qəhərini uddu, içi yuxusuz göz kimi acışdı.

– Sən elə Allahsızsan, – dedi, – səni mən tanıyıram. Yaradanın yoxdu sənin. Dava vaxtı bir ovuc unu bir ovuc qızıla dəyişirdin. İndi də belə yaralıyırsan bizi. (Dəyirmançı obrazının məntiqi inkişaf yolu belədir. – *R.R.*) Allah götürür, yer götürməyəcək, fikirləşibsənmi?

– Get, ləçər, get, bərk yapış Allahdan.

Güllü arvad deyinə-deyinə dəyirmanın qapısına sarı döndü.

– Neynim, – dedi, – adı başına dəysin Allahın, adından başqa nəyi var".

Güllü qarının Allaha qarşı üsyanı povestdə get-gedə daha da şiddətlənir. İndi isə müəllif deyir: "Günün bircə damcı işığı qalmışdı dəyirmanda, unnuğa düşüb titrəyirdi. Çoban itindən danışırdı. Güllü sədrdən danışırdı, "qızıl oğlanlar" puldan danışırdı". Dəyirmanın qapısında görünən Güllü qarı dəyirmandakıların gözünə dörd görünürdü. Ana yolunu azmış oğulu dəyirmandan çıxardı.

Sərxoşluğa qoşulmuş müəllim Temirin dönüşü burdan başlayır. Bundan sonra Temir əyyaşlar məclisinin tənqidinə, hədə-qorxusuna dözür, tərəddüdlər, şirniklər onu sınağa çəkir. Məclisdəki rəzalətləri yeni bir gözlə görən, bayaqkı əyyaş Temirin daxilində uzun müddət gizli qalan bir qəzəb, etiraz üzə çıxır. O aradüzəldən Qaqaş Mansırın yaxasından yapışır.

– Ə, tülkü, – deyir. – Kəndi bazaramı qoymusan? Yüz manatamı satdın kəndi? Tanıyırsanmı bu oğraşları, hara aparırsan?

Temirin bu gözlənilməz hərəkəti "qızıl oğlanların" əl-qolunu açır. Onlar birləşib Temiri döyür, ağız-burnunu qana bulayırlar.

Dəyirman əhvalatının sonu bədii bitkinlik, hadisələrin məntiqi inkişafı ilə inandırıcıdır. Yazıçı mənəvi iflasa uğramış adamları düşdükləri çirkab içində qoyur, yalnız dəyirman havasından dili gileyli, yanıb-yaxılan qadınların, Temirin taleyi ilə məşğul olur. Kababçı, xarakterinə uyğun olaraq, müştərilərin bu gün "qudurduğundan", gəlirin kifayət qədər olmadığından qəzəblənir. "Gəlir dünənkindən iki yüz manat azdır, – deyir. Yaxşı, mən bilirəm, neylərəm". Aşıq Rəfinin yaltaqca "buna da şükür elə!" – deməsinə daha da qəzəblənir. "Səni də qudurtdum, çörəkli elədim, – deyir. – İndi dərs verirsən mənə. Ayağını kəsərəm onda bilərsən", müəllif yazır: "Ayağının dəyirmandan kəsilməyi Aşıq Rəfinin, doğrudan da, ayağının kəsilməyi kimi ağır idi". Bu kiçik xarakteristika aşığın miskin daxili aləmini göstərir. Arvadı haqqında müxtəlif rəvayətlər gəzən "Sarı Qasımın heç nədən xəbəri yox idi. Səkkiz yaza-yaza ağzı hara düşdü, ora gedirdi. Mənim arvadımın adına söz çıxaranların anasını ağladaram. Paxıl köpəkuşağı, – deyirdi.

Temir arxada ağzının-gözünün qanını yuyurdu. Başına yığışmış adamlara:

– Eybi yoxdur, – dedi, – belə də olmalı idi".

RAMİZ RÖVŞƏN

Ramiz Rövşən ilk şeirləri, birinci kitabı ilə ədəbiyyatımızda orijinal bir səs ucaldığını xəbər verdi. Onun poetik nümunələr düzümü çoxplanlı, assosiativ, mürəkkəbdir. Bu yolda uğurları, büdrəmələri var. Bu, yaradıcılıq, tapıntı, sınaq, dözüm yoludur. Dikdir – çökəkləri hamarlanmış, tikanları təmizlənmiş yolla getmək yaradıcılıqdan daha artıq, vərdiş, oxşatmaq bacarığı, uyarlıq bacarığı tələb edir. Bu yolun yolçuları da bəzən keçəri şöhrət qazana bilir. Ayrı-ayrı hallarda tələbsiz oxuculara bəyənimli görünür. Elə adamlar da var ki, bu yolla getmək istəmir, getmirlər. Onlar yeni obrazlar, yeni deyimlər, sözün yeni məna çalarlarını, yeni duyumunu axtarır, tapırlar.

Ramiz Rövşənin bir sıra uğurlu şeirlərində onun poetik istedadının orijinal çalarları qabarıq görünür. Gənc şairin yazılarında hələlik tam özümlülük olmasa da, dərki çətin, bəzən fikir yayındıran oxşatmalara, ali məntiqə uyarlı görünməyən ilişiklərə rast gəlinsə də, onun özünə xas poetik görüm, duyum və baxımlara sadiq qaldığı bir həqiqətdir. Ərəblər deyirlər ki, "məna ari bətin hinar". Bu deyim primitiv izah edilsə, "Şairin demək istədiyi gizlin qalır" nəticəsinə gəlmək olar. Lakin bu deyimin həqiqəti başqadır. Şairin sözlərini, onun deyiminin əsas mənasını anlamaq üçün əsəri yaradan şəxsin mənəvi aləminə, daxili yaradıcılıq dünyasına bələd olmaq gərəkdir. Mənanı xarici bəlirlərdə deyil, daxili mahiyyətdə aramaq, duymaq gərəkdir. Misraları, sözləri ayrımla deyil, tam bir fikir yönünə bağlı təhlil və dərk etmək daha doğru yoldur. Gənc şairin dedikləri və demək istədikləri qüsurdan immunitetli deyil. Yüyürən yıxıla bilər. Bu büdrəmə, yıxılmalar mütləq olmadığı kimi, bunlarsız hərəkət də hər zaman, hər yerdə mütləq deyil. Əsil məsələ belə büdrəmələrin hansı hərəkət yönündə, irəliləyiş, yüksəliş, yeni yollar axtarışındamı, yoxsa yamsılamaq, yüz dəfə ölçülüb-biçilmiş, çeşnisi, ülgüsü təkrar-təkrar əldən-ələ keçmiş geri yönlü yoldamı olduğudur.

Hər kəsin bildiyi bir həqiqətdir ki, hər yenilik keçmişdən indiyə, indidən gələcəyə doğru uzanan yolda yaranmış olanların, zaman sınağından çıxmış gerçəkliklərin kənarında deyil, üstündə yaranır və yaranacaqdır. Bu da həqiqətdir ki, keçmişin ən zəngin irsi də özündən əvvəlki yığımlara əsaslanmış, bu yönə yeni artımlar calamış, onu bugünləşdirən cizgilərlə zənginləşdirmiş, yeniləşdirmişdir.

Bu ədəbi yeniləşdirmə, zənginləşdirmə, saflaşdırma prosesi olmadan inkişaf mümkün deyil.

Bu gün xalq adı ilə bağlı olan, sənət nümunələrini, adət və ənənəli maddi və mənəvi zənginlikləri – ilk əvvəl ictimai mühit havasında tək-tək insanlar yaratmışdır. Bütün bunlar zamanın axarında cilalanmış, gərəksizlər cərgədən çıxmış, gərəklilər yeni məna çalarları ilə zənginləşdirilmişdir. İnsan məfhumu xalq məfhumundan ayrı mövcud olmadığı kimi, xalq məfhumu da tək-tək insan məfhumundan ayrı deyil.

Sözlər, poetik üslublar, sənət formaları, yaradıcılıq yolları da belədir. Onlar əvvəlcə haradasa, nə zamansa bir insan tərəfindən yaranır, insanlar tərəfindən cilalandırılır, arıdılır, duruldulur. Gərəkliyi olmayanlar inkişaf yolunda aradan çıxır, insanların həyat və mübarizəsinə gərək olanlar qalır, belə demək mümkünsə, onlara xalq möhürü basılır.

Gənc şair Ramiz Rövşənin yeni şeirlərini oxuyarkən bu fikirlər, düşüncələr bir daha xəyalımda canlandı.

Ramizin poetik uğurları, onun yaradıcılığında tez-tez rast gəlinən açılmalar, tapıntılar, gözlənilməzliklərlə zəngindir. Əgər belə bir bənzətmə təbii görünərsə, deyək ki, toranlıq havada bir bağçaya girmisiniz. Orda müxtəlif gül topaları (məhz gül kolları yox, gül topaları) var. Siz bu gül topalarının cərgələrarası ilə irəlilədikcə xoş ətir duyursunuz. Pardaxlanmış, vağam olub tökülmüş gül ləçəklərini, elə bil ki, duman ardından görürsünüz. Birdən sanki günəş buludlar arasından çıxır, ətraf işıqlaşır, gözünüzün qarşısında xəyali duyum mənzərəsi deyil, real bir aləm canlanır. Bir an əvvəlki toranlıq əriyir, hər şey qabarıq, aydın görünür.

Bu bənzətməyə uyar şeirlərin bəzən axın bəndində, bəzən bitirmə sətirlərində fikir, deyimlərin məqsədi aydın görünür.

Bəlkə də bu kimi yazılara novellik forma demək olar, lakin novellada sonluq tam gözlənilməz olduğu halda, belə şeirlərin ilk sətirlərindən bir nigaranlıq, nə isə bir olacağa doğru fikir yönü duyulur.

Təbiidir ki, bu yozumlar ancaq Ramiz Rövşən yaradıcılığına xas deyil, ancaq onun şeirlərindən çıxan bir sonluq deyil.

Lakin Ramizin şeirləri belə yozumlar aləminə qısa ekskurs üçün qida verir.

Mən Ramizin şeirlərinə izah vermək, onların uğurlarını, təsir gücünü, bəyənimli olmayan sətirlərinin bəndlərini təhlil etmək fikrində

deyiləm. Bunları oxuculardan, şeir sevənlərdən, şeri duymaq, şeri dərk etmək həvəsi göstərən oxuculardan eşidək.

Bu şeirlərdən yalnız biri haqqında bir neçə söz demək gərəkdir.

Müharibə haqqında az yazılmayıb, yenə də yazılacaqdır. Müharibədən yazmaq insan taleyindən, həyatın ağlı-qaralı səhifələrini varaqlamaq, insanın mənəvi aləmindən, onun özümü, inadı, inamından yazmaq deməkdir. Müharibədən yazmaq insan adını daşımağa layiq olanlardan və bu adı ləkələyənlərdən haqq və ədaləti təqdir etmək, zülmü, əsarəti nifrətlə damğalamaq deməkdir.

Müharibədən çox yazılıb, yenə də dönə-dönə bu mövzudan yazılacaqdır. Belə yazılarda qürur hissi ilə yanaşı, kədər, göynək, qəhrəmanlıq, dözüm, hünər lövhələri ilə yanaşı, intizar, itkilərin ağrısı, qəmli duyumlar da var.

Müharibə haqqında yazmaq, daha geniş ölçüdə desək, həyat haqqında, insan haqqında yazmaqdır. Bir rəngli boya ilə real lövhələr yaratmaq əsil sənət yolu, yaradıcılıq yolu deyil.

Ramiz Rövşənin "Ağılar" silsiləsindən olan bu şeri kədərli olduğu qədər təbiidir. Bu, müharibə dövrünün ümidli, kədərli, intizarlı, inamlı günlərindən bir səhifədir.

Ramiz yazır:

Bulud gəldi göy başına,
Dedim, ana, döy başına.

İlk baxışda "göy başına" deyimi xoşa gəlməyə bilər. Biz göy üzünə demişik. Lakin diqqət verdikdə məhz belə, "göy başına" həm fikri dəqiqlik, həm də ondan sonra gələn sətirlə bağlılıq baxımından məhz belə olmalıdır.

Bu bulud fəlakət buludu, təhlükə buludu, incikli günlər bulududur. O, yan keçməyəcək, üfüqdə deyil, göy başındadır. Həm də bu elə qara bir buluddur ki, neçə-neçə ana yanıqlı göz yaşı tökəcək, başına döyəcəkdir.

Gedər-gəlməz yollar neçə-neçə vətən oğlunun izini yedi, lakin qalanlar onların sözlərini unutmadı. Burada bir meyil şairi aldadıcı yola sala bilərdi. Gedənlərin nə dediklərini yazmaqla ritorik bir aydınlıq yarada bilərdi. Bununla da şeri korlanmış olardı. Ramiz oxucuya

– onun idrak qabiliyyətinə, fantaziyasına inanır. Bu "unudulmayan sözlərin" assosiasiyasını oxucuya etibar edir. Bu sözlər anaların könlündə, qəlbində hicran dadı verirsə, onların səmimiyyəti, ümidli, inamlı dəyəri aydındır. Oxucunun düşünmək, anlamaq, duymaq bacarığına inanmayanda sənət nümunəsi əvəzinə sözün, fikrin, obrazın bayağı kövşəyi yaranır.

Həmişə gülən ağız ayrıq qalar demişlər. Bu – gülüşü inkar deyil, ona hörmətdir. Bu, ölçü hissini, gərəkliyi duya bilməmək, həyat mənzərəsini bir rənglə boyayıb zövq, həvəs, könül çırpıntısı əvəzinə, bezinti, vaxta təəssüf yaratmaq, əsnək doğurmaqdır.

1976

MÜNDƏRİCAT

Avtobioqrafiya 7
Poeziya zəhmət və ilhamdır 33
Azərbaycan dilinin bugünkü vəziyyəti və gələcək vəzifələri haqqında 35
Mülahizələr 46
Sessiyada çıxış 52
Azərbaycan Ali Sovetinin sessiyalarında çıxışlarından 59
Teleqram 60
O gün – bu gün 61
Əziz xatirələr 64
Foto – xatirələr 70
Ötən günlər 72
Milli şüur və milli iftixar 77
Gözəl dost 80
Uzaq ellərin yaxın töhfələri 84
Müqəddimə 105
Sağ ol, professor 111
Mirəli Seyidovun "Azərbaycan-erməni ədəbi əlaqələri (ta qədimdən tutmuş XVIII əsrin sonuna qədər)" adlı doktorluq əsəri haqqında rəy 117
Yüksək eşqin böyük heykəli 118
Cahana sığmayan şairin qərib məzarı 123
Böyük şair haqqında qeydlər 128
İftixarımız 133
Yeni azərbaycan ədəbiyyatının banisi 135
Onun qəlbi 145
O bizim sıralarımızdadır 148
Minlərlə könüldə təəssüfü qaldı 152
O, sadə insan idi 155
Qələbəni təbrik edirəm, Nazim! 158
Canlı Nazim 163
Xalqımın doğma oğlu 164

Xatirələr dəftərindən 165
Torpaq kimi səxavətli 170
Müşfiqi unutmaq olmaz 173
Azəri xalqının sevimli şairi 177
Müşfiq... Müşfiq... 180
Sabit Rəhman haqqında 183
Dostumuz, qardaşımız 184
Süleyman Rüstəmin qəzəlləri haqqında 186
Bəxtiyar Vahabzadə 192
Bəxtiyarlıq 192
Oxuyun, məsləhət görürük 193
Həsrət, ümid, inam nəğmələri 194
Sadə və böyük insan (*Xatirələr dəftərindən*) 197
Xalqın "Arşın mal alan"ı 202
Sənətkar dostum 204
Bülbül 205
Böyük bəstəkar haqqında kiçik qeydlər 209
Qələbə yolları ilə (*Yazıçının qeyd dəftərindən*) 213
Musiqimizin prinsipial qələbəsi 220
Belə oğlu olan xalq xoşbəxtdir 221
Fikrət Əmirov haqqında 223
Rənglər şairi 226
Sən xoşbəxtsən, qardaşım! 227
Dostum Tahir Salahov 229
Şair Əli Kərim 231
Əli Kərim haqqında söz 235
Duyğuların izi ilə 237
Fikrət Qoca haqqında 244
Geniş yollara çıx! 246
Dəyirman dərdi 249
Ramiz Rövşən 258

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəvan Mürsəlov*

Korrektor: *Fəridə Səmədova*

Yığılmağa verilmişdir 16.12.2004. Çapa imzalanmışdır 29.06.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 16,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 173.

Kitab "Şərq-Qərb" mətbəəsində çap olunmuşdur.
Bakı, Aşıq Ələsgər küç., 17.